




ekitab.ucoz.org

# Elxan Elatlı

# BAKIDAN GƏLƏN XƏFİYYƏ roman

# BAKIDAN GƏLƏN XƏFİYYƏ

Bu kitab Azərbaycan milli detektivinin ən gözəl nümunələrindən biridir. Rusiyanın kiçik şəhərində baş vermiş sirli cinayətdə bir Azərbaycan türkü ittiham edilir. Bununla əlaqədar həmin şəhərdə milli ədavət qızışır. Nahaqdan təqib olunan, incidilən Azərbaycan türkləri çarəsiz durumda qalıb, doğma dövlətlərindən kömək istəyirlər. Azərbaycan baş vermiş cinayəti araşdırıb həqiqi qatili tapmaq və bununla yaranmaqda olan milli ədavətə son qoymaq üçün məşhur cinayət-axtarış eksperti polkovnik Qanbay Qasımlını həmin şəhərə göndərir...

Elxan Elatlı. BAKIDAN GƏLƏN XƏFİYYƏ
Bakı, Qanun Nəşriyyatı, 2015,
Korrektor: Ceyran Abbasova Qanun Nəşriyyatı
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pros., 76 Ten.: (+994 12) 431-16-62; 431-38-18 Mobil: (+994 55)212 42 37 e-mail: info@qanun.az www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing ISBN 978-9952-36-058-5 Qanun Nəşriyyatı, 2015 ©
© E.Elatlı, 2015



ekitab.ucoz.org

# Proloq

Uzaq Sibirin kiçik və sakit şəhərlərindən biri...

Amma üç-dörd gün idi ki, buranın sakitliyi pozulmuşdu. Tində-bucaqda qorxulu söz-söhbətlər dolaşırdı. Adamlar ardıcıl olaraq törədilmiş müəmmalı cinayətlərdən danışırdılar. Şəhərdə yaşayan azərbaycanlılar gecələr narahat yatır, gündüzlər isə qorxudan küçəyə çıxmağa ehtiyat edirdilər...

Onlar isə baş vermiş xoşagəlməz olaylar barədə heç nə eşitməmişdilər. Nə şəhərin ən varlı iş adamı Pavel Serafimova sui-qəsd təşkil edilməsindən, nə də onun sürücüsü, miliiyyətcə erməni olan Radikin öldürülüb Katun çayının sahilinə atılmağından xəbərləri yox idi.

Bir ilə yaxın olardı Azərbaycandan gəldikləri. Məqsədləri də yalnız işləyib pul qazanmaq idi. Əsasən, dəri alveri ilə məşğul olurdular. Ən ucqar kəndləri gəzib qoyun-maral dərisi toplayır, onları şəhərə gətirərək dəri emalı sexlərinə satırdılar.

Bir həftəyə əziyyətlə topladıqları malı yenicə təhvil vermişdilər. Yorğun halda səki ilə addımlayır, nahar etmək üçün ucuz bir kafe axtarırdılar.

- Yeməkdən sonra gərək hamama gedəm. - Onlardan biri astadan dilləndi.

- Hə, mən də lap it günündəyəm. - Yoldaşı onun sözünü təsdiq edib boynunu qaşıdı.

İyun günəşi havanı isitsə də hələ qızmar yay girməmişdi. Yaxşı gəzməli hava idi. Amma bu iki azəri gənci indi daha çox qarınlarını doydurmaq və yuyunub dincəlmək barədə düşünürdülər.



ekitab.ucoz.org

Bir parkın yanından keçəndə təəccüblə ayaq saxladılar. Burada, bəlkə də əllidən çox gənc oğlan toplaşmışdı. Ucadan nəsə danışıb çığırışırdılar. Uğultu bütün ətrafı başına götürmüşdü. Hələ, deyəsən, əllərində daş-dəyənək də görünürdü.

Heç bir şey anlaya bilmədilər.

- Bunlar buraya nə üçün yığışıb? - biri narahat halda dilləndi.

- Bəlkə mitinqdir...
- Nə mitinq?
- Mən haradan bilim?..

Bu zaman izdihamın içindəkilərdən biri onları gördü və dəyənək tutduğu əlini irəli uzadıb vəhşi səslə bağırdı:

- Baxın! Baxın! Azərbaycanlılar!

Rus dilində danışsa da erməni ləhcəsi aydın hiss olunurdu. Hamı çevrilib onun göstərdiyi səmtə baxdı. Yalnız bircə anlıq qorxunc sükut yarandı. Bircə anlıq... Sonra izdiham birdən-birə hərəkətə gəldi. Parka toplaşmış gənclər vahiməli səslər çıxararaq bərkdən ulaşa-ulaşa azərilərə hücum etdilər. Bəzilərinin əlində ağac dəyənək, bəzilərinkində daş, bəzilərinkində nazik tros var idi.

Azərilər özlərini itirmişdilər və yerlərindən tərpənməyə heç macal da tapmadılar. Hər tərəfdən üstlərinə tökülən azğınlaşmış gənclər onları ayaqları altına salıb vurmağa başladılar. Vurduqca da qəzəblə bağırırdılar:

- Serafimovu sizinkilər öldürüblər! Rədd olun gedin bu şəhərdən!

- Radik Boskanyanı sizinkilər öldürüb!
- Siz qatilsiniz, vəhşisiniz!
- Onların qanını sizdən alacağıq!



ekitab.ucoz.org

- Ölün, it uşağı it!

Nə qədər çığırıb imdad istəsələr də, heç bir günah sahibi olmadıqlarını desələr də, onların səsi üstlərinə quzğun dəstəsi kimi tökülmüş cavanların çıxardığı, qurd ulamasına bənzər qorxunc səslərin içində eşidilməz oldu...

Bir neçə dəqiqə keçmiş polis maşınlarının güclü sirena səsləri ətrafı bürüdü. Rezin dəyənəklərlə silahlanmış polis əməkdaşları maşınlardan çıxıb izdihamı əhatəyə aldılar. Havaya bir neçə güllə atıldı. Vəziyyəti belə görən üsyançı gənclər qurbanlarını yerə sərilmiş halda buraxıb qaçmağa üz qoydular.

Polis işçiləri onların arxasınca getməkdən vaz keçib asfaltda uzanmış azərilərə yaxınlaşdılar. Qan içində olan gənclərin üz-gözü şişib əcaib hala düşmüş, paltarları cırıq-cırıq olmuşdu. Heç nə danışa bilmirdilər. Baş verənləri dərk etmədən dəhşətlə polis işçilərinə baxırdılar.

Təcili tibbi yardım maşını çağırıb yaralıları xəstəxanaya göndərdilər. Sonra isə yerə tökülmüş qanlı paltar parçalarını, atılıb qalmış daşları, dəyənəkləri yığışdırıb səkini əvvəlki görünüşünə qaytardılar.

Həmin gün bu xəbər ildırım sürətilə bütün şəhərə yayıldı. Gizlicə bir-birilə görüşən, zəngləşən azərbaycanlılar sonsuz bir həyəcanla vəziyyətdən çıxış yolu axtarırdılar. Nəhayət, deyəsən, çıxış yolu tapıldı. Bu, şəhərdəki azəri cəmiyyətinin sədri
Ədalətin təklifi idi. Bu təklifdən sonra dərin qorxu içində yaşayan azərbaycanlılarda az da olsa ümid yarandı...
Ümid isə ancaq Bakıya idi...


ekitab.ucoz.org

# Birinci fəsil

Bakı-Novosibirsk reysilə uçan təyyarə böyük və əzəmətli türk ölkəsi Qazaxıstanın ucsuz-bucaqsız düzənliklərinin üzərindən keçirdi. Sərnişinlərin bəzisi sakitcə mürgüləyir, bəzisi astadan kiminləsə söhbət edir, bəzisi əlində tutduğu şəkilli jurnalı vərəqləyirdi. Nisbətən ucadan söhbət edən iki gəncin yanında, illüminator tərəfdə əyləşmiş qaşqabaqlı adam isə gözünü pəncərədən ayırmadan yerə sərilmiş nəhəng xəritəni xatırladan ərazilərə tamaşa edirdi. Bəlkə də o, heç nəyə tamaşa etmir, sadəcə olaraq, düşünürdü. Amma hər halda, yanında əyləşmiş oğlanlar onun haqqında bu fikirdəydilər.

Qırx yaşlarında, bir qədər arıq, ciddi görkəmli bu kişi üzünü tərtəmiz qırxmış, arasında tək-tək ağ tüklər nəzərə çarpan qara saçlarını səliqə ilə yana daramışdı. Əynində qaraya çalan tünd boz rəngli kostyum, açıq boz rəngli köynək var idi. Köynəyilə uyuşan qalstuku və gözlərini örtən qara şüşəli eynək görünüşünü tamamlayıb, ona sadə, xoşagələn bir görkəm verirdi.

İlk baxışdan olduqca qaraqabaq və adamayovuşmaz təsiri bağışlayan bu adam müstəqil xəfiyyə, istefada olan polis polkovniki Qanbay Qasımlı idi.

Dünən - həftənin cümə günü onu tələsik Xarici İşlər Nazirliyinə dəvət edib Rusiyaya uçmağı xahiş etmişdilər. Rusiya Federasiyasının tərkibindəki Altay respublikasına. Sən demə, bir həftə öncə
respublikanın paytaxtı Qorno-Aitaysk şəhərində böyük bir tikinti firmasının sahibi Pavel Serafimovu azərbaycanlı Seymur Muradovun evində keçirilən qonaqlıqda



ekitab.ucoz.org

zəhərləyiblərmiş. Cinayətdə şübhəli bilinən Seymur həbs edilmişdi və polkovnik Qasımlının da əsas vəzifəsi müəmmalı hadisəni araşdırıb əsl həqiqəti üzə çıxarmaq idi.

Xarici işlər nazirinin bu xahişi, əslində, qeyri- rəsmi xahiş idi. Müstəqil xəfiyyə kimi fəaliyyət göstərən polkovnik bu xahişi qəbul etməyə də bilərdi. Hətta əvvəlcə etirazını bildirdi. Bu cinayət işi təcrübəli ekspertə o qədər də çətin və maraqlı görünməmişdi. Kim bilir, bəlkə elə, doğrudan da, Seymur zəhərləmişdi öz qonağını?.. Qasımlı o işlərə qarışmağı xoşlayırdı ki, orada başqaları bir şey edə bilməsinlər. Hadisə qaranlıq və sirli olsun.

Bir də... Qanbay Qasımlı son vaxtlar özünü heç də yaxşı hiss etmirdi. Kəskin başağrıları bir neçə il əvvəlki müalicədən sonra azalsa da, qaraciyəri ilə bağlı başqa problemlər ortaya çıxmışdı.

Amma söhbət əsnasında nazir onu da bildirdi ki, Rusiyanın bu ucqar şəhərində baş vermiş cinayətlə əlaqədar, orada yaşayan azərbaycanlılara qarşı kəskin hücumlar başlayıb. Düşmənçilik getdikcə böyüyürdü və bu, sonradan çox pis nəticələr verə bilərdi.

Beləliklə, polkovnik Qasımlı, xəstəliyinə baxmayaraq, bu gün - şənbə günü, gündüz saat 10- da Rusiyaya uçmağa razılaşmışdı. O Rusiyaya ki, orada on beş il cinayət axtarış işində işləmiş, polkovnik rütbəsində istefaya çıxıb öz vətəninə - Bakıya qayıtmışdı.

Bu ölkə, yəni Rusiya Qasımlının həm şirin, həm də acı günlərinin məkanı olmuşdu. Daha çox isə işlədiyi Moskva şəhəri və onun ətrafındakı rayonlar. Olqa adlı tatar qızı ilə burada tanış olub sevişmiş, burada evlənmişdi. Yeganə övladı Tahirə dünyaya burada göz açmışdı. Amma bu ən


ekitab.ucoz.org

əziz adamlarını elə burada da itirmişdi. İfşa edib tutduğu bandanın aradan çıxmış başçısı arvadını da, körpə qızını da mənzilindəcə qanlarına suvamışdı.

İndi illüminatordan aşağılara baxsa da, əslində, fikri o günlərdə idi. Mənzilinə daxil olub ailəsini qan içində görməsini xatırlamışdı. Bir də onların qatilini axtarıb tapmasını, tərəddüd etmədən güllə- ləməsini...

Sağ tərəfində oturmuş iki gəncin pərakəndə söhbəti onu hərdən xəyallarından ayırırdı. Gənclərin
hər ikisi azərbaycanlı idilər. Yanında oturan iyirmi beş, ondan sağdakı otuz yaşında olardı.
Söhbətlərinə adda-budda qulaq assa da, Qasımlı artıq onlar barədə müəyyən məlumata malik idi. Yanındakı Zamiq adlı oğlan Tovuz rayonundan gəlmişdi. Hiss olunurdu ki, təyyarəyə ömründə birinci dəfə minib. O biri oğlanla, yəni ata-anası cənub rayonlarından köçüb Bakıya gəlmiş Ramazan adlı oğlanla elə buradaca tanış olmuşdular. Ramazan Zamiqdən fərqli olaraq, Altayda uzun müddət olubmuş. Elə ən çox danışan da o idi. Yeni tanışının suallarına cavab verir, Altay haqqında bildiklərini danışırdı.

Qasımlı onlara diqqət yetirmək istəməsə də dediklərini eşidirdi. Amma birdən elə oldu ki,
deyilənlərə qulaq verməyə başladı. Danışan Ramazan idi:

- Deməli, Seymurla tanış deyilsən?

- Yox... - müsahibi cavab verdi. - Onun adını veriblər mənə. Deyiblər ki, yanına getsən, sənə iş verər, kömək edər. Ümumiyyətlə, onu çox tərifləyiblər mənə.

- Təriflənəsi heç bir şey yoxdur onda! - Ramazan kinayə ilə dilləndi. - Əclafın biridir! Nə olsun ki, azərbaycanlıdır, gərək, sözün düzünü deyəsən. Xeyir verən adam deyil. Hələ



ekitab.ucoz.org

firması böyüyəndən, pulu çoxalandan sonra lap qudurub. Azərbaycanlı-filan tanımır.

- Nə danışırsan?! - Zamiq təəccübləndi.

- Hə! Yaxın adamlarının çoxu ruslardır, ya da altaylar. Sənə iş lazımdırsa bizim firmaya gəl. Serafi-
movun firmasına. Bütün Altayda ən güclü tikinti firması onunkudur.

Ramazan boy-buxunlu, ağbəniz, bir qədər dolu bədənli gənc idi. Onun daxili aləmini oxumağa çalışan Qasımlı, nədənsə xoşlanmadı. Həm də onu anladı ki, bu adamın Pavel Serafimovun ölümündən xəbəri yoxdur. Və onu da anladı ki, Ramazan heç də əhəmiyyətli bir şəxs deyil işlədiyi firmada. Yoxsa, hər halda, xəbər tutardı firma sahibinin başına gələndən...

- Bəs Serafimov özü necə adamdır? - Zamiq sual verdi.

- Yaxşı adamdır. - Ramazan dedi. - Həm də şəhərdə ən varlı adam hesab olunur. Amma onu da deyim ki, əslində, onun bütün işlərini Konstantin adlı bir nəfər aparır. Bütün obyektlərə o nəzarət edir.

- Deyirsən, Seymurun yanına getməyimə dəyməz?

- Özün bilərsən, amma mən sözümü dedim.

- Əslində, - Zamiq tərəddüdlə dilləndi, - onun arvadı bizim rayonumuzdandı. Elnarə... Məni buraya göndərən adam da Elnarənin uzaq qohumudu...

Qasımlı onların üzünə baxmasa da, Ramazanın kinayəli şəkildə başını bulamasını anladı. Çünki Zamiq:

- Nədi ki? - deyə soruşdu.

-Acığın gəlməsin, həmyerlin olsa da deyəcəm. - Ramazan səsini alçaltdı. - Bilirsən nələr var onun canında? Əvvəl şirinlik göstərib özünü mənə caladı. Evləndik. Sonra



ekitab.ucoz.org

gözü düşdü həmin o Seymura, ya daha doğrusunu desəm, Seymurun puluna, ayrıldı məndən. Çox gec tanıdım onu. Mən əri ola-ola
yanımda onu müdafiə edirdi, onu məndən üstün tuturdu. İndi də... Necə kefi istədi geyinir, altında da maşın. Kim bilir, bəlkə də hər oyundan çıxır.

- Nə deyim... - Zamiq çiynini çəkdi. - Hər yerin yaxşısı da var, pisi də...

Amma deyəsən, pərt olmuşdu həmyerlisi haqqında danışılanlardan. Araya bir qədər sükut çökdü. Sonra yenə Ramazanın səsi gəldi:

- Onun qardaşı da burada yaşayır. Adı Natiqdir. Polisdə işləyir. Ancaq, insafən deyəndə, pis oğlan deyil o.

- Uşağınız var idi Elnarədən? - Zamiq soruşdu.

- Yox... - Ramazan bir az gec dilləndi. - Uşağı olmurdu... Ancaq Seymur üçün birini doğub. Yəqin müalicə olunub. Gonbul bir gədədir. Tomik adında. Donuz balasına oxşayır.

- Tomik nədi? - Zamiq təəccübləndi.

- Tamerlandı adı. Tomik deyirlər...

Qasımlı daha söhbətin onun üçün maraqlı
olmadığını görüb öz düşüncələrinə qapıldı. Həm də daxilindəki narahatlıqlar yenə baş qaldırmışdı.

İki həftə əvvəl səhhəti barədə Bakıda tanışı Ramiz həkimə danışmışdı. İxtisaslı tibb mərkəzinin baş həkimi olan Ramiz ona məsləhət görmüşdü ki, mərkəzə gəlib özünü hərtərəfli yoxlatdirsin. Sonra hələ iki dəfə zəng də vurmuşdu ona. Amma polkovnik, nədənsə, günü-günə satıb müayinəyə getməmişdi. Niyə? Nə üçün? Axı Qasımlı iradəsiz, tənbəl, ruh düşkünlüyünə qapılmış adam deyildi?!.


ekitab.ucoz.org

Bu barədə heç də az düşünməmişdi. Axırda qərara gəlmişdi ki, insanın yaşaması, sağlam olması və sağlamlıq uğrunda mübarizə aparması üçün elə
birinci növbədə yaşamaq həvəsi, yaşamaq eşqi lazımdır. Bunun üçün də gərək həyatında nədənsə zövq alasan. Nəyinsə naminə yaşayasan, nəyinsə uğrunda çarpışasan.

Bunu heç kəs bilməsə də, duymasa da, Qanbay Qasımlı, əslində, göründüyü kimi deyildi. İnsanları, xüsusilə də uşaqları çox sevirdi. Amma elə uşaqlıqdan qaraqabaq idi. Heç kəslə qaynayıb qarışmazdı. Sonra... Hələ uşaq ikən ata-anası həyatdan getdi. Daha sonra ailəsi...

Qasımlı on beş il cinayət-axtarış işində çalışdı. Çox çətin idi, çox ağır idi onun işi. Amma həyatından razı idi həmin illərdə. Çünki işini, peşəsini sevirdi. Nəyin uğrunda çalışdığını bilirdi. Sonra o faciə baş verdi. Bakıya qayıtmalı oldu. İlk illər Bakıdakı
həyatından da narazı deyildi. Kriminalistikadan əsər yazırdı. Sonra o da qurtarıb sona yetdi.

İndi isə... Qarşısına qoyduğu ciddi bir məqsədi yox idi Qasımlının. Hər hansı bir maaşlı işdə çalışmağı da ağlına gətirmirdi. Nədənsə, ona elə gəlirdi ki, daha heç kəsin tabeçiliyi altında çalışa bilməz. Ona hərdən müraciətlər olurdu, hansısa müəmmalı bir cinayətin açılması barədə. Bəzən pullu, bəzən pulsuz. İş maraqlı olanda, xoşuna gələndə qəbul edirdi. Amma nə olsun? Həmin iş də bitib sona yetirdi tezliklə. Müəmmalı cinayət də hər gün baş vermirdi ki?!

Qadınlara da xüsusi marağı yox idi. Olqadan sonra evlənməyi heç ağlına da gətirmirdi. Ona elə gəlirdi ki, heç kəs onun üçün Olqanı əvəz edə bilməz. Amma bu


ekitab.ucoz.org

yaxınlarda, evində qulluqçuluq
edən Nuranə adlı gənc qadınla az qalmışdı ki, yaxınlaşsın. Lap az qala öyrəşəcəkdi də ona. Amma birdən-birə özündən də, bu dul qadından da acığı gəldi və bir bəhanə ilə onu evdən uzaqlaşdırdı.

Təkcə qadınlarla yox, ümumiyyətlə, heç kəslə axıra qədər ünsiyyət qura bilmirdi. Xüsusilə, son vaxtlar, adamlarda olan ən kiçik nöqsan belə nəzərindən qaçmırdı və bu nöqsan həmin adamı gözündən salırdı. Uyğunlaşa bilmirdi insanlara. Belə olan halda nədən zövq alacaqdı, nəyin uğrunda yaşayacaqdı bu dünyada ki, hələ bir gedib özünü müalicə də elətdirsin, ömrünü uzatsın?..

Son vaxtlar, hərdən fikirləşirdi ki, gərək indiyə qədər əlinə düşən bütün fürsətlərdən istifadə edəydi, heç kəsə güzəştə getməyəydi, çoxlu pul, var-dövlət toplayaydı. Onda indikindən on dəfə yaxşı
yaşayardı, həyatdan əməlli-başlı bir zövq alardı. Amma onu da başa düşürdü ki, bu dediklərini eləmək üçün lazım olan sifət onda heç vaxt olmayıb və bundan sonra da olmayacaq...

Sərnişinlərə yemək paylayan sarışın qız yeməklər yığılmış arabacığı onların bərabərində saxladı. Əvvəlcə Ramazanın, sonra Zamiqin payını verdi. Qasımlı başını bulayaraq yemək payını almaqdan imtina etdi. Təyyarədə nəsə yeməkdən xoşlanmırdı. Bunu görən Ramazan ona tərəf əyilib: - Götürün, yeməsəniz, mənə verərsiniz! - dedi. Bu, bütün uçuş müddətində onun Qasımlıya ilk müraciəti idi. Nə o, nə də Zamiq ilk baxışdan qaşqabaqlı görünən bu adamla kəlmə kəsməyə cəhd göstərməmişdi.

Polkovnik, nədənsə, üz-gözünü turşudub yemək


ekitab.ucoz.org

paylayan qıza baxdı və rus dilində:

- Mümkünsə, mənə qəhvə verin! - dedi.

Sonra qəhvəni alıb təmkinlə içməyə başladı və Ramazanın ondan açıq-aşkar inciməsini hiss etsə də buna heç bir əhəmiyyət vermədi. Ramazan ilə Zamiq isə paketləri söküb iştahayla yeməyə girişdilər.

Artıq təyyarənin Novosibirsk şəhərinə çatmağına bir saatdan az vaxt qalırdı.

# İkinci fəsil

Novosibirskdə yerli vaxtla saat 15:30 idi. Elnarə hava limanının gözləmə zalında qardaşı Natiqlə yanaşı əyləşmişdi. Onlar buraya Seymurun günahsızlığını sübut etmək və beləliklə, yaranmaqda olan çox xoşagəlməz milli qarşıdurmanı aradan qaldırmaq məqsədilə doğma Azərbaycandan göndərilmiş xəfiyyəni qarşılamaq üçün gəlmişdilər.

Əlbəttə, Seymur Muradovun bacarıqlı bir advokatı var idi. Milliyyətcə altay türkü olan Adarov öz müvəkkilinin günahsızlığını sübut etmək üçün əlindən gələni etmişdi və yenə də bu yolda bacarığını əsirgəmirdi. Lakin, baş vermiş cinayət hadisəsi çox müəmmalı idi. İlk baxışdan, sanki, hər şey Seymurun əleyhinə yönəlmişdi. Pavel Serafimov Seymurun süfrəsinin başında, məxsusi onun üçün qoyulmuş zoğal şirəsindən zəhərlənmişdi. Hələ bu azmış kimi, Serafimovun sürücüsü və inanılmış adamı, həmin gün həmin qonaqlıqda iştirak etmiş Radik Boskanyanın meyiti bir gün sonra Katun çayının sahilindən tapılmışdı. Hamı baş vermiş cinayətlərdə Seymuru günahkar bilirdi. Şəhərdə azərilərə qarşı nifrət toxumları səpilməyə başlanmışdı.



ekitab.ucoz.org

Millətçi rus-erməni gənclərindən düzəlmiş bir böyük dəstə azərilərin evlərinə basqın edir, onlara xəsarət yetirirdilər. Belə bir vəziyyətdə advokat Adarovun əlindən bir şey gəlmirdi və cinayətdən keçən bir həftə ərzində vəziyyət getdikcə pisləşirdi. Nəhayət, respublikanın azəri cəmiyyəti bu barədə Bakıya məlumat verməyə məcbur olmuşdu.

Cəmiyyətin sədri Ədalət adlı oğlan Bakıdan gələcək adamı qarşılamaq üçün Novosibirskə özü gələcəkdi. Amma Elnarə çox istəyirdi ki, ərinin xilası üçün gələn qonağı özü qarşılasın. Ədalət də düşünüb, hava limanına Natiqlə Elnarənin gəlməsini məqsədə uyğun bilmişdi. Həm də belə qorxulu vaxtda şəhəri tərk edib, həmvətənlərini başsız qoymaq istəmirdi. Oradan Novosibirskə maşınla nə az, nə çox, altı-yeddi saatlıq yol var idi.

Natiq birdən ətrafına boylanıb gözləri ilə uşağı axtardı. Axtardığı oğlan asta, ləngərli hərəkətlə skamyaların arasında gəzib gözləmə zalındakı adamlara qəribə maraqla tamaşa edirdi. Onun dörd yaşı güclə olardı. Qırmızıya çalan ətli yanaqları, uzun kirpikli iri gözləri, incə, kövrək dodaqları sifətinə məzəli görkəm verirdi. Elə yerişi də məzəli idi.

Ayaqlarını elə sürüyürdü ki, sanki buzun üstündə xizəklə yeriyir.

- Tomik, bura gəl! - Natiq onu rus dilində səslədi.

Adını eşidən uşaq dönüb dayısına baxdı. Amma onun çağırışına məhəl qoymayıb, yenə də skamyaların arası ilə uzaqlaşmaqda davam etdi. Natiq ayağa qalxıb özünü ona yetirdi və qolundan tutub anasının yanına gətirdi.

- Mən dondurma istəyirəm! - oğlan narazı halda ağzını büzdü.



ekitab.ucoz.org

- Burada dondurma yoxdur, sonra alaram.

- Yalan deyirsən, orada bir oğlanın əlində gördüm. - barmağını gəldiyi yerə tərəf uzatdı.

Qollarını dizinə söykəyib üzünü əlləri ilə örtmüş Elnarə yaman qayğılı görünürdü. Başını çevirib
qəmgin halda oğluna baxdı və:

- Tomik, ağıllı ol, uzağa getmə! - dedi.

Ərinin dərdini çəkən gənc qadının fikri, deyəsən, çox uzaqlara getmişdi. Gözləri yol çəkirdi, sanki...

İki qardaş, bir bacı idilər. Ata-anaları, hələ Elna- rənin on iki yaşı olanda maşın qəzasına düşüb ölmüşdülər. O faciəli günləri xatırlayanda indi də ürəyi sızıldayırdı. Valideynləri onu oğlanlarından çox sevirdilər. Ən çox da atası. Sürücü işləyirdi. Hər gün kənddən Tovuza sərnişin aparıb-gətirirdi. Evə qayıdan kimi səsi bütün həyət-bacanı başına götürürdü:

- Hanı mənim dəli qızım?!

Elnarə evin sonbeşiyi idi. Ortancıl qardaşı Natiq hərbi xidmətini bitirən kimi Altaya gəldi. Bir həmkəndlisinin yanına. Polisdə işə düzəlib, birdəfəlik
buralı oldu. Böyük qardaşı isə evlənib ata yurduna sahib oldu.

Elnarə elə sevinmişdi ki, qardaşı evlənəndə. Bir- iki günün içində gəlinlərini bir böyük bacısı kimi sevməyə başlamışdı. Amma qardaşı arvadı insan balası deyilmiş, sən demə... Heç yola getmirdi Elnarə ilə. Yazıq qız bütün gün ərzində qulluqçu kimi onun qulluğunda dursa da yenə ağzı düzəlmirdi. Dərslərini hazırlamaqla bərabər evin bütün təmizlik, sil-süpür işlərini Elnarə görürdü. Amma yenə qədri bilinmirdi.



ekitab.ucoz.org

Geyimi də tay-tuşlarına nisbətən kasıb olurdu həmişə. Dərsdən gələndən sonra küçəyə çıxmağa ixtiyarı yox idi. Təkcə bulağa su gətirməyə gedəndə çıxırdı həyətdən. Onda da bir oğlanla, ya lap olsun qızla dayanıb bircə kəlmə söhbət eləsəydi, qiyamət qopardı. Kənddə söz gəzdirən, qeybət qıran arvad kefin istəyən qədər idi və Elnarənin heç bir hərəkəti qardaşı arvadından gizli qala bilməzdi.

Kənddə bir toy-filan olanda qardaşı arvadı özü geyinib-kecinib gedir, Elnarəni isə həyət-bacaya gözətçi qoyurdu.

- Qız uşağısan, sənin toyda nə işin var? Evdə iş-güc tökülüb qalıb, - deyirdi.

Qardaşı da arvadının sözünün qabağına söz gətirmirdi. Bir mübahisə düşəndə də arvadının tərəfini saxlayırdı. Bacısı üçün bir fərli-başlı pal- paltar da almırdı. Qız elə köhnə-külə ilə kifayətlənir, səsini içinə salıb danışmırdı.

Amma onun da ürəyində arzuları var idi. Oxuyub bir sənət sahibi olmaq, istədiyi kimi geyinib- kecinmək, demək-gülmək, sevmək-sevilmək istəyirdi. Televizorda gördüyü müasir dəblə geyinib- bəzənmiş qızlara qibtə ilə baxırdı həmişə. İstəyirdi ki, o da gördüyü bu qızlar kimi gözəl, cazibədar görünsün.

Ancaq heç özünün də xəbəri yox idi ki, qibtə ilə baxdığı bu qızların çoxundan gözəldi. Hardan xəbəri olacaqdı ki, bunu bir dəfə də üzünə deyib, qəlbini sevindirən olmamışdı. Hərdən qohum-əqrəbanın qadınları öz aralarında bunu dillərinə gətirirdilər:

- Canı ölmüşün qəşəng əndamı var. Geyiminə, sir-sifətinə əl gəzdirsə şəhər qızları əlinə su tökməyə də yaramaz.


ekitab.ucoz.org

Xarici gözəlliyi öz yerində, elə xasiyyəti də yaxşı idi. Ata-anasının sağlığındakı dilliliyi-dilavərliyi qalmasa da, hamı ilə şirin dillə danışır, mehriban rəftar edirdi. Onun bu xasiyyətini başqa cür də
qiymətləndirirdilər bəzən. Kimisi deyirdi ki, ürəyiaçıq, qəlbitəmiz uşaqdır. Kimisi isə deyirdi ki, avamdır, dünyadan xəbəri yoxdur, elə bil. Elə qardaşı da hərdən onu bu xasiyyətinin üstündə danlayır, sonra isə arvadına bərk-bərk tapşırırdı:

- Bunun üstündə həmişə gözün olsun. Kiminlə görüşür, kiminlə söhbət edir, fikir ver. Avamın biridir. Elə bilir hamının ürəyi bununku kimidir. Daha demir ki, indikilərin çoxu anasının əmcəyini kəsəndir!

Amma Elnarə heç kəsdə pis bir şey hiss etməmişdi özünə qarşı. Elə öz xasiyyəti ilə böyüdü, yetişmiş, yarlı-yaraşıqlı, boylu-buxunlu qız oldu. Orta məktəbi bitirəndə yaxşı oxumağına baxmayaraq razı olmadılar ali məktəbə imtahan verməyinə. Dedilər, Bakıda ya Gəncədə kimin var ki, oxuyanda gedib evində qalasan...

Evdəkilərlə münasibəti getdikcə pisləşirdi o vaxtlar. Ağzını açan kimi ağzından vururdu qardaşı arvadı. Hər işinə, hər sözünə qarışırdı. Hələ üstəlik, onun haqqında xoşagəlməz söz-söhbətlər də yaratmağa çalışırdı son vaxtlar.

Bəxtindən, elə oldu ki, Natiq Rusiyadan gəlib çıxdı. Bir aya yaxın ata evində qaldı və bacısına qarşı olan dözülməz münasibəti görüb onu özüylə aparacağını bildirdi. Bu xəbərə sevinən Elnarə düşünmədən razılaşdı. Təki bu ailədən, əsas da qardaşı arvadından ayrılıb gedəydi. Həm də Natiqin xətrini əvvəldən çox istəyirdi və bilirdi ki, sevimli


ekitab.ucoz.org

qardaşı yanında olsa, orada heç kəs üçün darıxıb-eləməyəcək. Beləliklə, Natiqə qoşulub buraya - Altaya gəlib çıxdı.

Gəldikləri günün səhəri Natiq bacısını Seymurun ofisinə aparıb onu öz dostu ilə tanış etdi.

- Seymur mənim ən yaxın dostumdur, - dedi. - Həm də həmyerlimizdi.

- Tovuzdandı? - Elnarə sevincək soruşdu.

- Yox, Ağsudan.

Elnarə burada, bu yad yerdə azərbaycanlı, həm də qardaşının dostu olan adamla tanışlığına, doğrudan da çox sevinirdi. Amma özündən on yaş böyük olan bu boy-buxunlu, qarayanız oğlan ilk baxışdan qıza quru və qaşqabaqlı göründü. Sanki ilk andan çəkinməyə başladı onun ciddiliyindən.

Seymur Elnarədən rus dilini bilib-bilmədiyini soruşdu. Elnarə orta məktəbdə rus dili dərslərini pis oxumamışdı. Amma bu dildə indiyədək heç kəslə danışmadığı üçün ağzını açıb bircə kəlmə deməyə
də cəsarət etmirdi. Bunu Seymura deyəndə o, mehribanlıqla gülümsədi. Amma nədənsə, Elnarəyə elə gəldi ki, bu mehribanlığın içində bir azacıq da istehza var.

Natiq də Seymur kimi subay idi, öz evində tək yaşayırdı və Seymur Elnarəyə dedi ki, evdə tək oturmasın, hər gün ofisə gəlib-getsin, rus qızlarıyla danışıb açılışsın. Yeni yaradılmış təmir-tikinti firmasının ofisi Natiqin evinin lap yaxınlığında idi. Elnarə təklifi qəbul edib yavaş-yavaş buraya ayaq açmağa başladı və Ramazanı da ilk dəfə burada gördü...

Ətrafına boylananda yenə oğlunu yanında görmədi.



ekitab.ucoz.org

Natiq bir qədər kənarda ucaboy, sarışın saçları çiyinlərinə tökülmüş bir gənclə söhbət edirdi. Gənci dərhal tanıdı. Əmirxan idi. Natiq ona zəng vurduğu
üçün bilirdi buraya gələcəyini. Ayağa qalxıb zala göz gəzdirdi. Qonşu oturacaqda əyləşmiş orta yaşlı, sağlam bədənli, burnunun və yanaqlarının qızartısından içki həvəskarı olduğu nəzərə çarpan polis polkovniki əlini zalın o biri başındakı kafeyə uzadıb:

- Oğlunuz o tərəfə getdi, - dedi.

Elnarə polkovnikə təşəkkürünü bildirib
oturacaqların arası ilə göstərilən tərəfə getdi. Oğlu kafenin girişində özündən bir-iki yaş böyük bir qız uşağı ilə söhbət edirdi. Söhbət deyəndə ki, o, rus dilində heç yaxşı danışa da bilmirdi. Azəri dilini rus dilinə qatıb ağzına gələni danışırdı. Elnarə onun əlindən tutub:

- Sənə demədim, uzağa getmə? - deyə acıqlandı.

- Ana, bu qızın adı Tanyadır. - Uşaq təzə tanışını anasına təqdim etdi.

- Yaxşı, gəl gedək!

Bayaq əyləşdikləri oturacağın yanına qayıtdılar. Polis polkovniki barmağını uşağa yelləyib gülümsədi:

- Yaman nadincsən ha?!

Oğlan, deyəsən, onu başa düşmədi. Anasına baxıb sir-sifətini qırışdırdı.

- Mən dondurma istəyirəm!

- Sən sakit ol, heç yana getmə, dayın gəlib alar.

Uşağın sifəti birdən-birə işıqlandı:

- Natiq dayı hara getdi bəs?

Elnarə:

- Əmirxan əminlə söhbət edir, - deyib oğlunu öz


ekitab.ucoz.org

yanında əyləşdirdi. - Sən sakit otur, dayın bu saat gələcək.

Natiqlə söhbət edən uzunsaçlı oğlan tatar türklərindən idi. Novosibirskdə yaşayırdı. Gənc olmasına baxmayaraq Sibirin hər yerində mərdliyi, gücü, cəsarəti ilə ad çıxartmışdı. Heç kəsdən, heç nədən qorxusu-filanı yox idi. Başına özü kimi on-on beş oğlan da toplamışdı və bəzən məhkəmənin, qanunun yoluna qoya bilmədiyi məsələləri öz ötkəmliyi, cəsarəti hesabına həll etməyi bacarırdı.

Seymurla da yaxın dost idilər. Neçə dəfə Qorno-Altayskdə, ya şəhərdən bir qədər uzaqda olan Aya kəndində Seymurun qonağı olmuşdu. Hər dəfə də yay aylarında, öz başının dəstəsi ilə gəlirdi. Aya kəndində Şamaxı uşaqlarına məxsus böyük istirahət yerləri vardı ki, burada bir həftə dincəlib geri qayıdırdılar.

İki il əvvəl Seymura böyük bir yaxşılığı dəymişdi bu tatarın. Seymur nəyə görəsə, şəhərin mərkəzində açdığı böyük tikinti materialları mağazasını özünə dost hesab etdiyi, yerli ruslardan olan Volodya adlı birinin adına yazdırmışdı. Sonra bu dostu xain çıxdı. Öz yüksək vəzifəli qohumlarına arxalanıb Seymuru tanımaq istəmədiyini bildirdi və mağazanı özününkü kimi işlətməyə başladı. Burada, sözsüz ki, onu məhkəməyə vermək də mümkün deyildi. Çarəsiz qalmış Seymur Əmirxana müraciət etdi. Təkbaşına gedib Volodyanın kabinetinə girən Əmirxan ona nə dedi, nə demədi, axır ki, bütün işlər öz yoluna qoyuldu və hər şey Seymurun öz adına keçirildi. Sonra məlum oldu ki, Əmirxan ona üç gün möhlət veribmiş. Deyibmiş ki, üç günə Seymurun yanına gedib üzr istəməsə və hər şeyi ona qaytarmasa
Katun çayına atılan meyitini bir də Kara dənizində



ekitab.ucoz.org

tapacaqlar...

Bakı-Novosibirsk təyyarəsinin yerə endiyini xəbər verdilər. Gözləmə zalında bir qədər canlanma yaransa da heç kəs ayağa qalxıb gömrük sahəsinə yaxınlaşmadı. Sadəcə olaraq, bir çoxlarının baxışları gömrük sahəsinin qapısına zilləndi. Sərnişinlər bu qapıdan hələ bir qədər sonra çıxacaqdılar.

Bu zaman Natiqlə Əmirxan da öz söhbətlərini yekunlaşdırırdılar.

- Mən sabah onsuz da gələcəkdim Altaya. - Əmirxan dedi. - Amma sən mənə zəng vurandan sonra fikrimi dəyişdim. Elə indi sizinlə gedəcəm. Uşaqlarda buradadırlar. Maşında gözləyirlər. Gedib bir həftə qalıb qayıdacam.

- Özün bil! - Natiq başını yellədi. - Amma bizdə bu saat yaman qanıqaraçılıqdır. Əməlli-başlı dəstə düzəldiblər bizimkilərə qarşı. Azərbaycanlıların əksəriyyəti heç evdən çölə çıxa bilmir.

Əmirxan üzünə tökülən uzun saçlarını əli ilə geriyə atdı:

- Bilirəm. Vəziyyət yaxşı deyil... Görək bu Bakıdan gələn detektiviniz neyləyəcək?! Mənim üçün də çox maraqlıdır.

- Görək!.. - Natiq başını astadan tərpətdi.

- Sənin öz işlərin necə gedir? Polisdə.

- O qədər də yaxşı deyil. Mənim bölmə rəisimi öldürdülər axı?! Bəlkə də eşitmisən. Eduard Soko- lovu.

- Sokolov? - Əmirxan fikrə getdi. - Bəs o özünü balkondan atmamışdı?

- Yox, canım! - Natiq kinayə ilə gülümsədi. - Sadəcə olaraq, işi o cür bağladılar. Prokurora da, müstəntiqə də sərf eləmədi dərinə getmək. Ancaq mən qəti əminəm ki, onu


ekitab.ucoz.org

öldürüblər. Müstəntiqə də, öz rəisimizə də dedim. Məni dəli hesab elədilər. Ancaq mən bu işi belə qoymayacam. Nazirliyə də yazmışam.

- Nəyinə lazımdır axı? - Əmirxan məzəmmətlə başını buladı. - Əgər sən deyən düzdürsə, o saat görünür ki, burada mafiyanın əli var. Sizin bölmə narkomaniya ilə mübarizə bölməsidir, elə deyil?

- Elədir! - Natiq təsdiq etdi.

- Görürsən? - Əmirxan əlini yellədi. - Bu işin axırı sənin üçün yaxşı olmaz.

- Bəlkə də sən düz deyirsən. - Natiq fikirli halda dilləndi. - Ancaq, Əmirxan, sən mənim xasiyyətimi az-çox bilirsən. Dostumdan ötrü canımdan da keçərəm, lazım olsa. Eduard da mənim dostum idi. Çörək kəsmişdik, bir yerdə neçə dəfə çətinliklərə düşmüşük... Bunlar hamısı öz yerində! Ən əsası odur ki, mənliyimə toxunur bu iş mənim. O cür igid oğlanı öldürürlər, sonra da adını qoyurlar ki, içib sərxoş olub, intihar edib...

Əmirxan gülüb əlini onun çiyninə vurdu:

- Yaxşı, bəsdir! Neçə ildir polisdə işləyirsən, amma elə danışırsan, elə bil, heç nə görməmisən. Mənim dediyim odur ki, bacarmayacağın işə baş qoşma! İndisə get qonağını qarşıla, mən uşaqların yanına çıxıram.

Bunu deyib Natiqdən aralanaraq gözləmə zalından çıxdı. Bir qədər onun arxasınca baxan Natiq geri dönüb bacısının yanına qayıtdı. Elnarə yenə də əllərini qoynuna qoyub dərin fikrə getmişdi.

# Üçüncü fəsil



ekitab.ucoz.org

Ramazan elə ilk görüşdə onun xoşuna gəldi. Ofisə köhnə, çirkli fəhlə paltarında, üzü tüklü gəlsə də, dilli- dilavərliyi, istiqanlılığı ilə qızın diqqətini cəlb etdi. Sir- sifəti də, boy-buxunu da, insafən, pis deyildi oğlanın. Həm də, ömründə, yaşadığı kiçik kənddən kənara çıxıb adam-insan görməmişdi axı Elnarə?! Birdən- birə gəlib belə uzaq bir yerə, yad millətin arasına düşmüşdü və Ramazan da onun burada rastlaşdığı tək-tək azərbaycanlılardan idi.

Ramazan elə həmin gün ona yaxınlaşıb:

- Sən Natiqin bacısısan? - deyə soruşdu.

Elnarə bunu təsdiq edəndə qızı söhbətə tutmağa başladı:

- Adın nədir?
- Elnarə.
- Məktəbi qurtarmısan?
- Hə! Bu il qurtarmışam.
- Xoşuna gəlir bura?
- Nə bilim... - Elnarə gülümsəyib çiynini çəkdi.

- Bir az darıxıram. Natiq də hər gün axşamacan işdə olur.

- Darıxma, öyrəşəcəksən. Burada Azərbaycandan gələnlər yüzdən çoxdur. Mən də Bakıdanam. Adım Ramazandır.

- Tovuzdan adam var burda? - Elnarə maraqla soruşdu.

- Yox! Təkcə Natiqdi, bir də sən. - Oğlan gülümsədi. - Buradakıların əksəriyyəti Cəlilabaddandır. Şamaxıdan olan da var.

Sonra onu səslədilər və qızdan aralanmağa məcbur oldu. Bir-iki gün sonra ofisə gələndə əvvəlkindən təmiz geyinmiş, üzünü təmiz qırxmışdı. Ofisin həyətində rastlaşdığı Elnarəyə bu dəfə köhnə tanışlar kimi yaxınlaşdı:

- Salam, Elnarə, necəsən?



ekitab.ucoz.org

Bayaqdan rusların arasında hərlənib, heç kəslə danışa bilməyən və darıxmağa başlayan qız onu görəndə sevindi. Ümumiyyətlə, Elnarə istənilən bir adama həddindən artıq tez uyğunlaşır, tez doğmalaşırdı. Lap yad bir adamla avtobusda yanaşı oturub bircə saatlıq yol getsəydi onda belə bir aldadıcı hiss yaranırdı ki, guya yanında əyləşmiş həmin adam avtobusdakı digər adamlarla müqayisədə ona yaxın və doğmadır. Dərindən düşünəndə özü də başa düşürdü ki, yaxşı xasiyyət
deyil bu. Hələ neçə dəfə pərt olmuşdu bu xasiyyətinin ucbatından. Elə bu şəhərə gələndən sonra, dünən... Nəyə lazım idi səkidə üz-üzə gəldiyi o qadına salam vermək? Nə var ki, bir gün qabaq onunla mağazada onca dəqiqə yanaşı dayanıb növbə gözləmişdilər. Bir-birlərinin üzünə baxmışdılar, heç danışmamışdılar da! Səhəri gün ona salam verəndə heç tanımadı da Elnarəni və qız əməlli-başlı pərt oldu.

Ramazanı görəndə isə, doğrudan da, sevinmişdi. Axı onlar daha tanış sayılırdılar. Səmimi bir təbəssümlə gülümsəyib:

- Çox sağ olun, yaxşıyam! - dedi.
- Yenə darıxırsan?
- Bir az...

Ramazan qızın bu şəhərin dəbinə uyğun olmayan qara yubka və güllü koftasına ötəri nəzər salıb:

- Sabah bir-iki nəfərlə meşəyə gəzməyə gedəcəyik. - dedi. - Gəl, sən də bizimlə gedək!

İki həftə idi buraya gəldiyi. Amma Natiq hələ də onu harasa aparmağa imkan tapmamışdı. Çox istəyirdi ki, gəzib-dolaşsın, görməli yerləri görsün. Sabah da bazar günü idi.


ekitab.ucoz.org

Amma...

- Natiq Barnaula gedib, - dedi. - Bir də iki gün sonra gələcək.

- Nə olsun ki? - Ramazan əl çəkmədi. - Natiq də bizim qardaşımızdır. Bir də... Səni buraya evdə dustaq etməyə gətirməyib ki? Gəzərsən, gözün- könlün açılar.

Elnarə artıq burada gördüyü azərbaycanlıların hamısına öz doğma adamı kimi baxırdı. Kənddə olanda belə deyildi. Hətta qonşusunun oğlu da yad idi onun üçün. Naməhrəm idi. Burada isə... Ona elə gəlirdi ki, həmyerlilərinin hamısı onun qohumu, doğmasıdır.

Bir də ki... Elnarə heç də uşaq-zad deyildi. Dörd-beş aydan sonra on səkkiz yaşı tamam olacaqdı. Bilirdi ki, buraya gəlibsə, deməli, uzun müddət, bəlkə də həmişəlik burada yaşayacaq və deməli, burada da ərə getməlidir. Ərə gedəndə də başqa millətdən olana getməyəcəkdi ki? Yəqin ki, burada yaşayan subay azərbaycanlılardan birinə gedəcəkdi. Bəlkə də elə buna... Ramazana...

Ancaq həmin anda ağlındakı bu deyildi. Ramazan bu yad yerdə onun çox az gördüyü
həmyerlilərindən biri idi, onun dilində danışırdı. Sanki qardaşı kimi görürdü həmin vaxt bu oğlanı.

- Nə bilim, vallah! - Çiynini çəkib mütərəddid halda dilləndi.

- Yox, mütləq gedərik! - Ramazan fikrini qətiləş- dirdi. - Həm də qızlarla tanış olarsan. Tanışların olmasa, deyib- danışmasan, rus dilini də öyrənə bilməyəcəksən.

- Rus dilini pis oxumamışam məktəbdə, - Elnarə istədi ki, özünü bu oğlana o qədər də avam göstərməsin.

- Deməli, danışdıq, hə? Sabah səhər saat 10- da gəlib



ekitab.ucoz.org

səni evdən götürəcəyik.

- Natiq gəlib biləndə hirslənər...

- Hirslənməz. Tək getmirsən ki? Başqa qızlar da olacaq.

Elnarə razılaşdı. Burada hər şey maraqlı idi onun üçün. Gəzmək, təzə yerlər görmək.

Səhər Natiqin evinin qabağında bir «Volqa» dayandı. Maşında Ramazandan başqa iki oğlan, iki də qız oturmuşdu. Dördü də rus idilər. Qızlar iyirmi yaşlarında, oğlanlar isə onlardan iki-üç yaş böyük olardılar.

Elnarə maşına girib arxada sıxlaşan qızların yanında oturanda Ramazan onu içəridəkilərlə tanış elədi:

- Tanış olun! Olya, Toma, Saşa, Vladik. Bu da mənim həmyerlim Elnarə!

Maşındakılar Elnarəni çox mehriban qarşıladılar. Xüsusilə də oğlanlar. Ramazan qızın üst-başına baxıb:

- Sənin nəsə bir yüngül paltarın yoxdur? - deyə soruşdu.

- Yox... - Elnarə pərt oldu.

- Axı biz meşəyə gedirik?!

Qız oğrun baxışlarla yanındakıların geyiminə nəzər saldı. İkisi də idman üslubunda yüngül, rahat paltarlar geyinmişdilər. Hətta birinin əynində balaqları dizdən olan şortik var idi.

Saşa adlandırılan oğlan sükanın arxasında oturmuş Vladikə:

- Qəşəng qızdır, hə? - dedi və Elnarə onun nə dediyini başa düşdü.

Vladik yoldaşının fikrini təsdiq etdi. Ramazan ona dedi ki, maşını yolüstü bir mağazaya sürsün, Elnarə üçün paltar alsınlar.

Mağazaya nəyə görə gəldiklərini biləndə, Elnarə etiraz


ekitab.ucoz.org

etmək istədi. Amma qızların yanında öz paltarlarından utanmışdı, artıq özünü bir qədər narahat hiss edirdi. Ona görə də özü üçün bir dəst idman geyimi alınmasına razılaşdı. Üstündə bir az pulu da var idi. Düzdür, rus rublundan hələ başı çıxmırdı, amma bilirdi ki, bu pul alınacaq geyimə kifayət edər.

Onun üçün mavi rəngli, yanlarında ağ zolaqları olan idman forması seçdilər. Pərdənin arxasına keçib utana-utana paltarını dəyişdi. Çıxanda, pərdənin önündə onu gözləyən Ramazan heyrətini gizlədə bilmədi:

- Maşallah! Nə gözəl göründün!? Bir fırlan görüm!

Elnarə qıpqırmızı qızarıb arxasını ona çevirdi. Paltar, elə bil, lap əyninə biçilmişdi. Mütənasib əndamının gözəlliyini bütün cazibədarlığı ilə üzə çıxarırdı.

Keçmişdə deyirlərmiş ki, Tanrı qadını yaradanda gözəlliyi gözlərinə, təravəti dərisinə, incəliyi burnuna, çənəsinə, şirinliyi dodaqlarına və dişlərinə verib. Bunlar hamısı öz yerində və Tanrı Elnarədən heç birini əsirgəməmişdi bunların. Amma ümumi cazibədarlıq daha çox qadının mütənasib əndamında özünü göstərirdi ki, bu da Elnarədən əsirgənməmişdi.

- Lap əla! - az qala ağzının suyu axan Ramazan dilləndi. - Çox yaraşdı sənə. Qəşəng bədən quruluşun var sənin!

Tərif qızın ürəyindən olsa da sıxıldı bu sözlərdən. Pərdənin arxasına keçib əynindən soyunduğu paltarını götürdü və koftasının cibindən pul çıxartdı. Bunu görən Ramazan cəld dilləndi:

- Pulunu vermişəm. Gəl, gedək!

- Yox, yox, özüm verəcəm! - Elnarə başını silkələdi.

- Yaxşı görək, nə böyük şeydir?! Sonra verərsən, gəl



ekitab.ucoz.org

çıxaq!

Mağazadan çıxıb maşına əyləşdilər və maşın bir azdan şəhəri arxada qoyub, enli, hamar asfalt yolla şütüməyə başladı.

Yol boyu gördüyü kəndlər, şam və ağcaqayın meşələri, yol kənarında, açıq havada fəaliyyət göstərən kafelər Elnarəyə çox maraqlı görünürdü. Maqnitofonda səslənən şən və oynaq rus mahnısı
isə gördüyü bu mənzərələrin gözəlliyini bir az da artırırdı, sanki. Bir vaxt desəydilər, inanmazdı ki, rus musiqisi ona bu qədər xoş təsir bağışlayacaq.

Amma heyif ki, yeri bir az darısqal idi. Sol tərəfdən Tomanın, sağ tərəfdən isə Ramazanın qıçları onu bərk-bərk sıxırdı və xüsusilə də Ramazanla olan təmasdan qəribə bir narahatlıq duyurdu.

Nəhayət ki, maşını Katun çayının sahilində, bir talada saxladılar. Elnarə maşından düşən kimi çaya yaxınlaşıb onun ağ rəngli, xırda köpüklü sularına tamaşa etməyə başladı. Ömründə heç belə enli çay görməmişdi. Başdan-başa meşəliklərdən ibarət olan o biri sahil çox uzaqda görünürdü.

- Nə böyük çaydır! - gəlib yanında dayanmış Ramazana dedi.

Ramazan öz təcrübəsindən qürrələnən adamlarsayağı gülümsədi:

- Sən nə görmüsən ki?! Bu hələ Ob çayının bir qoludur.

Elnarə fərəhlə ətrafına boylanıb səsləndi:

- Dünyada necə gözəl yerlər var imiş!

Ramazan güldü:

- İstəsən, tez-tez gələrik buraya.



ekitab.ucoz.org

- Sən burada olmuşdun? - Elnarə özünü elə qəribə aləmdə hiss edirdi ki, oğlana «sən» deməyin fərqinə də varmadı.

- Hə, bir-iki dəfə. - Ramazan bu gözəl yeniyetmə qızın onunla açılışmasından şad idi və özünü çox bəxtəvər hiss edirdi.

- Kiminlə?

Elnarə bunu soruşdu və özü də hiss etdi ki, Ramazanı qısqanmağa başlayıb kimlərəsə. Bunu elə Ramazan da duydu, deyəsən.

- Elə öz yoldaşiarımızla.

Bu zaman Saşa onları səslədi. Onlar artıq işə başlamışdılar. Az vaxtın içində nazik ipək parçadan düzəldilmiş bir çadırı quraşdırıb, ondan bir qədər kənarda, yaşıl otların üstündə süfrə açdılar.
Meşədən quru şam budaqları gətirib kabab bişirmək üçün tonqal qaladılar.

Meşədən çırpı gətirilməsinə kömək edən Elnarə çadırın nə üçün qurulduğunu anlaya bilmədi. Dözməyib, bunu Ramazandan soruşdu:

- Məgər biz gecəni burda qalacağıq?

- İstəmirsən? - azacıq özünü itirmiş oğlan suala sualla cavab verdi.

- Əlbəttə, yox!

- Niyə?

- Gecə burada nə işimiz var?!

- Düzdür, gecə bir az soyuq olur. - Ramazan izah etdi. - Amma çox ləzzət verir gecə çaya tamaşa etmək, - nə düşündüsə, tez də əlavə etdi: - Narahat olma, sən istəmirsənsə axşam qayıdarıq şəhərə.


ekitab.ucoz.org

Elnarə daha bir söz deməyib ondan aralandı. Tonqal yanıb közə düşmüşdü. Saşa dünəndən doğranıb, üstünə çaxır tökülmüş yumşaq qaban ətini şişlərə çəkirdi. Elnarə yaxınlaşıb, süfrəni düzəldən qızların yanında əyləşdi.

- Xoşuna gəlir? - qızlardan yaşca böyüyü olan Olya rus dilində soruşdu.

Bu, saçlarını şabalıdı rəngdə rəngləmiş, bir qədər kök, çilli bir qız idi. Elnarə onun nə dediyini
anlamadı. Olya əli ilə ətraf mənzərəni, sonra isə süfrəni göstərib:

- Yaxşıdır? - deyə sualı sadələşdirdi.

Elnarə başını tərpədib, həm də rus dilində:

- Yaxşıdır! - dedi.

- Sən Ramazanı sevirsən? - kolbasanı dilimləyib süfrəyə tökən Olya maraqla soruşdu.

Onu başa düşən Elnarə qızarıb başını buladı və astadan:

- O mənim qardaşımdır, - dedi.

- Necə yəni?.. Olya təəccübləndi və kabab bişirməkdə Saşaya kömək edən Ramazanı səslədi: - Ramazan, bu qız sənin bacındır? Bizə belə demədin axı?!

Məsələnin nə yerdə olduğunu anlayan Ramazan bir qədər gec dilləndi:

- O mənim bacım deyil, sadəcə, həmyerlimdir. Rus dilini bilmədiyi üçün fikrini düz çatdırmayıb.

Qızlar gülüşdülər və onların danışığını tam anlamayan Elnarə pərt oldu.

- Sənin heç oğlan dostun olub? - bu dəfə şıltaq görkəmli, rəfiqəsi ilə müqayisədə daha yaraşıqlı olan Toma soruşdu.

Elnarə utanıb başını yellədi. Qızlar yenə gülüşdülər.

- Sən nə danışırsan? - Olya heyrətləndi.



ekitab.ucoz.org

- Yəni bu hələ heç kəslə olmayıb? - Toma rəfiqəsinə baxdı.

- Yəqin ki! - rəfiqəsi cavab verdi. - Bunlar belədir. Ramazan danışmışdı mənə. Ərə gedənə qədər heç kəslə yaxınlıq etmirlər. Ərə gedəndən sonra da ancaq ərlərilə olurlar.

Toma qəribə bir canıyananlıqla:

- Yazıqlar! - dedi.

Elnarə onları başa düşə bilmədi. Onu maraqlandırırdı ki, görəsən, Vladik Olyanın, Saşa Tomanın nəyidir? Əri, nişanlısı, ya eləcə sevgilisi?. Bir də bu çadır fikirlərini yaman qarışdırırdı onun. Kimlər yatacaqdı bu ikinəfərlik çadırda?

Kabab hazır olan kimi hamı süfrənin başına yığışdı. Maşının maqnitofonundan musiqi sədaları yüksəlirdi. Oturduqları yerdən ətrafa geniş və cəzbedici bir mənzərə açılırdı.

Elnarə özünü az qala yuxuda hesab edirdi. Buranın havası ona tamam yad gəlirdi. Ağcaqayın ağacının qoxusu qarışmış havası. Amma təkcə havası yox, evlər də, adamlar da, geyimlər də, yeməklər də yad idi ona. Yad idi, həm də maraqlı..

Süfrəyə tökülmüş, öz kəndlərində qardaşının hərdən-birdən bişirdiyi kabab tikələrinə bənzəməyən kiçik tikələr də, kolbasa da, holland pendiri də, qırmızı kürü də... Bunların heç biri onun sevdiyi təamlar deyildi. Ancaq maraqlı idi onun üçün.

Stəkanlara araq süzüləndə Ramazan bildi ki, Elnarə içməyəcək. Ona görə də qıza qırmızı rəngli turş çaxırdan təklif etdi.



ekitab.ucoz.org

- Yox, yox, mən içə bilmərəm! - qız əvvəlcə etiraz etdi.
- Bunda spirt yoxdu ki! - Ramazan əl çəkmədi. - Ləzzətli çaxırdır, iç, iştahan açılsın.

Bu da maraqlı gəldi Elnarəyə. Sınaqdan keçirmək istədi. Ondan cəmi iki-üç yaş böyük qızlar araq içirsə, o niyə bir-iki qurtum çaxır içməsin? İçdi
və o saat üz-gözünü turşutdu. Bunu görən Ramazan əlində hazır saxladığı stəkanı ona uzatdı:

-Al iç üstündən, portağal suyudur.

Alıb içdi və çaxırın ağzında yaratdığı pis tam çəkilib getdi. Deməк, o qədər də çətin deyilmiş şərab içmək. Sonra kababdan bir tikə götürüb yeməyə başladı. Ramazan kababın donuz ətindən bişirildiyini qıza deməmişdi. Odur ki, gözaltı ona baxırdı. Elnarə tikənin birini yeyən kimi:

- Kabab necədir? - deyə soruşdu.

Əlbəttə, bu ət cavan quzunun qabırğasından
çəkilən kababın yerini verə bilməzdi. Ancaq bunu burada dilə gətirməyin nə mənası var idi? Odur ki, Elnarə:

- Yaxşıdır, yumşaqdır, - dedi.

Onsuz da bura gələndən bir dəqiqə ara vermədən deyib-gülən gənclər içdikləri arağın təsirindən indi lap şənlənmişdilər. Ayağa qalxıb, gur musiqi sədalarının altında rəqs etməyə başladılar. Artıq Elnarə də iki-üç stəkan çaxır içmişdi. Gözləri xumarlanır, beyni getdikcə dumanlanırdı. Amma buna baxmayaraq, Ramazanın onunla rəqs etmək təklifini heç cür qəbul etmədi. Eləcə, qarşısında əcaib, məzəli hərəkətlərlə rəqs edən gənclərə tamaşa edirdi. Tamaşa edirdi və bu məclis getdikcə onun xoşuna gəlməyə başlayırdı.

Arada gördü ki, Vladik yandırdığı papirosu bir dəfə



ekitab.ucoz.org

sümürüb Olyaya verdi. Olya da həmin hərəkəti təkrar edib papirosu Ramazana ötürdü. Beləliklə, Elnarədən başqa hamı papirosun dadına baxdı. Nəyə görəsə bunu Elnarəyə heç təklif də etmədilər.

Qıza elə gəlmişdi ki, onlar siqaretə qənaət edir. Amma sonra süfrədə dolu siqaret qutusunu görəndə yenə təəccübləndi, amma süfrə yoldaşlarının narkotik maddə qəbul etməsi heç ağlına da gəlmədi. Başı rəqs edənlərə elə qarışmışdı ki... Bir də ki, nə bilirdi o zəhrimarın nə olduğunu, necə qəbul edildiyini...

Heç belə süfrə, belə şən məclis görməmişdi. Kəndlərində olanda onlar da Novruz bayramında, Qurban bayramında, yeni il gecəsində yaxşı süfrə düzəldirdilər. Həmişə də plov bişirirdilər. Süfrəyə əyləşən kimi başlarını aşağı salıb qarşılarındakı boşqaba çəkilmiş plovu yeməyə başlayırdılar. Sakit, səssiz... Qardaşı hərdən özü üçün stəkana araq süzüb, «Sizin sağlığınıza!» deyərək içirdi. Sonra da durub süfrəni yığışdırırdılar. Vəssalam! Beləliklə,
süfrəni hazırlamağa beş saat, yığışdırmağa, qab- qacağı yumağa bir saat, məclisin özünə isə uzaqbaşı yarım saat vaxt gedirdi. Burada isə... Neçə saat idi ki, süfrə qurulmuşdu, nə qədər vaxt keçmişdi, xəbərləri yox idi. Artıq günəş çayın o biri sahilindəki meşənin arxasına keçmək üzrə idi.

Elnarə əvvəl istədi ki, evə qayıtmağın vaxtı olduğunu Ramazana xatırlatsın. Ancaq fikrindən daşındı. Düşündü ki, qoy bir az da keçsin, sonra gedərlər.

Beləcə, bir saat da keçdi. Növbəti sağlığa içdilər. Toma yanında oturmuş Saşa ilə nəsə danışıb zarafatlaşırdı. Hətta qucaqlaşıb öpüşürdülər də hərdən. Sonra Toma birdən gülə-gülə ayağa qalxdı. Səndirləyə-səndirləyə gedib çadıra girdi.


ekitab.ucoz.org

Saşa da həmin anda durub onun arxasınca getdi.

Elnarə içərisində qəribə bir istiliyin yarandığını hiss etdi. Çadıra tərəf baxmağa utanıb üzünü çaya çevirdi. Guya ki, çaya tamaşa edir. Sonra özündən asılı olmayan məchul bir duyğunun təsirilə oğrun- oğrun dönüb Ramazana baxdı. Ramazan da, Vladik də, Olya da öz işlərində idilər və çadırdakılarla heç maraqlanmırdılar. Yenə üzünü çaya çevirdi.

Günəş artıq o biri sahildəki meşənin arxasında itmişdi. Hava yavaş-yavaş soyuyurdu. Elnarə yenə də evə getmək lazım olduğunu Ramazana demək istədi. Amma demədi. Fikirləşdi ki, qoy yarım saat da otursunlar.

Ramazan onun üşüdüyünü hiss edib:

- Gödəkcən maşındadı, üşüyürsənsə, gətirim, geyin, - dedi.

Elnarə:

- Yox, özüm gətirərəm! - deyib ayağa qalxdı.

Maşının yanına getmək üçün çadırın yanından keçməliydi. Bu zaman maqnitofon da susmuşdu və çadırın yanından keçən Elnarə Tomanın səsini eşitdi. O, ehtiraslı səslə, xısın-xısın nəsə deyir, qəhqəhə çəkib gülürdü.

Elnarənin vücudunu isti bir titrətmə tutdu. Qeyri- iradi olaraq, ayaq saxladı. Sonra Ramazanın arxadan ona baxdığını anlayıb maşına tərəf getdi. Gödəkcəsini maşından götürüb əyninə geyindi. Əllərini qoynuna qoyub Katun çayının alaqaranlıqda görünən sirli görkəminə tamaşa etməyə başladı.

Bir azdan Vladiklə Olyanın maşına tərəf gəldiklərini görüb, Ramazanın yanına qayıtdı. Ramazan tonqala quru budaqlar atıb onu yenidən alovlandırırdı.


ekitab.ucoz.org

- Geyindin? - deyə başının üstündə dayanmış Elnarədən soruşdu.

- Hə... - qız üşüdüyü üçün tonqala bir az da yaxınlaşdı.

- İstəyirsən sənin üçün çay təşkil edim, - Ramazan dedi.

- Burada? - Elnarə təəccübləndi.
- Hə! Qənd də gətirmişik, quru çay da.
- Bəs axı çaydanımız yoxdur?!
- Darıxma, bu saat hər şey düzələcək!

Ramazan bunu deyib ayağa qalxdı. Suyunu içib qurtardıqları bir litrlik kapron butulkalardan birini götürüb çaya tərəf qaçdı. Onu ağzına qədər su ilə doldurub geri qayıtdı və alovlanmış gur tonqalın içinə qoydu.

- Bəs o ərimÿəcək? - Elnarə güldü.

- Yox! - oğlan arxayınlıqla dilləndi. - içindəki su qoymayacaq əriməyə.

Həqiqətən də, az keçmiş, kapron butulkanın içindəki su qaynamağa başladı. Ramazan onu götürüb dəsmalla tutaraq iki stəkana süzdü. Sonra stəkanların içinə çay paketi salıb birini Elnarəyə verdi.

- Bu da sənin çayın! - dedi. - Bu saat qənd də gətirim.

Çantaları eşələyib qəndi tapdı. Söhbət edə-edə çay içməyə başladılar. Söhbət deyəndə ki, Ramazan Elnarəgilin kəndləri, ailələri barədə soruşurdu, o da cavab verirdi. Xeyli içmiş və nəşə qəbul etmiş oğlanın halı üstündə deyildi. Qıza zillənən baxışlarında açıq-aydın şəhvət duyulurdu. Daha çox isə Elnarənin ayaqlarına baxırdı. Qız tonqalın işığında onun baxışlarındakı mənanı o qədər də sezə bilmirdi. Ağlına başqa bir şey gətirmək də istəmirdi. O, bakirə qız idi, Natiqin bacısı idi və Ramazan da onların həmyerlisi idi. Yəqin ki, Ramazan ona başqa gözlə baxmağa



ekitab.ucoz.org

cəsarət etməzdi.

Ancaq Elnarə özü də bir az içdiyi çaxırın təsirindən, bir az da düşdüyü bu vəziyyətdən özünü unutmaq üzrə idi. Gözləri getdikcə xumarlanır, bədənində süstlük, yorğunluq hiss edirdi. Ramazan bu saat onun nəzərində ən məhrəm adamlarından biri idi. Düşdüyü xoşagəlməz vəziyyətə baxmayaraq, ona arxalanır, mərdliyinə etibar edirdi.

Bir azdan Saşa ilə Toma çadırdan çıxıb tonqalın yanına gəldilər. Elnarə, nədənsə, onların üzünə
baxmağa utanırdı. Qalxıb kənara çəkildi. Tonya Ramazana:

- Mən içmək istəyirəm! Mənə araq ver! - dedi.

Ramazan onun üçün araq süzdü. Tonya arağı
içib, üstündən portağal şirəsi qəbul etdi. Sonra Saşadan bir siqaret alıb yandırdı.

- Vladiklə Olya maşındadırlar? - yorğun görkəmli Saşa əsnədi.

- Hə! - Ramazan dedi. O, yaman fikirli görünürdü.

- Bəs niyə musiqini qoşmurlar?

- Başları çox qarışıqdı, yəqin! - Toma söz atdı.

- Tərbiyəsizlər! - Saşa bunu deyib bərkdən güldü.

Elnarə hiss etdi ki, ayaq üstə durmaq onun üçün çətinləşir. Gözlərindən sanki yuxu tökülürdü. Süfrə
başında oturanlara oğrun bir nəzər salıb, çadıra tərəf getdi. Ayaqqabılarını çıxarıb, əyilərək içəri girdi. Çadırın içi tamamilə qaranlıq idi. Gödəkcəsini soyunub bir kənara qoydu. İdman şalvarında və nazik köynəkdə yatağa uzanıb adyalı üstünə çəkdi.

Özü özündən baş aça bilmirdi. Yatmaq istəyirdi, yoxsa?.. Yorğun idi. İçdiyi çaxır da öz təsirini göstərib başını dumanlandırırdı. Amma bilirdi ki, gözünə rahat yuxu



ekitab.ucoz.org

getməyəcək burada. Nəsə eləmək, düşünüb bir qərara gəlmək istəyirdi. Amma bacarmırdı...

Qaranlıq çadırda yarıyuxulu vəziyyətdə, böyrü üstə uzanmışdı. Birdən kiminsə içəri girdiyini hiss etdi. Bildi ki, Ramazandır gələn. Yerindən tərpənmədi. Nəsə gözləyirdi. Nə gözlədiyini özü də bilmədən gözləyirdi.

Ramazan soyunub adyalın altına girdi. Elnarə ilə üz-üzə uzanıb, əlini onun belinə qoydu:

- Yatmısan, Elnarə?

İçindəki güclü həyəcandan boğulmaq həddinə gələn qız dinmədi. Hələ indiyədək heç bir oğlan ona bu qədər yaxınlaşmamışdı. Hələ bədəninə naməhrəm bir əl toxunmamışdı. Özünü yatmış kimi göstərsə də qorxudan titrəməsi və boğulan adamlar kimi nəfəs alması, qətiyyən yatmadığını göstərirdi. Ancaq sərxoş və nəşələnmiş Ramazan belə şeyləri duyub-bilən halda deyildi. O, indi hər şeyi unutmuşdu. Yanındakı qızın bakirəliyini də, bütün şəhərdə qorxmaz, cəsarətli, mərd bir oğlan kimi tanınan Natiqin bacısı olmasını da, bir sözlə, hər şeyi unutmuşdu.

Qızın üzünə tökülmüş saçlarını əli ilə yığışdırıb yanağından öpdü. Həmin anda Elnarə diksinib başını dəli kimi geriyə atdı:

- Ramazan!!!

Amma deyəcəyi sözü saxladı. Deyə bilmədi. Oğlan bütün ağırlığı ilə onun üstünə qalxanda isə:

- Bəsdir! Əl çək! - dedi:

Ramazan isə əl çəkmək fikrində deyildi. Ehtirasdan qovrula-qovrula, bayaqdan əzbərlədiyi sözləri qızın qulağına deməyə başladı:

- Səni sevirəm, Elnarə! Səni sevirəm! Evlənəcəm



ekitab.ucoz.org

səninlə! Özü də iap tez!..

Bu sözlər öz sehrli təsirini göstərdi. Bu sözlər bakirə qızın ixtiyarını əlindən aldı. Bu sözlər Elnarənin edəcəyi hərəkətə, daha doğrusu, hərəkətsizliyə haqq qazandırdı və xoş duyğulara
uymuş qız daha heç bir müqavimət göstərmədi. Yəni üstündəki oğlanın güclü ehtirasdan titrəyən əlləri ilə soyundurulmağına mane olmadı...

Səhəri gün hamısı yorğun və əzgin görünürdü. Hamısının başı ağrıyırdı. Tələsik yığışıb şəhərə qayıtdılar. Elnarə evə çatan kimi yatağına girib günortaya qədər yatdı. Ayılandan sonra vanna otağına keçib yuyundu, paltarlarını yudu. Dünənki gecənin həqiqət, yoxsa yuxu olduğunu hələ tam dərk edə bilmirdi. Amma dərk etsə də, etməsə də bilirdi ki, artıq bakirəliyini itirib. Bilirdi ki, gələcək taleyini müəyyənləşdirib daha! Gələcək taleyi həmin bu Ramazanla bağlı olacaqdı, deməli. Heç özü də dəqiq bilmirdi ki, buna sevinir, yoxsa yox.

Ona elə gəlirdi ki, artıq Ramazanı dərin bir məhəbbətlə sevir. Amma yenə də qınayırdı özünü. Qı
nayırdı ki, gərək dözəydi, tələsməyəydi. Ailə quracağı oğlanı yaxından tanıyaydı. Amma keçmişdi daha! Hər şey geridə qalmışdı. Qızlığı da, düşünmək, seçmək şansı da, seçilmək şansı da. Qurtarmışdı daha bütün bunlar...

O biri gün Seymurun ofisinə gedəndə ilk rastlaşdığı adam elə Seymur özü oldu. Firmanın sahibi onu çox mehribanlıqla salamlayıb, hal-əhval tutdu:

- Necəsən, Elnarə?
- Sağ olun, yaxşıyam...
- Nə olub, nəsə birtəhər dəyirsən gözümə? Xəstələnib-


ekitab.ucoz.org

eləməmisən ki?

Onun halı nəzərindən qaçmayıbmış Seymurun. Utancaq halda:

- Yox, xəstələnməmişəm, - dedi.
- Natiq gəlib çıxdı?
- Yox. Bu gün gəlməlidir.
- Darıxmırsan ki? Bir şeyə ehtiyacın olsa, utanma, de!
- Sağ olun...

Elnarə onda qızlara məxsus incə duyma qabiliyyəti ilə Seymurun davranışında və baxışlarında özünə qarşı ılıq bir məhəbbət hiss etdi. Amma duyduğu bu məhəbbətdən o qədər də təsirlənmədi. Onda özündən on yaş böyük olan bu oğlana ciddi bir iş adamı, qardaşının yaxın dostu kimi baxırdı, vəssalam!

Ramazan isə sözünün üstündə durub onu Natiqdən istədi. Bacısının fikrini öyrənən Natiq bu evliliyə etiraz etmədi. Onları nişanladılar və bir ay sonra da tələsik toy oldu.

Russayağı, sadə toy elədilər. Bir az yeyib-içib şənlənəndən sonra şəhərin kənarına gəzməyə çıxdılar. Daha sonra qayıdıb yenə süfrə başına keçdilər.

Seymur da toyda iştirak edirdi. Onun bir qədər qəmli olduğu başqalarının diqqətini cəlb etməsə də, Elnarənin gözündən qaçmadı. Amma yaxın dostlar bir-bir yaxınlaşıb bəylə gəlinə öz toy hədiyyələrini təqdim edərkən, Seymur qalxıb yeni evlənənlərə şəhərin mərkəzində ikiotaqlı mənzil bağışladığını elan etdi. Bu bildiriş toyda iştirak edənlər üçün gözlənilməz olsa da hamı bunu Seymurun Natiqlə çox yaxın dost olması ilə izah etdi.

## Dördüncü fəsil

Gömrük sahəsinin qapısı açıldı. Sərnişinlər tək-tək çıxmağa



ekitab.ucoz.org

başladılar. Elnarə cəld ayağa qalxıb oğlunun əlindən tutdu. İrəli gedib sərnişinləri qarşılayan adamlara qoşuldu. Natiq ondan bir qədər kənarda özünə yer tutmuşdu. Maraqlıdır ki, nə o, nə də Elnarə Bakıdan gələn xəfiyyəni tanımırdılar. Və xəfiyyənin də onları necə tanıyacağı məlum deyildi. Ədalət ona bircə bunu demişdi ki, baş vermiş cinayəti araşdırmaq üçün Bakıdan xəfiyyə gələcək, vəssalam.

Elnarə adamların arasından boylanıb gömrük sahəsindən çıxan hər bir adama diqqət yetirirdi. O, qardaşı ilə müqayisədə daha çox narahat və
həyəcanlı idi. Sevimli ərini həbsdən xilas etməyə gələn adamın kim olduğunu, necə bir adam olduğunu tezliklə öyrənməyə tələsirdi. Bu gələn, onun fikrincə, hər kim idisə qeyri-adi bir adam olmalıydı. Çünki buradakı çox saylı cinayət axtarış əməkdaşlarının, müstəntiqlərin bir həftədən bəri baş aça bilmədikləri bir cinayəti araşdırmağa gəlirdi o.

Gömrük sahəsindən iki azərbaycanlı gənc çıxdı. Elnarə onlardan birinin Ramazan olduğunu görüb təəccübləndi və onun nəzərinə tuş gəlməmək üçün üzünü yana çevirdi. Ramazanı qarşılamağa gələn yox idi, deyəsən. Heç kəsə baxmadan, yanındakı yoldaşı ilə birlikdə zalın çıxışına doğru yönəldi və burada dayanmış Natiqi görüb onunla görüşdü. Bir neçə dəqiqə söhbət edib ayrıldılar. Natiq, yəqin ki, ona yaşadıqları şəhərdə baş vermiş hadisələr və
burada kimi qarşılaması barədə heç bir məlumat vermədi. Yoxsa söhbət uzana bilərdi.

Zalda gözləyənlərin sayı xeyli azalmışdı. Qalanlardan biri də həmin polis polkovniki idi. O da kimisə böyük intizarla gözləyir, baxışlarını gömrük sahəsinin avtomatik açılıb-bağlanan qapısından çəkmirdi.


ekitab.ucoz.org

Elnarənin həyəcanı getdikcə artırdı. «Bəs bu niyə gəlib çıxmadı? Bəlkə heç gəlməyəcək? Bəlkə yalan imiş deyilənlər?» - deyə düşünürdü. Bütün ümidini bu tanımadığı, görmədiyi, adını belə bilmədiyi adama bağlamışdı. Əgər ona inanıb Azərbaycandan buraya göndərmişdilərsə, deməli, nəsə etməyə qadir idi o. Əsl həqiqəti üzə çıxarıb, Elnarənin canı qədər sevdiyi ərini şərin, böhtanın caynağından xilas edə bilərdi. Həqiqət üzə çıxsaydı,
şəhərdə yaranmış xoşagəlməz, qorxulu vəziyyət də yoluna düşər, azərbaycanlılar rahat nəfəs alardılar.
Həqiqət! Kim bilir, nədən ibarət idi bu həqiqət?
O qədər adamın gözü qarşısında kim zəhərləmişdi Serafimovu? Seymur? Yox, Elnarə buna inanmırdı və heç vaxt da inanmayacaqdı. Əgər o kişini beş ilə yaxın bir yastığa baş qoyduğu, sevdiyi, özünün idealı hesab etdiyi Seymur zəhərləmişdisə, onda demək həyatda heç nəyə inam, etibar yox idi. Onda, deməli, Elnarə Seymuru tanıya bilməmişdi. Deməli, aldatmışdı onu Seymur. Deməli, xəyanət eləmişdi ona. Xəyanət? Əlbəttə, xəyanət! Xəyanət təkcə gizlicə başqa qadınla görüşmək deyildi ki? İçində iblis xisləti gəzdirə-gəzdirə səni sevən qadına özünü mələk kimi tanıtmaq, onu aldatmaq xəyanət
deyildimi?! Amma Seymura, doğrudan da, inanırdı Elnarə. Lap özü qədər inanırdı.

Qapı açıldı. Əlində kiçik yol çantası tutmuş, gözlərində qara rəngli eynək olan şux qamətli bir kişi gömrük sahəsindən çıxıb, ilk olaraq, qarşılayanlar arasında olan polis polkovnikinə ani nəzər saldı. Sonra sürətli baxışla digər adamlara göz gəzdirib, başını lap yüngülcə



ekitab.ucoz.org

tərpətməklə Elnarəyə salam verdi. Bəlkə də bu hərəkəti salam verməklə kimi qəbul etmək olmazdı, amma hər halda, Elnarə təəccübləndi. O bu adamı birinci dəfə idi ki, görürdü. Görəsən, bu idimi gözlədikləri xəfiyyə?

Bu barədə düşünməyə macal tapmamış, polis polkovniki gələn adamın üstünə yeriyib:

- Xoş gəlmisiniz, Qanbay Fərhadoviç! - deyə ucadan səsləndi və onu bərk-bərk qucaqladı.

Sonra onu buraxıb bir addım geri çəkildi.

- Görün bir, neçə ildir ayrıldığımız! - dedi və bir də qucaqlaşdılar.

- Xoş gördük, Boris, xoş gördük!

Qanbay Qasımlı Moskvada Baş Cinayət Axtarış idarəsində işləyərkən ən yaxın köməkçisi və sirdaşı olmuş bu adamla mehribanlıqla görüşdü. Onun poqonlarına işarə edib:

- Təbrik edirəm, demək, sən də polkovnik olmusan! - dedi.

- Bəli, Qanbay Fərhadoviç! Mənim də işimi qiymətləndirdilər. Amma mən buna görə həmişə sizə minnətdaram. Nə öyrənmişəmsə, sizdən öyrənmişəm.

Qasımlı buraya gələcəyini bilən kimi Rusiya Daxili İşlər nazirliyində işləyən Boris Nikitinə zəng
vurub uçacağı reysi bildirmişdi. Boris bu xəbərə çox sevinmiş, Moskvadan Novosibirskə uçaraq köhnə dostunu qarşılamağa gəlmişdi.

Bakılı xəfiyyə Borislə birlikdə, bayaqdan sonsuz maraqla onlara baxan Elnarəyə yaxınlaşdı. Ona bir daha başını tərpətməklə salam verib:

- Siz Seymur Muradovun həyat yoldaşısınız? - deyə



ekitab.ucoz.org

soruşdu.

- Bəli! - həyəcanlanmış Elnarə ona sevincək əl uzatdı. - Siz məni necə tanıdınız?

Qasımlı gənc və yapışıqlı qadının əlini sıxıb güclə nəzərə çarpacaq dərəcədə gülümsədi:

- Burada qəribə bir şey yoxdur, Elnarə xanım! Gözlərinizdən oxudum ki, siz tanımadığınız bir adamı gözləyirsiniz. Həm də böyük ümid və narahatlıqla.

Özünü itirmiş Elnarə utancaq əda ilə başını yana əydi. Özünü təqdim etmək məqsədilə:

- Elnarə... - dedi və bundan sonra əlini qonağının əlindən çəkdi.

Bu vaxt Natiq də onlara yaxınlaşıb Oasımlıya, daha sonra isə Nikitinə əl uzatdı:

- Polis baş leytenantı Natiq Əhmədov. Elnarənin qardaşıyam.

- Tanış olmağıma şadam! - Qasımlı bunu rus dilində dedi.

Onun özünü təqdim etmək fikrində olmadığını görən Boris dillənməyə məcbur oldu:

- Görürəm, siz ilk dəfədir görüşürsünüz. Ona görə də, icazə verin, keçmiş rəisimi və dostumu sizə təqdim edim. Sizin həmyerliniz, cinayət axtarışı üzrə
keçmiş SSRİ məkanının ən güclü eksperti, polkovnik Qanbay Qasımlı.

Qasımlı qaşqabağını sallayıb əvvəlcə Elnarəyə, sonra isə Natiqə üz tutdu:

- Bu tariflərə o qədər də inanmayın. Burada da bacarıqlı ekspertlər az deyil. Və mən qorxuram ki, baş vermiş cinayətlə bağlı onların qərarına yeni bir şey əlavə edə


ekitab.ucoz.org

bilməyim. Hətta məni buraya göndərən Xarici İşlər Nazirliyi də Seymurun günahsız olduğuna əmin deyil.

Elnarə möhkəm tutuldu. Orijinal biçimli, cazibədar dodaqları azacıq səyridi:

- Siz bizə kömək edə bilməyəcəksiniz?

Qasımlı tutqun və qaşqabaqlı görünürdü. Özünü yenə də yaxşı hiss etmirdi, deyəsən. Həm də dörd saatdan artıq keçən uçuşun yorğunluğu, bu müddət ərzində siqaret çəkməməsi əhvalına pis təsir etmişdi. Elnarənin kövrəlməyinə o qədər də əhəmiyyət vermədi:

- Mən buraya bir həftədən də az bir müddətə gəlmişəm. Gələn həftənin cümə günü Bakıya qayıtmalıyam. Biletim o baş-bu başa alınıb. Mən inanıram ki, bu müddətdə həqiqəti tapa biləcəm. Ancaq bilmirəm, bu həqiqət sizin xeyrinizə olacaq, yoxsa ziyanınıza...

Sözünü kəsib, bayaqdan ona diqqətlə göz qoyan uşağa baxdı və candərdi gülümsədi:

- Bu oğlan, yəqin ki, sizin oğlunuzdur?
- Bəli... - bir qədər pərt olmuş Elnarə dilləndi. Qasımlı uşağa əl uzadıb özünü yarızarafat təqdim etdi:
- Polkovnik Qasımlı. Bəs sənin adın nədir?

- Tomik! - oğlan dilləndi və balaca əlini xəfiyyəyə uzatdı.

- Tomik? - Qasımlı sanki təəccübləndi və tez də əlavə etdi. - Yaxşı, qoy olsun Tomik!

- Əsl adı Tamerlandı. - Elnarə utancaq dilləndi.

Qasımlı Borisə görə rus dilində danışırdı. Ətrafa boylanıb keçmiş köməkçisinə baxdı:

- Gedəkmi, Boris?



ekitab.ucoz.org

- Gedək! - Boris gümrah səslə dilləndi. - Amma mən təklif edirəm ki, əvvəlcə elə bu zaldakı kafedə sizin gəlişinizi qeyd edək. Yəqin ki, buna etiraz etməzsiniz.

- Necə istəyirsən, elə də olsun! - Qasımlı dedi və Natiqə baxdı. - Sizin vaxtınız var?

- Əlbəttə! - Natiq cəld cavab verdi. - Biz yalnız sizə görə gəlmişik buraya.

- Onda bizimlə əyləşin!

- Qanbay Fərhadoviç, mən də sizinlə Qorno- Altayska gedib sizi oradakı həmkarlarımıza təqdim edəcəm. - Boris dedi. - Səhv etmirəmsə, altı-yeddi saatlıq yolumuz var.

- Bəli, elədir. - Natiq təsdiq etdi. - Mənim maşınımla gedərik. Sürətli getsək, daha tez çata bilərik.

- Lap yaxşı, keçək kafeyə! - Boris bunu deyib qonağı qabağa verdi. - Buyurun!

Natiq xəfiyyənin əlindən yol çantasını aldı. Hamısı birlikdə kafeyə girib boş masaların birinin arxasında əyləşdilər. Onlara yaxınlaşan ofisianta Boris sifariş verdi. Ofisiant cəld hərəkətlə gətirdiyi soyuq yeməkləri süfrəyə düzdü. Kimin nə içəcəyi ilə maraqlanandan sonra kişilərin stəkanına araq,
Elnarə ilə oğlunun stəkanına isə ananas şirəsi süzüb, getdi.

Bilərəkdən Qasımlının yanında əyləşmiş Elnarə başını ona tərəf əyib asta səslə, azəri türkcəsində danışmağa başladı:

- Serafimovu Seymur zəhərləməyib. Mən buna and da içə bilərəm. Düzdür, o bizim evimizdə zəhərlənib, amma... Burada nəsə başqa bir iş var...

Qasımlı ona qulaq assa da, deyəsən, əsas diqqəti Boris Nikitində idi. Boris araq süzülmüş stəkanını yuxarı qaldırdı:



ekitab.ucoz.org

- Bizim Rusiyaya xoş gəlmisiniz, Qanbay Fərhadoviç!

Natiq də stəkanını qaldırıb Bakıdan gəlmiş qonağa hörmətlə müraciət etdi:

- Xoş gəlmisiniz! Çox sevindik sizin gəlişinizə!

Qasımlı başı ilə razılığını bildirdi və kişilər stəkanlarını bir-birinə toxundurub içdilər. Elnarə pərt halda ananasdan bir qurtum alıb stəkanı masanın üstünə qoydu.

- Mən qırmızı istəyirəm! - uşaq qarşısındakı stəkanı kənara itələyib anasına baxdı.

- Yaxşı, Tomik, ağıllı ol, evdə içərsən! - anası astadan dillənərək onun başını sığalladı.

Amma Tomik onunla razılaşmadı və ağlamağa hazırlaşdığı üçün sifəti əcaib gülməli hala düşdü:

- Yox, mən qırmızı istəyirəm!

- Düz eləyirsən! - Qasımlı ona mənalı bir nəzər saldı. - Ananası heç mən də sevmirəm.

- Yaman tərs uşaqdır, dediyini eləməsən sakitləşən deyil.

Natiq bunu deyib ofisiantı əlinin işarəsi ilə çağırdı və albalı şirəsi gətirməyi tapşırdı. Uşaq yalnız bundan sonra sakitləşib albalı şirəsini acgözlüklə içməyə başladı.

Yaranmış sükutdan istifadə edən Elnarə yenə Qasımlıya tərəf əyildi və titrək səslə soruşdu:

- Siz yəqin ki, bizim mənzildə qalacaqsınız?

Qasımlı azacıq başını buladı və qadın yenə nəsə demək istəyirdi ki, Borisin gur səsi hamını ona qulaq asmağa məcbur etdi:

- Siz təsəvvür edə bilməzsiniz ki, bu həmyerliniz necə qeyri-adi bir insandır. Biz onunla təxminən on beş il bundan əvvəl tanış olmuşuq. Onda Qanbay Fərhadoviçin otuz,


ekitab.ucoz.org

mənim iyirmi altı-iyirmi yeddi yaşım olardı. Bir ilə yaxın idi ki, əməliyyat-axtarış işində çalışırdım. Moskva oblastının meşələrində
gizlənən bir bandanın başçısı ələ keçib həbs olunmuşdu. Onu da deyim ki, Qanbay Fərhadoviç həbs etmişdi həmin başçını. Həmin vaxt artıq məşhurlaşmağa başlamış Qasımlının yalnız adını eşitmişdim. Üzünü isə bir dəfə də olsun görməmişdim. Hə... Başçı tutulandan sonra bandanı onun köməkçisi Saqqal Mixail adlı biri idarə edirdi. Yadınızdadırmı, Qanbay Fərhadoviç?

- Əlbəttə! - Qasımlı başını ciddiyyətlə tərpətdi.

- Mənim də heç yadımdan çıxmır o günlər. - Boris söhbətinə davam etdi. - Dəstənin izinə düşmək istəyənlərdən biri də mən idim. Amma elə oldu ki, onlar məni girov götürdülər. Sonra isə polisə xəbər göndərdilər ki, başçıları həbsxanadan buraxılmasa məni öldürəcəklər. Təsəvvür edirsinizmi, mən nə hallar keçirirdim?!...

Bir gün xəbər gəldi ki, həbsxanada başçının yanında olmuş, dəstə ilə heç bir əlaqəsi olmayan bir oğlan cəzasını çəkib qurtarıb və başçının bəzi göstərişlərini Mixailə çatdırmaq üçün dəstənin gizləndiyi meşəyə gələcək. Həmin adamı gözləməyə başladılar. Bir neçə gündən sonra, nəhayət, o gəlib çıxdı. Sizcə kim ola bilərdi bu adam? - Boris əvvəlcə Natiqin, sonra isə Elnarənin üzünə baxdı. - Bu saat bizim yanımızda əyləşmiş cənab Qasımlı! Köhnə- külə paltarda idi. Üzünü tük basmışdı. Əlbəttə, mən onu tanımırdım həmin vaxt. Sonra öyrəndim ki, başçının yanından təlimatlandırılıb çıxan həmin gənci Qanbay Fərhadoviçin təklifi ilə tutub polisdə yaxşıca danışdırıblar. Bütün sirləri və bandanın gizləndiyi yeri ondan öyrənib,



ekitab.ucoz.org

özünü də gizli dustaq ediblər. Əvəzinə isə o vaxt Moskva polisində həm
əməliyyatçılıq bacarığına, həm də sərrast atıcılıq qabiliyyətinə görə ən üstün əməkdaş hesab olunan Qanbay Qasımlını göndəriblər. Əlbəttə ki, məni xilas etmək və həm də bandanı zərərsizləşdirmək üçün. Təsəvvür edirsinizmi?

Boris bir neçə qurtum ananas şirəsi içib oturanların hər birinə göz gəzdirdi. Qasımlı fikirli halda siqaret çəkirdi. Tomik heç kəsə məhəl qoymadan albalı şirəsi içirdi. Natiqlə Elnarə isə çox diqqətlə polis polkovnikinə qulaq asırdılar. Boris danışığına davam etdi:

- Onu da deyim ki, Mixail çox hiyləgər adam idi. Guya başçının göndərdiyi bu adamı dönə-dönə danışdırandan sonra onu daha dərindən sınamaq qərarına gəlir. Həmin vaxt qışın ortaları idi. Hər yeri qalın qar bürümüşdü. Dəstə meşənin dərinliklərində
olan iri bir kahada gizlənirdi. Mənim də qollarımı bağlayıb həmin kahada saxlayırdılar. Qasımlının gəldiyi gün, axşama yaxın məni çıxarıb kahanın qabağına gətirdilər. Gördüm ki, səkkiz nəfər banda üzvünün hamısı dövrə vuraraq dayanıb. Bir də həmin bu Qanbay Fərhadoviç... Dediyim kimi, üz-gözü tüklü, özü də köhnə, cırıq bir kürkdə. Mixail cibindən bir tapança çıxarıb ona uzatdı və məni göstərib dedi:

- Bu oğlan bizi izləyən itlərdən biridir. Biz onu girov götürdük ki, başçını buraxsınlar. Amma hələ də onlardan bir səs yoxdur. Əgər sən doğrudan da başçının yanından gəlmisənsə, doğrudan da bizə qoşulmaq istəyirsənsə gözümüzün qarşısında bunu vurmalısan!

Nə gizlədim, qorxudan ayaqlarım əsməyə başladı. Cavan idim, nişanlımın gözü yolda qalmışd Heç ölmək istəmirdim.



ekitab.ucoz.org

Bir də ki, kim ölmək istəyər axı?

Qanbay Fərhadoviç bircə anlıq tərəddüddən sonra tapançanı Mixaildən aldı. Əvvəlcə əlindəki silaha, sonra isə mənə baxdı. Elə soyuq, elə təmkinlə baxırdı ki, canıma üşütmə düşdü. Üzümü Mixailə tutub:

- Məni öldürsəniz, bu sizə çox baha başa gələcək! - dedim.

Mixail istehza ilə gülüb məni başdan ayağa süzdü və yenə üzünü Qanbay Fərhadoviçə çevirdi.

- Hə, cavan oğlan, - dedi, - göstər hünərini!

Qanbay Fərhadoviç birdən qətiyyətlə silahı qaldırıb mənə tuşladı. Gözlərimi yumdum. O, tətiyi çəkdi...

- Tətiyi çəkdi?! - Natiq dözməyib polis polkovnikinin sözünü kəsdi.

- Hə! - Boris cavab verdi. - Tətiyi çəkdi. Amma, çaqqıltı səsindən başqa bir şey eşidilmədi. Sən demə, tapançada bir dənə də olsun güllə yox imiş. Sonra o, dönüb yalançı qəzəblə Mixailə baxdı və:

- Bu nə deməkdir, məni ələ salmısınız?! - deyə qışqırdı.

Mixail qəhqəhə çəkib gülərək tapançanı ondan aldı.

- İndi inandım sənə! - deyib, məni yenidən kahaya göndərdi.

Boris Nikitinə heyrətlə qulaq asan Elnarə:

- Mən heç nə başa düşmədim! - dedi.

- Səbr edin! - Boris ədalı hərəkətlə barmağını qaldırdı. - Qanbay Fərhadoviç gecə hamı yatandan sonra mənim qollarımı açanda mən çox heyrətləndim. Biz banda üzvlərini tərk-silah edib qollarını bağladıq. Bəli!... Sən demə, Qanbay


ekitab.ucoz.org

Fərhadoviç tapançanı əlinə alan kimi onun darağının boş olduğunu başa düşübmüş. Uzun müddətli məşqlərin sayəsində, ağırlığına görə, hətta, tapançada neçə güllə olduğunu da təyin edə bilirmiş. Təsəvvür edirsinizmi, onun hissiyyatı nə qədər güclüdür?

- Amma hər halda, bu çox böyük riskdir! - Natiq təəccübünü gizlətmədi.

Bayaqdan dinib-danışmayan və sakitcə siqaret çəkən Qasımlı başını buladı:

- Ağırlıq öz yerində, amma mən o vaxt Mixailin gözlərindən də oxuyub bilmişdim tapançanın boş olduğunu.

Boris stəkanlara araq süzmək istəyəndə Qasımlı da, Natiq də daha içməyəcəklərini bildirdilər. Natiq gizlicə saatına baxdı. Əmirxanın həyətdə onları gözlədiyini bildiyi üçün bir az narahatlıq keçirirdi. Boris isə süzdüyü arağı başına çəkib, yenidən danışmağa başladı:

- Sizin həmyerliniz belə qəhrəmandır! Bizim nazirlikdə hələ də onu xatırlayırlar. Bütün oblastda «Qara xəfiyyə» adı ilə məşhur idi Qanbay Fərha- doviç! Düzdür, polisdə onu istəməyənlər də az deyildi. Bir az qaraqabaq, ciddi xasiyyətli olduğu üçün. Cinayətkar aləmi isə, aydın məsələdir, lap toy- bayram elədilər Qanbay Fərhadoviç istefa verəndə.

- Niyə istefa verdiniz ki? - Natiq maraqla sual verdi.

Qasımlı dinmədi. Əvəzində, Boris onların eyni bölmədə işləməyə başlamalarından, birgə apardıqları əməliyyatlardan danışıb söhbəti məşhur bir bandanın tutulmasına gətirdi. Qasımlıdan qisas alan banda başçısının onun ailəsini vəhşicəsinə qətlə yetirdiyini deyəndə dostunun bu söhbətlərdən xoşlanmadığını görüb susdu.



ekitab.ucoz.org

Natiqlə Elnarə də kədərlə susmuşdular. Tomik nəzarətsiz qalmasından istifadə edərək, albalı şirəsinin hamısını içib qurtarmışdı. Ağzının bütün ətrafı qırmızı rəngə boyanmış, sir-sifəti gülməli hala düşmüşdü. Qarnını əlləri ilə tutub ağır-ağır nəfəs alırdı. Boris bir daha öz stəkanına araq süzüb:

- Hamınızın sağlığına! - deyərək başına çəkdi.

Elnarə boğazını arıtlayıb Seymurun nahaq yerə tutulması barədə danışmağa hazırlaşırdı ki, Qasımlı siqaretini külqabıya basıb söndürdü və ayağa qalxıb

- Bəlkə gedək? - dedi. - Maşında söhbət edərik.

- Hə, gedək! - Boris razılaşdı.

Ayağa qalxdılar. Natiq Borisə əlini cibinə salmağa imkan vermədi və süfrənin haqqını özü ödədi. Birlikdə kafeni tərk edib zalın çıxışına doğru getdilər.

Əmirxan həyətdə dayanıb yoldaşları ilə söhbət edirdi. Cəmi səkkiz nəfər idilər. Natiq Əmirxanı Bakıdan gəlmiş xəfiyyəyə özünün və Seymurun dostu kimi təqdim etdi. Qasımlı üz-gözündən cəsarət və mətinlik yağan bu oğlanın əlini sıxıb:

- Tatarsınız? - deyə soruşdu.

- Bəli! - Əmirxan hörmətlə cavab verdi. - Bunlar da mənim dostlarımdır.

- Tanış olmağıma şadam!

- Mən də! - oğlan üzünə tökülən saçını əli ilə yığışdırdı. - Sizə uğurlar arzu edirəm və... - bir anlıq fasilə verib davam etdi. - İstəyirəm bu başdan biləsiniz ki, Seymur heç vaxt elə namərd iş tutmaz!

Qasımlı başını tərpədib qeyri-müəyyən cavab verdi:

- Hər şey aydınlaşacaq!



ekitab.ucoz.org

Sonra Əmirxandan ayrılıb Natiqin bir az kənarda saxladığı «Nissan» markalı avtomobilinə doğru getdilər. Boris qabaqda, Natiqin yanında, o birilər isə arxada əyləşdilər. Qasımlı kafedə çıxardığı eynəyini yenidən gözünə taxıb oturacağa söykəndi. Artıq Novosibirsk vaxtı ilə axşam saat yeddiyə işləyirdi.

Şəhərdən çıxıb sıx meşələrlə əhatə olunmuş asfalt yola düşəndə Natiq sürəti artırdı. Arxalarınca iki «Pajero» markalı maşın gəlirdi. Bunlar Əmirxan və yoldaşlarının maşınları idi.

## Beşinci fəsil

Yol boyu Boris Nikitin yenə də hey danışırdı. Amma, bu dəfə onu dinləyən, deyəsən, yalnız Natiq idi. Gənc polis zabiti peşəsi ilə bağlı məsələlər barədə polkovnikə suallar verir, onun cavablarını maraqla dinləyirdi.

Elnarə kafedə olanda düşünmüşdü ki, uzun yol boyu Bakıdan göndərilmiş bu xəfiyyə ilə söhbət edəcək, ona ərinin günahsız tutulduğu barədə danışacaq, hadisənin necə baş verdiyini anladıb, onun bu barədə fikirlərini soruşacaq. Amma Qasımlının ciddi davranışı buna imkan verməmişdi. O, maşına əyləşən kimi başını sağa döndərib gözlərini pəncərəyə zilləmişdi. Elə bil, heç yol, meşə görməmişdi indiyədək. Elnarə, hətta bir az incimişdi ondan. Demək olar ki, həyatı boyu belə qaraqabaq, azdanışan, ünsiyyətdən qaçan adama rast gəlməmişdi. Hamı ilə tez dil tapan, ünsiyyətdə olduğu hər bir adama tez uyğunlaşan gənc qadın ilk dəfə idi ki, əslində, daxilən dərin hörmət bəslədiyi bir adamla danışmağa cəsarət etmirdi.

Lap küsmüş uşaqlar kimi oturmuşdu. Hərdən Qasımlı ilə ikisinin arasında oturub narahat halda yerində qurcuxan


ekitab.ucoz.org

oğlunu sığallayıb özünə tərəf çəkir, sonra yenə başını yana döndərib fikrə gedirdi. Kürəyinə tökülən qara, hamar saçları, yaraşıqlı üzü, nazik koftasını qabardan şux sinəsi, maşının alaqaranlıq salonunda ağaran yumru dizləri onu çox cazibədar göstərirdi.

Qanbay Qasımlı isə arxaya söykənib gözünü sağ tərəfdəki pəncərəyə diksə də çölə baxmırdı. Rusiyada ötən acılı-şirinli illərini kino lenti kimi gözləri önündən keçirirdi. Əslində, əvvəldən axıra kimi çətinliklərlə dolu olmuşdu bu illər. Yuxusuz gecələr, qəddar cinayətkarların axtarışı, istintaqlar, döyüşlər, atışmalar ilə dolu...

Qarşıda onu gözləyən vəzifə - Serafimovun kim tərəfindən zəhərləndiyini, Radik Boskanyanın kimlər tərəfindən öldürüldüyünü aşkar etmək vəzifəsi barədə isə heç düşünmürdü. Yaxşı bilirdi ki, cinayətin hansı şəraitdə törədildiyini öyrənmədən bu barədə düşünmək mənasız işdir. Natiqdən, ya Elnarədən nəsə soruşub öyrənmək də istəmirdi hələ. Əsas təhqiqata sabahdan başlamaq fikrindəydi və bu gün yalnız dincəlmək istəyirdi.

Nə Elnarə, nə də Natiq barədə ilk baxışdan pis fikirdə deyildi Qasımlı. Xüsusilə Elnarənin səmimi və qəlbiaçıq bir qadın olduğunu hiss etmişdi. Ramazan adlı oğlanın təyyarədə bu qadın haqqında dedikləri o qədər də inandırıcı görünmürdü ona. Ancaq onu da dəqiq bilirdi ki, insanı bir baxışla tanımaq heç vaxt mümkün ola bilməz.

- Natiq, saxla maşını!

Elnarənin həyəcanlı səsindən diksinən Natiq əyləci basıb maşını saxladı və arxaya çevrildi:

- Nə olub?
- Uşaq qusur!


ekitab.ucoz.org

Elnarə cəld qapını açıb Tamerlanı yerə düşürtdü. Natiq də maşından enib deyinməyə başladı:

- Bir litr albalı şirəsini təkbaşına içdi. Qusacaq da!

- Həm də soyuq dəyib, deyəsən, - bacısı dedi. - Aeroporta gedəndə maşında tərləmişdi.

Qasımlı da maşından çıxıb bir siqaret yandırdı. Asfaltdan aralanıb meşəyə doğru bir neçə addım atdı. Hava təzəcə qaralmışdı. Amma meşənin içəriləri daha qatı qaranlığa bürünmüşdü. Elnarənin səsi gəldi. Deyəsən ağlayırdı:

- Bu uşağa nə oldu, ay Allah?!

Natiq bacısına astadan təskinlik verirdi. Əmir- xangilin maşınları arxadan gəlib dayandılar. Əmirxan yerə enib Natiqdən niyə dayandıqlarını soruşdu. Natiq:

- Uşağın mədəsi bulanmışdı, siz narahat olmayın, gedin! - dedi.

Amma Əmirxan onlar maşına minənə qədər gözlədi. Qasımlı da yarımçıq siqaretini tullayıb maşına əyləşdi və yola düşdülər.

Bir azdan Tamerlan yuxuya getdi. Maşına sükut çökmüşdü. Daha heç Boris də danışmırdı. O birilər kimi Elnarə də yenə xəyala dalmışdı. Seymur haqqında düşünürdü. Düşünürdü ki, görəsən, indi o nə edir, yeri, yatacağı rahatdırım. İncidib eləmirlər ki, görəsən?.. Onunla ilk görüşlərini xatırladı. Necə oldu ki, o özündən neçə yaş böyük, ciddi və təmkinli Seymuru sevdi? Necə baş verdi bu? Bu məhəbbət onun ürəyində necə yer tapdı özünə?

Sonra Ramazanla yaşadığı anları yadına saldı. Bu adamın, əslində, cəlbedici görkəmi var idi. Elə birinci gördüyü gün Elnarənin xoşuna gəlmişdi. Ailə qurandan sonra da ilk həftələrdə özünü xoşbəxt



ekitab.ucoz.org

sayırdı. Hər gün Ramazanın işdən qayıtmasını intizarla gözləyir, sonra isə gecənin tez düşməsini arzulayırdı. İstəyirdi ki, onunla yataqda qovuşduğu anlar uzandıqca uzansın. Elə Ramazan da ona qarşı çox diqqətli idi. Qulluğunda durur, əzizləyir, yataqda xoş sözlər deyib qızğın ehtirasla bağrına basırdı.

Amma Elnarə, nəyə görəsə, tez soyudu ondan. Görəsən, nəyə görə? Bu barədə çox da fikirləşib baş sındırmamışdı. Hər halda, soyumuşdusa, deməli, sevməyibmiş bu adamı. Bəli, sevməyibmiş! Kənddən gəlmiş, demək olar ki, yad oğlanlarla iki kəlmə kəsməmiş təcrübəsiz qızın, sadəcə, xoşuna gəlibmiş Ramazan.

Axı Ramazan onun xoşuna gəlmişdisə və evlənmişdilərsə yavaş-yavaş sevgi yarana bilərdi ürəyində?! Bəs niyə yaranmadı, görəsən? Hə, lap yəqin ki,
oğlanın bəzi mənfi cəhətləri mane olmuşdu buna. Elə mənfi cəhətlər ki, sevgi olan yerdə onlar gözə görünməyə də bilərdilər. Ancaq sevgi olan yerdə! Sevgi isə yox imiş Elnarənin qəlbində ona qarşı!..

Ramazan lovğa idi. Özündən başqa heç kəsi bəyənmirdi. Bundan başqa, əxlaqı da şübhəli idi. Elnarədən əvvəl neçə rus qızı ilə əlaqədə olubmuş Bunu gizlətmək istəsə də, o başa düşürdü hər şeyi Çünki Ramazan bəzi sözləri, hərəkətləri ilə bunu anladırdı. Rus qızlarının yataqda çıxardıqları əcaib oyunlardan danışırdı. Guya ki, bunları başqa oğlanlardan eşidib. Evliliklərinin ikinci ayında yataqda Elnarədən elə şeylər tələb etməyə başladı ki, Elnarə ona kəskin cavab verməyə məcbur oldu:

- Mən sənin məşuqən deyiləm, arvadınam!

Ən pisi isə o idi ki, Seymurun arxasınca xoşagəlməz



ekitab.ucoz.org

sözlər danışırdı. Bu da Elnarəyə açıq- aşkar toxunurdu. Birincisi, Seymur onun qardaşının yaxın dostu idi. İkincisi də ki, o qədər yaxşılıq eləmişdi onlara. Toy günü hazır mənzil bağışlamışdı, iki həftə sonra Ramazanı fəhləlikdən azad edib, ona yaxşı iş tapşırmışdı. İndi Ramazan Seymurun şəhərdə açdığı bir neçə mağazaya ərzaq paylayırdı. Ərzaq anbarının ixtiyarı onun əlindəydi. Bunların qarşısında onun nankorluq etməsi heç xoşuna gəlmirdi Elnarənin.

Ərə getdiyi bir ay olardı. Elnarə bir gün firmanın ofisində Seymurla üz-üzə gəldi. Seymur onu mehribanlıqla danışdırıb hal-əhval tutdu. Problemləri ilə maraqlandı. Evdə tək oturub darıxmaması üçün
ofisdə, yaxud mağazaların birində işləməsini təklif etdi.

Elnarə o görüşdə bir daha əmin oldu ki, Seymurun ürəyində ona qarşı məhəbbət var. Onu da anladı ki, Seymur qətiyyən anlatmaq istəmir ona ürəyindəkini. Bacardığı qədər gizli saxlamağa çalışır. Amma Elnarə duya bilmişdi bu məhəbbəti. Baxışları ani olaraq toqquşanda oğlanın gözlərindən daxilinə ılıq bir cərəyan keçirdi, elə bil.

Bu, sonrakı görüşlərdə də baş verirdi. Qız hiss edirdi ki, daxilinə nəsə axır elə bil bu gözlərdən. Seymur ona heç yaxınlaşmırdı. Heç əl də tutmurdu onunla. Amma... Elnarə onunla göz-gözə gələndə, lap az qala, onunla cinsi əlaqəyə girmiş kimi hiss edirdi özünü. Qəribə xoş bir hiss yayılırdı bədəninə. Buna baxmayaraq, tezcə gözünü çəkirdi Seymurun
gözlərindən. Utanırdı, ya dözə bilmirdi bu baxışların yandırıcı təsirinə...

Ramazanla isə hər gecə olmasa da, iki gündən bir həqiqi cinsi əlaqədə olurdu. Amma daha heç ləzzət vermirdi ona


ekitab.ucoz.org

bu əlaqələr. Öz könlü istəmədən baş verirdi bunlar. Sanki Ramazan hər dəfə cinsi zorlamaya məruz qoyurdu onu.

Dözürdü. Fikirləşirdi ki, ər-arvadlıq belə olurmuş, yəqin. Fikirləşirdi ki, hər şey öz yoluna düşə bilər yenə. Uşağa da qalmırdı və əvvəl səbəbini bilməsə də, sonra sübut olundu ki, günah onda yox, Ramazanda imiş.

Seymur barədə isə yenə də ağlına heç nə gətirmək istəmirdi. Ona xətrini əziz tutduğu bir adam kimi, qardaşının dostu kimi baxırdı, vəssalam! Amma
səbəbini özü də anlamadan, son vaxtlar tez-tez görmək istəyirdi onu...

Seymur isə, deyəsən, onunla üz-üzə gəlməyə o qədər də can atmırdı. Rastlaşanda da arada pərdə saxlamaqla, bir-iki dəqiqə mehriban danışdırıb ayrılırdı.

Evliliklərinin beşinci ayı idi, deyəsən. Ramazan bir yoldaşının maşınında qəzaya uğradı. Onda Seymur qabağa düşüb xeyli pul xərcləməsəydi, Barnauldan həkim gətirməsəydi, Ramazan, lap yəqin ki, öləcəkdi. Çünki vəziyyəti çox ağır idi. Gecələr gah Elnarə, gah da Natiq palatada onunla qalırdı. Hətta iki dəfə Seymur özü əvəz etdi onları. Özü qaldı gecəni xəstəxanada.

Ramazan tamam sağalıb ayağa qalxdı. Bir dəfə gecə Elnarə ilə yataqda idi. Başladı Seymurun var-
dövlətinin artmasından yana-yana danışıb qeybət etməyə. Elnarə daha buna dözmədi və ilk dəfə ərinin xasiyyətini üzünə çırpdı:

- Sən nə cür paxıl, nankor adamsan, mən bilməmişəm! - dedi. - O olmasaydı, bəlkə də ölmüşdün sən! Bizə o qədər yaxşılıq eləyib, necə dilin gəlir onun haqqında belə danışırsan?!


ekitab.ucoz.org

Pərt olmuş Ramazan gecdən-gec dilləndi:

- Başa düşmürəm, sən onu niyə müdafiə edirsən? O, qardaşının dostudursa, mən də ərinəm. Bir də ki, pulu-imkanı var eləyir də! Nəyi əskilir ki?

- Bəsdi, sən Allah! - Elnarə inciyib o biri üzü üstə çevrildi və yuxuya gedənə qədər daha danışmadılar.

Beş-altı ay da beləcə sevgisiz, məhəbbətsiz yaşadılar. Elnarə daha gecələri həsrətlə gözləmirdi.
Əksinə, əri ilə eyni yatağa girmək getdikcə dözülməz, xoşagəlməz bir işə çevrilirdi onun üçün. Onu, demək olar ki, zorla soyunduran Ramazanın qoynunda özünü narahat və hətta təhqir olunmuş hiss edirdi. Qəribə də olsa, ona bəzən elə gəlirdi ki, yad kişi ilə əlaqədə olur, bədənini satıb namussuzluq edir. Ancaq yenə dözüb dayanırdı. Boşanmağı ağlına belə gətirmirdi.

Bir gün... Seymurun Ramazana tapşırdığı ərzaq anbarında yanğın baş verdi və yanğınsöndürənlər gələnə qədər bütün anbar yanıb kül oldu. Hadisə ilə əlaqədar cinayət işi açıldı. İstintaqı Seymurun təzəcə dostlaşdığı müstəntiq Fomin aparırdı. O, müəyyən etdi ki, yanğını Ramazan özü törədib. Sən demə, anbardan xeyli oğurluq mal çıxarıbmış və bunun üstünün açılmaması üçün anbarı yandırıbmış.

Ramazanı ağır cəza gözləyirdi onda. Amma Seymur onun həbs olunmağına imkan vermədi. Fo- mindən xahiş edib işi bağlatdırdı. Guya yanğın anbardakı elektrik xətlərində yaranmış qısa qapanma nəticəsində baş veribmiş.

Elnarə isə əsl həqiqətdən xəbər tutmuşdu və daha buna dözə bilmədi. Dərdini qardaşına açıb Ramazanı sevmədiyini, onunla yaşaya bilməyəcəyini dedi. Xeyli



ekitab.ucoz.org

yalvarışdan sonra Natiq bacısını anlayıb razılığını verdi və bir il iki aylıq evlilikdən sonra Ramazandan ayrıldılar. Sonra Ramazan Seymurun firmasından çıxdı və gedib başqa bir tikinti firmasında fəhlə kimi işə düzəldi...

Şəhərə çatmağa bir saatlıq yol qalmışdı. Bu dəfə maşını Qasımlı saxlatdırdı. Dedi ki, siqaret
çəkmək istəyir. Natiq maşını saxladı. Qasımlı qapını açanda Elnarə ona tərəf dönüb:

- Bizə görə narahat olmayın, maşında çəkə bilərsiniz, - dedi.

Ayağını asfalta qoyan Qasımlı gülümsəyib, zarafatla dilləndi:

- Mən özümü zəhərləmək istəyirəm, sizi yox!

Elnarənin də dodaqlarına təbəssüm qondu. Axır
ki, bu qaranlıq insanla iki kəlmə danışa bilmişdilər.

- Yaxşı olar ki, heç özünüzü də zəhərləməyəsiniz...

Bunu dedi və elə həmin anda münasibət sərhədini keçdiyini başa düşdü. Özündən azı iyirmi yaş böyük olan bu ciddi xarakterli kişi ilə, sirli bir peşə sahibi olan adamla yenicə tanış olmuşdular və
buna heç hələ tanışlıq da demək olmazdı. Tez səhvini düzəltməyə çalışdı:

- Siz insanlara çox lazımsınız...

Amma Qasımlı daha bu sözləri eşitmədi.
Maşından aralanıb bir siqaret yandırmışdı. Əmirxangilin maşınları yenə gəlib arxada saxladılar. Natiq maşından enib tatar dostu ilə söhbət etməyə başladı. Bayaqdan maşında mürgüləyən Boris də ayılıb maşından çıxdı və Qasımlının yanına gəldi. Qollarını yanlara açıb dərindən nəfəs aldı:

- Görün, necə gözəl hava var!


ekitab.ucoz.org

Hər yer zülmət qaranlıq olduğu üçün Qasımlı dostunun üzünü aydın görə bilmirdi.

- Hə, amma bir az soyuqdur, - dedi.

Əslində, onun azacıq üşüməsi xəstəliyi ilə bağlı idi. Yenə özünü narahat hiss edirdi. Amma qətiyyən bunun fərqinə varmırdı. Ağrıya-acıya çox dözümlü idi. Həddindən artıq.

Boris bir az da yaxına gələrək, ilk dəfə olaraq, xəfiyyə dostunun buraya gəlişinin məqsədinə toxundu:

- Nə düşünürsünüz bu cinayətlər barədə, Qanbay Fərhadoviç?

- Heç nə! - Qasımlı qısa cavab verdi.

Boris güldü:

-Az qala sizin xasiyyətinizi unutmuşdum. Axı siz təhqiqat apararkən bu barədə danışmağı heç vaxt sevməmisiniz. Bağışlayın... - ciddiləşib, səsini alçaltdı. - Amma mən qorxuram ki, bu iş sizin həmyerlinizin üzərində qala. Radik Boskanyanın öldürülməsinə görə deyirəm. Axı o ermənidir?! Siz də iyirmi ilə yaxındır Ermənistanla müharibə şəraitindəsiniz...

Qasımlı ona etiraz etdi:

- Müharibə öz yerində, amma kənarda yaşayan azərilərlə ermənilər o qədər də düşmən münasibət göstərmirlər bir-birlərinə. Hətta bəzən mehriban yoldaşlıq edirlər.

- Başqa cür də olur axı... Macarıstanda sizin gənc leytenant... Nə idi onun adı?.. - Boris alnını ovuşdurdu. - Hə, Ramil Səfərov! Ermənini vurub öldürmədi?

Qasımlı siqaretini sümürüb təmkinlə dilləndi:



ekitab.ucoz.org

- Boris, özün yaxşı bilirsən ki, həyatda hamı tərəfindən qəbul olunan yazılmamış qanunlar var. Bilirsən ki, adam öldürənlərin iki adı var: ya qəh
rəman, ya cinayətkar. Ramil Səfərov qəhrəmandır, çünki öz dövlətinin bayrağını qorumuşdu...

- Ancaq inciməyin, siz onu qoruya bilmədiniz. - Boris dostunun sözünü kəsdi.

Qasımlı yüngülcə ah çəkib kədərlə başını buladı:

- Qəhrəman elə ona görə qəhrəmandır ki, qorunmağa-filana ehtiyacı yoxdur. Və elə buna görə də hər adam qəhrəman ola bilmir... Qaldı ki, bu hadisəyə, mən hələ bilmirəm ki, iş nə yerdədir.
Amma sən mənim xasiyyətimə bələdsən. Bir cinayət işini, həm də sirli bir cinayət işini araşdırmağa başladımsa, həmin andan cinayəti törədən məchul şəxs mənim ciddi rəqibimə çevrilir. Və mən o rəqibimlə mübarizəyə başlayıram. Bu işdə isə mənim rəqibim erməni Boskanyan yox, onu qətlə yetirən
naməlum şəxsdir. Hətta bu mənim həmyerlim Seymur da olsa, rəqibim hesab olunur.

- Aydındır! - Boris onunla razılaşdı. - Mən inanıram ki, siz bu dəfə də rəqibinizə qalib gələcəksiniz. Amma... Sizdə gedən bu müharibə nə vaxt bitəcək bəs? Yadınızdadı, siz Moskvada olanda bu qarşıdurmaya uzaqdan-uzağa baxıb qiymət verirdik. İndi isə siz Bakıda yaşayırsınız. Bəs oradan necə görünür bu müharibə? Bir təcrübəli adam kimi nə anlayırsınız bu işlərdən?

Qasımlı istehza ilə gülümsədi:

- Mən siyasətçi deyiləm, xəfiyyəyəm. Cinayət axtarışı ilə məşğul oluram. Həm də kim tərəfindən törədilməsi



ekitab.ucoz.org

məlum olmayan gizli cinayətlərin axtarışı ilə. Və özün də bilirsən ki, bundan zövq alıram, çox vaxt. Amma ermənilərin Azərbaycanda törətdiyi
cinayətlər hamısı dünyanın gözü qabağındadır. Torpaqların zorakılıqla işğalı, insanların vəhşicəsinə qırılması, evlərin, meşələrin yandırılması...
Saymaqla qurtarmaq olmaz bunları. Bunlar gizli cinayətlər deyil. Bütün dünya bilir ki, bu cinayətlər olub və onu da bilirlər ki, kimlər tərəfindən edilib. Amma qiymət verən yoxdu buna. Bax, bunu anlaya bilmirəm. Elə hey nəyisə araşdırırlar, sanki təhqiqat aparırlar. Nəyi araşdırırlar, görəsən? Cinayətkarı axtarırlar? Allaha and olsun, gülməlidir! - Siqaretini yerə atıb hirslə tapdaladı. - Gedək, Boris, bağışla, bir az əsəbiləşdim.

Borisin, sanki deməyə heç bir sözü yox idi. O da dərindən ah çəkib maşına tərəf getdi. Natiq də Əmirxandan ayrılıb gəldi və yola düşdülər. Daha heç
biri danışmırdı. Hamısı dərin fikrə qərq olmuşdu, elə
bil...

Şəhərə çatanda artıq gecə saat 12-ni keçmişdi. Natiq polkovnik Nikitinin xahişi ilə maşını birbaş şəhər polis idarəsinin rəisi Belovun evinin qabağına sürdü. Hər iki polkovnik bu gecəni rəisin mənzilində qalacaqdılar. Onların gələcəyi barədə Belovun dünəndən məlumatı var idi.

Polkovniklər «gecəniz xeyrə qalsın!» deyib maşından çıxanda Elnarə də çıxıb Qasımlıya yanaşdı. Onun baxışlarında ümidlə bərabər bir nigarançılıq da var idi. Bir qədər cəsarətsiz səslə:

- Bəlkə siz bizimlə gedəsiniz... - dedi.

Qasımlı yorğun və xəstəhal görünürdü. Başı ilə



ekitab.ucoz.org

polkovnik Nikitini göstərib:

- Borislə çoxdandır görüşmürük, - dedi. - Bir az söhbət etmək istəyirik. Darıxmayın, sizin də evinizə gələcəm.

- Nə vaxt? - qadının səsində sanki yalvarışa bənzər bir çalar var idi.

- Sabah, ya birisi gün. - Qasımlı cavab verdi və bir daha təkrar etdi. - Gecəniz xeyrə qalsın!

- Sizin də!.. Gecəniz xeyrə qalsın...

Onlar bloka daxil olana kimi Elnarə Bakıdan gəlmiş müəmmalı xəfiyyənin arxasınca baxdı. Yalnız bundan sonra qayıdıb maşına əyləşdi və qardaşına:

- Çox qaraqabaq adamdır bizim bu həmyerlimiz! - dedi.

- Hə, elə bil məcbur göndəriblər onu buraya. Doğrusu, heç gözüm su içmədi bundan. İnanmıram bir iş görə bilsin.

Bacısı ona etiraz etdi:

- Amma mən nədənsə inanıram ona. Mənə elə gəlir ki, onun bilmədiyi bir şey yoxdur. Hər şeyi bilir! Hər şeyi bilir, elə ona görə də az danışır.

- Təki sən deyən olsun!

Natiq bunu deyib maşını işə saldı və bacısıgilin evinə sürdü. Tamerlan arxa oturacaqda uzanıb mışıl- mışıl yatırdı.

## Altıncı fəsil

Mənzilin qapısını ev sahibi özü açdı. Bu arıq, dar və uzunsov sifəti dərin qırışlarla örtülmüş əlli yaşlarında bir kişi idi. Qasımlı elə ilk baxışdan anladı ki, onun gəlişi rəisin ürəyindən deyil. Podpolkovnik Belov onunla bir qədər soyuq görüşdü. Əvəzində isə Borisi yaltaq bir təbəssümlə salamlayıb onları mənzilə dəvət etdi. İçəri keçdilər. Ev sahibi qabağa düşüb qonaqlarını mətbəxə apardı.

-Yəqin ki, bizi bağışlayarsınız. Gecə keçdiyi üçün hamı



ekitab.ucoz.org

yatıb. Qulluqçu da çoxdan çıxıb gedib. Odur ki, sizə özüm qulluq etməli olacam.

Mətbəxdə süfrə açılmış, süfrəyə içkilər, soyuq yeməklər düzülmüşdü. Hər üçü əyləşən kimi ev
sahibi kiçik stəkanlara araq süzdü və dərhal öz stəkanını qaldırıb:

- Gəlişinizə çox şadam! - dedi.

Qasımlı içməkdən imtina etdi. Boris isə
stəkanını rəisin stəkanına toxundurub başına çəkdi. Bir dilim kolbasa götürüb yedi və Bakıdan gələn qonağı ev sahibinə təqdim etdi:

- Bakıdan polis xəfiyyəsinin gələcəyi barədə sizə telefonda demişdim. Qanbay Fərhadoviç istefada olan polkovnikdir. Əvvəllər Rusiya Baş Cinayət Axtarış idarəsində işləyib. Ağır cinayətlər bölməsində. Haqqında eşitməmiş olmazsınız. «Qara xəfiyyə» də deyirdilər cənab Qasımlıya.

Belov nəsə mızıldanıb başını tərpətdi. Qasımlı bir-iki tikə yeyən kimi süfrədən çəkildi. Özü üçün qəhvə xahiş edib bir siqaret yandırdı. Ev sahibinin
ona qarşı soyuqluğu heç vecinə də deyildi. Özünəməxsus diqqətli baxışlarla bu sərt şimalı adamı süzür, onun ürəyində yatan fikirləri öyrənmək istəyirdi.

- Bu Natiq necə oğlandır? - deyə Boris ev sahibindən soruşdu. - Sizin işçinizi deyirəm.

Rəis onsuz da qırışlarla örtülmüş üzünü bir az da qırışdırdı:

- Baş leytenant Əhmədov?

-Bəli!

- Sizcə, başqasının arvadıyla gəzib, ailəsinə müdaxilə



ekitab.ucoz.org

edən necə olar? - ev sahibi qeyri-müəyyən cavab verdi. Qasımlı susurdu. Boris isə təəccüblənib:

- Necə yəni? - deyə diqqətini topladı.

- Səkkiz gün bundan qabaq, yəni bu hadisə baş verəndən iki gün əvvəl polis idarəsinə bir qadın zəng vurdu. Narazılığını bildirib dedi ki, sizin əməkdaşınız əhalinin asayişini qorumaq əvəzinə ərli qadınla əlaqədə olur. Adını da dedi həmin qadının. Nataşa adında gənc, gözəl qadındır. Seymur Muradovun firmasında mühasib işləyir. Natiq firma sahibinin qohumu olduğu üçün belə çıxır ki, əslində, tutduğu mövqedən istifadə edir. Qadının əri Sergey Novikov ixtisasca hüquqşünasdır. Onu da deyim ki, çox təcrübəli, bilikli hüquqşünasdır. Əvvəllər Serafimovun firmasında işləyirdi, indi isə işsizdir.

- Belə-belə işlər... - Boris dilləndi.

- Hə, yeri gəlmişkən, bu cinayət baş verən zaman Sergeylə Nataşa Seymur Muradovun evində olublar. Cinayətdə şübhəli bilinən iki nəfərdən biri elə
Sergey idi. Amma sonra istintaq müəyyən etdi ki, Serafimovun öldürülməsində Sergey Novikovun heç bir marağı ola bilməzdi.

- Bəs Seymur Muradovun bu işdə nə kimi marağı oia bilərdi? - Qasımlı birdən-birə söhbətə müdaxilə etdi.

Rəis bir qədər duruxub sonra sözə başladı:

- Bilirsinizmi, yaxşı olar, belə sualları prokurorluğa verəsiniz. Çünki iş onların əlindədir. Amma indi ki soruşursunuz, mən özüm də bəzi şeylər deyə bilərəm. Seymur Muradovla Pavelin firmaları bir-birlərilə rəqabətdə idilər. Pavelin firması daha güclüdür. Lap elə bu yaxınlarda respublikamızın təhsil nazirliyi məktəblərin yeni dərs ilinə



ekitab.ucoz.org

qədər təmiri üçün tender elan etmişdi. Həmin tenderdə qalib gəlməyə ən şanslı namizəd Pavel Serafimovun firması idi...

- Qalib gəldimi? - Qasımlı sakitcə soruşdu.

- Xeyr! Bu hadisə baş verdi və hər şey yarımçıq qaldı. İndi, əlbəttə, Muradov həbs edilməsəydi onun firması qalib gələ bilərdi.

Qasımlı qəhvədən bir qurtum içib, üzünü döndərdi. Bununla da, sanki, aldığı cavabla qane olduğunu bildirdi.

- Bəs Natiq Əhmədov bir işçi kimi necə işçidir? - Borisi, deyəsən, bu daha çox maraqlandırırdı.

Podpolkovnik Belov, ani olaraq, Qasımlıya şübhəli bir nəzər salıb danışmağa başladı:

- Əhmədov bizdə narkomaniya ilə mübarizə bölməsindədir. Əslində, ona verilən tapşırıqları həmişə yerinə yetirməyə çalışıb. Amma təcrübəsizdir, hər halda. Təcrübəsizdir, üstəlik də tərsin biridir. Lap öz keçmiş rəisi kimi. Onun işlədiyi bölmənin rəisi kapitan Eduard Sokolov idi. Həm də Natiqlə dost idilər. Həmin Eduard bir ay əvvəl özünü yaşadığı mənzilin balkonundan atıb intihar etdi.

- Eşitmişəm bunu. - Boris başını tərpədib diqqətini bir az da topladı.

- Arvadı onu atıb atası evinə getmişdi, - rəis söhbətinə davam etdi. - Gedəndə yeddi yaşlı qızını da özüylə aparmışdı. Bundan sonra Sokolov içkiyə qurşanıbmış. Sonrası da belə... Gecənin bir aləmində sərxoş olub özünü balkondan tullayıb. Onun intihar etdiyi təsdiq olundu. Müstəntiq cinayət işini bağladı. Amma bu Əhmədov Natiq tərsliyinə salıb səs-küy qaldırdı ki, yox, Eduardı öldürüblər.



ekitab.ucoz.org

Yəni, mənzilinə soxulub zorla balkondan atıblar.

- O bunu nəyə əsasən iddia edir axı? - Boris soruşdu.

- Guya nə mənzildə, nə də yerə düşmüş meyitin cibində mənzilin açarı tapılmayıb. - rəis kinayə ilə dilləndi. - Amma qapı çöl tərəfdən qıfıllanmayıbmış. Belə olan halda, açar mənzilə soxulan qatilin nəyinə lazım idi ki, Eduardın cibindən götürsün? Gülünc görünmürmü bu iddia?

- Bəlkə açar topunda mənzilin açarından başqa hansısa şkafın, ya seyfin açarı olub? - Qasımlı söhbətə qarışdı.

- Xeyr! - rəis başını buladı. - Eduardın mənzilində nə seyf, nə də qapısı qıfıllı şkaf var imiş.

- Bəs iş yerindəki kabinetində?

- Yox, canım! - podpolkovnik Belov narazılıqla əlini yellədi. - kabinetindəki seyfin surğucunu özümüz açıb baxmışıq. Orada vacib və şübhəli heç nə yox idi.

- Bəs siz özünüz necə izah edirsiniz açarın yoxa çıxmağını? - Qasımlı sanki rəisi istintaq edirdi.

- Bilmirəm, - rəis qaşqabağını salladı. - Bu iş artıq bağlanmış bir işdir. İstintaqı da prokurorluq aparıb. Məncə, siz bunu qurdalamağa gəlməmisiniz buraya... - Borisin ona narazılıqla baxdığını görüb danışıq tərzini dəyişdi. - Amma siz bunu məndən soruşursunuzsa, mənim fikrimcə, Sokolov özünü balkondan aşağı atanda açarlar cibindən düşüb və sonra, nədənsə, əməliyyatçıların diqqətindən yayınıb... Hə, bir də onu deyim ki, Eduard Sokolov çox ehtiyatlı adam idi. Mənzilinə gələn yad adama heç vaxt qapı açmazdı. Xüsusilə də gecənin yarısında.

Qasımlı daha heç nə soruşmadı. Bundan istifadə edən Boris söhbəti dəyişdi:


ekitab.ucoz.org

- Bəs bu zəhərlənmə hadisəsi barədə fikriniz necədir? Zəhərlənmə və bir də o ermənininin öldürülməsi barədə. Düzdür, işi prokurorluğun müstəntiqi aparır, amma, sizin fikriniz də maraqlıdır. Dünən telefonda deməyinizə görə Serafimov sizin dostunuz olub.

Rəis hər ikisinin stəkanına araq süzdü. İçib kolbasadan yedilər. Bundan sonra köksünü ötürüb sözə başladı:

- Bəli, Pavellə çox yaxın idik. Böyük adam idi. Təkcə şəhərdə yox, bütün Altayda onu tanıyırdılar, onunla hesablaşırdılar. Bütün bu ərazidə ən güclü təmir-tikinti firması onunku idi. Xeyriyyəçiliklə də məşğul olurdu.

- Deməli, siz də o fikirdəsiniz ki onu Seymur Muradov öldürüb?

Sualı yenə Boris verdi. Qasımlı isə yenə dinib-danışmadan siqaret çəkirdi. Ev sahibi də bir siqaret yandırıb gecdən-gec dilləndi:

- İşi prokurorluğun baş müstəntiqi Fyodor Fomin aparır. İstintaq işində köhnə adamdır. Təcrübəlidir, bacarıqlıdır. Onu da deyim ki, Seymurun dostudur və həmin hadisə vaxtı süfrə arxasında əyləşənlərdən biri də o olub...

- Bəs onda hansı əsasla istintaqı o aparır? - Qasımlı qəflətən onun sözünü kəsdi.

- Başa düşürəm nə demək istəyirsiniz, - rəis qaşqabaqlı halda dilləndi. - İş rəsmi olaraq müstəntiq İvanova tapşırılıb. Amma Fomin hamının inandığı və hörmət etdiyi hüquqşünasdır. Üstəlik,
hadisənin şahidi olduğu üçün istintaqı ondan yaxşı heç kəs apara bilməz.

Qasımlı başını yelləyib susdu və Boris bayaqkı sualını təkrar etməyə məcbur oldu:



ekitab.ucoz.org

- Siz şəxsən özünüz nə fikirdəsiniz bu cinayət barədə?

- Burada ikinci böyük tikinti firması Seymur Muradovundur, - podpolkovnik Belov yenə dəqiq cavabdan yayındı. - Hamı bilirdi ki, o, Serafimova öz rəqibi kimi baxırdı və bölgədə birincilik uğrunda mübarizə aparırdı. Hələ onu demirəm ki, beş ilə sıfırdan başlayıb böyük firma yaratması özü də şübhəli bir məsələdir... Necə deyim?.. Ümumiyyətlə, hər şey onun əleyhinədir. Belə olmasaydı, Fomin onun həbsinə verilmiş qərarla razılaşmazdı. Qaldı ki, Radik Boskanyanın şəhər kənarında öldürülməsinə, özünüz yaxşı bilirsiniz, bu iki millət bu saat düşmənçilik vəziyyətindədirlər. Aralarında müharibə gedir.

Boris Nikitin inamsız halda başını buladı və yolda Qasımlı ilə etdiyi söhbətdən fərqli olaraq Seymuru müdafiə etdi:

- Mən şəxsən inana bilmirəm bu fərziyyəyə. Seymur Muradov ağlı başında olan bir adamdırsa necə ola bilər ki, aradan götürmək istədiyi şəxsi evinə qonaq dəvət edib, öz mənzilindəcə zəhərləsin?!

- Hər halda, toplanan faktlar onun günahkar olduğunu göstərir, - rəis təkrar etdi.

- Yaxşı, bəs Seymurun planına görə bu cinayət kimin üstünə atılmalı idi? Belə açıq-aşkar öldürmək istəyirdisə Serafimovu, niyə onu küçədə güllə ilə vurub öldürmürdü? Niyə indi boynuna almır cinayətini? Deməli, kimisə şübhə hədəfi kimi hazırlamalı idi o!

- Bilmirəm, - rəis çiynini çəkdi. - Ola bilsin, Radik Boskanyanın üstünə atmaq istəyib işi. Radik də həmin məclisdə iştirak edib axı. Ola bilsin, elə ona görə də Muradovun adamları bu ermənini aradan götürüblər.


ekitab.ucoz.org

İstəyiblər ki, Radiki istintaqa çəkə bilməyək.

- Ağlabatan söhbət deyil! - Boris başını yellədi. - Hər halda, inanıram ki, Qanbay Fərhadoviç əsl həqiqəti üzə çıxaracaq. O, bundan qat-qat çətin və qaranlıq cinayətlərin üstünü açıb.

- Baxarıq... - ev sahibi quru və soyuq şəkildə dilləndi.

Bu dəfə arağı stəkanlara Boris özü süzdü.
Rəislə ikisi içdilər. Artıq saat 2-ni ötürdü. Yol yorğunu olan və daxili narahatlıqdan əziyyət çəkən Qanbay Qasımlı soyuyub buza dönmüş qəhvədən bir qurtum alıb yenə siqaret yandırdı. Boris içdiyi arağın üstündən turşuya qoyulmuş xiyar yeyib polis rəisinə üz tutdu:

- Hə, Vladimir İvanoviç, yaxşı yadıma düşdü. Nazirliyə çatan məlumata görə burada azərbaycanlılara qarşı kütləvi hücumlar başlayıb. Məgər siz bunun qarşısını ala bilmirsiniz?

Rəis ağzındakı tikəni udub cəld cavab verdi:

- Bacardığımız qədər sakitlik yaratmağa çalışırıq, Boris Mixayloviç. Əslində, onu deyim ki, elə böyük münaqişə də olmayıb. Sadəcə, bir qrup gənc
yığışıb Serafimovun, Boskanyanın qətlinə etirazlarını bildiriblər.

- Məncə, siz məsələni bir az kiçiltdiniz.

- Yox, - rəis duruxdu. - Bilirsiniz, qonağımızın xətrinə dəyməsin, azərbaycanlılar da özlərini yaxşı aparmırlar...

- Neyləyirlər ki? - Boris kinayə ilə soruşdu.

- Lap elə götürək baş leytenant Əhmədovun hərəkətini...

- Bir dəqiqə, Vladimir İvanoviç, - Boris əlini qaldırıb onun sözünü yarımçıq kəsdi. - Birincisi, o Nataşa dediyin qadın özü razı olmasa Natiq ona yaxınlaşmazdı. İkincisi isə,


ekitab.ucoz.org

bir nəfərə görə başqalarına pis baxmaq olmaz. Siz o millətin yaxşılarım az tanımırsınız. Eləcə də mən... Mən şəxsən Qanbay Fərhadoviçlə dost olmağımla fəxr
edirəm. Təkcə bir ona görə bütün azərilərə rəğbət göstərməyə hazıram. Eşidirsinizmi? - Boris sərrast danışsa da çox içdiyi danışığında hiss olunurdu. - Mən sabah Moskvaya qayıdacam. Bütün qüvvələrinizi səfərbər edib bu məsələnin böyüməsinin qarşısını alın. İmkan yaradın, Qanbay Fərhadoviç təhqiqatını aparsın. Eşidirsinizmi? Bu barədə prokurordan da xahiş edəcəm. Seymur Muradovun günahsızlığı sübut olunsa hamı sakitləşəcək.

- Bəs, əksinə, cinayət onun üstündə qalsa? - rəis gözlərini qıyıb əvvəl Qasımlıya, sonra nazirliyin nümayəndəsinə baxdı.

Boris Nikitin barmağını qaldırıb havada silkələdi

- Hər nə olsa, sizin borcunuzdur ki, münaqişənin qarşısını birdəfəlik alasınız. O
gənclərin başçılarını tutub söhbət aparın. Lazım gəlsə, cəzalandırın!

- Oldu, cənab polkovnik! - rəis gizli narazılıqla dilləndi.

- İndi isə araqdan süzün, içək! - Boris stəkanını qabağa itələdi.

Qasımlı birdən ayağa qalxıb ev sahibinə:

- İcazə versəydiniz, mən yatmaq istəyirəm, - dedi.

- Hə, bu saat otağınızı sizə göstərərəm!

Ev sahibi bunu deyib durdu və qabağa düşüb yatacağı otağı qonağa göstərdi. Sonra isə yenə də mətbəxə qayıtdı. Qasımlı yol çantasından diş fırçası ilə dəsmalını götürüb vanna otağına keçdi. Əl-üzünü yuyub, dişlərini təmizlədi.

Yalnız bundan sonra ona göstərilmiş otağa keçdi. Polis



ekitab.ucoz.org

rəisinin var-dövlətinə söz ola bilməzdi. Otaq başdan-başa bahalı mebellərlə bəzədilmişdi. Soyunub onun üçün düzəlmiş yatağa girdi. Gözlərini yumub aparacağı təhqiqat barədə fikirləşmək istədi. Amma tez də bundan vaz keçdi. Yatmaq lazım idi. Uzun yolun yorğunluğu özünü göstərirdi.

## Yeddinci fəsil

Səhəri gün yuxudan çox gec ayılmış Qanbay Qasımlı ilə Boris Nikitin günortaya yaxın şəhərin yaxınlığında yerləşən Mayma qəsəbəsinə - müstəntiq Fyodor Fominin evinə gəldilər.

Bazar günü idi. Qonaqların gələcəyini bilən Fomin heç yerə getməyib onları gözləmişdi. Orta boylu, bir qədər kök, başının qabağı keçəlləşmiş müstəntiq şən və gülərüz bir adam idi. Qonaqları mehribanlıqla qarşılayıb, dərhal öz geniş həyəti ilə onları tanış etməyə başladı.

Fləyətdə çoxlu alma və gilənar ağacları var idi. Aralarında tək bir armud ağacı gözə çarpırdı. Fləyə- tin bir küncündəki hində ev quşları saxlanılırdı.

Zəncirlənmiş iri bir it yuvasının qarşısında uzanıb yad adamlara diqqət kəsilmişdi. Fomin hər bir ağac haqqında, bəslədiyi qazlar və toyuqlar haqqında, həyətin ortasındakı su quyusu haqqında polkovniklərə geniş məlumat verirdi. Onun torpağa bağlı, zəhmətkeş bir adam olduğu aydın görünürdü. Həyətlə tanışlıq bitəndən sonra ev sahibi qonaqlarını birmərtəbəli evin açıq eyvanına qoyulmuş masanın arxasına dəvət etdi.

Fominin həyat yoldaşı Mariya Zaxarovna da əri kimi istiqanlı idi. Qasımlının Azərbaycandan gəldiyini biləndə ona öz qonaqpərvərliyini daha çox nümayiş etdirmək istəyirdi. Qonaqların istəyini öyrənib onlar üçün qəhvə


ekitab.ucoz.org

gətirdi. Süfrəyə öz əliylə bişirdiyi müxtəlif şirniyyatlardan düzdü.

Məlum oldu ki, onlar burada ər-arvad tək yaşayırlar. Bir oğul, bir qızları var imiş ki, onlar da valideynlərindən ayrı yaşayırlarmış. Fominin deməyinə görə. Oğlu Barnaul şəhərində həkim işləyirdi. Qızları isə Qorno-Altayskda ərdə imiş.

Mariya özü də ginekoloq idi. Şəhər xəstəxanasında işləyirdi. Qonaq gələcəyini bildiyindən üst-başına yaxşıca əl gəzdirmişdi. Ətli yanaqları elə işıqlı idi ki, yaşının əlliyə çatmasına baxmayaraq, hələ cavan görünürdü. Dolu əndamını qıvraq şəkildə oynadaraq, əlində gətirdiyi piroqları süfrəyə düzdü. Üzünü Qasımlıya tutub bir daha dil- ağız elədi:

- Sizin gəlişinizə çox şad olduq. Biz azəriləri sevirik. Mən də, Fedya da! - işvə ilə ərinə baxdı. - Elə deyil, Fedya?

- Elədir! - Fomin təsdiq etdi. - Müslüm Maqomayev, Rəşid Behbudov, Polad Bülbüloğlu Mariyanın ən çox sevdiyi müğənnilər olub.

- Hə, - Mariya həvəslə dilləndi. - Qız vaxtı anam deyirdi ki, səni Polad Bülbüloğluna ərə verəcəm.

- Amma mənim bəxtimdən bu baş tutmadı, - əri zarafat etdi.

Mariya ürəkdən gülüb:

- Hə, doğrudan da, bəxtin var imiş, - dedi.

Sonra isə bir qədər ciddiləşib əlavə etdi:

- Seymur da, Natiq də bizim dostlarımızdırlar. Seymur çox yaxşı oğlandır. Əsl kişidir! Bizim camaata o qədər yaxşılıq eləyib ki... Bura gələndə keçdiyiniz o balaca körpünü də o saldırıb. Bizim xəstəxananı pulsuz təmir


ekitab.ucoz.org

etdirib. Nə mən, nə də
Fedya inanmırıq onun cinayət etməyinə. Lap şok vəziyyətindəyik bir həftədir. Fedya hətta prokurora etiraz etmişdi onun tutulmağını görə... Elə insan cinayət eləməz axı! Elə vicdanlı insan. Arvadı da yaxşı, mehriban qızdır. Elnarə... - ah çəkib başını buladı. - Heç nə başa düşə bilmirəm! Heç nə!..

Süfrə başına azacıq sükut çökdü. Mariya birdən üzünə mehriban ifadə verib:

- Siz qəhvənizi soyutmayın. Mənim mətbəxdə işlərim var. - dedi və tələsik evə keçdi.

Süfrədəki şirniyyatları yeməyə girişən Boris ağzındakı tikəni çeynəyə-çeynəyə başını tərpətdi:

- Belə çıxır ki, Seymur Muradovun buralarda böyük hörməti varmış. Başa düşmürəm, necə olub ki, prokuror belə bir adamı həbs etmək qərarına gəlib. Hansı dəlillər var axı onun əleyhinə?

Polkovnik Qasımlı bir siqaret yandırıb sualedici nəzərlərlə Fominə baxdı. Müstəntiq başa düşdü ki, danışmağı o qədər də sevməyən bu qaraqabaq xəfiyyə ondan ətraflı məlumat eşitmək istəyir. Qəhvədən bir qurtum içərək boğazını arıtladı və danışmağa başladı:

- Hadisə düz bir həftə əvvəl, bazar günü baş verib. Seymur bizi evinə qonaq dəvət eləmişdi. Pavel Serafimovu, məni, bir də Sergey Novikovu. Sergey çox bilikli hüquqşünasdır. Amma son vaxtlar içkiyə yaman qurşanıb. Əvvəl Serafimovun firmasında hüquqşünas idi. Elə içkiyə aludəliyinə görə uzaqlaşdırıldı oradan... Həmin gün Seymurun mənzilində cəmi on nəfər olmuşuq. Altı kişi, dörd qadın. Kişilər Seymur özü, Natiq, Serafimov,


ekitab.ucoz.org

Serafimovun sürücüsü Radik, Sergey Novikov və bir də mən olmuşuq. Qadınlar isə ev sahibəsi, Serafimovun arvadı Aiisa Alekseyevna, Sergeyin arvadı Nataşa və Mariya olub.

Seymurun mənzilində geniş balkon var. Bu balkonun qapısı yemək otağına açılır. Süfrə hələ hazır olmadığı üçün kişilərin altısı da balkona çıxdı. Hava da yaxşı idi o gün. Biz balkonda dayanıb söhbət edirdik. Maraqlıdır ki, süfrə hazır olana və hamımız birlikdə otağa dəvət olunana qədər Serafimovdan başqa hər birimiz bir dəfə balkondan otağa girib-çıxmışıq. Həm də tək-tək...

-Aha! Doğrudan da maraqlıdır! - Boris qabağa əyilib diqqətini topladı. Qasımlı isə sakit oturmuşdu və təmkinli baxışlarla ev sahibini süzürdü. Fomin davam etdi:

- Mənim çox güclü yaddaşım var. Ogünkü hər bir söhbət, hər bir hərəkət dəqiq yadımda qalıb. Söhbət yaxşı xörəklərdən və içkilərdən düşmüşdü. Məlum oldu ki, süfrədə Azərbaycandan gətirilmiş tut arağı da olacaq. Bilmirəm, Boris Mixayloviç bilir, yoxsa yox, bu araq çox tünd olur, amma içdikcə adama ləzzət verir.

- İçmişəm, - Boris başını yırğaladı.

- Hə... Natiq dedi ki, gərək Elnarəyə tapşırım, süfrəyə mənim üçün təmiz bulaq suyu qoymağı unutmasın. Mən onunla süfrə başında çox oturmuşam. Natiq araq içəndə üstündən turşu yeməyi, ya meyvə şirəsi içməyi sevmir. Həmişə təmiz su içir. Deyir ki, mən nə qədər istəsəniz araq içə bilərəm, bir şərtlə ki, süfrədə sərin bulaq suyu olsun. Hə, girdi otağa, bir-iki dəqiqə sonra qayıtdı.

Qadınlar təsdiq edir ki, oradan mətbəxə keçərək, Elnarəyə süfrəyə sərin su qoymağı tapşırıb.



ekitab.ucoz.org

İkinci Radik Boskanyan girdi otağa. O, Serafimovun sürücüsü, həm də ən yaxın adamlarından biri idi. Şən, zarafatcıI, üzüyola adam kimi tanıyırdım onu. Eşitdiyimə görə öz şefinə də çox sədaqətli imiş. Hə, Serafimovla mən pencəklərimizi soyunub yemək otağında qoymuşduq. Serafimov öz sürücüsünə dedi ki, içəri girib onun üçün siqaret gətirsin. Radik onun tapşırığını yerinə yetirib otağa daxil oldu və tez də bir siqaretlə qayıtdı.

Otağa üçüncü girən mən olmuşam. Mən içəri daxil olanda Elnarə ilə Nataşa, demək olar ki, mənimlə eyni vaxtda mətbəxdən otağa keçdilər. Nataşanın əlində soyuq yeməklər yığılmış podnos, Elnarəninkində isə altı dolu stəkan yığılmış podnos
var idi. Bu stəkanlara açıq qırmızı rəngli meyvə şirəsi süzülmüşdü. Sonra bildim ki, bu zoğal kompotudur. Yəqin ki, xəbəriniz var, Serafimov həmin bu kompotdan içərək zəhərlənib. Qadınlar gətirdikləri şeyləri süfrəyə düzüb qayıtdılar...

- Siz otağa nə üçün keçmişdiniz? - Qasımlı müstəntiqin sözünü kəsib qəflətən soruşdu.

- Burnumu silməyə! - gözlərini qəribə tərzdə qıyıb gülümsədi. - Dəsmalım pencəyin cibində qalmışdı. Onu götürüb burnumu sildim və qayıtdım.

- Bəs niyə elə gec?

- Necə yəni? - Fomin təəccübləndi.

- Dediniz ki, - Qasımlı izah etməyə başladı, - qadınlar otağa sizinlə bərabər giriblər. Gətirdiklərini masaya düzüb, sizdən qabaq otaqdan çıxıblar. Burnunuzu təmizləmək üçün bu müddət çox deyilmi?

- Siz məndən də şübhələnirsiniz? - ev sahibi bir anlıq



ekitab.ucoz.org

tutuldu.

- Mən həmin gün o mənzildə olmuş adamların hamısından şübhələnirəm. - Qasımlı səmimi bir təmkinlə dedi. - Siz təcrübəli bir müstəntiq kimi, gərək bundan inciməyəsiniz.

- Heç incimirəm də! - Fomin gülümsəməyə çalışıb izahat verdi. - Mən qadınlarla bir-iki kəlmə danışdım və onların yanında burnumu təmizləməyə tələsmədim.

- Nə danışdınız?

- Bizdə, adətən, kompotu qrafində qoyurlar süfrəyə. Elə suyu da Natiq üçün kiçik bir qrafində qoymuşdular. Elnarədən əvvəlcə soruşdum ki, bu nə şirəsidir. Çünki bu şirənin albalı şirəsinə bənzəməyən çox xoşagələn bir rəngi var idi. Elnarə
cavab verdi ki, bu zoğal kompotudur. Bizdə, yəni Altayda zoğal olmur. Doğrusu, heç vaxt zoğal ağacı görməmişəm. Onlar üçün zoğalı keçən il Azərbaycandan gətiriblərmiş. Elnarə başa saldı ki, həmin zoğaldan özü kompot hazırlayıb. Balonlara töküb ağzını bağlayaraq saxlayıbmış. Sonra soruşdum ki, bəs kompotu qrafində niyə qoymurlar süfrəyə? İzah etdi ki, kompot azdır, istəyir ki, hər kəsin payı ayrı olsun və hamı bunun dadına baxa bilsin. Həm də dedi ki, doğulduğu kənddə adətləri belə olub, yəni meyvə şirəsini stəkanlara töküb hər kəsin qarşısına qoyublar. Bu kiçik söhbətdən sonra onlar mətbəxə getdi. Mən isə burnumu silib, dəsmalı pencəyin cibinə qoyaraq balkona çıxdım.

Onu da deyim ki, kompotun süfrəyə stəkanlarda qoyulmasına görə müstəntiq İvanov Elnarədən çox
şübhələnirdi və onu ciddi şəkildə istintaqa cəlb etməyə çalışırdı. Amma, mən buna imkan vermədim. Çünki bu


ekitab.ucoz.org

qadının səmimiyyətinə inanmışdım.

Qasımlı heç nə demədən başını tərpətdi və bununla da izahatı qəbul etdiyini bildirdi. Fomin söhbətinə davam etdi:

- Otağa dördüncü daxil olan Seymur özü oldu. Bunun səbəbini bilmədik. Eləcə, qəflətən, bizdən ayrılıb içəri keçdi və beş dəqiqə sonra qayıtdı. İzahatlarda göstərilənlərə görə, mətbəxə keçib qadınlarla söhbət edibmiş.

Qasımlı yenə bir siqaret yandırıb sual verdi:

- O geri qayıdanda davranışında qeyri-adi bir şey hiss etdiniz?

Fomin bir qədər gec dilləndi:

- Bir az əvvəl Mariya da dedi. Biz həmişə Seymuru sevmişik, ona inanmışıq. Onu təmiz vicdanlı adam bilmişik. Ona görə də onun belə bir iş tutmasına inanmaq istəmirik. Amma çox şey göstərir ki... Bilirsinizmi, o balkona qayıdanda mən dərhal hiss etdim ki, beş dəqiqə əvvəlki adam deyil. Özü gizlətmək istəsə də, həyəcanlı olduğunu duydum. Amma nədənsə həmin vaxt o qədər əhəmiyyət vermədim buna.

- Siz istintaq zamanı bu dəyişikliyin səbəbini soruşmusunuzmu ondan?

- Bəli, soruşmuşam. Dedi ki, guya bir yad nömrədən zəng gəlibmiş ona. Mətbəxdən qayıdıb yemək otağından keçərkən. Kimsə ona xəbərdarlıq edib ki, Sergey Novikovdan ehtiyatlı olsun. Guya
həmin adam ona deyib ki, Sergeyi öz evinə nahaq dəvət edib.

- Elə bu? - bayaqdan sakit oturmuş Boris Nikitin səsini çıxartdı.

- Bəli! Guya başqa heç nə demədən əlaqəni kəsib o



ekitab.ucoz.org

adam. Amma onu da deyim ki, biz yoxlatdırdıq və Seymurun dedikləri təsdiq olunmadı. Onun nömrəsinə həmin saatlarda heç bir zəng gəlməyib.

- Deməli, belə! - Qasımlı başını mənalı tərzdə tərpətdi. - Sonra?

- Sonra Sergey Novikov girdi otağa. Serafimov dedi ki, girib onun siqaretindən gətirsin. O da girib gətirdi.

- Bəs niyə Serafimov siqaret gətirməyə onu göndərdi? Niyə yenə öz sürücüsünü göndərmədi?

- Bilmirəm... - Fomin başını yırğalayıb bir anlıq fikrə getdi. - Sergey əvvəllər Serafimovun hüquqşünası və advokatı olub. Sonra sərxoşluğa meyl etdiyi üçün Serafimov onu işdən azad edib. Seymurun deməyinə görə, o, Serafimovu evinə qonaq dəvət edəndə Serafimov xahiş edib ki, Sergeyi də çağırıb onunla barışdırsın. Deməyinə görə, Sergey Novikovun yenidən öz işinə qayıtmağını istəyirmiş. Mənim fikrimcə, o, Sergeylə barışığını bir növ möhkəmlətmək üçün siqaret gətirməyi ona buyurub.

- Bəs Sergeylə Seymurun nə kimi əlaqəsi var?

- Sergeyin arvadı Nataşa Seymurun ofisində mühasib işləyir. Gənc, həm də olduqca gözəl qadındır. Onu da deyim ki, o, Sergeyin ikinci arvadıdır. Ərindən, bəlkə də, iyirmi yaş kiçikdir.
Sergeyin nə ondan, nə də əvvəlki arvadından uşağı yoxdur. Hə, Sergeyin Seymurla da, Natiqlə də münasibəti pis olmayıb. Tez-tez gedib-gəlirmiş Seymurun ofisinə...

Fomin susdu. Qonaqlar dərin fikrə dalmışdılar. Bir qədər sonra Qasımlı düşüncədən ayrılıb sakit səslə dilləndi:

- Fyodor Simonoviç, deməli, belə çıxır ki, zoğal kompotu yemək otağına gələndən sonra oraya Seymur,


ekitab.ucoz.org

Sergey Novikov və bir də siz daxil olmusunuz.

- Bəli! - Fomin təsdiq etdi. - Zəhəri stəkana mən tökməmişəm. Sergeyi də dəfələrlə danışdırmışam və onun keçmiş şefi ilə elə bir ciddi haqq-hesabının olmadığını dəqiq öyrənmişəm. Düzdür, Serafimov onu işdən çıxarıb. Amma Sergey
indiki həyatından o qədər də narazı deyil. Bir də axı Serafimov onu yenidən öz əvvəlki yerinə qaytarmaq istəyirdi?! Qalır Seymur... Hə!.. Bir şeyi unutdum. Hamımız otağa daxil olanda Seymur masa arxasındakı stullardan birini Serafimova göstərib:

- Pavel Matveyeviç, buyurun, siz burada əyləşin! - dedi.

-Və Pavel Matveyeviç də qarşısındakı kompotu içib zəhərləndi! Eləmi?! - Qasımlı istehza ilə dilləndi. - Fyodor Simonoviç, axı siz təcrübəli müstəntiqsiniz!

Bu zaman Boris də başını bulayıb güldü. Fomin pərt halda çiynini çəkdi:

- Bəli! Serafimov əyləşən kimi qarşısındakı stəkanı göstərib onun hansı meyvənin şirəsi olduğunu soruşdu. Seymur stəkandakının zoğal kompotu olduğunu deyib təriflədi. Serafimov stəkanı
əlinə götürüb ondan bir qurtum içdi və bircə an keçmiş zəhərlənib stuldan yıxıldı. Biz ona heç bir kömək edə bilmədik. Dərhal keçinmişdi.

- Bəs o biri stəkanlar?

- Mən dərhal bildirdim ki, stəkanlara əl vurmasınlar. Sonra ekspertiza aparıldı və məlum oldu ki, yalnız Serafimovun payına düşən stəkana sianid tökülüb.

- Daha bu lap ağ oldu! - Boris dözməyib birdən- birə səsini qaldırdı. - Fikir verirsinizmi, Qanbay Fərhadoviç



ekitab.ucoz.org

sanki Seymur hamının gözü qarşısında Serafimovu zəhərləyir və hamıya da göstərir ki, baxın, bu kişini mən zəhərləyib öldürürəm! Yəni o bu qədər axmaqdır?!

- Mən də buna inana bilmirəm. - Fomin səbirlə dilləndi. - Amma, Boris Mixayloviç, mən saçımı

istintaqlarda ağartmışam. Siz də uşaq deyilsiniz. Bilirsiniz ki, belə üsullardan təkcə axmaq adamlar yox, bəzən hətta peşəkarlar da istifadə edirlər. Yəni, baxın, mən bu qədər axmağam ki, öz evimdə, neçə adamın gözü qarşısında Serafimovu zəhərlədim? Sizin dediyiniz sözü bu saat istintaqda Seymur da dönə-dönə təkrar edir. Bu söz özünü müdafiə etmək üçün bu saat həm onun, həm də advokatı Adarovun ən tutarlı vasitəsidir. Ola bilər ki, o, cinayət planını düşünərkən həmin bu tutarlı vasitəni də nəzərindən qaçırmasın... Bir də deyirəm ki, mən də Seymurun qatil olmağına inana bilmirəm. Amma onun telefon zəngi barədə yalan ifadəsi, cinayəti beləliklə Sergey Novikovun üstünə yıxmağa çalışması və nəhayət, biznes işində Serafimovla ciddi rəqib olması göstərir ki...

- Bunlar hələ heç nəyi göstərmir! - polkovnik Qasımlı bir qədər əsəbi halda dilləndi. - Mən Seymuru kor-koranə müdafiə etmək istəmirəm. Ola bilər ki, o, cinayətkar olsun. O da insandır! Düzdür, mən onu tanımıram. Ancaq, nə onun Borisin dediyi qədər axmaq olduğuna, nə də sizin dediyiniz qədər peşəkar olduğuna inanmıram.

Fomin razılaşdı:

- Əslində, mən sizinlə həmfikirəm, amma...

- Siz süfrədəki yeməkləri də ekspertizaya verdinizmi? - Qasımlı onun sözünü kəsib soruşdu. O, nədənsə, hövsələsiz olmuşdu.



ekitab.ucoz.org

- Xeyr, buna ehtiyac yox idi. Zəhər yalnız bircə stəkana tökülmüşdü.

Buğlanan xörəyi gətirib masanın üstünə qoyan Mariya ərinin sözünü kəsdi:

- İş barədə danışmağa vaxtınız çox olacaq. Yeməyi soyutmayın!

Sonra özü də ərinin yanında əyləşdi:

- Görək hörmətli qonaqlarımız bişirdiyim xörəyi bəyənəcəklərmi?

Bu pelmeni idi. Xəmirin içinə ət maşınında çəkilmiş qoyun əti qoyub bişirirdilər. Bir az Azərbaycanda bişirilən düşbərəni xatırladırdı. Amma Qasımlı heç Bakıya qayıdandan sonra da düşbərə yeməmişdi. Kim bişirəcəkdi ki onun üçün düşbərəni? Uşaq olanda anası bişirərdi.

Stəkanlara araq süzüldü. Qasımlı öz gəlişi şərəfinə qaldırılmış birinci badədən sonra içməkdən imtina etdi. Fomin isə içməkdə heç Borisdən geri qalmırmış. Arağı lap su kimi içirdi. Hələ axırda Mariya işə qarışmasaydı, yəqin ki, hər ikisi sərxoş
olub özlərini unudacaqdılar. Məzəmmətlə ərinə baxıb:

- Bəs deyil, Fedya? - deyə dilləndi.

Eyham təsirsiz qalmadı və Fomin axırıncı
badəni bir daha Borisin sağlığına qaldırıb, stəkanını arvadına göstərərək kənara qoydu.

Məclis boyu yalnız Altayın görməli yerlərindən, havasından, təbiətindən danışırdılar. Boris Nikitin ilk dəfə gəldiyi bu yerlərin gözəlliyinə valeh olmuşdu. Qasımlı da ilk dəfə idi buralarda olurdu. Altay haqqında söhbətlər onun üçün də maraqlı idi. Amma, söhbət azacıq ara verən kimi, gözlənilmədən, üzünü ev sahibinə tutub soruşdu:



ekitab.ucoz.org

- Kapitan Eduard Sokolov intihar etdiyi gün hadisə yerində siz də olmuşdunuz?

- Bəli!.. -Fomin təəccübləndi. - Siz həmin hadisə ilə də maraqlanırsınız?

- Yox, elə-belə soruşuram. - Qasımlı laqeyd halda dedi. - Mənzilin qapısı içəridən cəftə ilə bağlanmışdı?

- Yox... - müstəntiq yenə təəccüblə dilləndi. - Qapı bağlı idi. Örtüləndə qıfıl avtomatik bağlanır. Biz qıfılı sındırmalı olduq... Siz yəqin ki, hadisə barədə Natiqdən eşitmisiniz. Açarların yoxa çıxması barədə düşünürsünüzsə, məncə... Məncə bu onu göstərmir ki, Sokolovu balkondan zorla atıblar. Əgər belə olsaydı açar onların nəyinə lazım idi? Axı bu açarlardan sonra heç istifadə olunmayıb. Axı heç qapı da çöldən açarla bağlanmamışdı!?

Boris Nikitin də bu söhbətə diqqətlə qulaq asırdı. Heç kəsə bildirməsə də, bu məsələ onu
digərlərindən az maraqlandırmırdı. Natiq Əhmədovun Rusiya Daxili İşlər nazirliyinə ünvanladığı məktubunda Eduard Sokolovun intihar etmədiyi, kimlər tərəfindənsə öldürülməsi şübhəsi əks olunmuşdu. Məktubla əlaqədar şəhər polis idarəsindən bəzi izahatlar istənilmiş, məktubun surəti isə şəhər prokurorluğuna göndərilmişdi. Amma polkovnik Nikitin özü üçün bu məsələni bir daha dəqiqləşdirmək istəyirdi. Polis rəisinin və müstəntiq Fominin danışıqlarından sonra onda belə bir fikir yaranmışdı ki, Natiqin şübhələri doğrudan da əsassızdır. Hər şey bir yana dursun, necə ola bilərdi axı, kapitan Eduard Sokolov gecə yarısı kimlərəsə qapını açsın, onlar da onu sürükləyib balkona aparsınlar və oradan aşağı tullasınlar?!. Axı deyilənlərə görə, meyitin üzərində heç bir zorakılıq



ekitab.ucoz.org

əlaməti də görünməyib. Bir də, bu açar məsələsi... Cibindən açarı götürüblər, ya tutaq ki, masanın üstündən, fərqi yoxdur. Eduardı balkondan atıblar, sonra da qapını sadəcə çırpıb gediblər. Bəs açar nəyə lazım idi? Əməliyyat işçilərini şübhələndirmək üçünmü götürmüşdülər açarı?!... Yox! Eduard Sokolov intihar etmişdi, vəssalam!

Nahar bitən kimi Qasımlı ilə Boris ayağa qalxıb həyətə keçdilər və gəzə-gəzə söhbət etməyə başladılar. Bir azdan sonra Boris Nikitin Moskvaya uçmaq üçün Novosibirskə yola düşəcəkdi. Bir yerdə işlədikləri vaxtları xatırlayandan sonra Boris Rusiya polisinin bugünkü fəaliyyətindən danışdı. Sonra isə:

- Düzdür, yaxşı əməkdaşlarımız az deyil. - dedi. - Elmin, texnikanın gücündən gündən-günə daha çox istifadə edirik. İmkanlar çoxalır. Amma
sizin kimi məntiqi təfəkkürlü, həqiqi mənada düşünməyi bacaran, həm də düşündüyündən cəsarətlə nəticə çıxara bilən adamlara həmişə ehtiyac hiss edirik. Mənə elə gəlir ki, texnika heç vaxt insan beynini əvəz edə bilməyəcək.

Boris çox içsə də fikirləri dəqiq idi. İçməsi isə yalnız yanaqlarının və burnunun qızarmasından, bir də yerişinin ləngərindən hiss olunurdu. Qasımlı onunla razı olduğunu bildirdi:

- Əlbəttə, əsr kompüter texnikası əsridir. Bunsuz bu saat heç bir işi, o cümlədən cinayət axtarışını da təsəvvür etmək ürəkaçan deyil. Amma səninlə o barədə razıyam ki, bütün bu texnika insan düşüncəsi ilə yaranır. Bu düşüncəyə yardım etmək rolunu oynayır və həmişə də bu rolu oynayacaq...

Bir qədər susub öz fikrini daha da aydın izah etməyə


ekitab.ucoz.org

çalışdı:

- Bax, elə bu zəhərlənmə hadisəsini götürək. Əgər o mənzildə gizli kameralar olsaydı... Onu da deyim ki, belə kameralar lap yaxında çox ucuz və rahat başa gələn bir şey olacaq. Artıq bəzi eynəklərdə bütün görüntüləri yaddaşına yazan mikrocihazlar var. Əgər o mənzildə belə bir şey olsaydı, uzun təhqiqata, ya istintaqa ehtiyac qalmazdı. Ancaq onu demək istəyirəm ki, belə texnika yüksək inkişaf etdikcə, cinayətkarların da metodu dəyişəcək. Onlar da texnikadan istifadə edəcək və nəticədə, cinayətlərin üstünün açılmasında yenə həlledici rolu insan təfəkkürü oynayacaq.

- Deyirsiniz, elmin, texnikanın ən yüksək həddə çatacağı gələcəkdə yenə cinayətlər olacaq?

- Nə qədər ki, insan var, cinayət də olacaq! - Qasımlı qətiyyətlə cavab verdi.

Boris dostuna nəsə demək istəyirdi ki, Fominin yad bir adamla həyətə girib onlara tərəf gəldiyini gördü. Bu adam polis idarəsinin sürücüsü imiş. Podpolkovnik Belov Borisin Novosibirskə getməsi üçün maşın göndəribmiş.

Birlikdə küçəyə çıxdılar. Boris ev sahibi ilə görüşəndən sonra Qasımlını qucaqlayıb onunla da vidalaşdı:

- Kim bilir, - dedi, - bir də nə vaxt görüşəcəyik? Nə vaxt Rusiyaya yolunuz düşsə, yenə də mütləq mənə zəng vurun. Bu işdə də sizə uğurlar arzulayıram. Düzdür, çox qaranlıq məsələyə oxşayır,
amma çox-çox belə işləri açmısınız. Bunu kim bilməsə də mən bilirəm. Mən sizinlə işlədiyim üçün həmişə fəxr etmişəm. - İçkinin təsirindən duyğulanmış, hətta bir az kövrəlmişdi. - Nə vaxt uçursunuz Bakıya?

- Cümə günü, axşam, - Qasımlı dedi.



ekitab.ucoz.org

- Onda sizə də yaxşı yol, mənə də!
- Yaxşı yol!

Boris maşına əyləşib yola düşən kimi Fomin Qa- sımlını yenidən həyətə dəvət etdi:

- Siz bu gün mənim qonağımsınız. Bu saat hamamı da hazırlayacam, axşamüstü çimərik. Yəqin ki, rus hamamının ləzzətini bilməmiş olmazsınız.

Qasımlı razılığını bildirib həyətə girdi. Mariya gözə dəymirdi. Yəqin ki, mətbəxdə axşam yeməyinə hazırlıq görürdü. Fomin də qonağından ayrılıb evin qarşısındakı hamama getdi. Qasımlı həyətdə təkcə gəzişməyə başladı. Nədənsə darıxırdı. Kimin üçün, nəyin üçün darıxdığını bilmədən darıxırdı. Bakıda qoyub gəldiyi bir kimsəsi yox idi. Daha çox Rusiyada keçən günləri haqqında düşünürdü. Bir-birindən çətin əməliyyatlarla yadda qalan qaynar günlər haqqında... Sonra yenə Olqa haqqında... Körpə qızı haqqında...

Onun uzaq Azərbaycandan buraya gəlməsinə səbəb olan cinayətlər barədə isə düşünməyə heç tələsmirdi. Hələ ki, ciddi bir həvəsi yox idi işə girişməyə.

Düzdür, cinayət baş vermişdi və bu cinayətin əsas səbəbkarı hələ dəqiq müəyyən olunmamışdı. Bəlkə də cinayətkar elə Seymur idi, bəlkə də Sergey Novikov, bəlkə də... Bəlkə də kim bilir, müstəntiq Fomin özü...

Hər halda, cinayət var idisə, deməli, cinayətkar da var idi. Şəhərin prokurorluğu, polis idarəsi təhqiqat aparıb onu tapmalıydılar. Burada qeyri-adi olan nə vardı ki, müstəqil xəfiyyə polkovnik Qasımlının Bakıdan buraya gəlməsinə zərurət yaransın?..


ekitab.ucoz.org

Onu bu işə qoşan Xarici İşlər nazirliyi daha çox burada azərilərə qarşı yaradılmaqda olan düşmənçilik mövqeyindən narahat idi. Orada cinayətin necə baş verməsi barədə dəqiq bir şey bilmirdilər. Amma ümid edirdilər ki, Seymur Muradov günahsızdır və onun günahsızlığı sübut olunarsa, şəhərdə cücərməkdə olan milli ədavət də unudulub gedər. Bu çox ciddi məsələ idi və Qasımlı bunun məsuliyyətini çox yaxşı anlayırdı. Bilirdi ki, bu saat Bakıda onun işinin nəticəsini gözləyirlər.

Amma o diplomat deyildi. Heç dövlət adamı da deyildi. Müstəqil fəaliyyət göstərən xəfiyyə idi. Təcrübəli cinayət axtarış eksperti idi. O, yalnız təhqiqat aparıb cinayətkarı müəyyən edəcəkdi. Cinayətkar isə hələ bilmək olmazdı ki, kim olacaqdı...

Onun yol xərcini Bakıdan ödəmişdilər. Ancaq, görəcəyi iş üçün pul boyun olmamışdılar. Demişdilər ki, imkanlı iş adamı olan Seymur Muradovun bu işdə günahsızlığı sübut olunarsa, o, çəkilən zəhmətin haqqını artıqlamasıyla ödəyəcək. Qasımlı, müstəqil xəfiyyə kimi fəaliyyət göstərməyə başlayandan, gördüyü işlərin bir çoxu üçün zəhmət haqqı almışdı. Özü tələb etməsə də bu haqqı ödəmişdilər. Amma, pul, var-dövlət heç vaxt onu ciddi şəkildə maraqlandırmamışdı. Heç vaxt!

O, öz peşəsini sevən bir xəfiyyə idi. Qaranlıq sirlərin açılmasından aldığı zövqü başqa heç nədən almırdı. Ona görə də öhdəsinə yalnız çətin, açılması qeyri-mümkün görünən işləri götürürdü.

Burada isə... Düzdür, iş o qədər də asan işə oxşamırdı. Bir həftədir ki, istintaq aparan təcrübəli müstəntiq Fyodor


ekitab.ucoz.org

Fomin hələ dəqiq bir nəticə əldə eləməmişdi. Şübhəli şəxs qismində tutulan Seymur cinayəti boynuna götürmürdü. Serafimov isə onun mənzilində zəhərlənmişdi. Çox şübhəli şəkildə... Hələ bir gün sonra onun sədaqətli sürücüsü də amansızlıqla öldürülmüşdü. Radik Boskanyan... Erməni...

Polkovnik Qasımlı on beş ildən çox Rusiyada rusların içində yaşamışdı. Heç vaxt siyasətə qoşulmamışdı. Millətçi-filan da deyildi, qətiyyən. Moskvada işləyərkən erməni tanışları da az olmamışdı. Elə o vaxtdan onların bir çox xüsusiyyətlərini yaxşı bilirdi. Üzdə hamı ilə mehriban, amma daxilən bic, hiyləgər, ikiüzlü adamlar kimi tanıyırdı onları. Amma ürəyində dərin nifrət yox idi bu millətə qarşı. Baxmayaraq ki, ermənilərin Azərbaycan torpaqlarını işğal etməsini, həmvətənlərinə qarşı törətdikləri cinayətləri televiziya kanallarından eşitmiş, qəzetlərdən oxumuşdu. Əlbəttə, təhrif olunmuş formada...

Əsas fikri, diqqəti öz peşəsində idi. Bir gün ustalıqla hazırladığı əməliyyat nəticəsində güclü bir cinayətkar dəstəsini də ələ keçirtdi. Amma dəstənin
başçısı erməni Sergey Babayan aradan çıxa bildi. O evdə olmayanda mənzilinə soxulub sevimli həyat yoldaşını və körpə qızını qətlə yetirdi. Qasımlı elə o gündən öz rəsmi vəzifəsinə tüpürdü. Qarşısına bircə vəzifə - ailəsinin intiqamını almaq vəzifəsi qoydu və qeyri-adi bir səbirlə, təkbaşına Sergey Babayam axtarmağa başladı. Onun aradan çıxmasında polisdəki bəzi adamların da rolu olmuşdu və Qasımlı daha öz planları barədə heç kəsə, hətta ən yaxın köməkçisi Borisə də heç nə demirdi. Axır ki, onu tələyə salıb, ucqar kəndlərin birində üz-üzə gəldi onunla...

Onu həbs etmək fikri yox idi, qətiyyən. Bilirdi ki, insan


ekitab.ucoz.org

oğurluğu, amansız qətllər, cinsi zorlamalar, narkotik satışı kimi neçə-neçə cinayətlərə imza qoymuş bu iblis üçün cəza olmayacaq bu. İkicə metr
məsafədə üz-üzə durub bir-birinin gözünün içinə baxırdılar. Qasımlı əlini paltosunun cibindəki tapançaya uzatmadı. Gözlədi ki, birinci olaraq düşməni çıxarsın silahını... Uzun tərəddüddən sonra Sergey bunu etdi və ondan cəld tərpənən Qasımlı tapançasını çıxararaq, altı güllənin altısını da onun sinəsinə boşaltdı...

Sonra çək-çevirиər başlandı. Niyə belə oldu? Niyə elə oldu? Qasımlı isə bezmişdi daha və istefa verib birdəfəlik Bakıya getdi.

Ancaq o faciədən sonra da dərin nifrəti yox idi bu millətə qarşı...

Bakıda yaşadığı müddətdə erməni millətçiliyinin iç üzünü daha dərindən tanıyıb öyrəndi. Dəqiq məntiqi təfəkkürə malik bir xəfiyyə kimi bəzən inanmaq istəmədi oxuduqlarına, eşitdiklərinə.
Qonşusu, jurnalist Nemət Sabirlinin tapıb gətirdiyi, erməni tarixçilərinin özlərinin yazdığı əsərləri oxudu. Bu vaxta qədər bilmədiyi tarixi öyrəndi. Öyrəndiklərini, bildiklərini tutuşdurdu, dəqiqləşdirdi. Dəqiqləşdirdi və bəlkə də, həyatında ilk dəfə həqiqi mənada dəhşətə gəldi. Belə böyük miqyasda kin, düşmənçilik, xəyanətkarlıq, nankorluq bir kiçik millətin həyat tərzinə necə yerləşmişdi, necə yer tapmışdı özünə?!

Amma bütün bunlara baxmayaraq, o öz peşəsinə sadiq idi. İş əsnasında onun üçün cinayətkar var idi, bir də cinayətin qurbanı. İndi isə, burada baş vermiş cinayətin qurbanlarından biri erməni Radik Boskanyan idi. Qasımlı



ekitab.ucoz.org

onun həyatına qəsd edən adamı tapmalı idi. Hər halda, onu öldürən, ya öldürtdürən elə Serafimovu zəhərləyən adam idi. Əgər Qasımlı bu cinayətin sirrini açmağı boynuna götürmüşdüsə, deməli həmin qatili tapmalıydı...

Bəs onun işə tam ürəklə girişə bilməməsinin səbəbi nə idi, görəsən? Bəlkə uzun illik peşəsindən bezmişdi daha? Bəlkə yorulmuşdu, artıq?.. Yox, hələ nə yaşı vardı ki! Bəzən bu yaşı ömrün çiçəklənən vaxtı da hesab edirlər. Bəzən müdriklik çağının başlanğıcı... Amma, deyəsən, onu az da olsa həvəsdən salan içində baş qaldırmaqda olan xəstəliyi, daxili narahatlığı idi. İnsan sağlamlığını itirməyə başlayanda həyata, işinə, vəzifəsinə də baxışı dəyişir. Bunu çoxları ölənə qədər anlamır. «Cəhənnəmə ki!» deyir çox şeyə. Elə Qasımlı özü də sağlamlığı barədə düşünmürdü heç vaxt.

İndi də, Fominin geniş bağçasında gəzişərkən, daxilində baş qaldıran xoşagəlməz ağrıları öz güclü iradəsi hesabına unudub:

- Cəhənnəmə ki! - dedi və bir siqaret yandırdı.

## Səkkizinci fəsil

Axşamüstü Fomin qonağını yuyunmağa dəvət etdi. Qasımlı neçə illər idi ki, rus hamamı görmürdü və dəvəti qəbul edib ev sahibi ilə hamama girdi.

İçəridə həddindən artıq yüksək temperatur var idi. Ancaq quru istilik idi bu. Qasımlı iri sobanın ağzındakı qara çay daşına bir parç su atdı ki, içəriyə buxar yayılsın. Daş çox qızmışdı və atdığı suyun hamısı cızıltıyla buxarlanıb hamama yayıldı. İçəridə hər şey dumana bürünmüş kimi görünməz oldu. Sonra bu işi bir daha təkrar etdi və bu zaman suyu yaxından atdığı üçün qızmış buxar əlini yandırdı.



ekitab.ucoz.org

Diqqətsizlik etdiyinə görə özünü qınayıb kənara çəkildi. Fominin, sanki ucadan qışqıra-qışqıra
danışdığı əhəmiyyətsiz söhbətə qulaq asa-asa həvəssiz yuyunmağa başladı. Amma yanmış əli göynədiyi üçün isti rus hamamına olan marağı birdən-birə sönmüşdü. On dəqiqə keçməmiş Fominə:

- Mən çıxıram, siz qalın yuyunun! - dedi.

Ev sahibi söhbətini kəsib təəccüblə:

- Niyə belə tez, Qanbay Fərhadoviç? - deyə soruşdu.
- Heç! Çox qalmaq istəmirəm.

Bunu deyib qonşu otağa keçdi. Qurulanıb, onun üçün qoyulmuş qalın xalatı geyindi. Paltarlarını götürüb hamamdan çıxdı. Mariyaya da hamamdan tez çıxması barədə bir şey uydurub dedi və ev sahibəsinin dəvətilə otaqlardan birinə keçib divanda əyləşdi. Hamamda cəmi on dəqiqə qalmasına
baxmayaraq, bədənindən durmadan tər axırdı. Yaxşı ki, xalat qalın parçadan idi və təri udub özünə hopdururdu.

Mariya qonağın qarşısına stul qoyub iki pivə şüşəsi və bakal gətirdi.

- İçin, sərin pivədir, - deyib televizoru da qoşdu.

Qasımlı bilirdi ki, rus hamamından çıxandan
sonra sərin pivə yaxşı içilir. Stəkana pivə süzüb, kiçik qurtumlarla içməyə başladı. Televizorda şou- proqram göstərirdilər. Onun üçün baxmağa maraqlı bir şey yox idi. Ev sahibəsi bir də otağa daxil olanda onu yaxına çağırdı:

- Mariya Zaxarovna, xahiş edirəm, siz də mənim bir neçə sualıma cavab verin!
- Buyurun! - Mariya stul gətirib polkovniklə üzbəüz əyləşdi.



ekitab.ucoz.org

O, Qasımlının məşhur xəfiyyə olduğunu artıq ərindən eşitmişdi. Bu adama qarşı özündə bir rəğbət hiss etməklə bərabər, bir az da sıxılırdı onun qarşısında.

Ona baxanda o saat bilinirdi ki, cavanlığında qəşəng qız olub. Bu onun gözlərindən də, uşağı xatırladan ətli yanaqlarından da, mütənasib bədən quruluşundan da aydın görünürdü. Amma indi bir az kökəlmişdi. Gözlərinin ətrafında və sifətinin kənarlarında, kosmetika vasitəsilə gizlətmək istəməsinə baxmayaraq, zəif qırışlar nəzərə çarpırdı. Gödək yubkadan çıxmış toppuş ayaqları erkək cinsini cəlb etmək gücünü hələ itirməsə də, büküklərə yaxın yerlərdə görünən damarların boşalması ürəkaçan deyildi.

Ən əsası isə o idi ki, mavi gözlərindəki hərarət, çöhrəsindəki işıq və bədən quruluşunun xoşagələn olması ona baxanları bezdirib usandırmırdı. Əksinə, fərəhləndirirdi.

- Həmin hadisə zamanı siz də Seymur Muradovun mənzilində olmusunuz. - Qasımlı sorğu- suala belə başladı.

- Bəli, - qadın cavabını başının hərəkəti ilə də təsdiq etdi.

- Mətbəxdə kimlər vardı?

- Elnarə, Alisa Alekseyevna, Nataşa, bir də mən...

- Deyin görək, içində zoğal kompotu olan balon sizin gözünüz qarşısındamı açıldı?

- Bəli. Elnarə onu şkafdan götürüb masanın üstünə qoydu. Balonun dəmir qapağını mən açdım.

- Bəs stəkanları kim götürdü?

- Elnarə. O, şkafdan on dənə stəkan götürdü. Masanın üstünə yığıb, balondakı kompotu onlara süzdü.

- Stəkanları yumadınız?



ekitab.ucoz.org

- Yox! Onlar təmiz idilər.
- Mətbəxdə kompotun dadına baxan oldumu?

- Tomik içmək istədi. Elnarənin oğlu. Anası bir fincana töküb ona verdi. Bir az da Alisa Alekseyevna içdi. İçib dedi ki, turşməzə dadı var. Sonra uşaq ağlayıb yenə içmək istədi. Anası balonun dibində qalanı süzüb ona verdi. Vəssalam! Sonra Elnarə ilə Nataşa kompot stəkanlarını, soyuq yeməkləri, salatları götürüb birlikdə yemək otağına getdilər.

- Qayıdanda da birlikdə qayıtdılar?
- Bəli, - qadın dodaqlarını yaladı.

- Ümumiyyətlə, süfrə hazırlanan ərəfədə sizlərdən yemək otağına tək gedən oldu, ya yox?

- Bu suallar artıq mənə verildiyi üçün hər şeyi dəqiq xatırlayıram. - Mariya inamla dedi. - Birinci dəfə Elnarə ilə Nataşa qab-qacağı aparıb süfrəyə düzmüşdülər. Sonra bir dəfə Nataşa ilə mən salat apardıq. Natiq gəlib bacısına dedi ki, onun üçün süfrəyə təmiz su qoysun. Elnarə qrafində su apardı. Sonra, dediyim kimi, Elnarə ilə Nataşa getdi və kompotu da onda apardılar. Ən axırda Elnarə,
Nataşa və mən, üçümüz birlikdə xörəkləri apardıq və sonra hamını süfrəyə dəvət etdik.

Qasımlı susub pivədən bir neçə qurtum içdi. Tərin axması artıq dayanmışdı. Buxardan yanmış əli isə hələ də göynəyirdi. Bokalı stulun üstünə qoyub sorğunu davam etdirdi:

- Mariya Zaxarovna, xahiş edirəm, deyin, siz mətbəxdə olanda Seymur oraya gəlmişdimi?

Ev sahibəsi stulda sakit əyləşmişdi. Hərdən çılpaq dizinin üstünə qoyduğu sağ əli ilə yubkasının ayağını aşağı-yuxarı dartırdı. Hiss olunurdu ki, bir az həyəcanlıdır.


ekitab.ucoz.org

Qonağa zillənmiş baxışlarından isə mehribançılıq və bir az da... Nə isə!.. Qasımlının son dərəcə diqqətli, sürətli və sürüşkən baxışlarından onsuz da heç nə yayına bilmirdi. Amma özü bəzi şeyləri görməməyə çalışırdı.

- Bəli, gəlmişdi, - dedi, - gəlib xörəyin nə vaxt hazır olacağı ilə maraqlandı. Bir az dayanıb getdi.

- O sizin yanınızda olanda telefonuna zəng gəldimi? - Qasımlı soruşdu.

-Xeyr!..

- Həmin gün Nataşa özünü necə aparırdı?

- Normal... Qeyri-adi bir şey hiss etməmişəm onda.

- Mümkünsə, deyin... - polkovnik bir anlıq duruxdu. - Onun Natiqlə, ya Seymurla münasibəti barədə nə bilirsiniz?

Mariya nazla gülümsədi:

- Seymurla, məncə, ancaq iş münasibətləri ola bilər. Onun çox ciddi xarakteri var. Elnarədən başqa heç bir qadını gözü görmür. Amma Natiq subay, həm də yaraşıqlı oğlandır. Onun Nataşadan və sözsüz ki, Nataşanın da ondan xoşu gələ bilər.

- Nataşa çox gözəldir? - Qasımlı yenə pivədən bir qurtum içib sual verdi.

- Belə, necə deyim?.. - Mariya guya fikrə getdi. - Bir az... Doğrusu, bilmirəm Natiq niyə ona vurulub.
Eşitdiyimə görə azərilərin arıq qadınlardan o qədər də xoşu gəlmir.

- Yəni elə arıqdır?

- Yox... Belə, ağappaq bir qızdır. Hər halda, mənə elə gəlir ki, şəxsən sizin zövqünüzə uyğun deyil o.

Qasımlı ev sahibəsinin danışığından anladı ki, Nataşa deyilən həmin qadın çox gözəldir. Və onu da anladı ki,



ekitab.ucoz.org

Mariya bir qadın kimi ona qıs-qanc münasibət göstərir. Özünün zövqü haqqında deyiləni eşitməzliyə vurub sual verdi:

- Sizcə, onunla Natiqin arasında nəsə var?

- Məncə, var! - Mariya başını tərpədib səsini bir qədər alçaltdı. - Keçən il onun ad gününə yığışmışdıq. İyirmiyə qədər adam var idi məclisdə. Nataşa ərinin yanında oturmuşdu. Onun solunda
Natiq, Natiqin solunda isə mən idim, - Qadın çox həvəslə danışırdı və bu yerdə səsini bir az da alçaltdı. - Məclisin ortalarında bir az arxaya çəkildim və gördüm ki, Nataşanın sol əli Natiqin dizinin üstündədir. Mən buna qətiyyən əhəmiyyət vermədim. Nəyimə lazımdır axı? Özləri bilərlər! Bir az sonra Nataşa qalxıb balkona çıxdı. Sonra Natiq də onun dalınca getdi. Mən də, bilmirəm, balkonda nə işim var idisə, pərdəni aralayıb oraya keçdim və gördüm ki, bunlar bərk-bərk bir-birlərinə sarmaşıb öpüşürlər. Heç mənim yanlarında olduğumu hiss eləmədilər də! Təzədən qayıdıb otağa girdim.

- Deməli, onların arasında ciddi əlaqə olduğunu təsdiq edirsiniz?

- Bəli, əlbəttə! Başqa cür ola bilməz ki?!

- Axı onun əri var?! - Bu, əslində, Qasımlını təəccübləndirməsə də özünü təəccüblənmiş kimi göstərdi.

- Nə olsun?! - Mariya isə həqiqətən təəccübləndi. - Bu bizdə adi bir şeydir. - İşvə ilə gülümsədi. - Əgər kimsə kimisə xoşlayırsa, başqa heç bir problem yoxdur. Bir də ki, əri Nataşadan düz iyirmi beş yaş böyükdür. Üstəlik də içkiyə qurşanıb.

- Bəs o necə baxır bu işə? Ərini deyirəm. Xəbəri varmı?


ekitab.ucoz.org

- Bəlkə də var... Nə deyəcək ki?.. - qadın burada bir az qızardı. - Özünün edə bilmədiyini Natiq edirsə...

Bilərəkdən, ya həyəcandan, bu dəfə yubkasının ayağını yuxarı daha çox çəkdi və ağappaq, ətli, bir- birinə yapışmış budları göründü.

Qasımlı dərhal qaşqabağını salladı. Bir müddət baxışlarını yalnız qarşısındakı pivə bakalına zilləyib dayandı. Sonra otaqda siqaret çəkməyə ev sahi- bəsindən izin alıb bir siqaret yandırdı. Mariya cəld ayağa qalxıb külqabı gətirdi. Sonra yenə stulda əyləşdi. Qasımlının qırımını görüb, o da bir az ciddiləşmişdi.

- Sizcə, Sergey Novikov kinli adamdır? - Qasımlı birdən növbəti sualını verdi.

- Məncə, yox! - Mariya yenə həvəslə dilləndi. - Mehriban, səmimi insandır. Pavel Matveyeviçin öldürülməsinə görə soruşursunuzsa, inanmıram işdən çıxarıldığı üçün ondan intiqam almaq fikrinə düşə. Həm də, üstündən iki il keçəndən sonra... Amma bir az qəribəliyi də var onun. Xüsusilə, içkiyə möhkəm girişəndən sonra lap qəribə olub.

- Necə, məsələn...

- Necə deyim... Hamıya qəribə baxışlarla baxır. Danışanda da lap canından bezmiş adamlar kimi danışır. Ancaq onu da deyim ki, bu şəhərdə hüquq işini onun qədər bilən yox idi. Ən istedadlı hüquqşünas sayılırdı.

Qasımlı birdən-birə başqa suala keçdi:

- Yaxşı, Mariya Zaxarovna, hadisənin necə baş verdiyini dəqiq xatırlaya bilərsinizmi?

- Əlbəttə, bilərəm! Biz hamımız yemək otağına girdik. Seymur mərhum Pavel Matveyeviçi başdakı stulda



ekitab.ucoz.org

əyləşdirdi. Heç kəs əlini süfrəyə uzatmamışdı. Pavel Matveyeviç soruşdu ki, bu hansı meyvənin şirəsidir. Axı zoğalın açıq qırmızı rəngi çox gözəl görünür! Seymur dedi ki, bu zoğaldır. Pavel stəkanı
götürüb bir az içdi və elə o saat da zəhərlənib yerə sərildi.

- Bəs başqa heç kəs şirədən içmədi?

Qadın bir anlıq duruxub, sonra cəld cavab verdi:

- Deyəsən, Sergey ondan qabaq içdi. Ya da eyni vaxtda içdilər. Ancaq sonra ekspertlər göstərmişdi ki, təkcə həmin stəkanda zəhər olub.

- Serafimov yıxılandan sonra nə baş verdi?

- Aləm qarışdı. Qadınlar qışqırdılar. Ən çox da Alisa Alekseyevna. O çox təmkinli qadındır. Amma görəydiniz necə çığırırdı.

- Kişilər necə münasibət göstərdilər? Bu hadisə kimə daha çox təsir etdi?

- Ən çox Seymura... Bir də təbii ki, Pavel Matveyeviçin şoferinə. O, həm də çox yaxın adamı imiş onun. Dizləri üstə yerə çöküb dəli kimi pıçıldayırdı:
«Bu ola bilməz! Bu ola bilməz! Bu kimin işi ola bilər axı?!»

- Bəs Sergey Novikov?

- O, yerindəcə quruyub qalmışdı. Nə edəcəyini bilmirdi.

Qasımlı öz quru və zəhlətökən sualları ilə ev sahibəsini yorduğunu düşünüb zarafat etmək istədi:

- Əsl müstəntiq arvadısınız. Görürəm, diqqətinizdən heç nə yayınmayıb.

Mariya cavabında:

- Amma siz xəfiyyə olsanız da, bəzi şeylər diqqətinizdən yayınır... - dedi və yenə də yanaqlarına qızartı çökdü.

Yaxşı ki, bu zaman əynində xalat olan Fomin səs-küylə



ekitab.ucoz.org

otağa girdi:

- Nahaq tez çıxdınız, Qanbay Fərhadoviç! Mən çox ləzzətlə yuyundum.

Mariya qalxıb əri üçün də pivə gətirdi. Sonra isə:

- Mən gedim, yemək hazırlayım. Süfrəni yenə eyvanda açacam, - deyib çıxdı.

Ev sahibi başını dəsmalla qurulayıb, yenə də:

- Çox yaxşı yuyundum! - dedi və bakaldakı pivəni, demək olar ki, birnəfəsə başına çəkdi.

- Həmişə təmizlikdə! - Qasımlı sakitcə dilləndi.

Sonra ayağa qalxıb qonşu otağa keçdi. Xalatı əynindən çıxarıb öz paltarlarını geyindi. Yaman fikirli idi. Deyəsən, Seymur Muradovun mənzilində baş vermiş hadisə artıq onu yavaş-yavaş maraqlandırmağa başlayırdı.

Axşam eyvanda, təmiz havada, ləzzətli süfrə başında oturanda da fikrinin, diqqətinin bir hissəsi bu hadisədə idi. Mariya, doğrudan da, gözəl süfrə açmışdı. Nahar vaxtı ərini çox içməyə qoymayan qadın indi özü də Fominə qoşulub içir, ara vermədən danışıb hörmətli qonağı əyləndirməyə çalışırdı. Tez- tez də xüsusi həvəslə hazırladığı yemək və məzələri Qasımlıya göstərib:

- Qanbay Fərhadoviç, xahiş edirəm, bundan da yeyin! - deyirdi.

Yaxud:

- Qanbay Fərhadoviç, siz niyə belə az içirsiniz, xahiş edirəm, bunu da mənim sağlığıma için! - deyirdi.

Yaxud da:

- Siz bizim əziz qonağımızsınız, Bakıya qayıdana kimi bizdə qalarsınız. Fedya da çox şad olar buna, - deyirdi.

Fomin də arvadının sözünü təsdiq edir, stəkanını tez-tez



ekitab.ucoz.org

araqla doldurub sağlığı-sağlığa calayırdı.

Qasımlı isə bu qonaqpərvərliyi qiymətləndirsə də, onlara dönə-dönə təşəkkür etsə də, əməlli-başlı düşünə bilmədiyi üçün dilxor olurdu.

Bir də tənha otaqda, Mariyanın onun üçün açdığı təzə yataqda uzananda rahat fikirləşməyə imkan tapdı. Amma əslində, fikirləşib nəsə bir şey əldə etməyə hələ heç bir dəlil-sübut yox idi əlində. Hələ ki, düşündükləri heç nəyi aydınlaşdırmır, əksinə, daha da qaranlıqlaşdırırdı.

Zəhəri stəkana tökən istər Sergey Novikov olsun, istərsə Fyodor Fomin, qəti əmin ola bilərdilərmi ki, Seymur başda məhz Pavel
Serafimovu əyləşdirəcək? Əlbəttə, bunu düşünmək olardı, amma qəti əmin olmaq olmazdı axı!

İçində zoğal kompotu olan stəkanlar süfrəyə gələndən sonra otağa cəmi üç kişi girib: Fomin, Seymur və Sergey Novikov... Bəs qadınlar? Qadınların heç biri otağa tək girməyib. Elnarədən başqa... O da otağa tək girəndə kompot hələ süfrəyə gəlməmişdi.

Yaxşı... Bəs hansısa qadın, yanında başqası olan vaxt zəhəri stəkana tökə bilməzdimi? Əlbəttə, tökə bilərdi! Ancaq o qadın da haradan əmin ola bilərdi ki, zəhərli stəkan nəzərdə tutulmuş adama, yəni Serafimova düşəcək?!.

Yox, əgər zəhəri stəkana Seymur tökübsə bunu hansı ağılla, hansı məntiqlə edib? Nə düşünüb bunu
edərkən? Hansı əsasla bu cinayətin başqasının üzərində qalacağına ümid edib?

Hələ təcrübəli xəfiyyəni başqa bir sual da maraqlandırırdı. Düşünürdü ki, Serafimovu öldürən adamlar onun sürücüsü və yaxın adamı olan Radik



ekitab.ucoz.org

Boskanyanı niyə aradan götürmüşdülər? Onların ölümü kimlərə lazım imiş, görəsən?..

Ancaq polkovnik Qasımlı özünün qeyri-adi duyma istedadı ilə artıq duyub-anlamağa başlayırdı ki, bu işdə tamamilə ayrı bir şey var. Heç cür ağıla gəlməyən, tamamilə ayrı bir şey! Onun nə olduğunu bilmək üçün isə hələ çox ciddi təhqiqat aparmaq lazım gələcəkdi.

Ona görə də bayaqdan özünə verdiyi suallarla başını çox yormaq istəmədi. Bədənini rahatladan isti hamamdan və sərin havada açılmış gözəl süfrədən
sonra rahat yatacaqdı. Elə bu fikirlə də gözünü yumub yuxuya getdi. Buxarda yandırdığı əlinin yüngül sızıltısı da buna mane ola bilmədi.

## Doqquzuncu fəsil

Elnarə dünən bütün gününü Bakılı qonağı gözləməklə keçirmişdi. Bu gün də, gündüz saat 11 olmasına baxmayaraq, hələ də ondan bir xəbər yox idi. Qasımlıdan dünəndən öncəki gün, gecə polis rəisinin evi qarşısında ayrılmışdılar. Elnarə ondan sonra onun üzünü görməmişdi. Qadının ürəyinə artıq, yavaş-yavaş narahatlıq dolmağa başlayırdı. Bu xəfiyyə əgər Azərbaycandan buraya Seymuru həbsdən xilas etmək üçün gəlmişdisə, bəs niyə belə ləng tərpənir, görəcəyi işə laqeydlik göstərirdi?

Bu gün bazar ertəsi idi. Bakıdan gəlmiş bu qaraqabaq xəfiyyə, özünün deməyinə görə, cümə
günü çıxıb gedəcəkdi buradan. Bəs niyə belə edirdi o? Niyə işə başlamırdı?

Elnarə Qasımlı ilə hava limanında tanış olmuşdu. Kafedə onunla bir süfrə başında əyləşmişdi. Sonra isə, yol boyu heç nə danışmasalar da, altı saat yol yoldaşı olmuşdu onunla. Bir



ekitab.ucoz.org

maşının içində əyləşmişdilər. Bu qaraqabaq insanın yerində bir başqası olsaydı, Elnarə artıq onunla səmimi ünsiyyət qurar, ona uyğunlaşardı. Axı necə olmasa, Bakıdan buraya onun ərinə görə gəlmişdi bu adam?!

Ancaq onun bu həmyerlisi, deyəsən, heç ünsiyyətə həvəs göstərən adam deyildi. Elə bil ətrafına qalın pərdə çəkilmişdi onun və bu pərdəni yarıb ona yaxınlaşmaq mümkün deyildi. Bütün yol boyu bir kəlmə danışa bilmədilər onunla. Ərinin günahsız olması barədə danışmaq istəyirdi Elnarə,
xəfiyyəyə aparacağı araşdırmada əlindən gələn istənilən köməyi təklif etmək istəyirdi. Amma Qasımlını, deyəsən, heç nə maraqlandırmırdı. Sanki çox könülsüz yanaşırdı üzərinə götürdüyü işə.

Şəhərdə ən yaxşı advokatlardan hesab olunan Adarov Seymuru müdafiə etmək üçün əlindən gələni edirdi. Elə prokurorluğun baş müstəntiqi Fyodor Fomin özü də Seymurun əleyhinə deyildi. Amma prokurorluqda da, polisdə də bu cinayətin Seymur tərəfindən edilməsinə inanırdılar. İnanırdılar, həm də təəccüblənirdilər Seymurun öz mənzilində qonağını zəhərləyib öldürməyinə.

Elnarə isə Seymurun cinayətkar olmadığına qəti əmin idi. Əmin idi ki, canından artıq sevdiyi əri belə alçaq işə baş qoşmaz. Axı o, niyə öldürməliydi Serafimovu? Ona görə ki, bu adam onun qarşısında
durmuş bir rəqib idi? Nə olsun? Seymur çalışırdı, çarpışırdı, öz firmasının bütün Altayda birinci olmasını istəyirdi. Demək olar ki, öz arzusuna çatmışdı da. Bircə Serafimov ondan qabaqda idi. Seymur istəyirdi ki, bu firmanı da ötüb keçsin.



ekitab.ucoz.org

Amma, daha belə rəzil hərəkətlə yox ki!

Ramazan da onun rəqibi hesab oluna bilərdi o vaxt. Elnarə artıq bilirdi ki, Seymur onu elə ilk görüşdən bəyənib, hətta sevməyə başlayıbmış. Amma Elnarə Ramazanı seçdi. Seçdi deyəndə ki, elə bir seçim-filan da olmamışdı. Ona özəl mənada ilk yaxınlaşan, ürəyini ovsunlayan Ramazan olmuşdu və Elnarə avamlığından tələsib özünü də, namusunu da ona təslim etmişdi.

Bəli, bəyənmişdi Ramazanı. Bir yaraşıqlı, dilli- dilavər oğlan kimi bəyənmişdi. Heç onu sevib-
sevməməyi barədə əməlli-başlı düşünməmişdi də. Bəs nə düşünmüşdü onda, görəsən? Lap yəqin, düşünmüşdü ki, gec-tez birinə ərə getməlidir və istəmişdi ki, ərə gedəcəyi adam elə bəyəndiyi bu oğlan olsun. Yoxsa bu uzaq diyarda azəri oğlanları elə də çox deyildi ki, oturub bəxtinə nə zamansa, kiminsə düşəcəyini gözləyəydi.

Yetişmiş, sağlam, gözəl qız idi. Ərə getmək, ailə-uşaq sahibi olmaq istəyirdi. Gizlətmək nəyə lazım, lap açığı, gecələr ərinin qoynuna girib muradına çatmaq, kişi təmasından həzz almaq istəyirdi.

Bu sonuncu arzu bir dəfə də hələ öz kəndlərində olarkən ona hakim kəsilmişdi. Amma nə yaxşı ki, nə yaxşı ki, hər şey yaxşı qurtardı onda...

Yay tətili idi. Onuncu sinfə təzə keçmişdi. Ata- ana qayğısından, nəsihətindən məhrum olmuş qız bütün günü qardaşı arvadının buyruqlarını yerinə yetirir, ora-bura qaçırdı. Ev işlərinin çoxu onun üstünə düşmüşdü.

Artıq yetişmiş, yarlı-yaraşıqlı bir qız olmuşdu. Bir az gec də olsa, özündə qızlıq duyğuları hiss etməyə başlamışdı. Döşlərinin yavaş-yavaş dikəlməsi, yanlarının enlənməsi və


ekitab.ucoz.org

başqa-başqa əlamətlər daxilində bu vaxta qədər duymadığı intim arzular yaradırdı. İmkanı daxilində özünə fikir verməyə, üst- başına əl gəzdirməyə çalışırdı. Amma hardan?!

Onun üçün vaxtlı-vaxtında paltar almaq, geyiminə baxmaq nə qardaşının, nə də qardaşı arvadının yadına düşürdü. Boy atdığı üçün iki ildən bəri geydiyi don əyninə həddindən artıq gödək gəlirdi. Bulaq
başında səhəngi doldurmaq üçün əyiləndə alt paltarı əməlli-başlı çöldə qalırdı.

Kənddə ondan iki yaş böyük, Mirmuxtar adında bir oğlan var idi. Kəndin o biri başında olurdu. Bir çoxları kimi Elnarənin də bu oğlandan zəhləsi gedirdi. Sürtüyün, abırsızın, həyasızın biri idi. Atası adam öldürmək üstündə həbsxanada yatırdı. Anası Məsməgül də ki... Allah onu rüsvay eləsin, necə ki, onsuz da, rüsvay olmuşdu. Adı dillərdə gəzirdi. Hə, bu Mirmuxtar özü kimi bir-iki oğlanla hər gün, işsiz- gücsüz, it kimi sülənirdi küçələrdə.

Köpək oğlu, elə bil əzbərləmişdi qızın bulağa getdiyi saatları. Küçədə hər dəfə gözləmədiyi halda qarşısına çıxır, ədəbsiz sözlərlə ürəyindəki istəyini bildirirdi. Elnarə heç özü də bilmirdi ki, necə oldu, yavaş-yavaş uydu onun sözlərinin təsirinə. Sözsüz
ki, heç bir cavab vermirdi bu oğlana. Başını aşağı salıb öz yoluyla gedirdi. Ancaq içərisində getdikcə qarşısını ala bilmədiyi isti bir istək yaranırdı bu oğlana qarşı.

Bir gün bulaqdan qayıdanda arxadan gəlib qıza çatdı. Yanında dayanmadan «Səni anbarın o tərəfində gözləyirəm. Mütləq gəl!» - deyib sovuşdu. Anbar deyəndə kəndin kənarındakı iri su anbarını nəzərdə tuturdu. Elnarəni bu


ekitab.ucoz.org

anbarın arxa tərəfindəki qalın kolluq basmış xəlvətliyə dəvət edirdi.

Qızın bədənini qəribə bir titrətmə tutdu onda.

Evə güclə gəlib çıxdı. Səhəngi yerinə qoyub məqsədsiz halda o baş-bu başa getdi. Qardaşı arvadı evdə uzanıb dincəlirdi, deyəsən. Qardaşı da evdə yox idi.

Bilirdi, çox yaxşı bilirdi oğlan onu niyə çağırır o xəlvətə... Bilirdi ki, sevgi-məhəbbət söhbəti də yoxdu bu işdə. Oğlan öz ədəbsiz atmacalarında bu məsələyə toxunmamışdı da heç! Ancaq onun böyür- başını, əndamını tərifləmişdi... Bilirdi ki, deyilən yerə getsə nələr olacaq. Bilirdi ki, getsə, oğlan ona ədəbsizcəsinə sahib olacaq. Bilirdi ki, əlindən də qurtula bilməyəcək onun...

Ancaq bütün bunları düşünən halda deyildi. Getmək istəyirdi. Ürəyinin dərinliyindəki qəribə bir maraq, məchul bir istək onu həmin yerə getməyə həvəsləndirirdi. Çox güclü bir hiss idi ürəyindəki bu hiss. Onu başqa bir şey barədə düşünməyə qoymurdu. Ancaq getmək barədə düşünürdü.

Deyilən yerə getmək! O yer həyətlərindən çox da uzaqda deyildi və oğlan indi, yəqin ki, artıq onu orada gözləyirdi...

Qəti qərara gəlib həyət qapısına doğru yeridi. Amma elə bu vaxt... Sən bircə anın hökmünə bax, qardaşı arvadı evdən çıxıb onu səslədi:

- Ay qız, hara gedirsən?

Özünü itirib:

- Heç hara! - deyə cavab verdi.

- Su gətirdin?

- Hə, gətirdim!

- Gəl, düşək bostana, paxla ləklərini sulayaq. İndi



ekitab.ucoz.org

yanırlar susuzdan, yəqin.

- Sonra sulayarıq...

Bunu deyən Elnarə ürəyində qardaşı arvadına lənət oxuyurdu. Düşünürdü ki, yatdığı yerdən ayılmayaydı kaş...

- Ay qız, necə yəni sonra sulayarıq? Gəl görüm!
- Dünən suladıq ki?!

- Həyasızın mənimlə cikkildəşməyinə bax! - qardaşı arvadı səsini qaldırdı. - Sən eşitmədin, mən nə dedim?!

Onda Elnarə ilk dəfə qardaşı arvadının üzünə bozardı. Özü də bilmədi, necə oldu ki:

- Nə istəyirsən e?! - deyə ona çığırdı.

Amma elə o saat da bunun peşmançılığını çəkdi. Qardaşı arvadı bir səs-küy saldı, bir şivən qopardı, gəl görəsən. Bostanı ona təkbaşına sulatdırması bir yana dursun, axşam evə qayıdan ərinə qızdan doyunca şikayət də elədi. Qardaşı da xeyli asıb-kəsdi və onu bir müddət heç küçəyə-zada da buraxmadılar.

İki-üç həftə sonra o oğlanı əsgər apardılar və hər şey beləcə qurtarıb getdi. Sonralar Elnarə düşünürdü ki, onda nə yaxşı ki, qardaşı arvadı evdən çıxıb onu çağırdı. Əgər o, evdən bircə dəqiqə də gec çıxsaydı, nələr olacaqdı, bir Allah bilir... Hər halda, sözsüz ki, Mirmuxtar onu elə-belə buraxmayacaqdı əlindən. Yarım saatlıq, bir saatlıq arvadı olacaqdı o tərbiyəsizin. Sonra isə... Sonra isə, yəqin ki, yenə görüşəcəkdilər. Sonra, yenə! Hələ bəlkə onu öz avara yoldaşlarına da ötürəcəkdi. Və nəhayət, Elnarə pis yola düşüb kənddə pis ad qazanacaqdı. O əclafın anası Məsməgül kimi...

Bunları düşünəndə, ona həmişə zülm eləmiş qardaşı arvadına qarşı bir minnətdarlıq hissi duyurdu ürəyində. Bir



ekitab.ucoz.org

də, təbii ki, tanrısına minnətdarlıq edirdi. Bir anın içində, gələcəyini büsbütün
dəyişəcək bir hərəkətinə mane olub onu bədbəxtlikdən xilas etdiyi üçün.

Ramazanla da ilk dəfə çay kənarına gəzintiyə gedərkən o vaxt kənddə keçirdiyi həmin hisslərə oxşar duyğular yaranmışdı içində. Eşidib, görmədiyi, bilmədiyi məhəbbət oyunlarının ləzzətini yaşamaq istəyirdi. Tezcə ərə gedib cinsi qovuşmadan həzz almaq istəyirdi.

Amma gec də olsa başa düşdü ki, bütün bu həzlər, ləzzətlər ötəri, keçici duyğular imiş. Başa düşdü ki, arada məhəbbət olmasa, heyvani şəhvətlə uzun müddət xoşbəxt həyat sürmək olmaz.

Heyif! Çox heyif ki, bunu əvvəldən bilmədi. Bakirəliyini, sonra da ən yaxşı çağlarını sevmədiyi, bütün duyğuları, arzuları, davranışı ilə ona yad olan birinə qurban verdi. Ramazan ilə bir ildən bir az artıq
yaşadılar. Ona bəzən elə gəlirdi ki, namussuzluq eləmişdi bu müddət ərzində. Nə olsun ki, rəsmi kəbinləri var idi?! Lənət olsun o kəbinə ki, səni sevmədiyin, yaddan da yad olan biri ilə bağlayacaq, onunla hər gecə eyni yatağa girməyi qanuniləşdirəcək!

İndi, yuyunmaq üçün vanna otağına girəndə, hərdən iri güzgünün qarşısında özünün çılpaq əksinə baxır, iyirmi üç yaşını adlamasına, bir uşaq doğmasına baxmayaraq görkəmində qızlıq təravətini qoruyub saxladığını görürdü. Sinəsini qabardıb o qədər də yumşalmamış şux döşlərinə baxırdı. Çiyni üstündən burulub ayaqlarına baxırdı. Əllərini incə belindən sürüşdürüb ağappaq, sağlam və möhkəm budlarını sığallayır, özündə heç bir problemin olmadığına


ekitab.ucoz.org

bir daha əmin olurdu.

Amma yenə... Nədənsə, qəbul edə bilmirdi bakirəliyinin Ramazana qismət olmasını. O anlar tamam başqa anlar idi. Oğlanın əli ilk dəfə o çadırda döşlərinə toxunanda qız, az qaldı ki, huşunu itirsin. Onda elə bil gedib cənnətin şirinliyini görüb, təzədən qayıtdı. Elə Ramazan da özündə deyildi həmin vaxt və onun keçirdiyi o anın, o ləzzətin Seymura yox, ona qismət olmasına indi də təəssüflənirdi.

Düzdür, Seymurla da ilk dəfə yatağa girəndə ona bənzər bir hiss keçirmişdi. Onu sevdiyi üçün, bütün qəlbi ilə ona qovuşmağa can atdığı üçün. Ancaq ilk dəfənin verdiyi güclü, anlaşılmaz, təlatümlü hisslərin eyni bir daha təkrar ola bilməzdi, yəqin ki...

Amma onu da demək lazım idi ki, Seymurdan tamam başqa cür həzz alırdı Elnarə. Bu həzz məhəbbət həzzi idi. Bunu təkcə yataqda yox, bir
süfrə arxasında əyləşəndə, qoşa gəzəndə, söhbət edəndə, hətta uzaqdan-uzağa Seymuru xatırlayanda da duyurdu Elnarə...

Hə, onu düşünürdü axı... Ramazan da, əslində, Pavel Serafimov kimi Seymurun rəqibi hesab olunmalı idi. Elnarəyə o sahib oldu, o evləndi doğma Azərbaycandan gəlib buralara çıxmış bu cavan və qəşəng qızla. Ancaq Seymur Ramazana hər hansı bir pislik eləməyi heç vaxt ağlına gətirmədi. Əksinə, elə hey yaxşılıq elədi, arxa durdu ona. Əlbəttə, söz yox ki, Elnarəyə görə. Mənzil bağışladı onlara, Ramazana yaxşı iş verdi. Qəzaya düşəndə pulunu, vaxtını, zəhmətini əsirgəməyib, ölməyə qoymadı onu. Lap axırda isə Ramazanın ona açıq-aşkar xəyanət etməsinə baxmayaraq, həbsdən xilas etdi bu nankoru.



ekitab.ucoz.org

Bəlkə də Elnarə Seymuru elə buna görə sevdi. Ürəyinin bu dərəcədə böyüklüyünə görə. Seymur bilərəkdənmi, ya özü də bilmədən, böyüklüyü, xeyirxahlığı, mərdliyi ilə Elnarəni ovsunladı, onun könlünə həmişəlik sahib oldu.

Elnarə Ramazanla yaşayanda Seymur ona öz sevgisi barədə bir dəfə də olsun işarə vurmamışdı. Rastlaşanda mehribanlıqla dindirir, hal-əhval tutur, bir şeydən ehtiyacı olub-olmadığını soruşurdu, vəssalam! Elnarə də onun barəsində başqa fikrə düşməmişdi. Düşə də bilməzdi, çünki onun qəti əqidəsinə görə, qadının əri var idisə, başqa kişi barəsində hər hansı intim xəyala dalmağın özü də namussuzluq idi.

Amma xətrini çox istəyirdi Seymurun. Qardaşının dostu kimi, ailəsinə qayğı göstərən bir
həmyerlisi kimi, ya bir insan kimi... Axır ki, çox istəyirdi xətrini. Lap Natiq qədər! Lap, bəlkə bir az da çox!

Ramazandan ayrılandan sonra da bir müddət belə davam etdi. Elnarədə artıq Seymuru hər gün görməyə bir dəli ehtiyac yaranmışdı. Çalışırdı ki, onunla tez-tez üzləşsin. Səbəbini isə özü də lazımi qədər anlamırdı.

Nəhayət, bir gün... Elnarə ilə ofisin dəhlizində rastlaşan Seymur onu öz kabinetinə dəvət etdi. Deyəcəyi sözləri ürəyində bir də sıralayıb məhəbbətlə qızın gözlərinin içinə baxdı.

- Elnarə, sənə bir sözüm var, - dedi. - Ancaq bu başdan bildirim ki, qəbul eləməsən, yenə mənim üçün dostumun bacısı, deməli, həm də öz bacım olaraq qalacaqsan.

- Nə söz? - Elnarə onun nə deyəcəyini anlasa da soruşdu.

- Mən səninlə evlənmək istəyirəm. Razısanmı mənimlə ailə qurmağa?



ekitab.ucoz.org

Bu sözləri Seymurdan gözləsə də eşidəndə çox həyəcanlandı. Oğlanın üzünə baxa bilməyib başını aşağı dikdi. Seymur sualını bir daha təkrar etdikdə isə, utancaq halda çiynini çəkib:

- Nə bilim... - dedi.

Seymur, nədənsə, onu kabinetdə çox saxlamaq istəmədi. Fikirləşməsini xahiş edib getməsinə icazə verdi.

İki gün sonra həyətdə rastlaşdılar. Seymur ondan təklifi barədə nə fikirləşdiyini soruşdu. Elnarə dinmədi. Oğlan isə qəti cavab istəyirdi:

- Bu gün Natiqlə danışıb səni istəyim, yoxsa yox?

Elnarə yenə baxışlarını ondan yayındırıb boynunu bükdü və astadan:

- Sən bilərsən... - dedi.

## Onuncu fəsil

Mənzilin zəngi çalındı. Elnarə xəyaldan ayrılıb qıvraq hərəkətlə qapıya qaçdı. Gözlükdən baxıb Bakıdan gəlmiş xəfiyyəni görəndə sevincini heç cür gizlədə bilmədi. Qapını açıb:

- Nə yaxşı gəldiniz?! Xoş gəlmisiz! Keçin içəri! - dedi.

Polkovnik Qasımlı gənc qadına gülümsəyib başını yüngülcə tərpətməklə salam verdi və içəri keçdi. Onu mənzildəki ən böyük otağa dəvət edən Elnarə:

- Dünən səhərdən sizi gözləyirik, - deyərək iri kreslolardan birini göstərdi. - Burada əyləşin, xahiş edirəm. Sizin üçün nə gətirim?

Kresloda əyləşən Qasımlı:

- Zəhmət olmasa, qəhvə, - dedi.

- Nə zəhmət? - Elnarə səmimi təəccüblə dilləndi. - Mənə xoşdu sizə qulluq etmək. Siz Allah, nə lazım olsa deyin.



ekitab.ucoz.org

Ürəyiniz nə istəsə, deyin, bişirim sizin üçün. Bundan sonra da bizdə qalarsınız.
Vallah, inciyərik başqa yerə getsəniz.
Sonra qəhvə gətirmək üçün mətbəxə qaçdı.

Əyninə yataq geyiminə oxşar bir şey geyinmişdi. Mavi rəngli məxmərdən olan bu geyim əyinə kip oturmayan, beli büzməli şalvardan və beldən bir qarış aşağıya qədər uzanan gödək, yaxası düyməli xalatdan ibarət idi. Qasımlı düşündü ki, əslində, yad qonağı belə geyimdə qarşılamırlar. Xüsusən də azərilər. Amma o bunu ürəyində nöqsan kimi də qiymətləndirmək istəmədi. Çünki bu geyim Elnarəni
şirin, sadə və səmimi göstərirdi. Onun Mariya Zaxarovnadan fərqli olaraq qonağın qarşısında gözəl görünmək üçün üz-gözünə xüsusi əl gəzdirməməsi də Qasımlıya qarşı hörmətsizlikdən irəli gəlmirdi. Əksinə, onun necə sevindiyi açıq-aydın görünürdü.

Elnarə əlində gətirdiyi qəhvə fincanını kiçik masanın üstünə qoydu. Və birdən Qasımlının gözləmədiyi halda əlini-əlinə vurub güldü:

- Heç bilirsiniz dünən başıma nə gəlib, Qanbay müəllim? Sizi gözləyirəm, naharı hazırlayıb çıxdım balkona ki, bəlkə siz gələndə görüm. Bir azdan elə bildim ki, qapının zəngi çalınır. Yüyürdüm qapıya. Gözlükdən baxdım, gördüm heç kim yoxdu. Fikirləşdim ki, siz gəlib zəngi çalmısız, eşitməmişəm. Sonra da görmüsünüz ki, qapını açan yoxdur, çıxıb getmisiz. Tez qapını açdım. Bu hadisələri eşidəndən
sonra həyətə tək düşməyə də qorxuram axı?! Sonra «Nə olursa olsun!» deyib pilləkənlə aşağı yüyürdüm. Gördüm blokdan tanımadığım bir kişi çıxır. Yaşlı kişi idi. Dedim:

- Bizim qapının zəngini siz çalırdınız?


ekitab.ucoz.org

Qəribə bir baxışla üzümə baxıb qayıtdı ki:

- Siz kimsiniz? Mən heç bir qapının zəngini çalmamışam.

Üzr istəyib qayıtdım geri. Sonra fikirləşirəm ki, mənim qulağıma yalandan gəlibmiş bu səs. Qapının zəngini çalıb-eləyən olmayıbmış.

Elnarə sözünü qurtarıb yenə güldü. Bu dəfə Qa- sımlı da öz təbəssümünü saxlaya bilmədi. Ev sahibəsinin qonağın gəlişinə həddindən artıq sevindiyi göz qabağında idi. Ancaq bununla belə, qaraqabaq xəfiyyə düşündü ki, bu qız ya doğrudan
da çox sadəlövhdür, ya da ki, sadəcə olaraq, ömründə ikinci dəfə gördüyü, xarakterini öyrənmədiyi adamla necə danışmağın qaydasını bilmir.

Elnarə isə söhbətini bitirən kimi:

- Sizin üçün peçenye bişirmişəm, bu saat gətirim, - deyib yenə mətbəxə qaçdı.

Elə oynaq hərəkət edirdi ki, paltarının bədəninə boş olmasına baxmayaraq incə beli və mütənasib əndamı özünü bildirirdi. Mətbəxdən tezcə qayıdıb boşqabda gətirdiyi peçenyeləri qəhvə fincanının yanına qoydu və:

- Mən xörəyə baxım! - deyərək otaqdan çıxdı.

Yarım dəqiqə keçmiş balaca Tamerlan
qoltuğunda şahmat taxtası içəri daxil oldu. Gonbul yanaqları onu çox məzəli göstərirdi. Əvvəl bir neçə
an Qasımlıya təəccüblə baxıb birdən gülümsədi. Deyəsən onu tanımışdı.

- Salam, Tomik! - Qasımlı uşağı mehribanlıqla salamladı.

- Salam! - Tamerlan cavab verib ona yaxınlaşdı.



ekitab.ucoz.org

Qasımlı uşaqdan şahmat taxtasını alıb masanın üstündə açdı. O, bu oyunun ustası idi. Hətta adi oyunçularla gözüyumulu da oynaya bilirdi. Oyun zamanı çox mürəkkəb gedişləri qabaqcadan görürdü. Amma şahmatla müqayisədə, cinayət hadisələrinin təhqiqatı zamanı qarşıya çıxan gizli məqamları daha tez görürdü.

- Bunu sənin üçün kim alıb? - uşaqdan soruşdu.
- Atam.
- Atan haradadır?

Uşağın sifətinə birdən-birə kədər çökdü:

- Uzağa gedib.
- Niyə?
- Mənim üçün velosiped almağa.

Qasımlı gördü ki, Tamerlanın gözü peçenyelər- dədir. Boşqabı bir az ona tərəf itələyib:

- Yemək istəyirsənsə, ye! - dedi.

Uşaq buna bənd imiş kimi yumru peçenyeləri bir-bir götürüb ağzına basmağa başladı. Bir gözü qapıda idi. Deyəsən, anasının gəlib görəcəyindən qorxurdu. Bu vəziyyətdə onun çox gülməli görkəmi var idi. Qasımlı başa düşdü ki, anası ona şirniyyat vermir. Ancaq daha gec idi. Tamerlan peçenyeləri dalbadal ağzına qoyur, ağzı tamamilə dolduğu üçün
onları barmağı ilə içəri basırdı. Qasımlı fiqurun birini göstərib:

- Bu nədir? - deyə soruşdu.

Uşaq cavab vermək istədisə də alınmadı. Çünki ağzı dolu idi. Odur ki, onun əvəzinə özü cavab verdi:

- Bu şahdır. Bu isə vəzir. Oynaya bilirsən? Tamerlan başını bulayıb boşalmış boşqabı


ekitab.ucoz.org

əvvəlki yerinə itələdi.

- Öyrədimmi sənə?
- Öyrət! - nəhayət, ağzı boşalmış uşaq dilləndi.
- Onda gəl əvvəl fiqurları düzməyi öyrənək. Fiqurları düzəndə Elnarə mətbəxdən gəldi: -Tomik, çəkil, əmini incitmə!

- İncitmir, şahmat oynayırıq. - Qasımlı bunu deyib oğlanın başını sığalladı.

Elnarə peçenyelərin tamam qurtardığını görüb sevindi:

- Peçenye xoşunuza gəldi demək? İstəyirsiniz yenə bişirim.

- Yox! Sağ olun! Doydum. - Qasımlı cavab verdi.

Elnarə televizorun yanından kiçik videokameranı götürüb onları çəkməyə başladı. Qasımlı bundan xoşlanmasa da bir söz demədi.

Ev sahibəsi çəkilişi qurtarıb kameranı öz yerinə qoydu. Tamerlanın əlindən tutub öz otağına apardı:

- Gəl, öz otağında oyuncaqlarınla oyna. Əmini yorma!

Sonra qayıdıb Qasımlı ilə üzbəüz əyləşdi.

- Müstəntiqlə görüşdünüz? - deyə tərəddüdlə soruşdu.

- Görüşdüm. - Qasımlı soyumuş qəhvədən bir qurtum içib cavab verdi.

- Nə fikrə gəldiniz?

- Təəssüf ki, hələ heç nə deyə bilməyəcəm. Qəribə və dolaşıq bir işə bənzəyir bu iş.

- Sizin fikrinizcə, Seymur belə bir iş tuta bilər?

Qasımlının üzündə kinayəli təbəssüm göründü:

- Elnarə xanım, mən hələ ki, Seymuru tanımıram. Heç görməmişəm də! Əslində bu sualı mən sizə verməliydim.

- Seymur heç vaxt belə iş tutmaz. Heç vaxt! - qadın



ekitab.ucoz.org

qətiyyətlə başını silkələdi. O, sanki başqa bir adam olmuşdu. - Onu tutanların bəhanəsi budur ki, guya Seymurun gözü götürməyib o kişini. Guya rəqibi olub onun. Düzdür, Seymur istəyirdi ki, firması şəhərdə birinci olsun. Ancaq...

Susub, bir qədər dayandı. Sonra Seymurun onu sevməsinə baxmayaraq, Ramazana etdiyi təmənnasız yaxşılıqlardan danışdı. O danışdıqca Qasımlı Ramazan adlı o adamın təyyarədə dediklərini xatırlayırdı. Sözünü bitirən qadın axırda:

- O heç düşməninə də namərdlik etməyi bacarmaz! - dedi və qısa xalatının cibindən dəsmalını çıxarıb yaşarmış gözlərini quruladı.

Qasımlı onun öz ərini necə də ürəkdən sevdiyini duyub başa düşürdü. Və ürəyində bunu qiymətləndirirdi də! Amma təhqiqat zamanı özü üçün dəqiqləşdirmədiyi mülahizələrini kiminləsə bölüşmək xarakterinə qətiyyən uyğun deyildi. Kiməsə yerli- yersiz ümid verməyi də xoşlamırdı.

- Siz zoğal kompotunu süfrəyə gətirəndə otaqda kimi gördünüz? - deyə soruşdu.

- Müstəntiqi. - Elnarə cəld cavab verdi.

- Onun hərəkətində, davranışında şübhəli bir şey hiss etdinizmi?

- Yox... - qadın tərəddüdlə dilləndi. - Pencəyini əlinə götürmüşdü. Zoğal kompotunu podnosda görüb, nə olduğu ilə maraqlandı. Sonra biz stəkanları süfrəyə düzüb çıxdıq.

- Kiminlə idiniz?

- Nataşa ilə. Seymurun mühasibidir.

- Stəkanları kim düzdü süfrəyə?

- Mən...



ekitab.ucoz.org

- Siz niyə kompotu stəkanlara süzmüşdünüz? Niyə onu qrafində qoymadınız süfrəyə?

Bu sualı ona Adarov da, Fomin də, müstəntiq İvanov da vermişdi. O da izah eləmişdi. Amma yenə
də özünü itirdi. Qorxurdu ki, Bakıdan gəlmiş bu həmyerlisi də müstəntiq İvanov kimi ona inanmasın.

- Bilirsiniz... - dedi. - Mən sizdən heç nə gizlətməyəcəm. İndi özüm də başa düşə bilmirəm ki, mən niyə kompotu qrafində aparmadım süfrəyə. Axı indi şəhərlilər hamısı belə edir. Ancaq, inanın mənə, kənddə olanda mən həmişə belə görmüşdüm. Anam həmişə belə edirdi... Həm də, az idi kompot. Hərəyə elə bircə stəkan çatacaqdı. Dedim, hamının öz payı olsun.

- Kompotu özünüz düzəltmişdiniz?

- Bəli. Keçən il buradakı azərilərdən biri Azərbaycana gedib qayıdanda bizim üçün də bir az zoğal gətirmişdi. Mən də ondan kompot düzəltdim. Üç balon oldu. Birini içmişdik, birini həmin gün açdım, biri hələ qalıb.

Qasımlı ayağa qalxdı:

- Məni mənzilinizlə tanış edərsinizmi?

- Bəli, əlbəttə! - ev sahibəsi də cəld durdu. - Süfrə elə bu otaqda açılmışdı. Baxın, bu masada. - İri masanı göstərdi. - Biz buraya qonaq otağı da deyirik, yemək otağı da. Amma özümüz yeməyi həmişə mətbəxdə yeyirik.

Qasımlı boş masanı diqqətlə gözdən keçirdi. Masanın ətrafında on iki yumşaq stul düzülmüşdü.

- Serafimov harada əyləşmişdi? - deyə soruşdu.

Elnarə göstərdi. Bu, həm balkonun qapısına, həm də otağın öz qapısına məsafəcə ən yaxın stul idi. Qasımlı qəribə nəzərlərlə qadına baxdı:



ekitab.ucoz.org

- Siz buranı baş tərəf hesab edirsiniz?
Ev sahibəsi bir anlıq duruxdu:

- Yox... Amma burada əyləşən adam televizoru hamıdan yaxşı görür.

- Siz Fomini görəndə o harada durmuşdu?
Elnarə otağın televizor qoyulan tərəfində divanı göstərdi:

- Orada. Pencəklər divanın üstünə atılmışdı. Biz onu görəndə öz pencəyini əlinə götürmüşdü.

Balkona çıxdılar. Bura geniş idi və yeddi-səkkiz adam rahat dayanıb söhbət edə bilərdi. Buradan baxanda iri yemək masası görünmürdü. Yenidən otağa daxil olub oradan kiçik dəhlizə çıxdılar. Əllərini qoynuna qoymuş Elnarə dinib-danışmadan qonağının arxasınca gəzirdi.

Dəhlizə çıxanda Qasımlı sola döndü. Vanna otağının və tualetin yanından ötüb geniş mətbəxə girdi. Qaz plitəsinin üstündəki qazan buğlanırdı.
Elnarə qazanın qapağını açıb baxdı və yenə örtdü. Deyəsən, yarpaq dolması bişirirdi.
Qasımlı dolabı açıb qab-qacağa baxdı.

- Stəkanlar niyə belə azdır?

- Süfrəyə qoyduqlarımın hamısını apardılar. Hələ qaytarmayıblar.

Kiçik, şəffaf qrafini götürüb baxdı və yenə yerinə qoydu:

- Natiq üçün suyu bu qrafində aparmışdınız?

- Bəli, - Elnarə gülümsədi. - Siz artıq hər şeyi bilirsiniz.

- Sadəcə, Fominlə söhbət etmişəm. - xəfiyyə ciddi şəkildə dilləndi.

Sonra kiçik araq stəkanlarına baxdı. Səliqə ilə yığılmış boşqablara göz gəzdirdi. Birdən dönüb


ekitab.ucoz.org

maraqla onun hərəkətlərini izləyən ev sahibəsinə baxdı:

- Siz həmin gün başqa qonaq gözləyirdiniz?

- Xeyr! - Elnarə başını buladı. - Seymur ancaq Serafimovu, Fyodor Simonoviçi, bir də Nataşanın ərini dəvət etmişdi. Natiqi mən çağırmışdım. O gün də yarpaq dolması bişirmişdim. İstədim ki, Natiq də gəlib yesin. Amma... Hər şey çox pis qurtardı.

- Siz Natiqi çağırmasaydınız Seymur dəvət etməyəcəkdi?

Elnarə təəccübləndi:

- Əlbəttə, edəcəkdi! Onsuz bir məclisimiz olmur. Elə naharı da bəzən gəlib bizdə edir. Seymur tutulandan sonra gecələr də burada qalır. Məni tək qoymur.

Qasımlı növbəti sualını bir az düşünəndən sonra verdi:

- Natiqlə Nataşanın arasındakı münasibətdən xəbəriniz var idimi?

Elnarə incə bir əda ilə qəşəng dodaqlarını büzüb, boynunu əydi. Yanaqlarına qızartı çökdü. Gənc qadın həmin anda Qasımlıya çox məhrəm göründü və ona elə gəldi ki, ev sahibəsi ilə lap çoxdan tanışdır.

Elnarə:

- Bir az hiss eləmişdim aralarındakını. Dedim ki, bu yaxşı iş deyil, onun əri var. Cavab verdi ki, daha qurtarıb onunla. Əslində, Natiq burdakı bəzi azərilər kimi deyil. Bir az Seymur kimidir o da. Xasiyyəti ciddidir.

- Bəs Nataşa özü necə qadındır?

- Yaxşıdır. O işini çıxmaq şərtilə, əlbəttə. Mehriban, gülərüz qadındır. Dedi-qodu xoşlayan deyil.

- Bəs əri?

- Ərindən xoşum gəlmir, nədənsə... Adama elə baxır, elə



ekitab.ucoz.org

bil nəsə günah işlətmisən. Amma belə baxanda, sakit adamdır. İçməkdən başqa heç nə barəsində düşünmür.

Mətbəxdən çıxıb dəhlizlə addımladılar. Bayaq əyləşdikləri yemək otağının qapısını ötürüb, növbəti otağın qarşısında dayandılar. Elnarə qapını açdı. Bura Tamerlanın otağı idi. Müxtəlif oyuncaqlar pərakəndə halda döşəməyə səpələnmişdi. Uşaq yerdə oturub evcik qururdu. Çıxıb, qapını örtdülər. Sonrakı otaq qonaqların istirahəti üçün nəzərdə tutulmuşdu. Otaqda iki çarpayı var idi və Elnarənin deməyinə görə, Natiq onların mənzilində gecələməli olanda burada yatırdı. Axırıncı otaq Seymurgilin yataq otağı idi. Ev sahibəsi qapını açsa da Qasımlı içəri girmədi. Geri qayıtdılar. Elnarə qonağını əvvəlki otağa ötürüb:

- Siz əyləşin, mən xörəyə baxım, - dedi və mətbəxə getdi.

Qasımlı keçib bayaqkı kresloda əyləşdi. Ev sahibəsi haqqında düşünürdü. Elnarə özünü onunla çox sərbəst aparırdı. Lazım olandan və qəbul ediləndən çox. Düzdür, Qasımlı insanlarla çox az ünsiyyətdə olurdu. Qadınlarla isə lap az. Amma, necə olmasa, insan xarakterlərindən az-çox baş çıxarırdı. Bilirdi ki, qəbul edilmiş qaydalar, normalar var. Məsələn, qonşuluqdakı Fədayə müəllimə... Bakıya köçəndən onlarla qonşu idi Qasımlı. Onun əri Nemətlə də çox oturub-durmuşdu. Amma, Fədayə müəllimə Qasımlıya çox böyük rəğbət göstərməyinə baxmayaraq, hər dəfə onu görəndə təzə tanışlar kimi aparırdı özünü. Arada lazım olan pərdəni həmişə saxlayırdı.

Elnarə isə... Təzəcə tanış olmalarına və aralarındakı böyük yaş fərqinə baxmayaraq, özünü elə aparırdı ki, elə bil, gözünü açandan Qasımlının yanında olub. Qasımlı bunu tam qəbul edə bilmirdi, nədənsə.



ekitab.ucoz.org

Amma, Elnarəni qınaya da bilmirdi. Ciddi etiraz doğuran, pis bir şey görmürdü bu gənc qadında. Çox səmimi, qəlbi açıq, bir az da sadəlövh qadın idi Elnarə. Qasımlı hətta hiss edirdi ki, bu mənzilə girdiyi bir saat müddətində daxili ağrıları və narahatlıqları yoxa çıxıb. Sanki, geyimindən və
saçlarını necə gəldi bağlayıb arxaya atmasından şıltaq yeniyetmə qızları xatırladan Elnarədə xoş bir təsir qüvvəsi var idi. Elə bir təsir qüvvəsi ki, qarşısındakının dərdlərini unutdurub, ağrılarını azaldırdı.

Amma, Qasımlı da Qasımlı idi! Kiminsə onun üzərində təsir qüvvəsinə malik olmasına imkan verə bilməzdi. Onda da ola, özündən yaşca xeyli kiçik sadəlövh qadın! Qərara gəldi ki, bundan sonra Elnarə ilə daha ciddi davransın. Ona öz yerini göstərib, yad adamlarla münasibətin həddini anlatsın.

Nəsə hiss edib otağın açıq qapısına baxdı. Qapıda aşağı əyilmiş balaca Tamerlanın yalnız başı görünürdü. O, mətbəx tərəfə ehtiyatla boylanıb yenə
başını içəri uzatdı. Qasımlının ona baxdığını görüb pıçıltıyla:

- Sən bizdə qalacaqsan? - deyə soruşdu. Qasımlı onu yaxşı eşitmədi:

- Nə dedin?
- Sən bizdə qalacaqsan? - uşaq səsini azacıq qaldırdı.
- İstəyirsən qalım?
- Qal! - Tamerlan ürəklə dedi. - Axşam Natiq dayı da gələcək.
- Yaxşı, qalaram. - Qasımlı onu arxayın etdi. Uşaq bir də mətbəx tərəfə baxıb, qapıdan yox


ekitab.ucoz.org

oldu.

Ancaq, nahar süfrəsi təzəcə hazır olmuşdu ki, Natiq gəlib çıxdı. Qonaqla mehriban görüşməsinə baxmayaraq, Qasımlı onun qanının qara olduğunu
dərhal hiss etdi. Bu barədə heç nə soruşmayıb Natiqin özünün danışacağını gözlədi. Natiq xəfiyyənin sualedici baxışlarını anlayıb danışmağa başladı:

- Yenə bir azərbaycanlıya hücum edib möhkəm döyüblər. Öz yaşadığı evin qabağında. Polis dəstəsi vaxtında çatmasaymış, öldürəcəklərmiş.

- Ay aman! - qapının ağzında dayanmış Elnarə əllərini üzünə apardı.

- Sizcə, bu dəstənin təşkilatçıları kimdir? - Qasımlı gənc polis işçisindən soruşdu. - Serafimovun adamlarımı?

- Məncə, yox! - Natiq cavab verdi. - Millətçi cavanlardır bunlar. Əksəriyyəti rusdur. Amma aralarında erməni də az deyil. Serafimovla Radik
Boskanyanın guya azərbaycanlı tərəfindən öldürülməsi onlara möhkəm toxunub.

- Bəs niyə idarəniz birdəfəlik bir tədbir görmür bu barədə?

Natiq kinayə ilə əlini yellədi:

- Elə bizim rəisimizin özü də millətçi şovinistin biridir. Bəlkə də onun ürəyindəndir bütün bunlar.

- Bu çox pisdir! - Qasımlı başını buladı.

- Əlbəttə! - Natiq dilləndi. - Belə getsə, görəcəklər heç bir cəza yoxdur, lap qudurub düşəcəklər canımıza. Bayaq bir yerlimiz, lap az qala, ağlayırdı. Deyirdi, neyləyim, normal yol pulum da yoxdur ki, qayıdım gedim Azərbaycana, - bir az susub birdən əyləşdiyi kreslodan



ekitab.ucoz.org

ayağa qalxdı. - Yox, bunun daha bircə çarəsi var. Gərək Seymurun
günahsız olması sübut oluna ki, bunlar da sakitləşələr. Yoxsa, başqa cür tədbir mümkün deyil!
Elnarə onları süfrə arxasına dəvət etdi:

- Gəlin yeməyinizi yeyin. Allah onların bəlasını versin!

Ayağa qalxıb süfrəyə yaxınlaşan Qasımlı Natiqdən:

- Nahardan sonra işə qayıtmalısınız? - deyə soruşdu.
- Mənə görə bir qulluq varsa, qala bilərəm.
- İstəyirəm, şəhəri gəzim. Həm də iş barədə söhbət edək sizinlə.
- Baş üstə! - Natiq razılaşdı. - Nahardan sonra çıxarıq.

Elnarə qonaq üçün gözəl süfrə açmışdı. Evdə olan hər təamdan süfrəyə düzmüş, hər şeyin bol
olmasına çalışmışdı. Xörəyi də pis bişirməmişdi. Duzunun və suyunun çox olması nəzərə alınmazdısa...

Anasının hərdən Tamerlana tutduğu iradları çıxmaq şərtilə nahar sakit və səssiz keçdi. Hər kəs Natiqin gətirdiyi xoşagəlməz xəbərin təsiri altında idi.

# On birinci fəsil

Natiq həyətdə saxladığı «Nissan»ın qapısını açıb Bakıdan gəlmiş xəfiyyəni maşına dəvət etdi. Qasımlı keçib arxada əyləşdi. Qara rəngli eynəyini gözünə taxıb:

- Seymurun şəhərdəki obyektləri ilə tanış olmaq istəyirəm. - dedi.

Maşın hərəkətə gəlib şəhəri iki hissəyə ayıran yeganə prospektə çıxdı. Bir az getmiş Natiq əyləci basıb geriyə çevrildi. Əli ilə yolun solundakı ərzaq mağazasını göstərib:

- Bu mağaza Seymurundur, - dedi və tez də əlavə etdi. - Təkcə bu prospektdə dörd belə ərzaq mağazası var.


ekitab.ucoz.org

Qasımlı heç nə deməyib başını tərpətdi. Sonra Natiq daha bir neçə yerdə maşını saxlayıb firmanın gördüyü işləri göstərdi.

- Baxın, bu binanı da Seymurun firması tikir. Qasımlı yenə başını tərpətdi və gözlənilmədən soruşdu:

- Siz Eduard Sokolovun bölməsində işləyirsiniz?

- Bəli... - gənc polis zabitinin səsinə kədər qondu. - Narkomaniya ilə mübarizə bölməsində. Onu bir ay bundan əvvəl öldürdülər. Öz mənzilinin balkonundan tulladılar yazığı.

-Amma, rəisinizin qəti iddiasına görə, o özü intihar edib. - Qasımlı onu arxadan diqqətlə süzdü.

- Mən buna inanmıram! - Natiq etiraz etdi.

- Nəyə əsasən?

- Birinci ona görə ki, Eduard ağlı başında olan adam idi. Bizim idarədə ən prinsipial, ən bacarıqlı işçi sayılırdı. Ekspertin rəyinə görə çox da içki içməyibmiş o gecə. Yəni, içməyinə içibmiş, amma o qədər də yox. Axı niyə özünə qəsd etməliydi? Düzdür, arvadı üç-dörd gün qabaq ondan ayrılıbmış. Uşağını da götürüb atası evinə gedibmiş...

- Nə üçün? - Qasımlı onun sözünü kəsdi.

- Ailədir də. Öz aralarında nəsə narazılıq olubmuş. Eduard bunun dərdini çəkirdi. Amma buna görə intihar edə bilməzdi axı?!

Qasımlının simasında kinayəli bir təbəssüm göründü:

- Siz hələ çox gəncsiniz. Yadınızda saxlayın ki, bizim işimizdə dəqiqlik riyaziyyatçıya lazım olandan da artıq lazımdır. Bizdə heç bir faktı əhəmiyyətsiz hesab edib kənara qoymaq olmaz. Baxın, ailədəki



ekitab.ucoz.org

münaqişənin nə üstündə baş verdiyini araşdırmadan hökm verirsiniz ki, Sokolov buna görə intihar etməz.

- Yox, Qanbay müəllim, bilirsinizmi...

Xəfiyyə yenə onun sözünü kəsdi:

- İnsanların xarakteri həddindən artıq müxtəlifdir. Siz inana bilərsiniz ki, dərsindən qeyri- kafi qiymət alan şagird buna görə intihar edər? Amma belə və buna bənzər faktlar istədiyiniz qədərdir.

Natiq polkovniki axıradək hörmətlə dinləyib izahat verdi:

- Mən sizinlə tamamilə razıyam, cənab polkovnik. Amma Eduard mənim dostum idi. Arvadına da yaxından bələdəm. O ailədə hərdən olurdu belə şeylər. Arvadı, həmişəki kimi, yenə də

qayıdıb gələcəkdi evə. Görəydiniz, ərinin başına gələni biləndə necə ağlayırdı. Mən heç cür inana bilmirəm ki, Eduard intihar etsin. Mənzilin açarı nə Eduardın cibindən, nə də mənzildən tapılmışdı. Araq içdiyi stəkanda əl izi yox idi. Bunları dönə-dönə rəisimizə də, prokurorluqdakı müstəntiqlərə də xatırlatdım. Heç biri məntiqi şəkildə izah edə bilmədi bunu. Ancaq yenə də öz tələsik hökmlərini verdilər.

- Hadisə gecə olubmuş? - Qasımlı sakitcə soruşdu.

- Bəli. Təxminən saat ikidə. Bina sakinləri yatıbmış. Hadisə yerinə mən də getmişdim. Təkcə üç mənzildə işıq yanırdı. Onun mənzilində, bir də iki blokun birinci mərtəbəsində. Onlarda səsə ayılıbmış. Polisə həyətin gecə gözətçisi xəbər vermişdi. Təsəvvür edirsiniz, yazığın beyni də

partlayıb dağılmışdı... Yuxarı çıxdıq. Mənzilin qapısı bağlı



ekitab.ucoz.org

idi. Amma açarla qıfıllanmamışdı. Qıfılı sındırıb içəri keçəndə masanın üstündə yarısı içilmiş araq şüşəsi və bir stəkan gördük. Stəkanın içində azacıq araq var idi. Gördük ki, balkonun qapısı açıqdır.

- Deyirsiniz, stəkanda əl izi aşkar olunmadı?

-Araq şüşəsində Eduardın əl izi var imiş. Stəkanda isə yox. Stəkanda yalnız arvadının əl izi tapılıbmış. Bunun üçün onu da istintaqa çəkdilər. Amma bir nəticə hasil olmadı. Qadın stəkanları yuyub, qurulayıb mətbəxdəki şkafa qoyub. Əl izi bundan qala bilərdi. Qaldı ki Eduardın əl izinin olmamağı, müstəntiqlər bu məsələdə ekspertizanı günahkar bildilər. Dedilər ki, əl izini, sadəcə olaraq, aşkar edə bilməyiblər. Baxın, beləliklə, cinayət işini bağladılar, qurtardı getdi.

- Bəs sizin özünüzün bir fikriniz varmı bu hadisə barədə?

- Mənim fikrimcə, Eduard gecə yatmayıb içki içirmiş. Kimlərsə mənzilə soxulub onu balkondan atıblar. Həm də bu adamlar azı iki nəfər olublar. Eduard bir nəfərə məğlub olmazdı. Lap sərxoş olsa da.

- Stəkanda onun əl izinin olmamasını sən necə izah edirsən?

- Düzünü desəm, bunu izah edə bilmirəm. - Natiq təəssüflə başını yırğaladı. - Bu məsələdə müstəntiqlərlə razılaşmağa məcburam. Ola bilər, əl izlərini düzgün götürməyiblər.

- Sizcə, Sokolovu niyə öldürməli idilər? - Qasımlı bir siqaret yandırıb maşının pəncərə şüşəsini aşağı saldı.

Natiq bir qədər susub, nəhayət, dilləndi:

- Mən biləni, Eduard narkotik maddələrin satışı ilə


ekitab.ucoz.org

məşğul olan dəstənin, ya daha dəqiq desəm, mafiyanın izinə düşmüşdü. Bu barədə mənə dəqiq söz deməsə də ağzından bəzi şeylər qaçırmışdı.

- Kiminsə adını çəkmişdimi?

-Xeyr. Demişdi ki, bu işin başında kimin durduğunu bilir. Şübhələrini dəqiqləşdirəndən sonra mənə bildirəcəkdi. Ancaq bu iş baş verdi...

- Bəs podpolkovnik Belov sizə niyə inanmaq istəmir?

- Bilirsiniz, cənab polkovnik, - Natiq geriyə çevrildi. - Düzünü bilmək istəsəniz, qorxuram ki, rəisimiz də həmin mafiya ilə əlbir olsun.

- Bunu demək üçün əlinizdə, kiçik də olsa, əsas var?

- Daha buna nə əsas lazımdır? - Natiq səsini bir qədər qaldırdı. - Nə faktlara, nə də mənim fikirlərimə məhəl qoymur. Mən də məcbur olub Daxili İşlər nazirliyinə bu barədə yazdım. Yazdım ki, Eduard Sokolovun intihar etməsinə inanmıram, onu qətlə yetiriblər.

Natiq maşını sağa döndərib doqquzmərtəbəli bir binanın qarşısında saxladı:

- Baxın, Eduard bu binada yaşayırdı.

Polkovnik qapını açıb maşından endi. Bunu görən Natiq də çıxıb onun yanına gəldi. Qasımlı başını qaldırıb binaya tamaşa edirdi. Natiq əlini yuxarı qaldırıb beşinci mərtəbədəki balkonlardan birini göstərdi:

- O balkona baxın. O qırmızı paltar asılmış balkonun üstündəkinə. İkinci blok, beşinci mərtəbə.

- Meyit hara düşmüşdü? - Qasımlı Natiqə tərəf dönüb soruşdu.



ekitab.ucoz.org

Natiq bir az qabağa gedib ayağının altını göstərdi:

- Bura düşmüşdü.

- Bir az dəqiq göstərin! - polkovnik qaşqabaqlı halda dilləndi.

Natiq ayağını daş döşəmə ilə gül əkilmiş torpaq zolağın arasındakı beton sərhəddə vurdu:

- Yazığın başı düz bu betona dəyib parçalanmışdı. Ayaqları isə burada idi. - əli ilə göstərdi. - Məncə, Eduard balkondan özü atılsaydı binaya daha yaxın yerə düşərdi.
Qasımlı mənalı nəzərlərini Natiqin üzünə dikdi:

- Sizlərdən heç kəsin ağlına gəlmədi ki, Sokolov balkondan təsadüfən, ehtiyatsızlıq üzündən də yıxıla bilər?

- Yox... - Natiq heyrətlə xəfiyyəyə baxdı. - Sizcə elə ola bilər?

Qasımlı gülümsədi:

- Əzizim, yadınızda saxlayın ki, həmişə hər şey ola bilər. Təhqiqat apararkən hər bir xırda, hətta çox əhəmiyyətsiz görünən hallara da xüsusi nəzər salmaq lazımdır. Amma, narahat olmayın, ehtiyatsızlıq üzündən yıxılma variantını mən də inkar edirəm. Görürəm, televiziya antenası da balkonda çox alçaqdadır. Siz otağa girəndə televizor işləyirdi?

- Yox. - Natiq başını buladı.

- Neçə otaqda işıq yanırdı?

- Yalnız birində.

- Mənzilin açarının heç yerdə tapılmamasım siz necə izah edirsiniz?

- Məncə... - Natiq artıq tərəddüdlə danışırdı. - Onu balkondan atan adamlar əvvəlcə cibindən açarı götürüblər



ekitab.ucoz.org

ki, çıxanda qapını bağlasınlar. Sonra görüblər ki, qapını örtəndə özü avtomatik bağlanır. Əgər açarı salıb qıfılı bağlasaydılar bu sonradan böyük şübhə doğurardı. Çünki bu qıfılları çöldən bağlamaqla içəridən bağlamaqda fərq var. İçəridən bağlanan qıfıl çöldən açarla açılmır.

Qasımlı kinayə ilə başını yellədi:

- Bunları mən də bilirəm. Amma sizin açar barədəki fikirlərinizlə razı deyiləm.

Natiq möhkəm pərt oldu:

- Siz də elə düşünürsünüz ki, bu intihardır?

- Mən hələ ki, bu barədə ciddi düşünmürəm, - Qasımlı cavab verdi. - Və bəlkə də heç düşünməyəcəm. Mənim bu şəhərə gəlməkdə
məqsədim Serafimovun və Radik Boskanyanın qətlini araşdırmaqdır. Eduard Sokolovun ölümünə gəldikdə isə təkcə bunu deyəcəm ki, bu işin təhqiqatını aparanlar səhv yola düşüblər.

- Deməli, mən...

- Sizə gəldikdə isə siz yalnız bir şeyi unutmuşunuz. Unutmuşunuz ki, açar təkcə qapını bağlamaq üçün yox, həm də açmaq üçündür!

- Cənab polkovnik, xahiş edirəm, fikrinizi bir az aydınlaşdırın! - Natiq, sanki yalvarırdı.

- Mən sizin xətrinizə, hətta lazım olandan da çox danışdım.

Bunu deyən Qasımlı çəkib qurtardığı siqareti yerə atıb, ayağı ilə söndürdü. Maşına əyləşib qapını çırpdı və sükanın arxasına keçən Natiqə:

- Xahiş edirəm, Seymurun ofisinə sürün! - dedi.

# On ikinci fəsil



ekitab.ucoz.org

Bundan düz on altı il əvvəl Sergey Novikov Çemal kəndinə əmisi qızı Marusyanın dəfninə getmişdi. Sergey bu il qırx səkkiz yaşının tamam olmasını qeyd edəcəkdi. Deməli, o vaxt otuz iki yaşı vardı.

Bilikli, bacarıqlı bir hüquqşünas idi. Hüquq məsləhətxanasında işləyirdi. Həmin vaxt tikinti firması yaratmaq istəyən Pavel Serafimova da yenicə qoşulmuşdu. Hüquq məsələlərində onun ən yaxın yardımçısı idi. Özünə üç otaqlı mənzil almış, normal şərait düzəltmişdi. Burada Valentina ilə tək yaşayırdılar. Artıq altı il idi ki, evlənmişdilər, amma uşaqları olmurdu. Buna baxmayaraq, mehriban həyat sürürdülər.

Əslində, əmisi qızı ilə əlaqə saxlamırdı. Axırıncı dəfə dörd il əvvəl təsadüfən kəndə yolu düşəndə olmuşdu onun evində. Marusya ərindən boşanmışdı. Övladı olmadığı üçün, yəqin ki, qeyri-qanuni doğulub atılmış bir qız uşağını götürüb saxlayırdı. Çox kasıb yaşayırdılar.

Əlaqələrinin kəsilməsinə baxmayaraq, Sergey əmisi qızının öldüyünü eşidəndə Valentinanı da özüylə götürüb onun dəfninə getdi. Yazığı ehtiyatsızlıq üzündən elektrik vurub öldürmüşdü. Kənd camaatı yığılıb bədbəxt qadını dəfn etdilər. Sergey burada Marusyanın yeganə qohumu hesab olunurdu və dəfnin xərcini də o çəkdi.

Axşam hamı dağılışandan sonra səkkiz-doqquz yaşlı bir qızcığazın həyətdəki alma ağacının dibində
oturub ağladığını gördü. Uşağa yaxınlaşıb saçlarını sığalladı:

- Sənin adın nədir?

Arıq, iri ala gözləri olan, ağbəniz qız əli ilə göz yaşlarını qurulayıb Sergeyə baxdı:



ekitab.ucoz.org

- Nataşa.

Sergeyin birdən-birə yadına düşdü. Yadına düşdü ki, Marusya atılmış bir qız uşağını övladlığa götürüb saxlayırdı. Hətta, Sergey dörd il əvvəl burada olanda onu qucağına da götürmüşdü. Onda cəmi beş yaşı var idi bu qızcığazın.

- Sən Marusyanın qızısan? - deyə soruşdu.

Qız başını tərpətdi. Sergey yenə onun başına sığal çəkdi:

- Mən də onun əmisi oğluyam. Sergey. Sənin yadına gəlmir bəlkə də, amma mən burada olmuşam. Səninlə bu həyətdə oynamışıq, hətta.

Qızın kədərli simasına, sanki, haradansa ümid işığı düşdü. Mehriban baxışlarla Sergeyi başdan ayağa süzməyə başladı. Sonra birdən dodaqlarını büzüb kövrək səslə:

- Anam öldü, Sergey dayı! - dedi və ağladı. Sergey onun arıq, çəlimsiz qollarından tutub ayağa qaldırdı:

- Qalx! Qalx, gedək evə, səni Valya xala ilə tanış edim. Ağlama. Sənin üçün nə istəsən, alacam.

Uşağı evə aparıb Valentinaya göstərdi. Arvadının da elə ilk baxışdan qıza mehri yarandı.

- Necə olacaq bu yazıq uşağın halı? - deyə kədərlə ərinə baxdı.

Sergey ürəyinə gələn sözü gizlətmədi:

- Bəlkə, biz götürüb saxlayaq?

Qorxurdu ki, arvadı razılaşmasın. Amma Valen- tina o saat razılaşdı.

- Nə deyirəm, istəyirsən saxlayaq. - dedi.

Marusyanın başqa varisi, qohumu-filanı yox idi. Sergey onun evini, həyətini satıb pulunu banka qoydu. Nataşanı da



ekitab.ucoz.org

götürüb şəhərdəki evlərinə qayıtdılar.

Qız ikinci sinifdə oxuyurdu. Sergey onu evlərinin yanındakı məktəbə düzəltdi. Pal-paltar, məktəb ləvazimatı aldı. Nataşa dərslərində çox çalışqan idi. Evə gələn kimi yeməyini yeyib kitab-dəftərini götürərək öz otağına çəkilirdi. Məktəbdə kimya müəllimi işləyən Valentina evdə qızın dərs hazırlamağına kömək edir, məktəbdə də öz nəzarətini onun üstündən əskik eləmirdi.

Yavaş-yavaş ev işlərinə də alışdırırdı onu. Səliqəli və təmizkar olmağı öyrədirdi. Nataşa artıq bu evə, daha çox da Valentinaya alışmışdı. Amma özünün anası hesab etdiyi Marusyanı da tez-tez xatırlayırdı. Belə anlarda gözlərinin dolmasını evdəkilərdən gizlətmək üçün mütləq bir xəlvətə çəkilirdi.

Onunla xoş davrandıqları üçün hər ikisini çox sevirdi. Valentinaya «Valya xala», Sergeyə «Sergey dayı» deyir, onlara getdikcə daha çox bağlanırdı.

Sergey isə onu çox az-az görür, az-az münasibətdə ola bilirdi. O vaxtlar dövlət işində işləməklə bərabər, Pavelin yaratdığı firmada da çalışırdı və çox vaxt bazar günləri də evdə olmurdu. Evdən hər gün səhər tezdən çıxıb axşam qayıdırdı.

Qayıdanda da Nataşa ya yatmış olur, ya da öz otağında dərslərini hazırlayırdı.

Qız artıq on dörd yaşın içində idi. Bu evə gəldiyi vaxtdan xeyli böyümüş, qəşəng bir qız olmuşdu. Amma sakit və kövrək bir görkəmi olurdu, həmişə. Məktəbdə də, həyətdə də tay-tuşlarına qoşulub- eləmirdi. Oğlanlara isə heç meyli yox idi. Qız yoldaşlarının əksəriyyətinin oğlan dostu olsa da, o, nədənsə, oğlanlardan qaçırdı. Ancaq, çoxlarının gözü



ekitab.ucoz.org

onda idi. Yaxınlaşmaq, dostluq təklif etmək istəyirdilər. Nataşa isə imkan vermirdi bunlara.

Sergey hər axşam işdən gələndə, əgər Nataşa yatmayıbsa, onun saçlarını sığallayıb:

- Necəsən, Nataşka? - deyir, xoş dillə dilləndirirdi.

Nataşa da onun gəlişinə sevinir, evə gələndə qabağına qaçırdı...

Amma bu münasibətlərdə heç bir pis şey yox idi onda...

Bir gün... Şeytan haradansa xoşagəlməz, qəbul olunmaz, murdar bir hiss gətirib saldı Sergeyin qəlbinə. Ya da kim bilir, elə qəlbinin dərinliklərindən dartıb üzə çıxartmışdı bunu Şeytan...

Həmin bazar günü üçü birlikdə meşəyə dincəlməyə getmişdilər. Valentina ağacların kölgəsində, göy otluqda süfrə salmışdı. Süfrənin yanında əyləşib evdən gətirdikləri pomidor-xiyarı doğrayırdı. Nataşa dörd-beş metr aralıda diqqətlə yerə baxıb çiyələk axtarırdı.

Sergey isə, heç bir işi olmadığı üçün, Valentinanın yanında oturub söhbət edirdi. Birdən
gözü arxası ona tərəf olan Nataşaya sataşdı. Əsən meh qızın nazik və qısa donunu qaldırıb belinə atmışdı. Ağ rəngli alt paltarı bütünlüklə görünürdü. Sergey, sanki ilk dəfə olaraq, qızın böyüdüyünü, yekə qız olduğunu başa düşdü. Qızın enlənmiş arxasına, ağ, hamar, ətli ayaqlarına baxanda içində nəyinsə onu titrətdiyini hiss etdi, elə bil.

Bütün bunlar bircə an çəkdi və Nataşa əli ilə donunun ətəyini aşağı saldı. Amma daha Sergey ona başqa gözlə baxırdı. Arvadının duymasından ehtiyat etsə də, əyilib-düzələrək çiyələk dərən qızın donun altından qabarıq bilinən əzalarına oğrun- oğrun göz yetirirdi.



ekitab.ucoz.org

Nataşa isə heç bir şey hiss etməmişdi və süfrə başında oturanda da Sergeyin ona əvvəllər
olduğundan daha çox və başqa mənada baxdığının fərqinə varmadı.

O gündən Sergeydə bəzi dəyişikliklər baş verdi. İndi işdən tez qayıdır, şənbə və bazar günləri, imkan daxilində, firmaya getmirdi. Nataşa üçün pal-paltar, müxtəlif hədiyyələr alıb gətirirdi.

Getdikcə daha artıq vurulurdu qıza. Onu hey qucaqlayıb öpür, əzizləyirdi. Valentina ərində olan bu dəyişikliyi duysa da, onu qətiyyən pis yerə yozmurdu. Elə o özü də Nataşanın böyüdükcə daha gözəl, daha ağıllı qız olduğunu görüb ona olan mehribanlığını artırırdı.

Meşəyə getdikləri gündən iki həftə ötmüşdü. Nataşa ilk dəfə olaraq, Sergeyin ona olan müna- sibətindəki qeyri-adiliyi hiss etdi. O axşam kiminsə ad günündə içib gəlmiş Sergey qızı bərk-bərk
qucaqlayıb daha çox özünə sıxdı. Əlini onun belindən aşağı sürüşdürüb bir qədər saxladı.

Nataşa onda, ilk dəfə olaraq, əslində, yad və naməhrəm olan bu qırx yaşlı kişidə özünə qarşı nəsə duydu. Buna inanmaq istəməsə də, anladığını anladı. Sonra həmin hərəkət elə həmin axşam bir də təkrar olundu...

Nataşa, özü də dəqiq bilmirdi ki, bu iş ona xoş gəlir, yoxsa yox. Sergeyin əlinin təması qızın içərisində indiyə qədər duymadığı maraqlı bir titrəyiş yaradırdı. Amma qız onu da anlayırdı ki, bu hərəkət ona xoş gəlsə də, gəlməsə də istəmir belə olsun. Doğrudan da istəmirdi! Utanırdı, xeyli müddət üzünə baxa bilmirdi Sergeyin. İçində xoş olmaqla bərabər, həm də narahat bir gizilti baş qaldırırdı bu


ekitab.ucoz.org

hərəkətdən sonra. Amma etiraz bildirən bir hərəkət də etmirdi, etmək istəmirdi. İllərlə öyrəşmişdi, uyğunlaşmışdı Sergeyə. Arada yaranmış mehriban münasibəti kobud bir hərəkəti ilə pozmaq istəmirdi.

Sergeyin isə belə hərəkətləri hər gün təkrar olunmağa başladı. Nataşa, deyəsən, buna da öyrəşirdi. Artıq Sergeylə otaqda tək qalan kimi bilirdi ki, bu kişi ona yaxınlaşacaq və yenə bədəninə əl gəzdirib əzizləməyə başlayacaq. Amma hələ ki, aralarındakı pərdələrin hamısı yırtılmamışdı. Hələ ki, Sergey öz hərəkətlərinin mahiyyətini qapalı saxlamağa çalışır, özünü elə aparırdı ki, guya qıza başqa nəzərlə baxmır. Guya, sadəcə olaraq, çox sevdiyindən əzizləyir onu. Elə buna görə, Nataşa dinib-danışmırdı. Əslində, hər şeyi başa düşməsinə baxmayaraq, o da özünü elə aparırdı ki, guya Sergeyin hərəkətlərində pis bir şey duymur. Heç nə danışmırdı belə hallarda. Yəni heç danışa da bilmirdi. Həyəcanlanır, üzünün qızartısını gizlətmək üçün başını Sergeyin sinəsinə qoyurdu.

Sən demə Sergey gecələr də gəlirmiş onun yanına. Bunu bir az gec bildi. Nəyə görəsə, yuxusu ərşə çəkilmişdi o gün. Qapı açıldı və qaranlıqda Sergeyin içəri girdiyini görüb gözlərini bərk-bərk yumdu. Sergey yaxınlaşıb onun çarpayısında oturdu Üzünü, saçlarını sığalladı. Sonra üstündəki yorğanı qaldırıb kənara çəkdi. Əlini onun bədənində gəzdirdi Həyəcandan boğulan Nataşa gözünü açmağa da qorxurdu. Onu bir xeyli beləcə sığallayıb əzizləyən Sergey, nəhayət, yorğanı qızın üstünə örtüb getdi.

Bu, hər gün təkrar olunurmuş, sən demə... O gündən Nataşa daha həmin saatlarda yata bilmədi. Oyaq qalıb Sergeyi gözləyirdi...



ekitab.ucoz.org

Artıq on altı yaşı tamam olmuşdu. Sergey qızı dəlicəsinə sevirdi. Qız da ona tamamilə bağlanmışdı. Qəribədir ki, məktəbdə qız yoldaşları öz sevdikləri, gəzdikləri oğlanlardan söhbət açanda, Nataşa danışmasa da o saat xəyalına özündən iyirmi beş yaş böyük bu adamı gətirirdi. Axşamın tez düşməsini istəyirdi. İstəyirdi ki, Sergey gecə yenə gəlsin onun yanına.

Həmin gün...

Sergey haradasa bir az çox içib gəlmişdi evə. Gecə yarısı, yenə də, həmişəki kimi Valentinanı yuxuya verib, qızın yanına keçdi. Təsadüfdən, ya nədənsə, elə həmin gecə Sergeyi gözləyən Nataşa çox şirnikləndirici bir vəziyyətdə uzanmışdı. Yanında oturub yorğanı qaldıran Sergey bu dəfə dözüb özünü saxlaya bilmədi və qızı yavaş-yavaş soyundurmağa
başladı. Gözü yumulu halda yerində çevrilən Nataşa da bu işdə ona kömək etdi. Amma ayaqlarının arasında qəfil baş verən kəskin ağrıya tab gətirə bilməyib qışqırmaq istədi. Həmin an əli ilə onun ağzını qapayan Sergey:

- Mən səni sevirəm! Mən sənin dərdindən dəli olmuşam! - deyə pıçıldayıb onu sakitləşməyə məcbur etdi.

Səhər yatağından çox yorğun və halsız duran qız döşəyin üstünə salınmış ağ mələfədəki bulanıq qan ləkələrini görüb dəhşətə gəldi. Valentinanın bunları görüb nəsə başa düşəcəyindən elə qorxmuşdu ki, nə edəcəyini bilmirdi. Yatağına girib, yenidən üstünü örtdü. Bir azdan onun niyə qalxmadığını öyrənməyə gələn Valentinaya:

-Xəstələnmişəm, deyəsən. Məktəbə getmək istəmirəm, - dedi.

Sergey artıq işə getmək üçün evdən çıxmışdı. Valentina


ekitab.ucoz.org

əlini qızın alnına qoyub hərarətini yoxladı. Demə, doğrudan da bir az hərarəti var imiş.

- Sən uzan, - dedi. - Mənim bu gün məktəbdə cəmi iki dərsim var. Tez qayıdacam.

Qadın mənzildən çıxan kimi Nataşa cəld yerindən qalxıb mələfəni götürdü. Vanna otağına keçib onu ifşa edə biləcək ləkələri su kranının altında yumağa çalışdı.

Amma... Bu solğun qan ləkələri yuyulub təmizlənmək bilmirdi. Həyəcanlanmış qız əlləri əsə-əsə mələfəni nə qədər sabunlayıb çəngələyirdisə də ləkələrin yeri yenə də ağ parçanın üzərində qalırdı.

Onu ağlamaq tutmuşdu. Qorxudan nə edəcəyini bilmirdi.

Nəhayət, ləkələrin diqqəti o qədər də cəlb etmədiyinə əmin olub yataq otağına qayıtdı. Mələfənin islanmış yerlərini ütü ilə qurudub, onu döşəyin üstünə sərdi.

Yalnız bundan sonra bir qədər sakitləşib yatağın üstündə oturdu və öz acınacaqlı halı barədə düşünməyə başladı. Həyatında kəskin bir yenilik olmuşdu bu gecə. Nə hisslər keçirdiyindən özü də baş aça bilmirdi. Ona gah elə gəlirdi ki, Sergeyə nifrət edir daha. Gah da elə gəlirdi ki, əksinə, sevir bu atası yaşda kişini...

Bu hadisədən bir aya yaxın keçmişdi. Bu müddətdə Sergey bir dəfə də olsun arvadı ilə əlaqədə olmamışdı. Yerinə girən kimi:

- Yorğunam, yatmaq istəyirəm! - deyib yorğanı başına çəkirdi.

Valentina onun yorğun olmağına inandı və elə buna görə də bir neçə gündən sonra ondan şübhələnməyə başladı. Amma şübhəsi başqa yöndə idi. Düşünürdü ki, bəlkə əri iş vaxtı hansısa qadınla görüşür. Elə ona görə də evə yorğun



ekitab.ucoz.org

gəlir. Bir az da diqqətlə fikir verəndə gördü ki, axşamlar evə heç də yorğun-zad gəlmir əri. Elə yatağa da girəndə yorğuna oxşamırdı.

Valentinanın heç ağlına da gəlmirdi ki, Sergey yatağa onun gözünü yuxuya vermək məqsədilə uzanır və öz gücünü Nataşa üçün qoruyub saxladığına görə ona yaxınlaşmır...

Bir gecə Nataşa Sergeyin ağırlığı altında əzabla inildəyəndə birdən-birə nəfəsini dərib:

- Valya xala bilsə, məni öldürəcək... - dedi.

Sergey isə onu sakitləşdirib arxayın etdi ki, qorxub-eləməsin, Valentina heç vaxt heç nə bilməyəcək.

Amma düz deyiblər ki, heç bir sirr açılmamış qalmır...

Bir gecə Valentina qəfil ayılıb Sergeyi yanında görmədi. Düşündü ki, bəlkə tualetə gedib. Bir azdan Nataşanın otağının qapısı açılıb-örtüldü. Gecənin sakitliyi içində Valentina bunu aydın duydu. Sergey gəldi. Yalnız bir alt paltarında idi. Arvadını oyaq görüb özünü itirdi.

- Orada neyləyirdin? - Valentina soruşdu.
- Harada? - Sergey onu azdırmağa çalışdı.
- Haradan gəlirdin, orada! - arvadı əsəbiləşdi.
- Mən tualetdə idim...

Qadın duruxdu. Yəni o, səhv eşidə bilərdimi qapının səsini? Yəni Sergey belə alçaq iş tutarmı? Amma yox! O, anladığını anlamışdı. Duymuşdu, artıq, nəsə.

- Ağlını başına yığ, Sergey! - qəzəbli pıçıltıyla dilləndi.
- Sən nə danışırsan, Vaiya?!
- Allahdan qorx!
- Axı mən nə pis iş tutmuşam?..

Valentina daha ərinə cavab vermədi. Arxasını ona çevirib, yorğanı başına çəkdi. Sergey də pərt halda



ekitab.ucoz.org

yerinə girdi və daha səhərə kimi heç nə danışmadılar.

Səhər Valentina, istədisə də, qızdan bir şey soruşa bilmədi. Üzü gəlmədi buna. Həm də düşündü ki, bəlkə doğrudan da, arada bir şey yoxdur. Belə olardısa, qızdan bu barədə nəsə soruşub pərdəni açmaq pis nəticə verə bilərdi. Daha nə qıza, nə də Sergeyə heç nə deməyib, onlara ciddi nəzarət etməyə başladı.

Bir həftə də beləcə ötüşdü. Daha Sergey qıza yaxınlaşmır, gecələr də yatağından qalxmırdı. Nəzərində gündən-günə gözəlləşən və gül kimi açılan Nataşaya uzaqdan-uzağa baxmaq ona əzab verirdi. Valentinanın duyuq düşməsi barədə qıza bir söz deməmişdi. Qorxmuşdu ki, qız daha cəsarət etməz onu qəbul etməyə.

Bir gün arvadı onları otaqda tək qoyub mətbəxə gedəndə tələsik dilləndi:

- Valya bir az pis yatır axır günlər. Narahat olma, yenə gələcəm yanına.

Bir həftə beləcə sovuşdu. Bu bir həftəni Nataşa da çox çətinliklə dözdü. Hər gün etdiyi və bir növ, vərdiş halını almış iş ara verdiyi üçün özünü çox narahat hiss edirdi. Az qalırdı ki, özü dillənsin, özü çağırsın Sergeyi. Amma əslində bu da mümkün deyildi. Valentinanın nəzarəti çox güclü idi.

Bir həftə sonra Valentina əvvəlki günlərdən daha tez yatağa girməyə başladı. Həm də çox bərk yatır, səhər yuxudan güclə ayılırdı.

Yenə hər gecə yataqda görüşməyə başladılar. Sergey indi daha, az qala, səhərə qədər Nataşanın yanında qalırdı.

Belə ağır yuxuya getməsi bir gün Valentinanı şübhəyə saldı. Şübhələndi ki, əri hər gecə onun içdiyi çaya, yaxud yediyi yeməyə yuxu dərmanı qatır. Bunu yoxlamaq üçün



ekitab.ucoz.org

növbəti axşam ərinə daha
diqqətlə göz qoydu. Özünü çayı içmiş kimi göstərib, amma içmədi. Sonra isə yatağa girib özünü yuxululuğa vurdu.

Elə həmin gecə sirr açıldı. Yatağından qalxıb Nataşanın otağına gedən Valentina ərini onun üstündə gördü. Daha heç bir izahata-filana ehtiyac qalmamışdı. Qapını bərk çırpıb yataq otağına qayıtdı. Orada tab gətirə bilməyib dəhlizə çıxdı və burada əri ilə üz-üzə gəldi.

- Əclaf! Vicdansız! Xain!

Bu sözlər həmin gecə Valentinanın Sergeyə dediyi ən sadə, ən təmiz, ən xoş sözlər idi. Eşitdiyi, bildiyi söyüşləri ərinin üstünə yağdırdı. Sonra Nataşanın otağına girib, yorğanı onun üstündən atdı və yarıçılpaq uzanıb, sanki ölümünü gözləyən qıza:

- Fahişənin balası fahişə, çıx rədd ol bu evdən! - dedi.

Sonra yenə öz yatdığı otağa qayıtdı. Sergey elə dəhlizdəcə heykəl kimi donub qalmışdı. Bir azdan Valentina yenə dəhlizə qayıtdı və burada paltarını geyinib çıxmış Nataşanı gördü. Qız utandığından, xəcalətindən başını aşağı dikmişdi.

Valentinanın onda etdiyi hərəkətin mənasını Sergey heç bu günə qədər də anlaya bilmədi. Qadın birdən-birə Nataşanın üstünə yeriyib, bərk qorxmuş qızı bağrına basdı və hönkür-hönkür ağlamağa başladı.

Lap xeyli buraxmadı qızı qolları arasından. Onun saçlarını sığallaya-sığallaya xeyli göz yaşı tökdü. Sonra onu buraxıb, yenidən yataq otağına girdi. Ən vacib şeylərini bir iri çantaya yığıb götürdü.
Dəhlizdə Sergeyin yanından keçəndə ona qanlı nəzərlərlə baxıb:


ekitab.ucoz.org

- Allah bəlanı versin! - dedi və evdən birdəfəlik çıxdı.

Valentinanın fikri qəti idi və Sergeydən də heç nə istəmədi. Uşaq, yaxud əmlak mübahisəsi olmadığı üçün onları çox tez boşadılar. Valentina şəhərdən də çıxıb atasının yaşadığı kəndə getdi.

Nataşanın isə nə bir kəsi, nə də getməyə bir yeri var idi. Bir aya yaxın Sergeyin üzünə baxmadı.
Dərsə də getmədi. Nəhayət, çıxış yolu görməyib, Sergeyin təklifini qəbul etdi. Ona arvad olmağa razı oldu.

Orta məktəbi bitirən kimi Sergey onun iqtisadiyyat texnikumuna daxil olmasına kömək etdi. Ancaq Nataşa getdikcə ərindən soyumağa
başlamışdı. Əvvəllər böyük həyəcan və səbirsizliklə gözlədiyi gecələr indi onun üçün adiləşmişdi. Həm də daha əvvəlki kimi təmin edə bilmirdi onu Sergey...

Nataşanın ondan soyuduğunu Sergey də duyurdu. Və bunu duyduqca, dərdini içki ilə unutmağa çalışırdı. Sonra elə oldu ki, Nataşanın bir rəfiqəsi onu Natiqlə tanış etdi. Sergeydən sonra həyatında ikinci kişi gördü. Əsl məhəbbətin nə olduğunu da Natiq anlatdı ona. Tezliklə başa düşdü ki, bu oğlana dəlicəsinə vurulub.

Natiq onu Seymurun firmasında işə düzəltdi. Ara-sıra görüşməyə başladılar. Maraqlıdır ki, özünü bütünlüklə Natiqə təslim edən Nataşa bununla Sergeyə xəyanət etdiyini zənn etmirdi. Ona elə
gəlirdi ki, Sergeylə evliliyi həyatın onunla etdiyi acı bir zarafatdır.

Onların əlaqəsindən xəbər tutan, arvadının ondan getdikcə daha çox soyuduğunu görən Sergey lap əməlli-başlı içki düşkünü oldu. Bu barədə ona dəfələrlə xəbərdarlıq



ekitab.ucoz.org

edən Pavel Serafimov, nəhayət, onu işdən qovdu.

Sergeylə yaşamaq getdikcə daha dözülməz olurdu. Ancaq Nataşanın dərdi indi təkcə bu deyildi. Dərin məhəbbətlə sevdiyi, bu dünyada yeganə əziz adamı və ümidgahı hesab etdiyi Natiq ondan üz döndərmişdi.

Nataşa nə qədər düşünsə də bunun səbəbini anlaya bilmir, dərdini deməyə adam tapmırdı.

## On üçüncü fəsil

Onlar firmanın ikimərtəbəli ofisinə daxil olub otaqları gəzməyə başladılar. Natiq rastlaşdıqları bəzi işçiləri Bakıdan gəlmiş xəfiyyəyə təqdim edirdi. Firmanın işçiləri, xüsusilə də qadınlar Natiqlə hörmətlə salamlaşır, yanındakı ciddi simaiı yad adama bir qədər maraqla baxırdılar.

Mühasiblikdə üç qadın var idi. Qasımlı ilə Natiq içəri daxil olanda qadınlardan biri ayağa qalxıb onların qarşısına gəldi. Onun iyirmi beş yaşı güclə olardı. İncə bədən quruluşu, iri, mənalı gözləri var idi. Şabalıdı rəngli hamar saçları çiyinlərinə tökülmüşdü. Əyninə, dizlərini örtməyən qısa şalvar, ağ rəngli köynək geyinmişdi. Köynəyin üstündən
geydiyi, şalvarla eyni rəngdə olan boz, yaxası açıq jaket ona xüsusilə daha çox yaraşırdı.

Polis geyimində olan Natiq qadını Qasımlıya ciddi rəsmiyyətlə təqdim etmək istəyəndə polkovnik:

- Nataşa! - deyərək, onu qabaqladı.

Nataşa da, Natiq də çox təəccübləndilər.

Qasımlı bu təəccübə əhəmiyyət verməyib qadının, sanki heç vaxt günəş görməmiş ağ əlini sıxdı. Nataşadan tünd yasəmən ətri gəlirdi. Xəfiyyə gənc qadını özünəməxsus sakit və diqqətli baxışlarla süzüb:



ekitab.ucoz.org

- Ofisinizdəki səliqə-sahman xoşuma gəldi, - dedi.

- Çox şadam! - Nataşa cavab verdi və azacıq qızardı.

- İşinizdən razısınızmı?

- Bəli, əlbəttə! - qadın Natiqə küskün bir nəzər salıb dilləndi. - Çox razıyam.

- Bəs Seymurdan?

- Biz hamımız onu çox sevirik, - Nataşa kədərləndi. - Onu nahaqdan tutublar. Biz inanmırıq ki, o cinayət edə bilsin.

- Siz burada çoxdan işləyirsiniz?

- İki ildən çoxdur.

- Əriniz hələ işsizdir?

-Bəli.

- Onu işlədiyi firmadan nə üçün çıxarmışdılar? Nataşa duruxub cazibədar, ətli dodaqlarını dili
ilə yaladı:

- Çox içirdi. Elə indi də çox içir...

- İşdən çıxarılması yəqin ki, ona çox pis təsir edib?

- Əlbəttə, istəməzdi işdən çıxsın. Ancaq... Neyləmək olardı?..

- Bəs necə dolanır indi?

- Mən işləyirəm. Həm də bankda pulu var idi.

- Şəxsən sizi həmin gün Seymurun evindəki nahara kim dəvət etmişdi?

Nataşa qəfil sualdan özünü bir qədər itirdi:

- Sergey dedi ki, Seymur bizi nahara dəvət edib...

Qasımlı Nataşaya bir daha sınayıcı nəzər salıb Natiqə tərəf döndü:

- Gedək?

- Siz necə istəyirsiniz!



ekitab.ucoz.org

Qasımlı Nataşa ilə sağollaşdı və onlar ofisdən çıxdılar. Sükanın arxasına keçən Natiq:

- Siz Nataşanı necə tanıdınız? - deyə xəfiyyədən soruşdu.

- O sizi sevir! - Qasımlı qeyri-müəyyən cavab verdi və Natiqin dinmədiyini görüb əlavə etdi. - Onunla nə kimi əlaqəniz var? Xahiş edirəm, məndən heç nə gizlətməyin.

- Yəni bizim əlaqəmizin bu işə bir dəxli var? - Natiq cavabdan yayınmaq istədi.

- Bəlkə də var, bəlkə də yoxdur, - Qasımlı dedi. - Ancaq mən həmin gün o süfrənin ətrafında oturmuş adamların hamısını tanımaq istəyirəm.

- Onunla yaxınlıq etmişik, - Natiq astadan dilləndi.

- Nə vaxtdan?

- İki ildən çoxdur. Onu bu ofisdə işə mən düzəltmişəm.

- Siz subaysınız, sərbəstsiniz. Ancaq onun əri var axı?!

- Əri ərlik eləyir ki?! - Natiq Qasımlının davranışından ciddi adam olduğunu başa düşsə də, həmyerlisi kimi ərk etmək istədi. - İçki düşkününün biridir.

Qasımlı narazı şəkildə başını buladı:

- Əlbəttə, mən sizin şəxsi işinizə qarışa bilmərəm. Ancaq məncə, Sergey Novikov öz arvadına ərlik eləyə bilmirsə, onun bu nöqsanını düzəltmək vəzifəsi sizin üzərinizə düşməyib. Bir də ki, siz burada azlıqda olan millətin nümayəndəsi kimi diqqət mərkəzindəsiniz. Hələ, üstəlik, polis işçisisiniz. Söz-söhbətin böyüyə biləcəyindən qorxmursunuz?

- Kimsə rəisimizə məlumat verib bu barədə... - Natiqin səsində pərtlik hiss olunurdu.

- Necə bilirsiniz, əlaqənizdən Sergeyin xəbəri



ekitab.ucoz.org

var?
-Var...

- Necə baxır bu işə? - Qasımlı istehza ilə soruşdu.

Natiq dinmədi.

O, burada yaşayandan altı-yeddi rus qızı ilə yaxınlıq etmişdi. Bir qəbahət-filan da görmürdü bu işdə. Ancaq ərli qadınların ərlərinə xəyanət etmələri ilə heç cür barışa bilmirdi və özü də həmişə uzaq gəzirdi belə qadınlardan.

Nataşanı onunla rəfiqəsi Lyudmila tanış etmişdi. Yeniyetmə qız uşağına bənzətdiyi Nataşa elə ilk baxışdan onun çox xoşuna gəldi. O biri günə görüş
təyin etdilər. Parkda bir qədər gəzəndən sonra Natiq onu öz evinə apardı. Süfrəyə çaxır gətirib hər ikisi üçün qədəhlərə süzdü. Nataşa içkidən dilinə də vurmadı. Əvəzində isə, Natiq çaxırın hamısını içib dəmləşdi.

Nataşa bu vaxta qədər yaxınlıq etdiyi qızlara heç bənzəmirdi. Elə bil birinci dəfəsi idi oğlanla görüşməyi. Natiq, nədənsə, istədi ki, onunla əlaqədə olmazdan qabaq bir qədər söhbət etsin. Onu yaxından tanısın. Ağlına nə gəldisə, birinci olaraq qadının evli olub-olmadığını soruşdu.

Nataşa sanki bir qədər düşünəndən sonra yalan danışmamaq qərarına gəldi.

- Ərdəyəm, - dedi.

- Bəs niyə ərinə xəyanət edirsən? - Natiq heç özü də bilmədi ki, bu yersiz sual haradan ağlına
gəldi.

Bu sorğu-sual heç Nataşanın da ürəyindən deyildi.

- Gəl belə şeylərdən danışmayaq! - deyə narazılıq etdi.

Natiq isə əl çəkmədi:

- Ərin səni sevir?


ekitab.ucoz.org

- Hə!
- Bəs sən necə?
- Mən də sevirəm onu!

- Yaxşı adamdır? - Natiq sərxoş inadıyla sorğu- sualı davam etdirdi.

- Hər halda, səndən çox-çox yaxşı adamdır! Nataşa bunu deyib, hirslə ayağa qalxdı və
mənzilin qapısını çırpıb getdi.

Natiq onu incitdiyinə görə çox peşman olmuşdu. Bir qədər gözləyəndən sonra gördü ki, yox, bu qadını unuda bilməyəcək. Lyudmiladan xahiş etdi ki, onları barışdırsın. Nataşa da özünü çox naza qoymadı və yenidən barışdılar.

İkinci dəfə yenə öz evinə apardı onu. Bu dəfə özünə söz verdi ki, daha gic-gic suallar verməyəcək qadına. O görüş Natiq üçün çox unudulmaz oldu. Nataşanın yasəmən ətrinə bürünmüş təravətli bədəninin verdiyi zövqü indiyədək unuda bilmirdi.

Sonra imkan tapdıqca görüşməyə başladılar. İş elə gətirdi ki, Nataşanın əri ilə də tanış oldu. Sergey bir-iki dəfə onu evinə qonaq dəvət etdi. Natiq son vaxtlar hiss etmişdi ki, Sergey onların münasibətini dostluq kimi qəbul edir, ya nədirsə, axır ki, arvadını ona qısqanmır.

Bir dəfə Sergey yenə də onu öz evinə qonaq dəvət etdi. Əlbəttə, axşam, işdən sonraya. Yalnız üçü idilər. Ev sahibi, Nataşa və Natiq. Yemək zamanı Sergey o qədər araq içdi ki, tamam özünü unutdu. Natiqlə Nataşa onu güclə sürüyüb çarpayısına uzatdılar. Sergeyin xorultusu otağı başına götürdü.

Onlar o biri otaqda, süfrənin arxasında oturmuşdular. Nataşa ev xalatında həddindən artıq cəlbedici görünürdü.


ekitab.ucoz.org

İçkidən xumarlanan gözləri daxilində baş qaldıran güclü ehtirasdan xəbər verirdi. Natiq də qadına qarşı özündə güclü şəhvətin baş qaldırdığını hiss edirdi. Dəfələrlə əlaqədə olduğu Nataşanı heç belə arzulamamışdı. Qovuşmaq üçün indi də heç bir problem görünmürdü. Sergey düz səhərə qədər beləcə xoruldayacaqdı.

Amma Natiq heç istəməzdi bu gecə, bu mənzildə Nataşa ilə yatağa girsin. Sergey, lap yatmış da olsa, bu mənzildə idi. Onun yanında... Nəsə, özünə yaraşdıra bilmirdi bunu.

Nataşanın kədərli, ala gözlərinə baxdı. Onun nə düşündüyünü öyrənmək istədi. Qadın birdən, onun gözləmədiyi halda, yavaş səslə dilləndi:

- Natiq, bəlkə gedəsən...
- Niyə? - sual oğlanın ağzından qəfil çıxdı.
- Qorxuram, dözə bilməyəm. Get! Yaxşı deyil... Natiq onu başa düşüb xahişinə əməl etdi və
sağollaşıb evdən çıxdı.

O hadisədən üç-dörd ay sonra Sergeylə təklikdə süfrə başında oturmalı oldular. Sergey içməyinə içmişdi, amma sərxoş deyildi. Bir az Nataşadan danışdı, onun gözəlliyini təriflədi. Onu canından artıq
sevdiyini bildirdi. Sonra isə birdən-birə, Natiqin gözləmədiyi halda:

- Sizin münasibətinizdən xəbərim var! - dedi. Natiq dərhal etiraz etmək, özünü acıqlanmış
kimi göstərmək istədi. Ancaq Sergeyin danışıq tərzində elə bir şey hiss etdi ki, susub onu dinləməyə qərar verdi.

- Mənim hər şeydən xəbərim var! - Sergey bir də təkrar etdi. - Mən Nataşanı sevirəm. Amma sənə də çox hörmət edirəm. Sən də mənim üçün əzizsən. Mənim dostumsan!



ekitab.ucoz.org

Natiq yenə susub ona qulaq asırdı. Sergey davam etdi:

- Bilirəm, mən Nataşanı təmin edə bilmirəm. Yəni onun istədiyi kimi təmin edə bilmirəm. Heç ona bir uşaq da verə bilməmişəm...

- Xahiş edirəm, belə danışmayın! - Natiq istədi ki, onun könlünü alsın.

- Yox! - Sergey əlinin işarəsi ilə onu susdurdu.

- Mən bilirəm ki, Nataşa da səni sevir. Mən istəyirəm ki... - Siqaretini yandırıb, baxışlarını Natiqdən yayındırdı. - Mən istəyirəm ki, Nataşanın səndən bir uşağı olsun...

Əvvəlcə, qulaqlarına inanmaq istəmədi:

- Siz nə danışırsınız?!

- Mən bilirəm, nə danışıram. Mən...

Natiq onun sözünü ağzında qoyub ayağa qalxdı və mənzili tərk etdi.

O gündən, nəyə görəsə, heç özünün də anlamadığı səbəbdən Nataşadan soyudu. Onunla görüşlərin arasını kəsdi. Sergey isə lap gözündən düşdü o söhbətdən sonra...

- Hə, Sergey Novikov nə deyir sizin münasibətinizə? - Qasımlı Natiqin dinmədiyini görüb, sualını təkrar etdi.

- Mən daha o qadınla görüşmürəm. - Natiq cavab verdi. - Ancaq o vaxt əri pis baxmırdı yaxınlığımıza.

Sergeylə aralarında olmuş söhbəti Qasımlıya danışdı. Polkovnik bir müddət susub heç nə demədi. Sonra isə birdən-birə söhbəti dəyişdi.

- Serafimov zəhərlənən gün yemək otağına kimlər tək girmişdi?

Natiq bu sualı ondan çoxdan gözləyirdi. Odur ki, düşünmədən cavab verdi:

- Mən, Fyodor Simonoviç, Radik Boskanyan, Seymur,



ekitab.ucoz.org

bir də həmin bu Sergey... Ancaq süfrəyə
zoğal kompotu gələndən sonra cəmi üç nəfər girib otağa. Fyodor Simonoviç, Seymur və Sergey.

- Sizin fikrinizcə, Sergey Novikov edərmi bu cinayəti?

- Edər, əlbəttə! - Natiq dedi. - Elə adam hər şey edər.

- Bəs o, haradan bilərdi ki, zəhər tökdüyü stəkan Serafimova qismət olacaq?

- Bunu bilmək o qədər də çətin deyildi. Seymur Serafimovu evinə qonaq çağırmışdı. O, yaşca da, mövqecə də Seymurdan böyük idi. Müstəntiq Fomin bir növ iç adamıdır. Evə tez-tez gəlib-gedəndir. Sergeylə Radik də ki, heç!.. Seymur başda kimi otuzdurmalı idi ki?..

Natiq bunu deyib, maqnitofonun səsini bir qədər qaldırdı. Gülüstan Əliyeva «Kimsən sən» mahnısını
oxuyurdu. Bu uzaq diyarda gözəl azəri qızının məlahətli səsini eşitmək Qasımlıya da xoş gəldi. Susub mahnını dinlədi və yalnız mahnı bitəndən sonra üzünü Natiqə tutub:

- Radik Boskanyan haqqında nə deyə bilərsən? - deyə soruşdu.

- Münasibətimiz pis olmayıb, - Natiq cavab verdi. - Erməni olmasına baxmayaraq, yaxşı oğlana oxşayırdı.

- Onu öldürmək kimə lazım ola bilərdi?

- Deyə bilmərəm... Biz düşmən olsaq da, burada o düşmənçiliyi göstərmirik. Nə biz, nə də onlar. Əgər Radiki də Serafimovu öldürən adam öldürübsə, deməli, burada tamamilə başqa bir ciddi hesablaşma olub.

Qasımlı susub fikrə getdi. Məsələ, deyəsən, onun düşündüyündən də qatı qaranlıq içində idi. Sadə məntiqə görə həmin stəkana zəhəri Seymur, Fyodor Fomin və Sergey Novikovdan biri tökmüşdü. Sadə məntiqə görə!..


ekitab.ucoz.org

Ancaq həyatda çox vaxt mürəkkəb, lakin məntiqə tamamilə uyğun olaylar baş verir. Qasımlı hadisəyə mürəkkəb məntiqin gözüylə hələ bir az sonra baxacaqdı. İndi isə, hələlik, sadə şübhə hədəfi olan həmin üç nəfəri hərtərəfli yoxlama süzgəcindən keçirmək istəyirdi. Hansı edə bilərdi bu cinayəti? Sergey Novikov? Fyodor Fomin? Ya elə Seymur Muradov?..

Hər halda, sabah Sergeylə söhbət etmək lazım idi. Düzdür, Qasımlı onun cinayətkar olduğuna o qədər də inanmırdı. Çünki o, bir dəfə yemək otağına girmişdi və onda da onu otağa Pavel Serafimov
göndərmişdi. Siqaret gətirmək üçün... Çox maraqlıdır, Serafimov nə üçün siqaret gətirməyə Sergeyi göndərmişdi? Nə üçün Radiki yox, onu?..

Artıq hava qaralmaq üzrə idi. Bu gün xeyli gəzmişdilər. Qasımlı, demək olar, Seymurun şəhərdə gördüyü işlərin hamısı ilə tanış olmuşdu.

Bir avtobus dayanacağının yanından keçəndə Natiq dayanacaq köşkünü Qasımlıya göstərib:

- Şəhərə bu dayanacaq köşklərini Seymur qoydurub, - dedi. - Əvvəlkilər bərbad halda idi.

Polkovnik məmnun halda başını tərpətdi. O, Seymurun gördüyü işlərdən razı qalmışdı. Onun firması açıq-aydın çiçəklənmə dövrü keçirirdi. İndi bir qalırdı Serafimovun obyektləri ilə tanış olmaq.
Bilmək istəyirdi ki, bu firma Seymurun qarşısında nə dərəcədə əngəl törədirmiş.

Natiq maşını Elnarəgilin binasının qarşısında saxladı. Seymur tutulandan sonra Natiq bacısı ilə qalırdı. Ona həyan olmaq üçün. Maşından endilər.


ekitab.ucoz.org

- Sizi də işinizdən elədim bu gün. - Qasımlı dedi.

- Yox, canım! - Natiq etiraz etdi. - Bundan vacib işimiz olmayacan ki!

- Bölməniz bu saat nə işlə məşğuldur?

- Elə bir ciddi iş yoxdur. Amma mən bütün iş gününü Eduardın qatillərini axtarmağa sərf edirdim. Bu iş baş verənə qədər... Seymur tutulandan sonra fikirlərim tamam qarışıb.

- Eduardın qatillərini necə axtarırsınız? - Qasımlı mənalı nəzərlərlə Natiqə baxdı. - Əgər sirr deyilsə.

- Yox, sirr deyil. Arvadını danışdırmışam, qapı qonşularını danışdırmışam. Arvadının razılığı ilə evini ələk-vələk eləmişəm. Amma mənə ip ucu verə biləcək heç bir sənədə-filana rast gəlmədim. İş yerindəki seyfində də elə vacib bir şey yoxdur. Mərhum çox ehtiyatlı, həm də sirr saxlayan oğlan idi...

- Sənəd nəyinizə lazımdır?

Natiq təəccübləndi:

- Bilmək istəyirəm görüm, Eduard hansı mafiyanın izinə düşübmüş. Bircə nəfərin adı əlimə keçsə, yavaş-yavaş hər şeyi öyrənərəm.

- Deməli, öz fikrinizdə qətisiniz!?

- Bəli! Əl çəkməyəcəm bu məsələdən. Onun qatillərini tapacam!

- Bəlkə də belə olmaq yaxşıdır. - Qasımlı çiynini çəkdi. - Moskvada işləyəndə mən də sizin kimi idim. Amma...

Daha heç nə demədən, dönüb bloka girdi. Onun arxasınca düşən Natiq bu adamdan bir şey anlamadığı üçün daxilən əsəbiləşirdi.

Bakıdan gələn bu xəfiyyə onun üçün anlaşılmaz bir



ekitab.ucoz.org

varlıq idi. Nə düşündüyünü qətiyyən anlamaq olmurdu. Düşüncəsi bir yana dursun, elə danışığı da başdan-ayağa müəmma idi. Günorta Eduardın yaşadığı binanın qarşısında necə dedi? Hə, dedi ki, açar təkcə qapını bağlamaq üçün yox, həm də açmaq üçündür. Yaxşı, nə olsun? Bunu körpə uşaq da bilir. Nə demək istəyirdi, görəsən? Bəlkə nəsə bilir artıq? Necə ola bilər axı, nəsə bilsin?

Elnarə hörmətli qonağı üçün plov bişirmişdi bu dəfə. Onu gülərüzlə qarşılayıb, qardaşı ilə birlikdə süfrə arxasına dəvət etdi. Qasımlı lap çoxdandır ki, plov yemirdi. Lap çoxdan. Ancaq xörək süfrəyə gələn kimi anladı ki, Elnarə heç də plovun ustası deyil. Düyülər əzilib bir-birinə qarışmışdı...

## On dördüncü fəsil

Səhər prokurorluğunun qapısında Qasımlının pasportuna baxan polis serjantı onu dərhal içəri buraxdı və müstəntiq Fominin kabinetinin yerini nişan verdi. Sən demə, bu barədə artıq Fomin öz göstərişini veribmiş.

Seymurda müstəntiqin kabinetində idi. Hər ikisi ayağa qalxıb Bakıdan gələn xəfiyyə ilə görüşdü. Fomin polkovnikə öz yanında əyləşmək üçün yer göstərib:

- Bir yenilik varmı, Qanbay Fərhadoviç? - deyə soruşdu.
- Hələ ki heç nə yoxdur!

Qasımlı bunu deyib sınayıcı nəzərlərlə Seymur Muradova baxdı. Bu, otuz yaşlarında, qarabuğdayı, mərdanə və ciddi şimalı bir adam idi. Bir qədər kədərli görünsə də, təmkinini qoruyub saxlamağa çalışırdı. Uzaq Sibirə onun xilası üçün gəlmiş həmyerlisinə dərin hörmətlə baxaraq, azəri dilində:

- Zəhmət çəkib gəldiyinizə görə çox sağ olun! - dedi.



ekitab.ucoz.org

- Dəyməz! - Qasımlı düşüncəli halda başını tərpətdi. O, rus dilində danışırdı. - Bizim Xarici İşlər Nazirliyində mənə dedilər ki, bu cinayətdə şübhə hədəfi olmağınız xoşagəlməz hadisələrə səbəb olub. Bu hadisələrin qarşısının alınması üçün sizin günahsız olduğunuzu sübut etmək lazımdır.

- Mən heç vaxt elə vicdansız iş tutmaram! - Seymur da rus dilində danışmağa başladı. - Həm də
evimin içində, qonağa qarşı. İnanın ki, bu, dəhşətli bir anlaşılmazlıqdır.

- Danışın görək, bu qonaqlığın məqsədi nə idi? Şəxsən kimləri dəvət etmişdiniz?

Fomin ayağa qalxıb hər üçü üçün qəhvə gətirdi və öz yerində əyləşib sorğu-sualı dinləməyə başladı. Seymur danışırdı:

- Mərhum Pavel Matveyeviçlə münasibətimiz həmişə normal olub. Hərdən bəzi tədbirlərdə görüşürdük. Hərdən telefonla danışırdıq. Hər ikimiz təmir-tikinti işi ilə məşğul olurduq. Belə olanda, sözsüz ki, aramızda rəqabət də olmalı idi. Amma bu rəqabət heç vaxt düşmənçilik səviyyəsinə qalxmayıb. Pavel Matveyeviçlə bir görüşümüzdə Azərbaycan xörəklərindən söhbət düşmüşdü. Mən Elnarənin bişirdiyi yarpaq dolmasını çox təriflədim. O
da dedi ki, bir dəfə qonaq çağırarsan, dadına baxarıq bu xörəyin... Bu söhbət bir ay əvvəl olmuşdu. Elnarə ilə danışıb, keçən bazar günü onu evə nahara dəvət etdim...

- Dayanın, tələsmək lazım deyil. - Qasımlı onu saxladı. - Həmin söhbəti nə vaxt etmişdiniz?

Seymur bir qədər düşünməli oldu:

- Aprel ayı idi. Ortaları...
- Az qala iki ay keçibmiş ki, söhbətdən?!



ekitab.ucoz.org

- Mən təxminən bir ay dedim. Üzr istəyirəm!
Qasımlı narazılıqla başını buladı:

- Gəlin, imkan daxilində, dəqiq danışaq. Siz nə üçün belə gec dəvət etdiniz onu?

- Lap düzünü soruşsanız, - Seymur ötəri gülümsədi. - Mən unutmuşdum dediyim sözü. Yəni sözgəlişi demişdim. O demişdi ki, məni dəvət edərsiniz, mən də demişdim ki, edərəm. Amma unutmuşdum. Bu hadisədən təxminən bir həftə əvvəl, daha dəqiq desəm, bazar ertəsi həmin söhbəti Pavel Matveyeviç özü yadıma saldı. Danışdıq ki, bazar günü mütləq olsun. Səhəri gün zəng vurub xahiş etdi ki, onun əvvəllər hüquqşünası olmuş Sergey Novikovu da bu qonaqlığa dəvət edim. Dedi ki, Sergeylə barışmaq və onu yenidən firmaya işə dəvət etmək arzusundadır. Başa düşdüm ki, əslində mənim onları barışdırmağımı istəyir. Razılaşdım. Sergeyin arvadı Nataşa mənim firmamda mühasib işləyir. Onlardan başqa, bir də Fyodor Simonoviçi dəvət etdim. - Əlini müstəntiqə uzatdı. - Biz ailəvi yaxın olmuşuq. Pavel Matveyeviç arvadı və bir də şoferi Radiklə gəldi. Sergey də, Fyodor Simonoviç də arvadlarıyla. Bir də qaynım Natiq gəlmişdi,
vəssalam... Yemək süfrəsi hələ hazır olmadığı üçün biz altı kişi söhbət etmək məqsədilə balkona çıxdıq.

- Nə söhbət edirdiniz? - Qasımlı qəhvədən bir qurtum içib soruşdu.

- Balkona çıxandan sonra?

-Bəli!

-Xörəklərdən danışırdıq. Sonra Natiq dedi ki, Elnarəyə deyim, mənim üçün sərin su qoymağı unutmasın...


ekitab.ucoz.org

- Bunu süfrə hazır olandan sonra deyə bilməzdi? - Qasımlı onun sözünü kəsdi.

- Elnarə qaynanmış su hazırlayıb soyuducuya qoymalı idi...

- Yaxşı, davam edin!

- Bizim uşaqlar mənim üçün Azərbaycandan tut arağı gətirmişdi. Namiqin adəti idi ki, həmişə arağın üstündən təmiz bulaq suyu, ya qaynanmış sərin su içsin. İçəri keçdi ki, mətbəxə gedib bunu Elnarəyə desin. Bir az da bundan söhbət elədik. Yəni Natiqin arağı su ilə içməyindən, bir də ümumiyyətlə, arağın üstündən nəyin daha yaxşı nəticə verməsindən. Natiq tez qayıtdı. Sonra... Bir az keçdi, Pavel Matveyeviç Radiki içəri göndərdi ki, onun üçün siqaret gətirsin. O da Fyodor Simonoviç də pencəklərini soyunub yemək otağındakı divanın üstünə atmışdılar.

- Bircə dəqiqə!.. - Qasımlı əlindəki fincanı masanın üstünə qoydu. - Həmin gün hava necə idi?

- Yaxşı hava var idi, - Seymur təəccüblə cavab verdi.

- Çox isti deyildi ki?

- Xeyr...

- Sizin əyninizdə nə var idi?

- Gödəkcə.

- Bəs Radikin?

- Onda da.

- Bəs Sergeyin?

- O, pencək geymişdi.

- Qaynınız nə geyinmişdi?

- Səhv etmirəmsə, o da gödəkcə geyinmişdi. Qasımlı dönüb mənalı nəzərlə müstəntiqə baxdı:



ekitab.ucoz.org

- Bəs siz nə üçün soyunmuşdunuz pencəyinizi? Fomin qəribə tərzdə gülümsədi:

- Şəxsən mənə isti idi, Qanbay Fərhadoviç! Qasımlı sakit nəzərlərlə yenidən Seymura
baxdı. Onun nə düşündüyünü anlamaq mümkün deyildi.

- Davam edin, xahiş edirəm! - dedi.

- Sonra Fyodor Simonoviç girdi otağa. O qayıdandan sonra bir az keçdi. Mən nahara hazırlığın vəziyyətini bilmək üçün otağa keçib, oradan mətbəxə getdim. Beş dəqiqə orada dayanıb söhbət elədim. Geri qayıdıb yemək otağından keçəndə telefonum səsləndi. Kimsə, tanımadığım bir kişi taksafondan zəng vurmuşdu. Mənə dedi ki, sən necə ağılsız adamsan, Sergey Novikovu evinə dəvət etmisən. Dedi ki, ondan ehtiyatlı olun, o çox qorxulu adamdır. Əlaqə kəsildiyi üçün mən o adama heç nə deyə bilmədim.

- Amma müstəntiq deyir ki, həmin vaxt sizin telefonunuza heç bir zəng gəlməyib. - Qasımlı kinayə ilə başını yelləyib Fominə baxdı.

- Bəli, - müstəntiq dilləndi. - Mən xahiş etdim və yoxlayıb bildirdilər ki, Seymurun nömrəsinə heç bir zəng gəlməyib həmin saatda.

- Mən heç nə başa düşmürəm! - Seymur narazılıqla dilləndi. - Bu necə ola bilər axı? Belə çıxır ki, mən yalan danışıram. Axı mən niyə belə bir gülünc yalan uydurmalıyam?! - yalvarıcı baxışlarla Qasımlıya baxdı. - Yəni siz də mənə inanmırsınız?

- Həmin zəng telefonunuza nə vaxt gəldi? - Qasımlı onun sualını cavabsız buraxıb ciddi şəkildə soruşdu.

- Təxminən, saat ikinin yarısında... - Seymur dedi.

- Sizin telefonunuz indi haradadır? - Qasımlı təəccüblə



ekitab.ucoz.org

çiynini çəkdi.

- Fyodor Simonoviçdə.

Qasımlı üzünü müstəntiqə tutdu:

- Qəribədir, siz məgər telefona baxmamısınız? Axı bu zəng barədə məlumat yaddaşda qalmalıdır?!

- Bilirsiniz... - Fominin əvəzinə Seymur dilləndi. - Həmin danışıq kəsilən kimi mən düyməni basıb məlumatı ekrana gətirdim. Zəng taksafondan gəlmişdi. Sonra həyəcanlı olduğum üçün elə düyməni basdım ki, məlumatı pozdum...

Fomin polkovnik Qasımlıya baxıb mənalı şəkildə başını yırğaladı. Seymur, deyəsən, bu kinayəli hərəkəti gördü və üzünü həmyerlisinə tutub bayaqkı sualını azəri dilində təkrar etdi:

- Siz də mənə inanmırsınız?

Qasımlı onun sualını cavabsız buraxdı:

- Nömrənizi mənə verə bilərsinizmi?

- Cənab polkovnik, - Fomin məzəmmətlə dilləndi. - Mən iki dəfə yoxlatdırmışam. Bizə rəsmi məlumat veriblər ki, həmin saatda Seymur Muradovun nömrəsinə heç bir zəng gəlməyib.

Seymur nömrəsini yazıb verdi. Qasımlı kağızı cibinə qoyub Fominə çəpəki bir nəzər saldı:

- Sizcə, Seymur bizi, doğrudan da, aldadır?

Müstəntiq bir anlıq fikrə gedib dilləndi:

- Bilirsiniz, mən Seymurun bu cinayəti etməsinə inana bilmirəm. Onun necə bir vicdanlı adam olduğunu söyləməyə ehtiyac yoxdur. Amma... ola bilər ki, mənim əziz dostum Seymur bu yalanı qorxudan uydurub. Düşünüb ki, hadisə onun evində olduğu üçün hamı ondan şübhələnəcək.



ekitab.ucoz.org

- Yaxşı, bu söhbətə sonra yenə qayıdarıq, - Qasımlı yenə Seymura üz tutdu. - Sizin fikrinizcə,
zəhəri həmin stəkana kim tökə bilər?

Seymur çox çətinliklə dilləndi:

- Zoğal kompotu süfrəyə gələndən sonra yemək otağına təklikdə üç nəfər daxil olub: mən, Fyodor Simonoviç və bir də Sergey Novikov. Ona görə də mən ancaq Sergeydən şübhələnirəm.

- Axı o, niyə etməliydi bunu?

- Deyə bilmərəm... - Seymur susub başını aşağı dikdi.

- Hadisənin baş verdiyi anı necə xatırlayırsınız?

- Qadınlar bizi süfrə arxasına dəvət etdilər. Hamımız birdən otağa keçdik. Mən baş tərəfdəki stulu Pavel Matveyeviçə göstərib, orada əyləşməsini xahiş etdim. Hörmət naminə... Əyləşən kimi qonaqların hansısa zoğal kompotunu göstərib onun nə olduğunu soruşdu. Mən izah etdim. Sergey və
ondan dərhal sonra Serafimov stəkanı qaldırıb kompotun dadına baxmaq istədilər. Hərəsi bir neçə qurtum içdi. Serafimov tirtap yerə sərildi. Biz dəhşət içində ayağa qalxdıq. Bax belə... Sonra Fyodor Simonoviç prokurorluğa zəng vurdu. Gəlib meyiti apardılar. Stəkanları ekspertiza üçün götürdülər. Axşam da gəlib məni həbs etdilər... Bir həftədən çoxdur buradayam. Evdəkilərin üzünü görmürəm bir həftədir. Bunlar hamısı bir yana, bunlara dözərəm, amma şəhər əhalisinin nəzərində ləkələnməyim mənə əzab verir.

Polkovnik Qasımlı bir qədər fikrə gedəndən sonra üzünü müstəntiqə çevirdi:

- Seymur barədə həbs qətimkan tədbiri seçilib?

- Bəli, - müstəntiq başını astadan tərpətdi. - Amma



ekitab.ucoz.org

inanın, Qanbay Fərhadoviç, mən razı
deyildim belə tələsik qərar verməyə. Müstəntiq İvanovla prokurorun qərarıdır. Bir də ki, bilirsiniz, işi rəsmi olaraq mən aparmıram. Hələ prokuror Elnarə Mamedovna barəsində də belə bir qərar vermək istəyirdi. Seymurla olan dostluğumuz xatirinə, mən birtəhər buna mane ola bildim.

- Bəsdir, Fyodor Simonoviç! - Seymur birdən- birə səsini qaldırdı. - Mən sizə o gün də dedim.
Bizim bu işdə heç bir iştirakımız yoxdur. Amma əgər istəyirsinizsə, lap boynuma götürüm bu işi. Təki Elnarənin adını çəkməsinlər, ora-bura süründürüb incitməsinlər!

Qasımlı əsəbini güclə boğan Seymura məzəmmətlə baxdı:

- Mən Bakıdan buraya ona görə gəlməmişəm ki, siz hər şeyi yalandan öz boynunuza götürəsiniz, -
bir az ara verib, yumşaq səslə davam etdi. - Bu gecə sizin evinizdə qalmışdım. Yaxşıdırlar. Gözəl ailəniz var. Elnarə xanım çox istiqanlı, mehriban qadındır. Sizi çox sevir. Elə oğlunuz da. Çox gözəl, zirək uşaqdır.

Seymur elə darıxırdı ki... Elnarə üçün, Tamerlan üçün... Burada saxlandığı müddətdə Elnarəni nə qədər çox sevdiyini bütün gerçəkliyi ilə bir daha anlamışdı. Başa düşmüşdü ki, ondan uzun müddət ayrı qalmaq dözülməz işgəncə olar onun üçün.

İşıqlı və mənalı gözləri, şirin ləhcəsi, ceyran kimi oynaq yerişi olan bu qızı elə ilk baxışdan bəyənmişdi. Azərbaycandan gəlmiş və özüylə qəlb dolusu yurd həsrəti gətirmiş bu qıza ilk baxışdan vurulmuşdu, elə bil. Ancaq dostunun bacısı olduğu üçün onu ilk görüşlərində öz bacısı kimi qəbul etmiş,


ekitab.ucoz.org

onun haqqında nəsə ayrı bir şey düşünməyi ağlına da gətirməmişdi.

Seymur həyatda arzusunda olduğu hər bir şeyi öz iradəsinin gücü ilə qazanmışdı. Ağsuda, kasıb bir ailədə doğulmuşdu. Gecəni gündüzə qatıb oxudu, gedib Bakıda ali məktəbə qəbul oldu. Ailəsinin maddi vəziyyətini nəzərə alıb, institutda oxuya-oxuya gecələr gözətçi işlədi. Məktəbi bitirib inşaat mühəndisliyi diplomunu əlinə alandan sonra Bakıda özünə uyğun iş axtardı. Tapa bilməyib, bir ilə yaxın fəhlə işlədi. Sonra isə bundan bir şey çıxmayacağını görüb Ağsudakı ata-anasını orada qoyunçuluqla məşğul olan qardaşına tapşırdı və birbaşa Altaya gəldi.

Özü üçün bir tikinti firması yaratmaq istəyirdi. Amma ilk illər burada da fəhlə işləməyə məcbur
oldu. Çox çətin günlər keçirtdi. İndi də heç cür unuda bilmirdi o günləri. Günorta alıb yediyi balıq konservinin qutusunu tullamırdı ki, axşam onun divarlarına yapışıb qalmış yağla, elə onun içindəcə bir yumurtanın qayğanağını bişirib yesin. Ancaq dözürdü. Hər şeyə səbirlə, təmkinlə dözürdü. Yoldaşlarının hamısı onda olan səbrə, dəyanətə heyran qalmışdılar.

Axır ki, öz firmasını yarada bildi. Bu işdə, ondan əvvəl başqa tikinti firmasının sahibi olan, Azərbaycanın Şamaxı rayonundan gəlmiş Elmanın da böyük köməyi dəydi. Sonra, yaratdığı firmanı inadla inkişaf etdirdi. Qazancı artdı. Əvvəlcə,
Ağsuda qoyub gəldiyi valideynlərinə, daha sonra isə yaşadığı bu şəhərin ehtiyacı olan adamlarına yardım etməyə başladı. Firmasını daha da böyütmək, inkişaf
etdirmək üçün cəsarətli addımlar atdı. Qarşısına qoyduğu



ekitab.ucoz.org

məqsədin həyata keçirilməsi yolunda heç vaxt ləngimədi.

Amma sevgi məsələsində bir addım geri düşdü. Uduzdu...

Elnarənin buraya gəldiyi heç bəlkə iki həftə deyildi. Seymur eşitdi ki, Ramazan adlı fəhləsi artıq qızın könlünü ələ alıb. Bu, çox pis təsir etdi, çox dərd verdi ona. Elə bildi ki, çoxdan tanıdığı, uzun müddət bir yerdə olduğu doğma adamını itirib. Lap bir-iki gün əli işdən-gücdən də soyudu.

Ancaq Tanrı ona lazım olandan da artıq dözüm, təmkin vermişdi. Bu vəziyyəti ilə də tez barışdı. Toylarında iştirak etdi onların. Mənzil bağışladı.

Sonra Ramazana bütün mağazalarının ərzaq təminatını tapşırdı. Bacardığı qədər çalışırdı ki,

Elnarə xoşbəxt güzəran keçirsin. Çətinliyə düşməsin. Onunla rastlaşanda ürəyindəki məhəbbəti üzə çıxarmamağa çalışırdı. Bəzən qızın arxasınca oğrun nəzərlərlə baxıb köks ötürməklə kifayətlənirdi.

Onun da, Elnarənin də, elə Ramazanın özünün də həyatında böyük dəyişikliyə səbəb olan hadisə, deyəsən, ərzaq anbarının yanmağı oldu. Əslində, bu o vaxt Seymura məxsus olan, böyük əziyyətlə tikib- qurduğu ən qiymətli obyekt idi. Birinci mərtəbədə ərzaq anbarı yerləşirdi, ikinci mərtəbədə isə tikinti firmasının ofisi.

O ağır günü də heç vaxt unutmayacaqdı... Gecənin bir aləmi zəng vurub yuxudan oyatdılar və binanın yandığını xəbər verdilər. Qalxıb özünü oraya yetirdi. Yanğınsöndürənlər gec gəldikləri üçün bir şey edə bilməmişdilər. İkimərtəbəli tikili tamamilə yanıb çökmüşdü. Alov bir qədər səngimiş, yoğun dirəklər köz halında bir-birinin üstünə qalaqlanmışdı.



ekitab.ucoz.org

Bu Seymur üçün həddindən artıq böyük bir itki idi. Hadisə yerinə yığılmış adamlar düşünürdülər ki, Seymur ömürlük batdı daha. Əlbəttə, buna sevinənlər də var idi, kədərlənənlər də. O, maşından düşüb böyük bir köz təpəsinə çevrilmiş binaya yaxınlaşanda onu istəyənlər qorxu içində fikirləşmişdilər ki, yazıq dəli olub özünü odun içinə ata bilər.

Amma o, sakitcə gəlib yanmış binanın yaxınlığında durdu. Təəssüf dolu, ancaq olduqca sakit baxışlarla ətrafındakı adamlara baxıb cibindən siqaret çıxartdı. Ciblərini axtarıb alışqanı tapmadığı üçün siqaretini aşıb qarşısına düşmüş dirəyin
közündə yandırdı. Sonra təmkinlə yanında dayanmış bir işçisinə üz tutub:

- Xəsarət alan olmayıb ki? - deyə soruşdu.

O, istəsə də, istəməsə də bu barədə cinayət işi açıldı. Müstəntiq Fomin tezliklə müəyyən etdi ki, binanı Ramazan özü yandırıb. Demə, əclaf, anbarın içindəki ərzağı çıxarıb başqasına satıbmış və bunun üstünün açılmaması üçün anbara od vurubmuş. Seymur Elnarəni gözüyaşlı qoymaq istəmədi.
Fominə yalvar-yaxar eləyib işi bağlatdırdı. Guya bina təsadüfi bir elektrik qığılcımından alışıbmış...

Eşidəndə ki, Elnarə Ramazandan boşanır, qulaqlarına inanmadı. Ən əlçatmaz hesab elədiyin bir arzu da gerçəkləşə bilərmiş, sən demə. Boşanma bitəndən sonra bir az gözləyib qıza ürəyini açdı. Elnarə də etiraz etmədi və nəhayət, qovuşdu onunla.
Buna indi də möcüzə kimi baxırdı Seymur, indi də tam mənası ilə inana bilmirdi bu xoşbəxtliyinə.



ekitab.ucoz.org

Bu tovuzlu qız, sanki həm də Azərbaycanın bir parçası idi onun üçün. İşdə, çöldə həmişə rus dilində danışan Seymur axşam evə gələn kimi təmiz və şirin azəri türkcəsində «Xoş gəlmisən, canım, yaxşısanmı?» sözləri ilə qarşılanırdı. Paltarını dəyişməsinə də kömək edirdi Elnarə. Vanna otağına ötürüb, əlində dəsmal tutaraq, onun əl-üzünü yumasına tamaşa edir, iş gününün necə keçməsi barədə suallar verirdi.

İndi isə...

- Elnarə xanıma çatdırılası bir sözünüz var? - Qasımlı soruşdu.

- Məndən salam deyərsiniz. - Seymur belə dedi və tez də sual verdi. - Nə vaxt qayıdacaqsınız
Bakıya?

- Hələ, tam üç sutka buradayam. Cümə günü, günortadan sonra şəhərdən çıxacam. Bakıya biletim hazırdır.

- Bu müddətdə bir iş görə biləcəksiniz?

Qasımlı fikirli halda başını tərpətdi:

- Çalışacam, gedənədək həqiqəti üzə çıxarım.

- Belə etsəniz, mən sizə ömürlük minnətdar olaram. Nə istəsəniz...

Polkovnik ayağa qalxıb, onun sözünü yarımçıq kəsdi:

- Darıxmayın, bu barədə siz buradan çıxandan sonra danışarıq.

Seymurun üzündə sevinc nişanələri göründü:

- Deməк, mənə inanırsınız?

Ancaq Qasımlı artıq üzünü Fominə tutmuşdu.

- Mənim başqa sualım yoxdur! - deyib, əvvəlcə ona, sonra isə Seymura əl uzatdı.



ekitab.ucoz.org

- Sizinlə bir də görüşə biləcəmmi? - Seymur qəmli səslə, azəri dilində soruşdu.

- Yəqin ki! - Qasımlı cavab verdi. - Məni Novosibirskdən yola salmalısınız axı?!

- Allah qoysa! - Seymur fərəhlə dilləndi.

Sonra Bakıdan gələn xəfiyyə bu görüşü təşkil etdiyi üçün müstəntiqə təşəkkürünü bildirib kabinetdən çıxdı.

Prokurorluğun qarşısındakı küçəni keçib, kiçik parka girdi. Cibindən telefonunu çıxarıb bu saat Moskvada olan Boris Nikitinə zəng vurdu. Dostu onun zəngini sevinclə qarşılayıb, vəziyyətini soruşdu. Qasımlı təşəkkür edib ciddi səslə:

- Qulaq as, Boris! - dedi. - Təcili olaraq, sənə deyəcəyim bu telefon nömrəsinin kimə məxsus olduğunu öyrən. Bir də, öyrən görək, həmin bu nömrəyə iyunun 8-də, saat təxminən 13.30 radələrində kimin tərəfindən zəng vurulub. Bu mənə çox lazımdır.

Sonra Qasımlı Seymurdan aldığı telefon nömrəsini Borisə oxudu. Daxili İşlər Nazirliyinin mötəbər işçisi olan podpolkovnik Nikitin deyilənləri tezliklə öyrənəcəyinə söz verdi və dedi ki, dostu onun zəngini gözləsin.

Qasımlı, buraya gəldiyi kimi, piyada Elnarəgilin evinə qayıtdı. Nahara az qalırdı. Elnarə Seymurun vəziyyəti barədə qonağına bir xeyli sual verəndən sonra süfrəni düzəltməyə başladı.

Bir azdan Qasımlının telefonuna zəng gəldi. Bu Boris idi. Gümrah səslə salamlaşıb məlumat verdi.

- Qanbay Fərhadoviç, sizin mənə verdiyiniz nömrə Muradova Elnarə Məmməd qızına məxsusdur. Təvəllüdü


ekitab.ucoz.org

1984. Doğulduğu yer Azərbaycan... Bir dəqiqə gözləyin... Hə, Tovuz rayonu. Ev ünvanı...

- Dayan, Boris, - Qasımlı onun sözünü kəsdi. - Dediyim vaxtda zəng olubmu həmin nömrəyə?

- Olub! - Boris cavab verdi. - Düz saat 13:17- də. Zəng küçələrə qoyulmuş taksafonlardan olub. Danışıq on bir saniyə davam edib. Amma aydın məsələdir ki, zəng vuranın kimliyini müəyyən etmək mümkün deyil.

Qasımlı dostuna təşəkkür edib süfrəni düzəltməklə məşğul olan ev sahibəsinə baxdı:

- Siz Seymur ilə telefonlarınızı dəyişmisiniz?

Elnarə təəccübləndi:

- Telefonu yox, amma nömrələri dəyişmişik...

- Nə vaxt?

- Dörd-beş ay olar. Dedim, sənin nömrəndən çox xoşum gəlir. O da dedi ki, gəl dəyişək. Nə olub
ki?..

- Heç nə! - Qasımlı məmnun halda dilləndi. - Yəni heç müstəntiq Fominlə zəngləşmirdi o?

- Demək olar ki, yox! - Elnarə cavab verdi. - Bəzən axşamlar ev telefonundan zəngləşirdilər.

Bu zaman Natiq də gəlib çıxdı. Qasımlının prokurorluqda Seymurla görüşdüyünü bilib, o da bəzi suallar verdi. Elnarənin dəvətilə süfrə arxasına keçdilər. Ev sahibəsi qonağının bu şirniyyatı çox bəyəndiyini düşündüyü üçün süfrəyə xörəkdən əlavə
bir böyük boşqabda özünün bişirdiyi peçenyedən də qoymuşdu.

Nahar vaxtı çox az danışdılar. Hərdən, Natiq nəsə bir söhbətə başlamaq istəyirdi. Bir də Elnarə bir neçə dəfə



ekitab.ucoz.org

Tamerlana irad tutdu. Qasımlı isə, nədənsə, çox tutqun görünürdü.

## On beşinci fəsil

Polkovnik Qasımlı nahardan sonra Natiqdən öyrəndiyi ünvana tək gəldi. Qapını onun üzünə ev sahibi Sergey Novikov özü açdı. Bu, təqribən əlli yaşında, arıq, orta boylu bir kişi idi. İçkiyə aludəçiliyi üz- gözündən aydın bilinirdi. Gözlərinin altı şişmiş, dərisi öz təbii rəngini itirmişdi. Əynində ağ zolaqları olan mixəyi rəngli pijama var idi.

Qarşısındakı yad adama zəndlə baxsa da tanıya bilmədi:

- Sizə kim lazımdır? Kimsiniz?

- Mən Bakıdan gəlmişəm, - Qasımlı özünü belə təqdim etdi.

Başını mənalı tərzdə yelləyən ev sahibi çəkilib qonağa yol verdi.

- Keçin içəri.

Otaqlardan birinə daxil oldular. Bura sadə görünüşlü, səliqəli bir otaq idi. Divardan Sergeyin çərçivəyə salınmış şəkli asılmışdı. Bu şəkil, yəqin ki, beş-on il əvvəl çəkilmişdi və yaşlaşmış ev sahibinin indiki simasına çox az bənzəyirdi. Onun təklifi ilə masanın arxasında üz-üzə əyləşdilər. Süfrədə içindəkinin yarısı içilmiş çaxır şüşəsi, suda bişmiş kartof, pendir və çörək var idi.

- Deməli, siz xəfiyyəsiniz, eləmi? - Sergey qonağını sınayıcı nəzərlərlə süzüb soruşdu.

Belə çıxırdı ki, kimsə Sergeyi onun barəsində məlumatlandırmışdı.

- Haradan bildiniz?

- Mən hər şeyi bilirəm! - Sergey sərxoş ədası ilə barmağını havada yellədi. - Hər şeyi! Gəlin, tanış olaq, -



ekitab.ucoz.org

əlini irəli uzatdı. - Sergey Sergeyeviç Novikov. Bu şəhərin ən təcrübəli, ən bacarıqlı hüquqşünası.

- Qanbay Fərhadoviç, - onun əlini yüngülcə sıxan Qasımlı dilləndi.

- Hə... Qanbay... - deyəsən, dalını unutmuşdu.

- Qısaca Qasımlı da deyə bilərsiniz. Polkovnik Qasımlı.

- Siz rus dilində çox gözəl danışırsınız, polkovnik.

- Ola bilər! - Qasımlı ciddi səslə dilləndi. - Mən uzun müddət Moskvada işləmişəm.

- Bilirəm! - Sergey yenə əlini havada yellədi. - Mən hər şeyi bilirəm. Siz gəlmisiniz ki, öz
həmyerlinizi Fyodor Fənninin caynağından xilas edəsiniz. Düşünürsünüz ki, o günahsızdır. Lap mələklər kimi! Yaxşı, bəs onda kim öldürüb Pavel Serafimovu? Mən? Ya, Fyodor Fomin özü? Hə?!

İri stəkana çaxır süzüb qonağına təklif etdi. Qa- sımlı imtina edəndə özü stəkanı başına çəkdi. Onun əllərinin əsməsi xəfiyyənin iti nəzərlərindən yayınmadı. Çənəsinə süzülmüş çaxırı əlinin dalı ilə silib inamsız baxışlarını qonağının üzünə zillədi.

- Seymur həmin gün sizi evinə nəyə görə dəvət etmişdi? - polkovnik ilk sualını verdi.

- Haradan bilim?! - Sergey çiyinlərini qaldırıb dodaqlarını qəribə formada büzdü. - Dedi ki, süfrədə tut arağı da olacaq. Mən də getdim. Mənim arvadım onun mühasibidir axı?! Nataşa... Siz onu görmüsünüzmü?

Qasımlı təsdiq mənasında başını tərpətdi.

- Gözəldir, eləmi? - cavab gözləmədən davam etdi. - Çox gözəldir. Mən onu çox sevirəm. Amma o məni sevmir. Niyə? Ona görə ki, mənim pulum yoxdur. Ona görə ki, çox


ekitab.ucoz.org

içirəm. Amma... Əvvəllər çox istəyirdi məni. İndi, belə çıxır ki, daha lazım deyiləm ona. Ancaq mən təcrübəli hüquqşünasam. Başa düşürsünüzmü? Mən yenə iş tapa bilərəm. Yenə özümü göstərə bilərəm.

- Siz Serafimovun da qonaqlıqda olacağını bilirdiniz? - Qasımlı söhbəti dəyişdi.

-Yox, polkovnik, bilmirdim. Onu bilirdim ki, tut arağı olacaq.

- Onunla söhbət etdinizmi?
- Nə söhbət edəcəkdim onunla?
- O sizə yenidən onunla işləməyi təklif etdimi?

- Siz nə danışırsınız, polkovnik? O, fırıldaqçının, əclafın biri idi. Daha heç vaxt mənimlə işləmək istəməzdi. Çünki mən düz adamam. Başa düşürsünüzmü? Qanunsuz iş tutmaram heç vaxt! Nə olsun ki, çox içirəm?!

- Yəni doğrudan belə bir təklif etmədi sizə?

- Nəsə elə bir şey mızıldandı, deyəsən. Amma mən heç vecimə də almadım onu. Pah! Nə olsun ki, milyoner idi? İnsanda gərək ən birinci vicdan olsun. Pul gəldi-gedər şeydir. Görürsünüz, öldürdülər, çıxdı getdi cəhənnəmə!

Sergey əməlli-başlı dəmləşmişdi. Və bu, deyəsən, polkovnik Qasımlının ürəyincə idi. Təmkinini qətiyyən pozmadan sorğu-sualı davam etdirirdi.

- O sizi çox içdiyinizə görə işdən uzaqlaşdırmışdı?

Sergey kinayə ilə gülümsədi:

- Məndən söz ala bilməzsiniz, polkovnik! Dedim axı, mən hər şeyi bilirəm. Mən buradakı hüquqşünasların hamısından çox bilirəm. Hətta sizin o Fyodor Fomindən də!

Qasımlı bir siqaret yandırıb kürəyini stula söykədi:

- Deməli, Serafimov əvvəlki işinizə qayıtmağı təklif



ekitab.ucoz.org

etdi?!

Sergey əlini yellədi:

- Boş şeydir! Onun Xasanov kimi hüquqşünası vardı. Elə özü kimi əclafdır o da. Cəhənnəm olsun onun işi də, özü də! Siz mənimlə içmək
istəyirsinizmi? Bəlkə araq alım sizin üçün? Nataşa işdədir. O da gəlib çıxar bir azdan.

- Yox! - Qasımlı etiraz etdi. - Deyin görüm, siz otağa nə üçün girmişdiniz?

Sergey heç nə ifadə etməyən baxışlarını onun üzündə gəzdirdi:

- Siz məni yoxlamaq istəyirsiniz? Məndən şübhələnirsiniz, deməli? Yox, polkovnik, bunlar mənasız söhbətlərdir. Paveli sizin həmyerliniz Seymur öldürüb. Onu da, onun şoferini də! Özü də bilirsinizmi nəyə görə öldürüb o ermənini? Mən gözümlə gördüm. Radik onu balkonda boğazlamışdı. Deyirdi ki, Paveli sən öldürdün, zəhəri sən tökmüsən onun stəkanına.

- Nə vaxt deyirdi bunu? - Qasımlı bu sözlərdən maraqlansa da, halını dəyişmədən soruşdu.

- Necə yəni, nə vaxt? Serafimov zəhərlənəndən sonra. Biz prokurorluğun işçilərini gözləyirdik. Balkona çıxdım, gördüm ki, Radik Seymurun üstünə qışqırır. Siz görəydiniz o erməni nə halda idi. Ağzı- burnu əyilib əcaib hala düşmüşdü.

Qasımlı siqaretini sümürüb bir müddət susdu. Sonra ev sahibinin təəccübünə səbəb olan bir laqeydliklə bayaqkı sualını təkrar etdi:

- Axı heç demədiniz, siz balkondan otağa nə üçün keçmişdiniz?



ekitab.ucoz.org

- Bunu müstəntiq də bilir. Mən Serafimov üçün siqaret gətirməyə girmişdim.

- Siqaret gətirməyi sizə Serafimov tapşırdı?

- Hə, əlbəttə!

- Bəs niyə sizə? Niyə bunu öz şoferinə tapşırmadı?

Sergey əvvəlcə susub gözlərini döydü. Sonra isə birdən-birə güldü:

- Amma siz də yaman hiyləgərsiniz ha?! Deyirsiniz niyə məni göndərdi? Yəqin yenidən dostlaşmaq istəyirmiş mənimlə.

- Bəs siz nə üçün ona tabe oldunuz?

- Burada nə var ki? Dedi, siqaret gətir, mən də gətirdim.

Qasımlı ev sahibinin gözlərinin içinə baxıb, onun nə düşündüyünü öyrənməyə çalışırdı. Ancaq yalançı biclik ifadə edən bu gözlərdə mənalı bir şey yox idi.

- Sizin Natiqlə münasibətiniz necədir? - deyə birdən-birə soruşdu.

- Natiqlə? - Sergey kinayəli şəkildə ağzını əydi. - O da rədd olsun cəhənnəmə! Əclafın biridir! Əvvəl yaxın idik. Gəlib-gedirdi bizə. İndi o da qudurub,
adam-zad saymır, - birdən başını qabağa uzadıb şübhə ifadə edən gözlərini qonağa zillədi. - Yoxsa məndən nəsə danışıb sizə?

- Yox. Heç nə danışmayıb.

Qasımlı başını yellədi. O bu adamdan qətiyyən xoşlanmamışdı. Onunla süfrə başında beləcə üz-üzə əyləşmək artıq yorurdu polkovniki. Odur ki, ayağa qalxıb:

- İcazənizlə, mən gedim! - dedi.

Sergey də ayağa qalxdı:

- Siz heç mənimlə içmədiniz, polkovnik.



ekitab.ucoz.org

- Mən içən deyiləm.

- İndi Nataşa da gələcək. Sizin üçün araq alaram.

- Lazım deyil! - Qasımlı bunu deyib qapıya doğru getdi.

Onu ötürməyə çıxan ev sahibi pilləkənin başında ağzını Qasımlının qulağına yaxınlaşdırıb pıçıldadı:

- Fomin otağa, guya ki, burnunu silmək üçün girmişdi. Amma yaman gec çıxdı içəridən. O vaxt ərzində əlli adamın burnunu təmizləmək mümkün idi...

Şərabın qoxusu Qasımlını vurduğu üçün ikrah hissiylə üz-gözünü turşudub Sergeydən ayrıldı. Pilləkənlə düşüb küçəyə çıxdı və Pavel Serafimovun evinə getmək üçün taksi saxladı.

## On altıncı fəsil

Pavel Serafimovun dul qalmış arvadı Alisa Alekseyevna polkovnik Qasımlını bir xeyli narazı və diqqətli baxışlarla süzəndən sonra:

- Siz polis polkovnikisiniz? - deyə soruşdu.
- Bəli. - Qasımlı cavab verdi.
- Pavelin ölümünü araşdırmağa gəlmisiniz?
- Bəli. İçəri keçmək olarmı?
- Keçin!

Ev sahibəsi Qasımlı ilə müqayisədə daha qaraqabaq idi. Sanki üzündən zəhrimar tökülürdü. Onun sifəti, nədənsə, Qasımlıya at sifətini xatırlatdı və düşündü ki, maraqlıdır, at özü çox gözəl heyvandır, amma kiminsə sifətinin at sifətini xatırlatması heç də ürəkaçan olmur.



ekitab.ucoz.org

Otağa keçib, göstərilən kresloda əyləşdi. Onunla üzbəüz oturan ev sahibəsi çağırılmamış qonağını yenə qəribə bir diqqətlə süzüb:

- Alisa Alekseyevna, - dedi. - Mərhum Pavelin arvadıyam.

- Qanbay Fərhadoviç. - Qasımlı da özünü təqdim etdi.

- Siz də onu müdafiə edirsiniz?
- Kimi? - xəfiyyə özünü bilməməzliyə vurdu.
- O azərbaycanlı əclafı! Seymur Muradovu.
- Onu kim müdafiə edir ki?

Qadın bir anlıq duruxdu.

- Əslində, heç kim! Hamı bilir ki, o qatildir. Amma Fomin onun işini hələ də uzadır.

- Seymur Muradov hələ ki, bu cinayəti boynuna götürməyib.

- Cəhənnəmə ki götürməyib! - qadın əsəbi halda dilləndi. - Hər şey sübut edir ki, o zəhərləyib Paveli. O çox alçaq, vicdansız adamdır. Ümumiyyətlə, azərbaycanlıların hamısı elədir.

- Siz nə üçün bir nəfərə görə bütün azərbaycanlıları pisləyirsiniz?

Alisa geri çəkilmədi:

- Bir nəfərə görə yox. Hamısına görə deyirəm. Gəlib burada çörəyimizi yeyirlər, sonra da özümüzü öldürürlər, qızlarımızı yoldan çıxarırlar.

Qasımlı anladı ki, ev sahibəsi onu kiminləsə qarışdırır. Düşündü ki, ola bilsin, Daxili İşlər Nazirliyindən bir polkovnikin, yəni Borisin gəldiyini
eşidib və indi onu həmin adam hesab edir. Təmkinini pozmadan dilləndi:



ekitab.ucoz.org

- Alisa Alekseyevna, bildiyimə görə siz tarix müəllimisiniz. Hər bir həqiqətin faktlara söykəndiyini yaxşı anlayırsınız. Bəlkə faktlarla danışasınız?!

- Nə fakt? - qadın bozardı. - Elə Seymuru götürün. Evinin içində öz qonağını zəhərləyib. Ya onun arvadının qardaşı Natiq. Özü polis işçisi ola-ola Nataşa adlı ərli qadını yoldan çıxarıb. Siz gərək beləsi haqqında ölçü götürəsiniz.

Qasımlı onu sakitləşdirməyə çalışdı:

- Narahat olmayın, hər kəs öz əməlinin cəzasını çəkəcək. Amma mən indi sizin ərinizin qatilini axtarmaqla məşğulam.

- Siz nə üçün özünüzə artıq əziyyət verirsiniz? - Alisa hikkə ilə başını yırğaladı. - Qatil artıq tutulub.
Prokurorluğun təcridxanasındadır. Hamı bilir ki, cinayətkar odur. Daha nəyi araşdıracaqsınız? Kimi axtaracaqsınız? Hələ, eşitdiyimə görə, Bakıdan ağılsız bir xəfiyyə də göndəriblər onun işini ört-basdır etməyə. Bizim müstəntiqlər niyə imkan verir buna?

Qasımlı gülümsədi:

- Alisa Alekseyevna, mən sizin qonağınızam.
Bir az səbir edib mənim bəzi suallarıma cavab verə biləcəksinizmi?

- Əgər siz də onu müdafiə edirsinizsə...

- Mən heç kimi müdafiə etmirəm. Yalnız həqiqəti axtarıram.

- Bağışlayın, - ev sahibəsi bir qədər yumşaq ahənglə dedi. - Bu əclaf azərbaycanlılar mənə elə od qoyub ki, sizə nəsə təklif etməyi də unutdum. Qəhvə içirsinizmi?

- Versəniz, pis olmaz.

Alisa mətbəxdən qulluqçu qadını səsləyib iki fincan



ekitab.ucoz.org

qəhvə gətirməsini tapşırdı. Sonra ayağını ayağının üstünə aşırıb qonağına mehribanlıqla baxdı. Qasımlı dərhal hiss etdi ki, bu qadın sifətinə mehriban ifadə verəndə daha əcaib olur.

- Buyurun, cənab polkovnik, - Alisa dedi. - Nə sualınız varsa, verin. Sizin suallarınıza məmnuniyyətlə cavab verərəm.

Qasımlı yerini rahatlayıb birinci sualını verdi:

- Hadisə baş verən gün siz də qadınlarla mətbəxdə olmusunuz. Həmin vaxt, ya sonradan xatırlayarkən nələr sizə şübhəli görünüb?

Alisa qırmızıya çalan rənglə rənglədiyi saçların sığallayıb danışmağa başladı:

- Birincisi elə onun arvadından şübhələndim. Elnarədən. Bilmirəm siz onu danışdırmısınız, yoxsa yox, amma görsəniz onun elə sakit görünməyinə baxmayın. O, əslində, qardaşı kimi pozğunun, əxlaqsızın biridir. Seymurun puluna, var-dövlətinə görə ərini atıb ona göz dikdi. Hələ indi də nə oyunlardan çıxır, bir Allah bilir. O, həmin gün kompotu stəkanlara tökəndə bu hərəkəti mənə çox qəribə gəldi. Hətta səbəbini də soruşdum. Başladı gic-gic bəhanələr gətirməyə. Mən bilirəm ki, onun da bu işdə əli olub.

- Siz mətbəxdə olanda Seymur oraya gəldimi?

- Bəli, cənab polkovnik, gəldi. Mən elə ondan da şübhələndim. Gəlib beş dəqiqə mənasız söhbətlər elədi və getdi. Mən yüz faiz əminəm ki, o qayıdanda zəhəri həmin stəkana tökübmüş.

Qulluqçu qadın iki fincan qəhvə gətirib onların qarşısındakı alçaq masanın üstünə qoydu və getdi.



ekitab.ucoz.org

- Buyurun, için, cənab polkovnik! - Alisa əzilib-büzüldü. - Bəlkə nəsə tünd bir şey də içmək istəyirsiniz? Araq, viski?

- Yox, lazım deyil! - Qasımlı isti qəhvədən bir qurtum içdi. - Xahiş edirəm, daha bir sualıma cavab verin.

- Buyurun, əzizim! - Alisa gözlərini süzdürdü.

- Sizin mərhum ərinizin Sergey Novikovu yenidən öz yerinə qaytarmaq fikri var idimi?

Qadın güldü:

- Sergeyi?! Siz nə danışırsınız? Pavel nəyə görə Sergeyi öz yerinə qaytarmalıydı? Bizim firmanın Xasanov kimi hüquqşünası var. Sergey heç onun əlinə su tökməyə yaramaz. Nəyimizə lazımdır
bizim Sergey? Bir də ki, siz onu tanımırsınız. Alçağın biridir o! Evində saxladığı qıza tamah saldı. Evləndi. İndi də həmin qız onu heç vecinə almır. Gedib cavan oğlanlarla gəzir.

- Deməli, elə bir fikri olmayıb ərinizin?

- Heç ola da bilməzdi! - qadın qətiyyətlə dilləndi. - Heç vaxt!

- Amma əriniz Seymur Muradova başqa cür deyib.

- Of! Yenə Seymur! - qadın hikkə ilə əllərini yellədi. - Cənab polkovnik, xahiş edirəm, ondan danışmayın. Ümumiyyətlə, azərbaycanlılardan danışmayın! Seymur, əlbəttə ki, ağzına gələni uyduracaq. Qoy onun dediklərinə o maymaq Fomin inansın, bir də özünü Komissar Meqre hesab edib Bakıdan bura gələn o Don Kixot xəfiyyə!

Qasımlı güclə sezilən bir istehza ilə gülümsədi:

- Alisa Alekseyevna, siz çox zarafatcıl və şən qadınsınız. Komissar Meqre hara, Don Kixot hara?

Qadın yenə öz əcaib gülüşü ilə güldü:



ekitab.ucoz.org

- Siz də mənim xoşuma gəlirsiniz, cənab polkovnik! Çox gözəl insana oxşayırsınız.

- Sizin xoşunuza gəldiyimə görə çox şadam! - Qasımlı dedi. - Xahiş edirəm, bir sualıma da cavab verin. Sizin fikrinizcə, Seymur ərinizi nəyə görə öldürüb?

Alisa bu cavabı sanki çoxdan hazırlamışdı:

- Əlbəttə, ərimi gözü götürmürdü, ona görə! Pavelin firması bütün respublikada birinci olub həmişə. Seymur isə nə qədər çalışsa da onu vurub keçə bilmirdi. Paxıllıq edirdi həmişə. Görürdü ki, Pavel hər şeydə birincidir. Görürdü ki, şəhər əhalisi

də bunu sevir. Bəlkə eşidərsiniz, indi şəhərin cavanları Pavelin ölümü ilə barışa bilmir. Gözlərinə döndüyüm bir qrup dəlisov cavanlar azəriləri harada görsələr tutub döyürlər.

- Mən istəyirəm ki, sizin firmanın işləri ilə tanış olum. - Qasımlı söhbəti dəyişdi. - Sadəcə, üzdən. Bilmək istəyirəm görüm, doğrudanmı mərhum Pavel Matveyeviçin firması Seymur üçün güclü rəqib imiş.

- Buyurun, tanış olun! - Alisa dərhal razılaşdı. - Özünüz hər şeyi gözünüzlə görəcəksiniz.

- Kim tanış edə bilər məni bu işlərlə? Ərinizin ən etibarlı adamı kim idi?

- Ərimin ən yaxın adamı Kostya olub. Bir də Radik. O yazığı da vəhşi azərilər öldürdülər.

- Kostya kimdir?

- Konstantin Surkov. Onu hamı yaxşı tanıyır şəhərdə. Bu saat zəng vuraram, özünüz danışıb görüşərsiniz.

Cib telefonunu çıxarıb zəng vurdu:

- Salam, Kostya! Bir dəqiqə mənim əziz qonağımla



ekitab.ucoz.org

danış. Qanbay...

- Fərhadoviç. - Qasımlı qadının unutduğunu görüb ona kömək etdi.

- Hə, Qanbay Fərhadoviçlə. Cənab polkovnik Pavelin gördüyü işlərlə tanış olmaq istəyir.

Telefonu Qasımlıya verdi.

-Alo!

-Azərbaycandan gələn polis polkovniki sizsiniz? - telefonda xırıltılı bir səs eşidildi.

- Bəli, mənəm. - Qasımlı sakitcə dilləndi. - Sizinlə nə vaxt görüşə bilərik? İstəyirəm, mənə Pavel Matveyeviçin obyektlərini göstərəsiniz.

- Böyük məmnuniyyətlə! - Konstantin dedi. - Sabah günorta saat 2-də sizi qaldığınız evin qarşısından götürərəm.

- Siz mənim harada qaldığımı bilirsiniz?

-Bəli.

- Yaxşı, danışdıq!

Qasımlı telefonu qapadıb ev sahibəsinə qaytardı.

- Çox sağ olun, Alisa Alekseyevna!

- Dəyməz!

Bu zaman Qasımlının öz cib telefonu zəng çaldı. Zəng vuran müstəntiq Fomin idi. Telefonu açıb:

- Eşidirəm, Fyodor Simonoviç! - dedi.

Fomin ucadan və sevincək danışırdı:

- Qanbay Fərhadoviç, sizin şübhənizə görə bu zəng məsələsini bir də yoxlatdırdım. Bu dəfə yoxlamaya Seymurun adını yox, hazırda işlətdiyi telefon nömrəsini verdim. Təsəvvür edirsinizmi, nə olub? Sən demə, Seymur bir neçə ay bundan əvvəl öz nömrəsini arvadına verib, onun nömrəsini alıbmış. Sən demə, düz deyirmiş Seymur. Həmin



ekitab.ucoz.org

vaxt onun nömrəsinə doğrudan da zəng gəlibmiş. Taksofondan zəng ediblərmiş ona.

- Görürəm, çox operativ işləyirsiniz, Fyodor Simonoviç! - Qasımlı yüngül kinayə ilə dedi. - Məlumat üçün sağ olun!

Telefonu qapayıb cibinə qoydu və ayağa qalxıb ev sahibəsinə baxdı:

- Siz arxayın olun, Alisa Alekseyevna. Ərinizin də, onun şoferi Radik Boskanyanın da qatili
tapılacaq. Mən hər cinayət işinə baş qoşmuram. Amma əgər işə başlamışamsa, onu axıra çatdırmamış geri çəkilməyəcəm.

- Deməli, gedirsiniz! - Alisa da ayağa qalxdı. - Amma çox istərdim ki, siz mənimlə axşam yeməyinə qalasınız. Əgər imkanınız varsa.

- Başqa vaxt! - Qasımlı bunu deyib qapıya getdi. - İndi iş çoxdur.

- Sizə uğurlar! - ev sahibəsi onu pilləkənin başına qədər ötürdü. - Amma siz o Fominə çox da inanmayın. Qoy onunla Bakıdan gələn xəfiyyə çalışsın. - Əlini əlinə vurdu. - Ax! Kaş o xəfiyyə haradasa bizim bu dəlisov cavanlara rast gələydi. Lap əla olardı!

Qasımlı istehza ilə gülümsədi:

- Sağ olun, Alisa Alekseyevna! Sizinlə tanışlığa çox şadam. Amma heç yaxşı olmadı. İmkan vermədiniz ki, görüşümüzün əvvəlində özümü təqdim edim. İcazə verin, gec də olsa deyim ki, Bakıdan gələn xəfiyyə mənəm!

- Necə?! - qadının gözləri bərəldi. - Mən isə sizi Rusiya yəhudilərinə bənzətmişdim. Axı mənə dedilər ki, polkovnik...


ekitab.ucoz.org

- Eybi yoxdur, gec də olsa, tanış olduq. Polkovnik Qasımlı.

O bunu deyib, bir daha gülümsədi və pilləkənlə düşməyə başladı. Pavel Serafimovun dul qalmış arvadı onun arxasınca heyrətlə baxırdı.

## On yeddinci fəsil

Ertəsi gün polkovnik Qasımlı yenə də yatağından gec qalxdı. Natiq artıq qalxıb, səhər yeməyini yeyib işə getmişdi. İkinci gecə idi ki, Qasımlı bu mənzildə gecələyirdi və Natiqlə eyni otaqda yatırdılar.

Bu gün, onsuz da, günortaya qədər görüləsi bir işi yox idi. Günortadan sonra isə Konstantin Surkovla olacaqdı. Qasımlı, nədənsə, hələlik yalnız səsini eşidib, üzünü görmədiyi bu adamla görüşdən çox şey gözləyirdi. Odur ki, bu görüşə qədər heç bir iş görməyib, dincəlməyə qərar vermişdi.

Elnarə ilə razılaşmışdılar ki, səhər yeməyindən sonra gəzintiyə çıxsınlar. Qadın ona Altayın bəzi görməli yerlərini göstərmək istəyirdi. Ərinin xilası
üçün bütün ümidlərini Bakıdan gələn xəfiyyəyə bağlamış Elnarə artıq polkovnik Qasımlıya inanırdı. İnanırdı ki, bu qeyri-adi insan nə yolla olursa olsun, əsl həqiqəti üzə çıxarıb, ərini qorxunc şübhənin caynağından xilas edəcək. Belə bir sözü, danışmağı qətiyyən sevməyən xəfiyyənin ağzından bu gecə qopara bilmişdi, artıq. Qasımlı söz vermişdi ki, Bakıya qayıdana qədər onun ərini prokurorluğun təcridxanasından çıxaracaq.

Bunu eşidən Elnarə sevindiyindən gecə əməlli- başlı yata bilməmişdi. Səhər açılan kimi də yerindən qalxıb əvvəlcə Natiqi yola salmış, sonra isə sevimli qonağı üçün cürbəcür


ekitab.ucoz.org

şirniyyatlar bişirməyə başlamışdı. Onun peçenyeni daha çox sevdiyini zənn edən qadın yenə xeyli peçenye bişirmişdi. Üzərində böyük ümid və fərəhlə çalışdığı tort isə alınmadı. Heç cür anlaya bilmədiyi səbəbdən tort üçün hazırladığı krem əcaib hala düşdü və onu böyük təəssüf hissi ilə tullamalı oldu.

Qasımlı isə, nədənsə, bir qədər narahat idi. O, artıq qəti şəkildə anlayırdı ki, Serafimovun zəhərlənməsi prokurorun, müstəntiq İvanovun, ya elə Fyodor Fominin düşündükləri kimi baş verməyib. Anlayırdı ki, həmin uğursuz saatda Seymur Muradovun mənzilində tamamilə başqa məna daşıyan gizli plan həyata keçirilib. Ancaq təcrübəli xəfiyyənin qarşısında hələ də anlaya bilmədiyi məsələlər dururdu. Bu qaranlıq məsələlərin işıqlandırılması üçün daha dərindən düşünməyə, təhqiqatı daha incəliklə aparmağa ciddi ehtiyac var idi.

Yüngül səhər gimnastikasından sonra vanna otağına girib əl-üzünü yudu. Qonağının yataqdan qalxdığını bilən Elnarə süfrəni hazırlayıb onu gözləyirdi. Tamerlan isə artıq süfrənin arxasında oturmuşdu.

- Sabahınız xeyir! - Elnarə qonağını birinci salamladı və bu sözləri Tamerlan da təkrar etdi.

- Sabahınız xeyir! - Qasımlı gülümsəyib uşağın saçlarına əl çəkdi.

- Necə yatdınız, Qanbay müəllim? - ev sahibəsi gülərüzlə soruşdu.

- Yaxşı, - polkovnik ona cavab verib süfrənin arxasına keçdi.

Yemək vaxtı qonağın onun bişirdiyi şirniyyatlara əl uzatmadığını görən Elnarə bir piroq götürüb onun qarşısına



ekitab.ucoz.org

qoydu:

- Heç olmazsa, bunun dadına baxın, Qanbay müəllim!

Qasımlı onun könlünü qırmamaq üçün piroqu götürüb yedi. Pis alınmamışdı. Bəlkə də ona görə ki, istiqanlı ev sahibəsi bu piroqu hazırlayarkən öz səmimiyyətindən, sevincindən, fərəhindən də nəsə qatmışdı ona. Tərifləməyi lazım bilib:

- Çox dadlıdır! - dedi.

Elnarə sevindiyindən bilmədi ki, nə desin...

Ayağa qalxanda gözü qonağının köynəyindəki xırda qırışlara sataşdı.

- Köynəyinizi çıxarın, ütüləyim!

Qasımlı yatdığı otağa keçib çantasından təzə bir köynək çıxartdı və onu ev sahibəsinə verib dedi:

- Zəhmət olmazsa, bunu ütüləyin. Təzədir, amma çantada qırışıb.

- Onda əyninizdəkini də çıxarıb qoyarsınız, qayıdandan sonra yuyaram.

Elnarə bunu deyib Qasımiıdan aldığı köynəyi ütüləmək üçün o biri otağa keçdi. Bir azdan ütülədiyi köynəyi gətirib qonağa verdi və oğluna:

- Tomik, gəl gedək, səni geyindirim, - dedi.
- Hara gedirik? - uşaq sevincək dilləndi.
- Gəzməyə gedəcəyik.

Qasımlı vanna otağında üzünü qırxıb özünün yatdığı otağa keçdi. Köynəyini dəyişdi. Açıq mavi rəngli bu köynək əynindəki tünd boz rəngli kostyumla yaxşı tuturdu. Qalstukunu vurmadı. Son vaxtlar qalstuk taxmağı o qədər də sevmirdi. Köynəyinin yuxarıda, sonuncu düyməsini açıq saxlayır və belədə özünü daha rahat hiss edirdi.



ekitab.ucoz.org

Əvvəlki otağa qayıdanda paltarlarını dəyişmiş ana ilə oğulu burada gördü. Elnarə evdə geydiyi və onu daha çox uşağa bənzədən paltarını çıxarıb, əyninə ağ rəngli şalvar, bir də şalvarın üstünə sallanan açıq qırmızı rəngli köynək geyinmişdi. Saçlarını səliqə ilə darayıb, ona xüsusi forma vermişdi. Sağa-sola burulub əyninə təzəcə geydiyi paltara bir qədər inamsız nəzərlərlə göz yetirirdi. Qonağın içəri girdiyini görüb:

- Bu paltarı birinci dəfədir geyinirəm. Sizcə necədir? - deyə soruşdu.

Qasımlı birdən-birə tutuldu. Ev sahibəsinin özünü onunla məhrəm aparmasına artıq bir qədər alışsa da, ondan belə sual gözləmirdi. Nə deyəcəyini bilmədi. Ancaq Elnarə ondan cavab gözləyirdi. Onun gözləri başqa heç bir pis fikir, heç bir pis məna ifadə
etmirdi. Bu gözlərdə yalnız bir qədər narahatlıq oxunurdu. Elnarə narahat idi ki, görəsən, Qanbay müəllim bu paltarı bəyənəcək, yoxsa yox.

Ötəri də olsa, diqqət yetirməyə məcbur oldu. Paltar ümumilikdə qadını çox gözəl göstərirdi. Buna heç bir söz ola bilməzdi. Elnarə yerində fırlananda Qasımlı gördü ki, şalvar onun əyninə çox kipdir və xüsusilə də qalın əzələli budlarının yuxarı hissəsini çox sıxır. Köynəyin üstdən sallanmasına baxmayaraq, buradakı əzalar qabarıq nəzərə çarpırdı. Amma Qasımlı ürəyindən keçirdiyi bu kiçik iradı qadının özünə deyə bilməzdi. Odur ki, quru tərzdə:

- Yaxşıdır... - deyib özünü məşğul göstərmək üçün siqaretini axtarmağa başladı.

Elnarə isə danışırdı:

- Burada yaxşı paltar tapmaq çətin işdir. Seçim çox


ekitab.ucoz.org

azdır. Bunu da Novosibirskdən almışdım.

Bu paltar söhbəti Qasımlının ürəyindən deyildi.

- Gedəkmi? - deyə soruşdu.
- Hə, gedək!

Mənzilin qapısını bağlayıb aşağı düşdülər. Blokun qarşısında Elnarə gizli bir qorxu hissi ilə ətrafa boylandı. Şəhərdəki azərilərə qarşı edilən təxribatlar onu çox qorxutmuşdu. Qəfil hücuma tuş gəlmələrindən ehtiyat edirdi.

Həyətdə saxladığı «BMW» markalı maşının qapısını açıb Qasımlını içəri dəvət etdi. Polkovnik keçib Tamerlanla arxada əyləşdi. Elnarə maşını işə salıb həyətdən çıxartdı.

- Hara gedəcəyik? - Qasımlı soruşdu.

- Aya kəndinə. - Elnarə cavab verdi. - Orada şamaxılıların yaxşı bir istirahət zonası var. Gözəl yerdir. Həm də bir az əmin-amanlıq olar, yəqin ki, orada. Əmirxangil də orada dincəlirlər.

Maşın şəhərdən çıxıb düz asfalt yolla Aya kəndinə tərəf şütüməyə başladı. Yol boyu hər iki tərəfdə göz oxşayan mənzərələr bir-birini əvəz edirdi. Tamerlan ayaq üstə durub maraqla ətrafına boylanırdı. Qasımlı isə gördüklərinə diqqət yetirsə də, daha çox Konstantin Surkovla saat 2-də olacaq görüş barədə düşünürdü.

Kəndə çatmağa bir neçə kilometr qalmış Elnarə yolun solunda görünən tənha bir evi Qasımlıya göstərdi. Çılpaq qayalığın ayağında tikilmiş kiçik evin həyətini hündür otlar və kol-kos bürümüşdü. Elnarə izahat verməyə başladı:

- Bu ev bizimdir. Seymur bunu almağına tez də peşman oldu. İndi satmaq istəyirik, amma yaxın duran yoxdur.

- Niyə? - Qasımlı maraqlandı.


ekitab.ucoz.org

- O gördüyünüz qayalıqda da, evin həyətində də çoxlu zəhərli ilan olur. Biz bunu evi alandan sonra bildik. Amma daha gec idi. Heç bir gün də qalmamışıq bu evdə. Adını da elə «İlanlı ev» qoymuşuq.

- Burada ilan çox olur? Yəni Altayda.

- Yox, - Elnarə cavab verdi. - Amma bu həyətdə, Seymurun deməsinə görə, doğrudan da çoxdur.

Maşın Aya kəndinə girəndən sonra, kəndi arxada qoyub sola döndü və bir azdan meşəliyin içində, çay daşından tikilmiş, qədim Azərbaycan
qalalarını xatırladan əzəmətli tikilinin yanında dayandı. Maşından enən Elnarə tikilini göstərib:

- Bu qala-restoran bütün Altayda çay daşından tikilmiş yeganə böyük tikilidir. Şamaxıdan gəlmiş bir usta tikib bunu.

Qalaçaya baxan Qasımlı:

- Çox gözəldir! - dedi və qala-restoranın yanındakı süni gölə tərəf addımladılar.

Gölün ətrafındakı böyük meydançada üstünə ağ süfrələr sərilmiş masalar düzülmüşdü. Amma hələ ki, burada çox az adam gözə dəyirdi. Masalardan birinin arxasında əyləşdilər.

Bu zaman masaların arasından on iki-on üç yaşlı bir oğlanla, ondan beş-altı yaş kiçik bir qız keçirdi. Hər ikisi çox gözəl uşaqlar idilər. Elnarənin gözü onlara sataşan kimi oğlanı səslədi:

- Elvin!

Uşaqlar dayanıb baxdılar. Elnarəni tanıyanda hər ikisi gülümsədi və masaya yaxınlaşdılar. Elnarə qalxıb onları qucaqladı.

- Qurban olaram sizə! Necəsiniz?



ekitab.ucoz.org

- Yaxşı, - o saat hiss olundu ki, oğlan azəricə yaxşı danışa bilmir.

Elnarə isə sualları yağdırırdı:

- Atan necədir?
- Yaxşı.
- Bəs Əminə, balaca qardaşın?
- Yaxşı.
- Əmilərin necədir?
- Yaxşı...

Oğlanın iri qara gözləri onu çox yaraşıqlı göstərirdi. Qasımlının gözü qıza sataşanda isə gü-

Kimsəməyini heç cür saxlaya bilmədi. Qız da həddindən artıq qəşəng bir qız idi. Amma Qasımlıya elə kinli nəzərlərlə baxırdı ki, baxışları canavar balasının baxışlarına bənzəyirdi.

- Bu da bütün Altayın ən gözəl şeytanı Alvina! - deyə Elnarə qızı Qasımlıya təqdim etdi.

Qasımlı mehribanlıqla başını tərpətdi. Uşaqları buraxıb yerinə qayıdan qadının üzündən sevinci hələ də əskilməmişdi.

- Buranın sahibi azəridir, - dedi. - Şamaxıdan. Bunlar da onun uşaqlarıdırlar. Anaları rusdur. Çox gözəl xasiyyəti var.

Sonra dönüb bayaqdan onlara göz qoyan yeniyetmə rus oğlanı yaxına çağırdı. Onun sifarişi ilə süfrəyə hündür stəkanlarda içinə çubuq salınmış albalı şirəsi gətirdilər. Tamerlan dərhal qalxıb stulda

dizləri üstə oturdu və çubuğu ağzına alıb şirəni acgözlüklə sümürməyə başladı.

- Yavaş, Tomik, sənin əlindən alan yoxdur onu! - anası uşağı məzəmmət etdi.



ekitab.ucoz.org

Tamerlan əl saxlayıb əvvəl anasına, sonra isə Qasımlıya baxdı. Ancaq bu bircə an çəkdi və yenə çubuğu ağzına salıb stəkanı tamamilə qurutdu. Qasımlı bunu görüb öz stəkanını onun qabağına sürüşdürdü.

- Lazım deyil, verməyin! - Elnarə etiraz etdi. - Onsuz da gözü doyan deyil.

- Qoy içsin, mən qəhvə içəcəm. - Qasımlı bunu deyib əli ilə ofisianta işarə etdi.

Sifarişi alan oğlan cəld qaçıb getdi və az keçmiş qayıdıb dolu fincanı masanın üstünə qoydu.

Bu zaman otuz yaşlarında biri masaya yaxınlaşıb azəri türkcəsində salam verdi. Onu görən Elnarənin yenidən üzü güldü:

- Salam, Ədalət! Üzünü görək! Buyur, bizimlə əyləş!

Ədalət stulun birini çəkib əyləşdi.

- Qonağımızı hələ görməmisən ki? - Elnarə əlini Qasımlıya uzatdı. - Tanış ol, Qanbay müəllim xəfiyyədir. Həm də çox gözəl insandır. - dedi.

Sonra isə:

- Qanbay müəllim, Ədalət bizdə azəri cəmiyyətinin sədridir. Necə deyərlər, bizim ağsaqqalımızdır.

- Çox şadam! - Qasımlı yeni tanışının əlini sıxdı.

Ədalət də bu tanışlığa çox sevinmişdi, deyəsən.

- Buradakı vəziyyət barədə Xarici İşlər Nazirliyinə mən xəbər vermişdim. - dedi. - Sizi qarşılamağa özüm gələcəkdim Novosibirskə. Amma Elnarə bacı qoymadı. Dedi ki, özümüz qarşılayacağıq. İnanın ki, çox sevinirəm sizin gəlişinizə. Amma bu bir neçə gündə imkan tapa bilməmişəm gəlib sizi görməyə... Yeni nə var Seymurun işi barədə?



ekitab.ucoz.org

- Hələ ki, elə bir şey yoxdur, - polkovnik başını yellədi.
- Advokatı ilə görüşmüsünüzmü? Adarovla.
- Xeyr!

Ədalət yana-yana danışırdı:

- Qətiyyən baş aça bilmirəm bu işdən. Özlüyümdə inanıram ki, Seymur heç zaman belə iş tutmaz. Necə ola bilər axı bu? Göz görə-görə evinin içində zəhərləsin birini, həm də ümid eləsin ki, ondan bilməyəcəklər bu işi. Seymur kimi ağlı başında olan savadlı bir adam belə hərəkətə necə yol verə bilər?!

- Siz burada çoxdan yaşayırsınız? - Qasımlı soruşdu.
- Bəli. On ildən çoxdur.
- Serafimovu necə tanıyırdınız?

Ədalət bir neçə an düşünəndən sonra cavab verdi:

- Serafimov bu ətrafda ən varlı adam idi. Əsas işi də tikinti hesab olunurdu. Ancaq mənim fikrimi soruşursunuzsa, o, müəmmalı adam idi. Yaşayışı, cah-calalı öz səviyyəsindən yüksək nəzərə çarpırdı. Bəzi işləri isə mənə lap şübhəli görünürdü. Məsələn, onun ən yaxın adamı hesab olunan Kostya adlı biri var. Konstantin Surkov. Vaxtilə həbsdə olub. İndi də, az qala, özünü şəhərin ağası kimi aparır. Həm də hiss eləmişəm ki, çoxları qorxur ondan.

- Neyləyir ki o?
- Əslində, bir şey eləmir. Amma elə şübhəli görünən də budur. Guya Serafimovun işlərinə nəzarət edirdi. Ancaq onun tikintidən heç başı çıxmır. Firmanın işini Serafimov özü aparırdı. Belə çıxır ki, bunu ancaq qoçu kimi saxlayırdı.
- Bəs Radiki tanıyırdınızmı? Serafimovun şoferini.
- O da çoxdan Serafimovun yanında idi. Amma elə də



ekitab.ucoz.org

əhəmiyyətli fiqur deyildi.

- Burada narkomaniya çox yayılıb? - Qasımlı birdən söhbəti dəyişdi.

- Bəli... - Ədalət köksünü ötürdü. - Son vaxtlar çoxalıb. Ən pisi odur ki, bizim uşaqların da bəziləri başlayıb bu zəhrimardan istifadə etməyə.

- Sizcə, bunun satışının başında kim durur?

- Bilmirəm...

Meydançanın kənarında «Pajero» markalı iki avtomobil dayandı. Əmirxan və yoldaşları maşınlardan düşüb boş masaların birinə tərəf gəldilər. Əmirxan Elnarəni görmüşdü. Onların masasına yaxınlaşdı. Hamını rus dilində salamlayıb, Qasımlıya üz tutdu:

- İşlər necə gedir, cənab polkovnik?

Qasımlı başı ilə razılığını bildirib, davranışı və siması özünə qarşı hörmət oyadan bu oğlanı diqqətlə süzdü.

- Seymuru oradan çıxarmağa ümid varmı? - Əmirxan soruşdu.

- Hər şey təhqiqatın nəticəsindən asılı olacaq, - polkovnik qeyri-müəyyən cavab verdi. - Amma ümidsiz olmaq da lazım deyil.

Əmirxan başını tərpətdi:

- Hamımızın ümidi sizədir! Mənim hər hansı köməyimə ehtiyacınız olsa, qulluğunuzda hazıram. Xahiş edirəm, telefonumu yazın.

Qasımlı onun dediyi nömrəni cib telefonuna qeyd etdi. Əmirxan onları narahat etdiyi üçün üzr istəyib yoldaşlarının yanına qayıtdı.

- Siz Əmirxanla tanışsınız? - Ədalət təəccüblə Qasımlıdan soruşdu.



ekitab.ucoz.org

- Bura gələndə Novosibirskdə tanış olmuşuq.

- Çox igid oğlandır. Tatar balasıdır. Üzdən baxanda, deyərsən yazığın biridir, amma aslan ürəyi var bunda.

Ədalət yemək sifariş verdi. Yemək vaxtı o, Altayın qədim türk torpağı olmağından, burada ruslarla birgə yaşayan altay türklərinin həyat tərzindən söhbət etdi.

Saat ikinin yarısında Ədalətdən ayrılıb şəhərə qayıtmaq üçün maşına əyləşdilər. Qasımlı Elnarəgilin evinin qarşısında Konstantin Surkovla görüşməli idi.

# On səkkizinci fəsil

Saat iki tamam oldu. Qara rəngli «Leksus»da, cavan sürücünün yanında oturmuş gödək boylu, dolu bədənli kişi qapını açıb yerə endi. Əyninə cins parçadan şalvar, həmin parçadan gödəkcə geyinmişdi. Kürən saçları çox qısa vurulmuş, üzü təmiz qırxılmışdı. Sol qaşını iki hissəyə ayırmış kiçik çapıq aydın nəzərə çarpırdı. Bu adam şəhərdə hamının «Kostya» adlandırdığı Konstantin Surkov idi.

O, Bakıdan gələn xəfiyyənin evdə olmadığını bilirdi. Bilirdi ki, saat on bir radələrində Seymurun arvadı ilə evdən çıxıb Aya kəndi istiqamətində
gediblər. Odur ki, polkovnik Qasımlının blokun qapısından yox, küçə tərəfdən gələcəyini gözləyirdi.

- Nikolay!

Bir az aralıdakı qəhvəyi rəngli «Mersedes»də oturmuş iki gənc kişidən birini səslədi. Uzun qara saçları kürəyinə tökülmüş, üzü tüklü gənc maşından çıxıb cəld addımlarla onun yanına gəldi. Bu hündürboylu oğlanın otuza yaxın yaşı olardı.

- Petyaya zəng vur, qoy elə indidən getsin oraya! Gedəndə qızları da özüylə aparsın.



ekitab.ucoz.org

- Bu saat zəng vuraram.

Nikolay telefonunu çıxarıb deyilən adama zəng vurdu və Kostyanın göstərişini ona çatdırdı. Sonra telefonu yenidən cibinə qoyub:

- Bunlar niyə gəlib çıxmadılar... - deyə gileyləndi.

- Gələrlər. - Kostya saatına baxdı. - İki dəqiqə keçib deyilən vaxtdan.

- Necə fikirləşirsən, bu adam işin üstünü aça bilər, səncə? - Nikolay soruşdu.

Kostya sağ əlini qaldırıb orta barmağındakı iri, kobud qaşlı üzüyünə baxdı. Sanki sualın cavabı bu qara daşda yazılmışdı.

- Məncə, tapar! - dedi. - Moskvada ağır cinayətlər bölməsində işləyib uzun müddət. Deyirlər, rədd olub Bakıya gedəndə çoxları şadlıq məclisi qurublar.

- Niyə? - Nikolay bir şey anlamadı.

- Canları dincəlib, ona görə. Qurdun biri imiş. Yoxsa elə bilirsən onu Azərbaycandan təsadüfən seçib göndəriblər buraya?!

- İşin üstünü aça bilsə, biz batdıq!

Kostya ona acıqlı nəzərlərlə baxıb:

- Bayquş kimi ulama! - dedi və tez də səsini alçaltdı. - Amma əslində, mən çox istəyərəm ki, bu hiyləgər əclaf işin üstünü açsın. Açsın, amma təkcə bizə danışsın orada nə baş verdiyini. Yoxsa fikirləşməkdən az qalıram, dəli olum! Nə baş verib o xarabada? Kim töküb zəhəri o stəkana?

- Əgər Radikə inansaq, əlbəttə ki, Seymur!

- Demək asandır! - Kostya səsini qaldırdı. - Amma gəl mənə başa sal görüm, Seymur necə eləyib bunu? Hə?!

- Yəqin, duyuq düşüb və ...



ekitab.ucoz.org

- Boş-boş danışma, Nikolay! Ya it oğlu bizi, doğrudan da, barmağına sarıyıb, ya da... Lənət şeytana! Onun dediyi doğru idisə, onda mən həqiqətən dəli olacam!

- Sakit ol, Kostya, sakit ol görək nə olur. Çox qəribə vəziyyətə düşmüşük. Həm istəyirik sirr açılsın, həm istəyirik açılmasın.

- Lənət şeytana! - Kostya bunu dedi və sonra bir qədər sakitləşdi. - Bura bax, sən o dəlilərə arxayınsan? İnanıblar sənə?

- Əlbəttə! - Nikolay kinayə ilə gülümsədi. - Əsas başçıları ilə danışmışam. Sabah, günortadan sonra, düz saat dörddə Seymurun evinə basqın edəcəklər.

- Hamısı?

- Hə, avtobuslarla gələcəklər. Dedim axı, sənə...

- Özün də içlərində olarsan. Amma çalış ki, ilişmə!

- Arxayın ol!

- O gədə aldatmaz ki səni?

- Yox. Söz verib. Bilir ki, aldatsa, dilini boğazından çıxardaram. Sən əsas bugünkü işdən danış. İnanırsan ki, bu hiyləgər qurd bizimlə gedəcək?

Kostya fikirli halda başını tərpətdi:

- Lənət şeytana! Mən də elə ondan qorxuram. Amma çalışacam ki, getsin. Bəs Yelenaya niyə dedim ki, hazırlaşıb məni gözləsin. Ona arxayınam. Bu azərbaycanlıların çoxu arvadbaz olur.

Gümüşü rəngli «BMW» gəlib blokun qapısının lap yaxınlığında dayandı. Maşındakılar yerə endilər. Bunu görən Kostya cəld Nikolaydan ayrılıb onlara yaxınlaşdı və Bakıdan gələn xəfiyyəni gülərüzlə salamladı:

- Bizim şəhərimizə xoş gəlmisiniz, cənab polkovnik.



ekitab.ucoz.org

Mən Konstantin Surkovam. Mərhum Pavel Matveyeviçin köməkçisi. Mənə, sadəcə, Kostya da deyə bilərsiniz.

Qasımlı bu kürən adamı diqqətlə süzdü. Kostyanın boynundan asdığı, qızıldan olan qalın zəncir tüklü sinəsində aydın görünürdü. Sol əlinin üstündə qartal rəsmi döyülmüşdü. Qaşını iki yerə bölən çapıq qırmızımtıl sifətində yeganə ağaran yer idi.

Məmnun görkəm alıb:

- Çox şadam! - dedi.

Kostya iki addım kənarda dayanıb qorxu və həyəcanla onlara baxan Elnarəyə ani bir nəzər yetirib polkovnikə:

- Bizimlə gəzməyə çıxacaqsınızmı? - deyə sual verdi.

- Hə, bir dəqiqə gözləyin, paltarımı dəyişib gəlirəm.

Qasımlı bunu deyib oğlunun əlindən tutmuş Elnarə ilə mənzilə qalxdı. Pencəyini çıxarıb idman stilində olan gödəkcəsini geyindi. Ona təlaş hissi ilə baxan ev sahibəsi:

- Bu adamlardan özünüzü gözləyin, Qanbay müəllim! - dedi. - Necə olmasa, o hadisələrə görə bizi düşmən hesab edirlər.

- Mənə görə narahat olmayın!

Qasımlı gülümsəyib Tamerlanın başını sığalladı. Sonra isə Elnarəyə baxıb başının hərəkəti ilə sağollaşdı. Mənzildən çıxıb sakit və təmkinli addımlarla aşağı endi.

Kostya onu öz maşınına dəvət etdi. Maşınlar hərəkətə gəlib yola düşən kimi polkovnik:

- Əvvəlcə sizin obyektlərə baxmaq istəyirəm, - dedi.

Kostya razılaşıb sürücüyə sarı döndü:

- Prospektlə sür!

Sonra arxaya qanrıldı:

- Seymurun arvadı ilə gəzintiyə çıxmışdınız?



ekitab.ucoz.org

- Hə! - Qasımlı təsdiq etdi.
- Yaxşı istirahət edə bildiniz?

Sualın səslənməsində xoşagəlməz bir çalar var idi və bunun yeni tanışın ürəyindən olmadığını duyan Kostya cəld əlavə etdi:

- Yəni bir narahatçılıq baş vermədi ki?
- Nə barədə?

- Azəriləri harada görürlərsə, üzərilərinə hücum edirlər. Lənət şeytana! Bu gün Çemal kəndində sizin bir həmyerlinizin evini yandırıblar. Amma özü evdə olmayıb. Əvvəldən qaçıb gizlənibmiş.

- Yox, bizə beləbəri rast gəlmədi. - Qasımlı sakitcə dilləndi.

- Allaha şükür!

Polkovnik bir siqaret yandırıb qapının şüşəsini endirdi.

- Sizcə, bu adamların havadarları kimlərdir?

- Məncə, heç kim! - Kostya dedi. - Başıpozuq cavanlardır. Çoxu da erməni. Radik Boskanyanın intiqamını almaq istəyirlər. Bilirəm, çoxları, bəlkə elə siz də düşünürsünüz ki, onları biz öyrədib qabağa vermişik. Amma biz elə də ağılsız deyilik. Bilirik ki, bu işdə hamı bizdən şübhələnəcək. Lənət şeytana!
Əslində, bu mənim heç xoşuma gəlmir. Bizim firmada da azərilər işləyir. Bizə lazım deyil belə çaxnaşma. Bizə lazımdır ki, Pavel Matveyeviçi zəhərləyən adam dəqiqləşsin və öz cəzasını çəksin.

Maşın dayandı. Kostya arxaya çevrilib yanında dayandıqları binanı göstərdi.

- Cənab polkovnik, bura firmanın tikinti materialları anbarıdır. Baxmaq istəyirsiniz?


ekitab.ucoz.org

Qasımlının başında və içərilərində yenə, nədənsə, xoşagəlməz narahatlıqlar baş qaldırırdı. Çəkib qurtardığı siqaret kötüyünü maşının pəncərəsindən çölə atıb, başını buladı:

- Yox! Baxmağa ehtiyac yoxdur. Daha yaxşı olar ki, bir yerdə əyləşib söhbət edək.

Bu, deyəsən, Kostyanın da ürəyindən oldu:

- Mən də elə düşünürəm ki, bunlara ehtiyac yoxdur, cənab polkovnik! Bunlar boş söhbətlərdir ki, Seymur Pavel Matveyeviçlə rəqib olduğu üçün onu zəhərləyib. Lənət şeytana! Mən buna heç cür inana bilmərəm. Seymur çox yaxşı oğlandır. Fyodor Simonoviç də maymağın biridir. Biz inanırıq ki, bizim yazıq Pavel Matveyeviçin əsl qatilini siz tapacaqsınız. Ona görə də siz Seymurun əziz qonağı olduğunuz kimi, bizim də əziz qonağımızsınız. Lənət şeytana! Mən çox danışdım, deyəsən! Bizim şəhərdən kənarda, meşədə kiçik bir istirahət yerimiz var. Sabaha kimi orada dincəlməyə necə baxırsınız? Həm də iş barədə rahat söhbət edərik.

- Pis olmaz! - polkovnik gözlənilmədən dilləndi. - Sabah yox, o biri gün işimi qurtarıb gedəcəm
buradan. Bir də, kim bilir, Rusiyaya nə vaxt yolum düşəcək.

- Lap yaxşı! - Kostya sevindi. - Biz sizə ürəyiniz istəyən kimi qulluq edərik.

Maşın doqquzmərtəbəli bir evin həyətinə daxil olub dayandı. Qasımlı binanı dərhal tanıdı. Bu, polis kapitanı Eduard Sokolovun yaşamış olduğu bina idi. Kostya kiməsə zəng vurub, onu aşağıda gözlədiyini dedi. Sonra isə Qasımlıya biclik ifadə edən qəribə baxışlarla baxıb gülümsədi:



ekitab.ucoz.org

- Gözəl qızlarla aranız necədir, cənab polkovnik?

Polkovnik Qasımlı öz duyğularının əsiri olan adamlardan deyildi. Hisslərinə hakim olmağı yaxşı bacarırdı. Qadınlara qarşı isə həmişə soyuq və qaraqabaq olmuşdu. Hansısa bir qadınla mehriban
danışmışdısa bunu yalnız iş xatirinə, ya da, sadəcə olaraq, etika xatirinə etmişdi. O, kişinin qadın haqqında düşünməsini zəiflik, ürəyini açıb onunla bölüşməsini, ona tariflər söyləməsini məğlubiyyət hesab edirdi. Polkovnik Qasımlı, demək olar ki, indiyədək heç kəsə məğlub olmamışdı.

Amma indi xarakterinə zidd olaraq, Kostyaya başqa cür cavab verdi:

- Pis deyil!

- Siz azərilər qadından imtina etməzsiniz heç vaxt! - Kostya güldü.

Sarı saçları oğlansayağı qısa vurulmuş, əyninə gödək şalvar və qarnını açıqda saxlayan daha gödək kofta geyinmiş qız maşına tərəf gəldi. Onun ikinci blokdan çıxması xəfiyyənin nəzərindən yayınmadı.
Eduard Sokolovun yaşamış olduğu mənzil də bu blokda idi. Beşinci mərtəbədə...

O, qapını açıb arxada, Qasımlının yanında əyləşdi. Kostya onu dərhal təqdim etdi:

- Bu Yelenadır, cənab polkovnik, tanış olun!

Sonra isə Yelenaya baxdı:

- Əziz qonağımız Qanbay Fərhadoviçi sənə tapşırıram. Bu gün onu əyləndirmək sənin vəzifəndir.

Qız, ya daha dəqiq desək, gənc qadın Qasımlını müştəri gözü ilə süzüb, süni bir təbəssüm göstərdi. Qasımlı o saat



ekitab.ucoz.org

anladı ki, bu qadının iyirmi üç - iyirmi dörd yaşı olmasına baxmayaraq, üzü çox üzlər görüb.

Maşın həyətdən çıxıb şəhərin çıxışına doğru yol aldı. Qəhvəyi rəngli «Mersedes» də onların arxasınca gəlirdi. Kostya əlini uzadıb maqnitofonu
qoşdu. Ritmik bir rus mahnısının sədaları maşının salonuna yayıldı.

Yelena Qasımlıya tərəf baxmırdı. Arxaya söykənib maşının pəncərəsindən görünən mənzərələri seyr edirdi. Pudranın altında gizlədə bilmədiyi çilli üzü, qalın dodaqları var idi. Alt dodağı, sanki, bir qədər boşalıb sallanmışdı. Polkovnik ona tərəf əyilib mehriban ifadə ilə:

- Siz indicə çıxdığınız binada yaşayırsınız? - deyə soruşdu.

Yelena onu sınayıcı baxışlarla nəzərdən keçirib laqeydliklə cavab verdi:

- Hə!
- Neçənci mərtəbədə?
- Səkkizinci... Niyə soruşursunuz?

- Heç! Sadəcə, bilmək istəyirəm. - Qasımlı gülümsədi. - Tək yaşayırsınız?

- Tək yaşayıram. - qadın kinayə ilə güldü. - Yoxsa qonaq gəlmək istəyirsiniz?

- Olmaz?

Yelena istehzalı şəkildə dodağını büzdü:

- Tanış olduğumuz beş dəqiqə deyil!..

Sonra, daha heç nə danışmadılar. Yelena yenə
də maşının pəncərəsindən çölə baxmağa başladı. Birinci dəfə deyildi ki, Kostya onu başqaları ilə tanış edir, yad kişilərin yatağına salırdı. O, buna artıq öyrəşmişdi. Ancaq,



ekitab.ucoz.org

Kostyanın deməyinə görə, bu adam Azərbaycandan gəlmiş polis polkovniki idi. Qasımlının xarici görünüşü xoşuna gəlsə də, üstəlik, azərilərin qadınla münasibətdə daha qızğın olduğunu bilsə də bu adama qarşı onda heç bir
həvəs baş qaldırmırdı. Bu adam zəhmli polis polkovniki idi və heç də qadınlara maraq göstərən adama oxşamırdı.

Mayma qəsəbəsindən keçib meşəyə tərəf getdilər və bir azdan qalın meşəliyə girib asfaltın kənarında dayandılar. Sonra torpaq yolla azacıq gedib bir talaya çıxdılar. Talada ağ şam taxtasından düzəldilmiş iki evcik var idi. Bu ikimərtəbəli evciklərin qarşısında uzun, taxta masa quraşdırılmışdı. Masanın ətrafına uzun taxtalardan oturacaqlar bərkidilmişdi.

Burada milliyyətcə rus olan üç gənc qız və bir oğlan var idi. Qızlar yeni gələnlərə maraqla baxırdılar. Yelena onlarla görüşüb söhbət etməyə başladı.

Kostya onun qabağına yeriyən oğlandan:

- Hər şey hazırdır? - deyə soruşdu.

- Hə! - oğlan cavab verdi. - Bu saat manqalı yandırıb, kababı da çəkərik.

Qızlar soyuq yeməkləri və içkiləri cəld hərəkətlə masaya düzdülər. Kimsə maqnitofonu qoşub, ona gur səs verdi.

Kostya stəkanlara araq süzüb, elə ayaqüstü Qa- sımlının şərəfinə badə qaldırdı:

- Götürün, bunu içək Bakıdan gəlmiş qonağımızın sağlığına!

İçdilər. Hamı Qasımlıya maraqla baxırdı. O da bir neçə qurtum içib stəkanı masanın üstünə qoydu. Burada altı kişi, dörd qadın var idi. Qasımlı buna da diqqət verib fərqinə vardı ki, Kostya ilə onun şoferinə qadın çatmır...



ekitab.ucoz.org

Kişilər kabab bişirmək üçün hazırlığa başladılar. Qadınlar isə uzun masanın bir tərəfinə yığışıb salat düzəldir, nədənsə danışıb ucadan gülüşürdülər. Qasımlı ilə Konstantin Surkov süfrənin bu biri başında üz-üzə əyləşdilər.

- Mərhum Pavel Mixayloviç yay aylarında tez- tez gəlirdi buraya. - Kostya dedi. - Burada iyirmi hektardan çox meşə sahəsi ona məxsus idi.

Qasımlı özünü kədərlənmiş kimi göstərdi:

- Heyif! Sirli bir ölümün qurbanı oldu.

- Siz bu sirri aça biləcəyinizə inanırsınızım, cənab polkovnik?

- Əlbəttə! - Qasımlı inamla dedi. - Sirr varsa, deməli, açılmalıdır!

Kostya özü üçün pivə süzüb içdi və fikirli halda mızıldandı:

- Lənət şeytana! Mən də bir həftədən çoxdur bu sirri açmağa baş sındırıram. Amma heç nə alınmır. Heç nə başa düşə bilmirəm. Möcüzə kimi görünür bu hadisə mənə... Zəhər o stəkana necə tökülə bilərdi axı?!

- Burada sizə qeyri-adi görünən nədir? - Qasımlı təəccüblə soruşdu.

- Yəni... - Kostya bir anlıq duruxdu. - Yəni inana bilmirəm. Bu hadisənin nə Seymur, nə Sergey Novikov, nə də Fomin tərəfindən törədilməsinə inana bilmirəm. Deyilənə görə zoğal kompotu süfrəyə gələndən sonra yalnız bu üç nəfər girib otağa.

- Hər halda, hər şey aydın olacaq. - Qasımlı əli ilə üzünü ovuşdurdu.

- Sizin fikrinizcə, cənab polkovnik, - Kostya tərəddüdlə


ekitab.ucoz.org

dilləndi. - Burada məqsəd Pavel Mixay-
loviçi aradan götürmək olub, yoxsa... Yoxsa nəsə başqa bir məsələ var burada?

- Başqa nə ola bilər ki?
- Mən, ümumiyyətlə, soruşuram.

- Bəs sizin fikrinizcə? - Qasımlı cavab verməkdən yayındı.

- Mənim fikrimcə? - Kostya təəccübləndi. - Mən dedim axı, heç nə anlaya bilmirəm bu işdən. Lənət şeytana!

- Narahat olmayın, tezliklə hər şey aydınlaşacaq.

Qasımlı bunu dedi və gözlənilmədən söhbəti dəyişib başqa sual verdi:

- Siz polis kapitanı Eduard Sokolovu tanıyırdınız?
- Yox! - Kostya dedi və tez də səhvini düzəltdi.
- İçib özünü balkondan atanı deyirsiniz? Lənət şeytana! Tanış deyildim, amma, deyəsən, bir dəfə polis rəisinin evindəki qonaqlıqda görmüşdüm onu...
- birdən, nə düşündüsə, Qasımlıya tərəf əyildi. - Nəyə görə soruşdunuz?

- Heç! Birdən yadıma düşdü. Deyirlər, beşinci mərtəbədən yıxılmağına baxmayaraq, yazığın beyni dağılıbmış...

Qasımlı bunu deyib, gözucu qadınlara tərəf baxdı. Onlar, artıq, süfrəni hazırlayıb qurtarmaq üzrə idilər. Yelena da onlara kömək edirdi və Qasımlıya tərəf heç baxmırdı.

- Bir az gəzişmək istəyirəm. - deyib ayağa qalxdı.
- Buyurun... - Kostya fikirli halda dilləndi.

Polkovnik masadan aralanıb içindən hansısa bulağın suyu axan kiçik dərənin o biri tayına keçdi. Beş-on metr də getmişdi ki, qarşısına daha bir taxta evcik çıxdı. Bu da


ekitab.ucoz.org

ikimərtəbəli idi. İkinci mərtəbəyə taxtadan düzəlmiş dar pilləkən çıxırdı. Hər mərtəbə ancaq kiçik bir otaqdan ibarət idi ki, bu otaqların ortasında taxta çarpayı quraşdırılmış, üstünə yataq avadanlığı salınmışdı. Yaxın olmağına baxmayaraq, bu evciyin yanından baxanda kiçik dərənin o biri üzündəki evciklər və masa görünmürdü. Sıx bitmiş ağcaqayın və şam ağacları buna mane olurdu.

Telefonu zəng çaldı. Elnarə idi zəng vuran.

- Qanbay müəllim?
- Bəli. Eşidirəm sizi, Elnarə xanım.

- Siz indi haradasınız? - gənc qadının səsində incə bir təlaş duyulurdu.

- Mən meşədə qonaqlıqdayam.
- Yaxşısınızmı?

-Yaxşıyam, narahat olmayın.

- Elə zəng vurdum, görüm neyləyirsiniz...

Yaxşı. Sağ olun, sizi gözləyirik. Özünüzdən muğayat olun!

- Təşəkkür edirəm!

Qasımlı, nədənsə, birdən-birə özünü çox narahat hiss etdi. Bəlkə də lap çoxdan belə hisslər keçirməmişdi. Nə oldu ona birdən-birə? Niyə belə kövrəldi? Axı o hissiyyata qapılan, xatirələrə dalan adam deyildi?! Axı ancaq bu günü və sabahı ilə yaşayırdı o?! Necə oldu ki, birdən-birə uşaqlığı yadına düşdü, anası yadına düşdü?.. Anasının sualları yadına düşdü?..

- Harada idin?
- Kiminlə getmişdin?
- Kim idi söhbət elədiyin?
- Nə vaxt qayıdacaqsan?

Bütün iradəsini toplayıb beynindən qovdu bu xatirələri.



ekitab.ucoz.org

Yenidən bu gününə, bu anına döndü. Yenidən həyatda heç kəsi olmayan, təhqiqat apararkən heç nə barədə düşünmək belə istəməyən məşhur cinayət axtarış eksperti, polkovnik Qasımlı oldu...

Ətrafı bir qədər də dolanıb, yenidən geri qayıtdı. Artıq kabab da hazır olmuşdu və onu süfrə başına dəvət etdilər. Kostya ilə şoferini çıxmaqla, üç kişinin hərəsi bir qızın yanında oturmuşdu. Qasımlı üçün də Yelenanın yanında boş yer saxlamışdılar. O, keçib yerində əyləşən kimi stəkanlara araq süzüldü. Pavel Serafimovu xatırlayıb, onun ruhuna badə qaldırdılar.

Qasımlı arağı dodağına toxundurub, stəkanı masanın üstünə qoydu. Qalanlar isə içib üstündən meyvə şirəsi qəbul etdilər.

Məclis yavaş-yavaş qızışmağa başlayırdı. Fikirli halda oturmuş Qasımlı isə dinib-danışmırdı. Yalnız hərdən Yelenanın suallarına cavab verirdi. Bu suallar da adətən quru tərzdə verilmiş «Niyə içmirsiniz?», «Niyə yemirsiniz?» qəbilindən suallar olurdu. Dördüncü sağlıqdan sonra Qasımlı ilə Kostyadan başqa hamı qalxıb rəqs etməyə başladı.

Yelena qayıdıb yerində oturanda Qasımlı ona tərəf əyilib:

- Evlisiniz? - deyə soruşdu.

- Evli olmuşam, - Yelena cavab verdi. - Ərim ölüb.

- İndi, deməli, tək yaşayırsınız?

- Hə!

- Kostya dostunuzdur?

- Siz məni istintaq edirsiniz? - Yelena narazılıqla üzünü turşutdu və sonra qarşısındakı oğlana çığırdı. - Ey, yekəbaş, mənə araq süz!



ekitab.ucoz.org

Qasımlı daha heç bir söz deməyib bir siqaret yandırdı...

Axşamüstü Konstantin Surkovun telefonuna zəng gəldi. O, kiminləsə danışıb üzrxahlıqla qonağına baxdı:

- Mən çox təəssüf edirəm. Lənət şeytana! Vacib iş üçün getməliyəm. Axşam qayıtmasam, səhər tezdən sizin yanınızda olacam. Siz narahat olmayın, yaxşıca istirahət edin.

- Siz də mənə görə narahat olmayın! - Qasımlı laqeydliklə dilləndi.

O, Kostyanın buranı tez tərk edəcəyini əvvəldən duymuşdu. Amma özünü o yerə qoymadı.

Kostya öz şoferi ilə getdi. Nikolay ilə Yelena onları maşınların yanına qədər ötürüb, sonra geri qayıtdılar. Gəlib öz yerində oturan Yelena polkovnikə süni bir mehribanlıqla müraciət etdi:

- Siz nə üçün rəqs etmirsiniz?

Qasımlı özündən iyirmi yaş, bəlkə daha da çox kiçik olan bu gənc qadını diqqətli baxışlarla süzüb yalandan gülümsədi:

- Bacarmıram.
- Aaa! Nə danışırsınız? Heç inanmıram!

Yelena bunu dedi və sonra söhbəti birdən-birə
kəsib ayağa qalxdı. Petya adlı oğlanı dəvət edib onunla rəqs etməyə başladı.

Məclis hava qaralana qədər beləcə davam etdi. Qasımlının təxmini hesablamasına görə təkcə qızların hər biri yarım litrdən çox araq içmişdilər. Amma bir o qədər də sərxoş deyildi heç biri. Elə hey rəqs edir, arada fasilə verib içir, yenə rəqs edirdilər.

## On doqquzuncu fəsil



ekitab.ucoz.org

Gecə saat ikidə Nikolay Qasımlıya yaxınlaşdı. Uzun, qara saçlarını arxaya toplayıb bağlamışdı. Döyüş idmanıyla məşğul olan adamlara məxsus görkəmi var idi. Buradakı qızlardan fərqli olaraq, qətiyyən sərxoş deyildi. Polkovnikə tərəf əyilib:

- Görürəm, yorğunsunuz, - dedi. - Yatmaq istəyirsinizmi?

Qasımlı razılıqla başını tərpətdi.

- Siz, dərənin o tərəfindəki evcikdə yatacaqsınız. Yelena ilə.

- Yaxşı!

- Nəsə bir şey lazımdır?

Qasımlı ayağa qalxıb təşəkkür etdi:

- Yox, heç nə lazım deyil. Çox sağ olun!

Nikolay Yelenanı çağırıb ona mənalı tərzdə
işarə etdi və qadın dərhal Qasımlıya yaxınlaşdı:

- Yatmaq istəyirsiniz?

Qasımlı:

- Hə! - dedi. - Yorğunam. Artıq sizin kimi cavan deyiləm.

- Heç o qədər yaşlı da deyilsiniz.

Yelena bunu deyib Qasımlının qoluna girdi. Sərxoş olduğu yerişindən də hiss olunurdu. Su arxını adlayıb üçüncü evciyə tərəf qalxdılar. Buralar qaranlıq idi. Masanın üstündən asılmış lampanın işığı buraya gəlib çatmırdı.

Qasımlı büdrəyən qadının qolundan tutub, onu yıxılmaqdan saxladı:

- Bir az ehtiyatlı olun, buralar çox qaranlıqdır.

- Mən buranı gözüyumulu da tanıyıram. - Yelena cavab verdi. - İstəyirsən, gözlərimi yumum.



ekitab.ucoz.org

- Özünüz bilərsiniz! - Qasımlı kinayə ilə dedi və qızın qolunu buraxdı.

Amma bu dəfə Yelena onun qolundan tutub:

- Sizdə qoruyucu var? - deyə qulağına pıçıldadı.

Qasımlı onun nə dediyini bir az gec anladı və yalandan:

- Var, əlbəttə! - dedi.

Bu zaman telefonu zəng çaldı. Onu cibindən çıxarıb açdı və gördü ki, yenə Elnarədir zəng vuran.

-Alo?

- Eşidirəm. - Sakit və təmkinli səslə cavab verdi.

- Qanbay müəllim, siz hələ meşədəsiniz?

- Hə!

- Gəlməyəcəksiniz?

- Yox, səhər gələcəm. Saat ikini keçib, siz hələ yatmamısınız?

- Yerimə girmişəm. Ancaq, yata bilmirəm axı!? Çox narahatam.

- Natiq evdədir?

- Hə, o çoxdan yatıb. - Elnarə dedi və birdən soruşdu. - Orada qadın var?

- Yox!

Qasımlı bunu dedi və elə həmin anda da onun qolundan tutmuş Yelena:

- Of! Kiminlə danışırsınız? - deyə səsləndi.

Elnarə, yəqin ki, onun səsini eşitdi və:

- Axı mən qadın səsi eşidirəm!? - dedi.

Qasımlı çalışdı ki, əsəbiləşməsin:

- Səhv eşidirsiniz, bu qadın deyil. Siz, narahat olmayın, yatın!

- Necə yatım, Qanbay müəllim, çox narahatam. Elə bil



ekitab.ucoz.org

ürəyimə nəsə damıb.

Elnarə onunla yaxın və əziz adamı kimi danışırdı. Belə şeylərə alışmayan və qəbul etməyən polkovnik yenə də etika xatirinə təmkinini qorumağa çalışdı:

- Gözlərinizi yumun və təsəvvür edin ki, balaca uşaqsınız. Tovuzda, güllü çəmənliklərin birində bəzəkli bir kəpənəyi tutmağa çalışırsınız. Belə etsəniz, kəpənəyi tutana qədər gözünüz yuxuya gedəcək.

Elnarə güldü və sonra tez də ciddiləşdi:

- Sizə qurban olum, Qanbay müəllim, ehtiyatlı olun, özünüzü onlardan gözləyin!

- Yaxşı, yaxşı! - Qasımlı ciddiləşdi. - Siz də başlayın kəpənəyi qovmağa!

- Gecəniz xeyrə qalsın!

- Sizin də!

Qasımlı bunu deyib telefonu qapadı. Yelena:

- Siz azəricə danışırdınız? Yəqin, Seymurun arvadı ilə, hə? - deyə soruşdu.

Polkovnik dinmədi. Yəqin ki, düşdüyü vəziyyət onun ürəyindən deyildi və qanı bərk qaralmışdı.

- Siz artıq onunla olmusunuz? - Yelena kinayə ilə söz atdı.

- Sən də mumla görək! - Qasımlı sərt hərəkətlə qadının əlini öz əlindən kənarlaşdırdı.

- Of! Siz necə də kobudsunuz! - Yelena zarıdı. - Azərilərin hamısı belədir!

Pilləkənlə ikinci mərtəbəyə qalxdılar. Qapının çöl tərəfində də cəftə var idi. Onu çəkib otağa girdilər. Yelena əlini uzadıb lampanı yandırdı. Bura normal vanna otağı boyda bir yer idi. Ortada yarım metr hündürlükdə taxt


ekitab.ucoz.org

düzəldilmiş, üstünə yun döşək sərilmişdi. Otaqdan şam ağacının kəskin qoxusu gəlirdi.

İkinəfərlik yatağın üstündə, əks tərəflərdə oturdular. Polkovnik çox fikirli görünürdü. Dodaqları bir-birinə kiplənmiş, nazik, sərt qaşları düyünlənmişdi. Bir siqaret çıxarıb yandırdı. Sonra Yelenanın xahişi ilə siqaretin birini də ona verdi. Paltarını soyunmadan, enli yatağın bir tərəfində arxası üstə uzandı və Yelenadan xahiş etdi ki, işığı söndürsün. Qadın dinməz-söyləməz qalxıb işığı söndürdü. Sonra o da yatağın o biri tərəfində arxası üstə uzandı. Beləcə, heç nə danışmadan siqaret çəkməyə başladılar.

O biri evciklər tərəfdən maqnitofonun səsi buraya zəif gəlib çatırdı. Bu dəfə, deyəsən, Azərbaycan mahnıları yazılmış kasset qoymuşdular. Qasımlı diqqət verdi. Hə, Gülüstan «Kimsən sən?» mahnısını oxuyurdu. O bu mahnını dünən Natiqin maşınında eşitmişdi. Natiqi xatırladı. Pis oğlan deyildi. Cəsarətli idi, mərd idi. Eduard Sokolovun qatillərinin tapılmasından ötrü özünü necə də oda- közə vururdu. Amma... İndi, yəqin ki, şirin yuxuda idi o...

Maqnitofonun səsi kəsildi. Bütün ətrafa müdhiş bir sakitlik çökdü. Bu sakitlikdə Qasımlının başı ətrafında fırlanan ağcaqanadın zəhlətökən vızıltısı eşidilirdi. Amma bu polkovnikə qətiyyən təsir etmirdi. Onun bütün diqqəti ətrafın müəmmalı sakitliyində idi.

Bakıdan gələndə tapançasını özü ilə gətirməmişdi. Buna heç bir ehtiyac hiss etmədiyi üçün. İndi gödəkcəsinin cibindəki balaca cib bıçağı nəzərə alınmazsa, heç bir silahı yox idi...



ekitab.ucoz.org

- Siz xəfiyyəsiniz? - Yelena qəflətən soruşdu.

- Hə! - qaranlıqda güclə görünən qadına baxmadan cavab verdi.

- Mən heç belə yaxından xəfiyyə görməmişdim.

- Niyə? - Qasımlı siqaretinin külünü döşəməyə tökdü. - Eduard Sokolovla tanış deyildiniz?

Cavab gəlmədi. Xəfiyyə onun sifətini görməsə də, özünü itirdiyini hiss elədi. Başını azacıq ona tərəf çevirib:

- Onu da xəfiyyə hesab etmək olardı axı?! - dedi.

- Mən elə adam tanımıram... - Yelena astadan cavab verdi.

- Axı bir blokda yaşayırdınız?!

- Nə olsun?! Hamını tanımağa borclu deyiləm ki!

Ortaya yenə bir az sükut çökdü. Qasımlı qəflətən:

- Amma, deyirlər arvadı çox gözəldir, - dedi.

- Kimin? - qadın sanki səksəndi.

- Eduardın...

- Onu kim deyir? Yağlı donuza oxşayır!

Qasımlı kinayə ilə gülümsədi:

- Demək, hər halda, tanıyırdınız onları.

- Siz yenə istintaqa başladınız?

- Heç demədiniz axı, Kostya ilə nə münasibətiniz var?

Hiss olunurdu ki, Qasımlı qadına suallar versə də, nə bu suallara, nə də onun cavablarına əhəmiyyət vermir. Onun fikri-diqqəti tamam kənarda idi.

- Sizinlə nə münasibətim var, onunla da elə! - Yelena bir qədər acıqlı səslə cavab verdi.

O, gözləyirdi ki, bu kişi indi onu qucaqlayıb, boynundan-boğazından öpəcək. Sonra soyunub, onun da soyunmağını təkid edəcək... Amma bir tərpəniş görmürdü onda və bu



ekitab.ucoz.org

adam heç soyunmaq fikrində deyildi, deyəsən. Əvəzində, onu ağlasığmaz suallarla istintaq edirdi, sanki.

Düzünə qalsa, bu saat heç özünün də həvəsi yox idi bu qaraqabaq adamla əlaqədə olmağa.

Kostya onu nə üçün bu polis polkovnikinə caladı, hələ də anlaya bilmirdi. Bir onu dedi ki, gecəni onunla yat, onun istədiklərini elə!.. Bu da Kostya ilə əlaqəsi, münasibəti barədə soruşur. İşə bax! Kostya ilə əlaqəsi barədə danışmaq istəsə, gərək bütün həyatını nağıl etsin. Heç olmasa, on dörd yaşından bu yana... Onlar tanış olanda Yelenanın on dörd, Kostyanın isə iyirmi səkkiz yaşı var idi...

İki ilə yaxın idi ki, sinif yoldaşı Oleqlə sevişirdilər. Buna başqa ad vermək də çətin idi, çünki başqa yoldaşlardan, dostlardan fərqli olaraq, bir-birlərini görəndə özlərini itirir, danışmağa çətinlik çəkirdilər. Onların bu münasibətini sinif yoldaşları da bilirdilər, artıq. Tənəffüs zəngi vurulan kimi hamıdan ayrılıb, dəhlizin uzaq bir küncünə qaçırdılar.

Hərdən bir-birlərinin evlərinə də gedirdilər. Ancaq nə oğlanın, nə də qızın yaşadığı mənzildə sərbəst oturub söhbət etməyə bir rahatlıq yox idi. Yelenanın bir qoca, acıqlı nənəsi vardı, Oleq onların mənzilinə gələndə həmişə güdürdü uşaqları. Oleqin isə atası diş texniki idi. Mənzilin bir otağını emalatxana eləmişdi. Evdə həmişə kənar adamlar olurdu.

Bir gün Oleq onu görüşə çağırdı. Bazar günü idi. Dedi ki, tək yaşayan Kostya adlı bir dostu onlara öz mənzilində görüşməyə icazə verir. Dedi ki, orada istədikləri qədər oturub rahat söhbət edə bilərlər və onlara heç kəs mane olmaz.

Oleqlə eyni binada yaşayan, iyirmi səkkiz yaşlı bu oğlan hələ subay imiş. Yaş fərqləri böyük olsa da, Oleq onu öz



ekitab.ucoz.org

dostu hesab edirdi. Sən demə, söhbət
əsnasında, Kostya Oleqdən qız dostu olub- olmadığını soruşubmuş. Oleq Yelena adlı bir qızla sevişdiklərini deyəndə onları öz mənzilinə dəvət edibmiş.

Həyətdə görüşüb, gizlicə Kostyanın mənzilinə çıxdılar. Ev sahibi onları çox mehribanlıqla qarşıladı. Qızın köynəyi qabardan balaca, dik döşlərinə, qısa yubkanın gizlədə bilmədiyi ağ, toppuş ayaqlarına baxıb qəribə bir təbəssümlə gülümsədi və onları iri divan qoyulmuş otağa dəvət etdi.

Yelena belə görüşə ilk dəfə gəldiyi üçün, həm də Kostya yanlarında olduğuna görə yaman sıxılırdı. Bunu ev sahibi də hiss etmişdi. Gətirib Oleqə iki həb verdi. Başı ilə Yelenaya işarə edib:

- Dostuna da ver, - dedi. - Bunun heç bir ziyanı yoxdur.
Yelena Oleqin ona verdiyi həbi alıb:
- Bu nədir? - deyə soruşdu.

- Yaxşı dərmandır. - Oleq cavab verdi, - Adamı sakitləşdirir, həyəcanını azaldır.

Sən demə Kostya bu həbdən Oleqə bir neçə dəfə veribmiş. Sonralar Kostyanın vasitəsilə narkotik maddələrin bütün növləri ilə yaxından tanış olan Yelena bu maddənin dadını ilk dəfə onda gördü.

Kostya televizoru qoşdu. Videomaqnitofonu da işə salıb:

- Özünüzü sərbəst aparın! Soyunun, rahat əyləşin! - dedi və özü o biri otağa keçdi.

Ekranda erotik səhnələrin göstərildiyini görən Yelena Oleqə baxıb utancaq halda gülümsədi. Oleq, deyəsən, onunla müqayisədə özünü daha çox itirmişdi. Halı üstündə deyildi. Bunu görən qız özü
ona yaxın əyləşdi. İndi, hətta çiyinləri bir-birinə toxunurdu.


ekitab.ucoz.org

Oğlanın tərpənmədiyini görən Yeiena əlini onun əlinin üstünə qoydu. Bundan sonra Oleq cəsarətlənib qızı qucaqladı və öpməyə başladı. Öpdükcə çılğınlaşıb özünü unudur, kəsik-kəsik nəfəs alırdı. Sonra Yelenanın köynəyinin düymələrini açmağa başladı. Bu zaman əlləri əməlli-başlı titrəyirdi. Yeiena özü ona kömək etməyə məcbur oldu və beləliklə, tamam çılpaqlaşdı.

Belə işlərdə tamamilə təcrübəsiz olan Oleq səbirsiz halda qızı qucaqlayıb, birdən-birə hər şeyin sonuna çatmağa çalışırdı. Amma heç nə alınmırdı...

Ona nisbətən bir qədər sakit olan Yeiena:

- Dayan, bir az səbirli ol! - desə də oğlan öz səyini getdikcə artırırdı.

Müvəffəqiyyətsizliyə uğrayan Oleq həyəcandan titrəyir, nəfəsi təngişdiyi üçün bədənini daha çox tər basırdı. Nəhayət, yorulub əldən düşmüş və xəcalətindən qızarmış oğlan çılpaq qızın üstündən qalxıb kənara çəkildi və üst-başını düzəltdi.

Yelena üstünü örtmədən və qalxmağa cəhd göstərmədən, uzandığı yerdən Oleqi diqqətlə süzürdü. Oleq isə utandığından onun üzünə belə baxmaq istəmirdi.

Bu zaman Kostya otağa daxil oldu. Divanda lüt- üryan vəziyyətdə uzanmış qıza mənalı bir nəzər salıb, Oleqə tərəf çevrildi:

- Nə tələsirsiniz, sizi qovan var? - deyib güldü və əlindəki pulu ona uzatdı. - Düş, tindəki mağazadan iki sərin pivə, bir də bir az kolbasa al. Hə, bir də mənim üçün siqaret.

Oleq heç nə düşünmədən pulu aldı. Sonra bir anlıq tərəddüdlə üstünü paltarı ilə örtməyə çalışan Yelenaya baxıb mənzildən çıxdı. Onun ardınca gedən Kostya qapını


ekitab.ucoz.org

içəridən bağlayıb geri qayıtdı. Otağa daxil olub qızın yanında oturdu:

- Nədir, bir şey alınmır?

Əlindəki köynəyi ilə aşağılarını örtməyə çalışan Yelena dinmədi.

- Birinci dəfədir? - Kostya sualı təzələdi.

- Hə... - Yelena başını tərpətdi.

Kostya daha heç nə demədən özünü onun üstünə atdı. Çılpaq qız əvvəlcə özündən böyük və qat-qat güclü oğlanın əlindən çıxmağa çalışsa da sonra nəsə yeni bir şey hiss edib təslim oldu. Oleqin azacıq sonra qayıdıb gələcəyini belə unudub özünü Kostyanın ixtiyarına verdi.

Bir an keçmiş, bərkdən çığırdı və sonra sakitləşib, ancaq zarımağa başladı. Kostyanın bu işdə çox təcrübəli olduğu aydınca görünürdü. O, vaxt itirmədən öz məqsədinə nail olub ayağa qalxdı və qapının zəng səsini eşidib onu açmağa getdi.

Aldığı şeyləri Kostyaya verib otağa daxil olan Oleq qızın hələ də lüt-üryan, halsız vəziyyətdə divanda uzandığını görüb, əvvəlcə bir şey anlamadı. Amma yaxınlaşanda divanı bulayan qan ləkələri gözünə sataşdı və birdən-birə hər şeyi başa düşdü.

Dəli kimi çığırıb Kostyanın üstünə cumdu və onu yumruqlamağa başladı.

- Əclaf, alçaq! Biz bir-birimizi sevirdik! - dedi.

Amma, özündən xeyli güclü oğlanın vurduğu zərbədən döşəməyə sərildi. Kostya ona daha bir təpik vurub bağırdı:

- Bir qəhbədən ötrü adam dostuna əl qaldırar, küçük?!

O gün Oleq ilə oradan çıxıb, heç nə danışmadan ayrıldılar. Yelena bir neçə gün məktəbə getmədi. Gedəndən



ekitab.ucoz.org

sonra da həftələrlə Oleqin üzünə baxa bilmədi. Sonra özü yaxınlaşdı ona.
Bütün olanlara baxmayaraq, yenə onu sevdiyini bildirdi. Yenə sevişməyə, tənəffüslərdə ayaqüstü görüşməyə başladılar. Bəzən də bazar günləri parka gəzintiyə çıxırdılar.

Amma Kostya da əl çəkmədi Yelenadan. Bir neçə dəfə küçədə qabağını kəsib, onu yola gətirməyə çalışdı və axır ki, buna nail oldu. Yelena, imkan tapanda, gizlicə onun mənzilinə gəlməyə başladı. Bu görüşlər ona Oleqlə sevişməsindən fərqli bir ləzzət verirdi.

Məktəbi bitirən kimi Oleqlə evləndilər. Yelenanın indi tək yaşadığı həmin bu mənzili Oleqin atası alıb onlara bağışladı. İlk ayları sakit və xoşbəxt yaşadılar. Sonra bu qayğısız günlərinə birdəfəlik son qoyuldu. Kostya onların evinə gəlib-getməyə və bu gəlişlər zamanı özünü çox həyasızcasına Yelenanın əri kimi aparmağa başladı. Az qalırdı ki, Oleqin gözü qarşısında onun arvadını divana yıxsın. Ər-arvad hər ikisi Kostyadan bərk qorxurdular. Amma Oleq bütün bunlara çox çətinliklə dözürdü.

Axır bir gün təngə gəlib arvadına dedi ki, Kostyanı öldürəcək. Yelena buna etiraz edib Oleqi sakitləşdirməyə, yola gətirməyə çalışdı. Amma sözlərinin bir təsiri olmadı.

Səhəri gün Oleqin meyitini şəhərdən çıxan asfalt yolun düz ortasında tapdılar. Naməlum bir
maşın onu vurub, aradan çıxıbmış. Yelena o saat başa düşdü ki, bu cinayəti Konstantin Surkov edib. Dəfndən sonra, yəqin ki, bu şübhəsi barədə prokurorluğa məlumat verəcəkdi.

Amma Kostya Oleqin dəfninə gəldi. Kədərli görkəmdə dayanıb yenicə qazılmış qəbrə baxan Yelenanın qarşısında


ekitab.ucoz.org

durdu və onun gözlərinin içinə təhdidedici, qorxunc nəzərlərlə baxıb dedi:

- Səbirli ol, bu Allahın işidir. Eynilə belə bir hadisə sənin də başına gələ bilər!

Yelena bu adamın qorxusundan, öz şübhəsi barədə daha heç yanda danışmadı. O gündən sonra Kostya onunla daha sıx əlaqə saxlamağa başladı. Özünün onunla əlaqədə olması azmış kimi, onu başqalarına da ötürdü. Qadını narkotik maddələrə alışdırıb ondan başqa çirkin məqsədlər üçün də istifadə etməyə başladı. Bir sözlə, Yelena Konstantin Surkovun müti bir köləsinə çevrildi...

İndi, bütün bunları Azərbaycandan gəlmiş bu yad adama, cinayət axtarışı ekspertinə danışası deyildi ki? Əlbəttə, yox! Elə Kostya da tapşırmışdı ki, bu polkovniklə bir az ehtiyatlı davransın, yanında ağzından artıq-əskik söz qaçırmasın.

Yox, deyəsən bu adamın onunla əylənmək fikri yox idi. Arxası üstə uzanıb siqaret çəkirdi. Yelena fikirləşdi ki, daha yatmaq lazımdır. Ancaq yatmazdan qabaq ciddi xarakteri, qətiyyətli görünüşü və olduqca diqqətli baxışları olan bu kişi ilə əlaqəyə girmək istədi. Sadəcə, ürəyi istədi bunu, vəssalam! Araq içməyi, yemək yeməyi, rəqs etməyi necə istəyirdisə, eləcə... Düzdür, bu qaraqabaq polkovnik, deyəsən, ona heç həvəs-filan göstərmirdi. Amma Yelena öz usta hərəkətləri ilə onu bir-iki dəqiqə ərzində özünə tabe edəcəkdi. Qalxıb şalvarını soyunmağa başladı və Qasımlıya da bunu təklif etdi:

- Dur soyun, daha yatmaq vaxtıdır, gecə keçir!

Polkovnik birdən ayağa durdu. Siqaretini döşəməyə atıb ayağı ilə söndürdü. Qadının qolundan tutub:

- Gəlin buradan çıxaq! - dedi.



ekitab.ucoz.org

- Niyə?! - Yelena heyrətləndi.
- Sonra bilərsiniz! Mənə heç bir sual verməyin!

Qasımlı bunu deyib qadını otaqdan çıxartdı.

Cibindən götürdüyü kiçik bıçaqla içəridəki cəftəni qaldıraraq qapını örtdü. Bıçağı geri çəkəndə qapı artıq içəridən bağlanmış oldu.

- Niyə belə edirsiniz? - Yelena bu dəfə qorxusundan pıçıltıyla soruşdu.

- Susun! - polkovnik qaranlıqda əlini onun ağzına apardı.

Pilləkənlə düşüb evcikdən uzaqlaşdılar. Elə yerdə dayandılar ki, oradan evciyin siluetini güclə seçmək olurdu. O biri iki evcik tərəfdən heç bir səs- səmir gəlmirdi. Yelena bir şam ağacına söykənib durmuşdu. Həyəcanlı səslə:

- Axı biz buraya niyə gəldik? - deyə bir daha sual verdi.

- Bəsdir! - Qasımlı astadan, lakin acıqlı səslə dilləndi. - Bir azdan hər şeyi biləcəksiniz.

Yelenanın ürəyinə haradansa müdhiş bir qorxu doldu. Konstantin Surkovun ona Bakıdan gəlmiş təhlükəli birxəfiyyə kimi tanıtdığı Qasımlının səsindəki ciddilik qadının qorxusunu bir az da artırır, içdiyi arağın təsirini beynindən çıxarırdı.

# İyirminci fəsil

Bəlkə də yarım saat keçdi. Yenə də ağacların arasında, zülmət qaranlıqda dayanmışdılar. Heç biri səsini çıxarmırdı. Yelena hərdən nəsə demək, nəsə soruşmaq istəyirdisə də, acıqlı xəfiyyə əlinin sərt hərəkəti ilə onu susdururdu. Qorxu və təlaş içində olan qadın, səbəbini özü də bilmədən, bütün diqqətini Qasımlının baxdığı səmtə - bir az əvvəl çıxdıqları evciyə yönəltmişdi.



ekitab.ucoz.org

Birdən kiminsə asta və ehtiyatlı hərəkətlə dərə tərəfdən gəlib evciyə yaxınlaşdığını gördülər. Zülmət qaranlıqda onun kim olduğunu müəyyən etmək mümkün deyildi. O, daha çox xəyala, yaxud kölgəyə bənzəyirdi. Elə kölgə kimi səssiz hərəkətlə də taxta pilləkənlə ikinci mərtəbəyə qalxdı.

O kimdir? - həyəcandan boğulan qadın soruşdu.

Sakit olun! - Qasımlı onun qolunu sıxdı.

O nə edir?! - Yelena vahiməli səslə pıçıldadı.

Onun ürəyi qorxudan partlamaq dərəcəsinə gəlirdi.

Qapının cəftəsini vurur... - polkovnik asta və təmkinli səslə cavab verdi.

Niyə?!

Sakit olun, dedim!

Naməlum adam pilləkəni enib evciyin böyrünə keçdi. Yarım dəqiqə keçmiş, benzinin tünd qoxusu ətrafa yayıldı. Daha bir neçə saniyə sonra isə taxta evcik gözlərinin qarşısında alışmağa başladı. Sürətlə güclənən alov əvvəlcə evciyin aşağı ətraflarını, sonra isə bütün boyunu öz qızmar ağuşuna aldı.

Yelena alovun işığında əlində tapança tutmuş qara, uzun saçlı adamı tanıdı.

Bu Nikolaydır! - deyə az qaldı ki, çığırsın.

Amma Qasımlı vaxtında onun ağzını tuta bildi. Bu zaman Nikolay qaladığı nəhəng tonqala axırıncı dəfə nəzər salıb, dərəyə tərəf qaçdı. Bircə an keçmiş, oradan eşidilən çığırtı səsləri ətrafa yayılıb, evciyi bürümüş alovun uğultusuna qarışdı. Yəqin ki, qızlar yuxudan ayılıb dəhşətli alovu görmüşdülər.

Biz buradan tez getməliyik!



ekitab.ucoz.org

Qasımlı bunu deyib qolundan tutduğu qadını meşənin dərinliklərinə çəkdi.

Bir qədər gedəndən sonra dayanıb, qorxudan az qala dili tutulmuş Yelenaya baxdı:

- Bir azdan onlar yanan evdən çığırtı səsi eşitməyəndə və ya ət yanığının iyini duymayanda məsələni anlayıb bizim arxamızca düşə bilərlər.
Deyin görək, gəldiyimiz yola yox, başqa bir yola çıxmaq üçün bu istiqamətdə çoxmu getməliyik?

Onlar məni də öldürmək istəyirmiş... - qadının dili açılsa da, qorxudan tir-tir titrəyirdi.

Sualıma cavab verin! - Qasımlı səsini qaldırdı.

Beş-altı yüz metr getsək, bu tərəfdən asfalt yola çıxa bilərik...

Yelenanın dili topuq vurur, yaxşı danışa bilmirdi.

Oranı necə nişan verək ki, asanlıqla tapsınlar? - polkovnik soruşdu.

Ora Mayma çayının üstündəki böyük körpüyə yaxındır.

Onda, getdik!

Qaranlıq meşədə yoğun şam ağaclarının arası ilə yeriməyə başladılar.

Ətrafda vahiməli bir sakitlik hökm sürürdü. Hərdən ayaqlarının altında qalıb sınan quru budaqların yüngül çaqqıltı səsi eşidilirdi. Bir az beləcə gedəndən sonra yenə dayandılar. Qasımlı cibindən telefonunu çıxarıb bir anlıq düşündü və kiməsə zəng vurdu. Telefonu bir qədər gec açdılar. Sakit bir səslə:

Mənəm! - dedi. - Bakıdan gələn xəfiyyə... Sizin köməyinizə ehtiyacım var, - danışdığı adamı dinləyib, əlavə etdi: - Mayma çayının üstündəki böyük körpünün yanına...



ekitab.ucoz.org

Yox, tək də gələ bilərsiniz.

Addımlarını bir az da sürətləndirdilər. Qasımlının gözləri qaranlığa alışmışdı və çox iti görürdü. Yelena isə tez-tez nazik ağac budaqlarına toxunur, bəzən isə büdrəyib yıxılırdı.

Nəhayət, gəlib asfalt yola çıxdılar. Yolun kənarı ilə bir qədər addımlayandan sonra Mayma çayı və üzərindəki taxta körpü göründü. Meşələrin içi ilə axıb gələn bu çay çox kiçik bir çay idi. Yolda heç bir maşın-filan gözə çarpmırdı. Hər yerə qaranlıqla birlikdə müdhiş bir sakitlik hakim olmuşdu.

Qasımlı dayandı və yorğunluqdan təngnəfəs olmuş Yelenaya burada gözləyəcəklərini dedi. Cibindən bir siqaret çıxarıb təmkinlə çəkməyə başladı.

Qadının qorxusu bir qədər azalmışdı. Ona pərəstişlə baxıb:

Siz oranın yandırılacağını necə bildiniz? - deyə soruşdu.

Polkovnik qıza acıqlı bir nəzər saldı. Ancaq onun gözlərində özünə qarşı bir hörmət görüb sualını cavabsız qoymaq istəmədi:

- Hələ ora gələndə bilirdim ki, mənə qarşı təxribat hazırlayırlar. Sizinlə evciyə yaxınlaşanda onun altında on litrlik kapron qab gördüm və hətta cüzi benzin qoxusu da duydum. Hansı ki, bir neçə saat əvvəl gəzib evciyin ətrafını dolaşanda o qab orada yox idi. Aydın oldu?

Siz çox hiyləgər adamsınız! - qadın heyrətlə dilləndi. - Amma bəs mənim günahım nə idi? Kostya nə üçün hər ikimizi öldürməyi tapşırıb bu adamlara?!

Qasımlı istehza ilə gülümsədi:

Sizin günahınız mənimkindən də çoxdur. Siz onların bəzi sirlərini bilirsiniz.



ekitab.ucoz.org

Nə sirr?..-Yelena özünü itirdi.

Kapitan Eduard Sokolovu siz öldürmüsünüz! - polkovnik bunu olduqca sakit və əminliklə deyib ətrafa boylandı.

- Siz nə danışırsınız?! - qadın az qaldı çığırsın. - Onu mən öldürməmişəm!

Qasımlı başını buladı:

- Qulaq asın, əgər mən istəsəydim, sadəcə, özümü xilas edərdim. Bu, əslində, daha təbii olardı. Sizin çığırtınız və ətrafa yayılan kabab iyini duyub bizim həqiqətən içəridə olduğumuza inanardılar. İndi isə, yəqin ki, artıq duyuq düşüblər və bizi axtarırlar... Qaldı ki Eduarda, onu siz öldürməmisiniz, bu doğrudur, amma o bədbəxti sizin mənzilin balkonundan atıblar!

Siz... - Yelena kəkələdi. - Siz nə danışırsınız?!

Mən nə danışdığımı yaxşı bilirəm! Amma onu da deyim ki, Bakıdan buraya Eduardın qatillərini aşkar etmək üçün gəlməmişəm. Gəlməkdə məqsədim Seymur Muradovu və deməli, burada
yaşayan azəriləri üstlərinə atılmış çirkin böhtandan xilas etməkdir.

- Məni həbs edəcəklər?.. - Yelena yazıqlaşdı.

Yaxşı, görək! - Qasımlı acıqlandı. - Siz bu saat
nağd bir ölümdən qurtardınız. Özü də dəhşətli bir ölümdən və hələ də ölüm təhlükəsi sizin üzəri- nizdədir. Konstantin Surkov, nəyin bahasına olursa olsun, sizi aradan götürməyə çalışacaq. Sizi və məni!.. Siz isə burada həbs olunmaqdan danışırsınız.

- Bu dəhşətdir! - həyəcanlanmış qadın əli ilə üzünü tutdu. - Mən ondan çox qorxuram.



ekitab.ucoz.org

- Gördüklərinizi, bildiklərinizi boynunuza alsanız, mən sizi qorumağa çalışaram. - Qasımlı əminliklə dedi.

Nəyi boynuma alım? - Yelena göz yaşlarını əli ilə sildi.

Eduardı mənzilinizə aparmağınızı. Onun balkondan atılmağını gözlərinizlə görmənizi.

Mən ondan çox qorxuram! - qadın təkrar etdi.

Lənət şeytana! - Qasımlı əlini yellədi. - Deyin görüm, bütün bu işlərin başında kim dururdu?

Nələrin?

Özünüz yaxşı bilirsiniz! Baş verən qətllərin, narkotik satışının! Kim dururdu bunların başında?

Yelena susub başını aşağı dikdi.

Pavel Serafimov? - Qasımlı təkidlə soruşdu.

Onun bütün belə işlərini Kostya görürdü...

Nə kimi işlərini?

Siz deyən. Narkotik satışı, adam öldürmək...

Kapitan Sokolovu da onlar öldürüb, düzdür?

Hə...

Natiq Əhmədovla bağlı bir şey eşitmisiniz?

Yox!

Radik Boskanyanın necə öldürülməsi barədə məlumatınız var?

Yox!

Düzünü deyin!

İnanın mənə, mənim başqa heç nədən xəbərim yoxdur. Eduard özü mənə yaxınlaşmağa cəhd göstərdi. Mənim mənzilimdə görüşməyə başladıq. Sonra başa düşdüm ki, o məndən söz almağa çalışır. Tez-tez Kostya haqqında, Pavel Matveyeviç haqqında soruşurdu. Mən bunları Kostyaya çatdırdım. O da mənə tapşırdı ki, Eduardı qonaq çağırıb



ekitab.ucoz.org

gecəyə qədər yanımda saxlayım. Mən də razılaşıb, onu mənzilimə dəvət etdim. Arvadı da
neçə gün idi ki, evdən çıxıb getmişdi. Axşam saat 11-də Eduard mənzilimə gəldi. Gecə saat 2-yə kimi yeyib-içdik, söhbət elədik... Saat 2-də Kostya ilə həmin bu Nikolay içəri girdilər. Kostyada mənim mənzilimin açarı var idi. Hə... Hər ikisi əlcək geyinmişdi. Hər ikisinin əlində tapança var idi. Silahlarını Eduarda tuşlayıb əvvəlcə ondan mənzilinin açarını aldılar. Sonra isə özünü balkona aparıb oradan aşağı tulladılar. Mən bunu heç gözləmirdim. Dəhşətə gəlmişdim... Sonra Nikolay masanın üstündəki araq şüşəsini göstərib:
Sənin əlin bu şüşəyə dəyib? - deyə soruşdu. Arağı Eduard özü ilə gətirmişdi gələndə.
Yarıdan çoxunu içmişdik. Amma mənim əlim şüşəyə toxunmamışdı.
Yox! - dedim.

Nikolay şüşəni götürüb cəld mənzildən çıxdı. O çıxan kimi Kostya mənim mənzilimin işıqlarını söndürdü. Nikolay bir-iki dəqiqədən sonra qayıdıb gəldi. Bir xeyli qaranlıqda oturub, sonra getdilər. Onlar gedəndə, artıq, polis işçiləri çoxdan gəlib Eduardın meyitini aparmışdılar...

Yelena bunları danışıb birdən-birə ağlamağa başladı.

Bəsdir! - Qasımlı üzünü turşutdu. - İndi peşman olmağın bir mənası yoxdur. Belə alçaq bir cinayətə ortaq olanda düşünməliydiniz!

- Mənə inanın! - qadın yenə əli ilə gözlərini quruladı. - Mən bilmirdim ki, onu öldürəcəklər.
Kostya mənə dedi ki, onu yanına apar, başını qarışdır, biz onun mənzilinə girəcəyik. Mən ondan,
doğrudan da, çox qorxuram. Mənim ərimi də o alçaq



ekitab.ucoz.org

öldürüb.

Qasımlı uzaqdan görünməkdə olan maşın işığına baxıb, qadının qolundan tutdu və onu ağacların arasına çəkdi:

- Bütün bunları, vaxtı gələndə, prokurora, müstəntiqə anladarsan. İndi isə səni etibarlı bir yerdə gizlətmək lazımdır.

Bir maşın sürətlə gəlib onlardan azacıq aralıda, taxta körpünün lap yanında dayandı. Bu, qara rəngli “Pajero” idi. Əmirxan sağ tərəfdən qapını açıb yerə endi. Onu tanıyan Qasımlı ağaclıqdan yola çıxıb Yelenanı da yanına çağırdı.

Əmirxan onları görüb, cəld yaxınlaşdı:

Nə baş verib, cənab polkovnik?

Polkovnik Yelenanı göstərdi:

- Ətraflı sonra danışarıq. İndi sizdən xahişim budur ki, bu qadını mən istəyənə qədər etibarlı yerdə saxlayasınız. Nə qaçmağına imkan verməyəsiniz, nə qaçırılmağına.

Əyləşin! - Əmirxan bunu deyib, yenidən sürücünün yanına keçdi.

Qasımlı ilə Yelena da maşının arxa oturacağında əyləşdilər. Maşın geriyə dönüb, gecənin səssizliyində uğultu qopararaq, gəldiyi istiqamətə doğru sürət götürdü.

# İyirmi birinci fəsil

Günortaya az qalmışdı. Polkovnik Qasımlı Seymurun mənzilində, kresloda əyləşib qəhvə içirdi. O bu gün evə gündüz saat on birin yarısında gəlib çıxmış, gələn kimi də yorğun və yuxusuz olduğu üçün yatağına uzanmışdı. Yorğunluğa da, yuxusuzluğa da çox dözümlü olan polkovnik, başqa vaxt olsaydı, belə etməzdi. Amma indi dincəlib, ayıq başla çox ciddi bir məsələ barədə düşünməliydi.



ekitab.ucoz.org

Yerindən qalxan kimi Fyodor Fominə zəng vurub söhbət etmiş, onu mənzilə dəvət etmişdi. İndi də kresloda əyləşib qəhvə içə-içə, düşünə-düşünə müstəntiqi gözləyirdi.

Gecə Əmirxan onunla Yelenanı Aya kəndində müvəqqəti kirayə etdikləri evə apardı. Yelenanı çarpayı qoyulmuş kiçik bir otağa salıb, qapını arxadan kilidiədi. Sonra maşında yatacağını deyib, Qasımlıya öz çarpayısını təklif etdi. Qasımlı isə onunla razılaşmayıb maşında özünün yatacağını bildirdi.

Amma səhərə qədər gözünə yuxu getmədi. Açmaq istədiyi cinayətin təfərrüatı barədə fikirləşə- fikirləşə səhəri oyaq açdı. Artıq Qasımlıya həmin uğursuz gündə baş vermiş cinayət barədə bəzi gizli məqamlar məlum idi. Amma bu məlum olanlar özü də onun üçün şübhəli olaraq qalırdı. Çünki zəhərin həmin stəkana kim tərəfindən və hansı şəraitdə tökülməsi çox müəmmalı idi. Polkovnik anlayırdı ki,
bu müəmmanı açmadıqca, heç nəyi məntiqi ardıcıllıqla izah edə bilməyəcək.

Səhər Əmirxan və yoldaşları yuxudan duran kimi həyətdə süfrə düzəldib, Qasımlını da səhər yeməyinə dəvət etdilər. Yemək zamanı xəfiyyə bu tatar gəncinin nə qədər mədəni və tərbiyəli bir oğlan olduğunu bir daha gördü. O, dostu Seymurun xilası üçün Bakıdan gəlmiş polkovnikə xüsusi hörmət göstərir, öz adamlarını da buna təhrik edirdi.

Əmirxanın dəstəsi güclü idmançılardan təşkil olunmuşdu. Onların peşəkar döyüşçü olmaları üz-gözlərindən də, davranışlarından da aydın hiss olunurdu. Xüsusilə dörd yekəpərin çox zəhmli görkəmi var idi. Amma Qasımlı anladı ki, onlar da o biri yoldaşları kimi, yaşca


ekitab.ucoz.org

özlərindən kiçik olmasına baxmayaraq, gücü və cəsarəti ilə bütün Sibirdə məşhur olan Əmirxandan çəkinirlər.

Yadına Olqa düşdü... O da tatar idi axı. Çox mehriban, gülərüz, incə bir qadın idi Olqa. Ərini dəli bir məhəbbətlə sevirdi. Heç elə bir gün olmamışdı ki, gecə işdən evə gec qayıdan Qasımlı onu yatmış görsün. Heç olmamışdı! Nə qədər gec gəlsəydi, oturub gözləyirdi həmişə ərini...

Zəng çalındı. Ev sahibəsi qapını açmağa getdi. Müstəntiq Fominin səsini eşidən Qasımlı da ayağa qalxıb dəhlizə çıxdı. Fomin özü ilə gətirdiyi iki nəfəri xəfiyyəyə təqdim etdi:

- Qanbay Fərhadoviç, bu müstəntiq İvanovdur, bu isə polis leytenantı Petrov.

- Lap yaxşı! - Qasımlı onlara əl vermədən dönüb ev sahibəsinə baxdı. - Elnarə xanım, xahiş edirəm, bunları mətbəxə aparın. Bəzi qab-qacağa baxacaqlar.

Sonra yenidən əvvəlki yerinə qayıdıb kresloda əyləşdi. Başı ağrıyırdı, daxili orqanlarında səbəbini anlaya bilmədiyi narahatlıq hiss edirdi. Üz-gözünü turşudub bir siqaret yandırdı və fikirli halda çəkməyə başladı.

Bu zaman Fomin mətbəxdə qab-qacaq dolabını açıb, içindəkilərə nəzər yetirirdi. Barmağını kiçik su qrafininə uzadıb ev sahibəsindən soruşdu:

- Elnarə Mamedovna, bu həmin gün süfrəyə qoyduğunuz qrafindir?

- Bəli. - Elnarə cavab verdi.

Fomin müstəntiq İvanova tərəf döndü:

- Götürə bilərsiniz.



ekitab.ucoz.org

İvanov yaxınlaşıb qrafini dəsmalla götürdü və onu özü ilə gətirdiyi xüsusi paketə qoydu.

- Siz bunu nə üçün götürürsünüz? - ev sahibəsi təəccüblə soruşdu.

- O hadisədən sonra bu qrafini yumuşdunuz? - Fomin sualı eşitməyibmiş kimi dilləndi.

- Xeyr, yumamışdım. Onun içində su var idi. Boşaldıb şkafa qoydum.

Elnarə bunu deyib yenə:

- Onu niyə götürürsünüz? - deyə soruşdu.

- Biz əslində süfrədəki bütün qabları ekspertizaya verməliydik. O cümlədən boşqabları da. - Fomin cavab verdi.

- Deyirsiniz yəni, ona da... - heyrətlənmiş Elnarə sözünün ardını deyə bilmədi.

- Xeyr, siz narahat olmayın. - Fomin dedi. - Düzünü soruşsanız, biz əslində Qanbay Fərhadoviçin xahişini yerinə yetiririk. Öz fikrimizə gəldikdə isə, inanmırıq ki, zəhər iki qaba tökülmüş olsun.

Elnarə bir qədər sakitləşdi.

- Seymurun... - Halı necədir?

- Lap yaxşıdır! - Fomin cavab verdi. - Gözüm üstündədir.

- Fyodor Simonoviç onu yaman əzizləyir, - müstəntiq İvanov söz atdı.

- O günahsızdır... - Elnarə astadan dilləndi. - Mən heç bir şey anlaya bilmirəm.

Fomin gülümsəyib əllərini yana açdı:

- Elə maraqlısı budur ki, heç biz müstəntiqlər də bir şey anlaya bilmirik, Elnarə Mamedovna.



ekitab.ucoz.org

Ümidimiz ancaq sizin həmyerliniz Qanbay Fərhadoviçədir.

Mətbəxdən çıxanda Fomin başını Qasımlının əyləşdiyi otağa uzatdı:

- Salamat qalın, Qanbay Fərhadoviç!

Polkovnik, nədənsə, yerindən qalxmadı. Yalnız başını tərpədib:

- Sizdən cavab gözləyirəm! - dedi.

Onlar gedən kimi Elnarə otağa daxil oldu.

- Bunlar qrafini niyə apardılar, Qanbay müəllim?

- Bu ümumi qaydadır. - Qasımlı əlini yellədi. - Bunlar, sadəcə olaraq, bir qədər gecikiblər.

- Sizə yenə qəhvə gətirimmi?

- Yox, sağ olun! Xahiş edirəm, Natiqə zəng vurun, görək haradadır.

- Bu saat!

Elnarə çıxıb yataq otağından telefonunu götürdü. Qardaşına zəng vurub harada olduğunu öyrəndi və geri qayıtdı.

- Polis idarəsindədir. Sizə lazımdırım?

- Yox, lazım deyil. - Qasımlı başını buladı. - Sadəcə, bilmək istədim ki, işdədir, yoxsa yox. Bu vaxt həmişə nahara gəlirdi.

- Hə, bu gün gecikdi, nəyə görəsə. Siz acmısınızsa, yemək hazırdır. Gətirə bilərəm.

- Lazım deyil! Natiq gələndə birlikdə nahar edə rik.

Qasımlı bunu deyib söhbətin bitdiyinə işarə edirmiş kimi başını aşağı dikdi. Amma ev sahibəsi otaqdan çıxmadı:

- Bu gecə sizin üçün çox narahatlıq keçirtdim..

- Niyə?

- Necə yəni? - qadın təəccübləndi. - Meşədə, bizi



ekitab.ucoz.org

düşmən hesab edən adamların arasında tək idiniz.

Qasımlı başını buladı:

- On beş ildən çox əməliyyat-axtarış işində işləmişəm. O qədər qorxulu, çətin vəziyyətlərə düşmüşəm ki!.. Bu gecə isə adicə bir istirahət idi mənim üçün.

Elnarə bir az da yaxına gəldi. Hiss olunurdu ki, qonağı ilə söhbət etmək ona xoşdur.

- Bakıda da polisdə işləyirsiniz?

-Yox, Bakıda müstəqiləm. Hərdən qaranlıq cinayət işləri olanda mənə qeyri-rəsmi müraciət edirlər. Daha çox elmi işlə məşğulam. Kriminalistikaya aid yazı-pozu ilə.

- Çox sağ olun ki, işinizi atıb gəlmisiniz, - Elnarə tərəddüdlə dilləndi. - Amma sabah gedəcəksiniz. Bir ümid varmı?..

Hər şeyi axıra qədər öyrənib bilməmiş, iş barədə danışmaq polkovnik Qasımlının adəti deyildi. Düşündüklərini ən yaxın adamına belə deməzdi. Amma Elnarənin qüssə dolu baxışlarını görüb ona az da olsa ümid vermək istədi:

-Artıq mən inanıram ki, bu işdə ərinizin heç bir günahı yoxdur. Demək, sizin narahatlıq keçirməyinizə dəyməz. Qaldı ki əsl qatilə, o da sözsüz ki, tapılacaq. Sabaha qədər çox saatlar, dəqiqələr var.

- Bütün ümidimiz sizədir. Siz Seymuru bu şərdən qurtarsanız, bütün ömrümüz boyu duaçı olarıq sizə...

Qapının zəngi çalındı. Gələn Natiq idi. Əhvalını bacısından gizlətməyə çalışsa da yaman qanıqara görünürdü. Elnarə cəld süfrəni hazırlayıb onları nahara dəvət etdi. Tamerlanı da öz otağından çağırıb gətirdi və hamısı süfrə arxasında əyləşdilər. Artıq saat üçə qalmışdı.



ekitab.ucoz.org

Acımış uşaq dərhal yeməyə girişdi. Elnarə mal ətindən kotlet bişirmiş, yanına da kartof qızartması qoymuşdu.

Yemək əsnasında ev sahibəsi qardaşının fikirli olduğunu görüb bunun səbəbini soruşdu. Natiq bacısını qorxuzmaq istəməsə də bildiklərini danışmaq qərarına gəldi:

- Bu gözləri qızmış cavanlar heç sakit dayanmaq fikrində deyillər. Bu gecə saat 3-də polisə zəng gəlibmiş ki, meşədə istirahət yerlərinin birində taxta evcikdə yatmış bir azərbaycanlı ilə rus qızını
yandırıblar. Polis də, yanğınsöndürənlərdə hadisə yerinə gedibmiş. Meşəni yanmaqdan güclə xilas ediblər. Taxta ev isə yanıb kül olubmuş. Amma onu da deyim ki, polisdəkilərin deməyinə görə, orada adam olduğunu göstərən heç bir əlamətə rast gəlməyiblər.

- Maraqlıdır!.. - Qasımlı dilləndi.

- Hə, - Natiq onunla razılaşdı. - Amma doğrusu bu hadisə haqqında dəqiq bir şey öyrənə bilmədim. Bu heç! Mənim qanımı qaraldan başqa məsələdir. Dünən axşam polisə daha bir zəng olub. Deyiblər ki, guya bu gün saat dörddə həmin intiqamçı gənclər Seymurun evinə hücum edəcəklər. Və... Bir də deyiblər ki, məqsəd kimisə öldürməkdir...

Süfrə başına bir anlıq sakitlik çökdü. Yalnız, söhbətin nədən getdiyini anlamayan uşaq öz kotlet
payını yeməklə məşğul idi. Yaranmış sükutu Natiq özü pozdu:

- Deyirəm, bəlkə sizi nəzərdə tutublar, Qanbay müəllim?

- Nəyə əsasən belə düşünürsünüz? - polkovnik sakitcə soruşdu.



ekitab.ucoz.org

- Bütün şəhərə yayılıb ki, Seymuru xilas etmək üçün Bakıdan xəfiyyə gəlib.

- Evə hücum olacağı xəbərini polisə kim verib?

- Yaşlı bir qadın. Oğlunun öz dostları ilə danışığını eşidibmiş.

- Saat neçədə zəng edibmiş?

- Axşam saat doqquzda.

- Onda, yəqin ki, məni nəzərdə tutmayıblar. - polkovnik başını yellədi.

Bu sözlər Natiqi heyrətləndirdi:

- Bəs onda Elnarəni nəzərdə tutublar? Axı bilirlər ki, saat dörddə mən evdə olmuram.

Bayaqdan söhbətə böyük bir təlaşla qulaq asan Elnarənin qorxudan rəngi ağardı:

- Deməli, o dəstə buraya hücum edəcək?!

Natiq bacısına təskinlik verməyə tələsdi:

- Sən qorxma, bir qələt eləyə bilməzlər. Bir azdan polis işçiləri gələcək bura. Hər yeri nəzarət altına alacaqlar.

- Hə, narahat olmayın, Elnarə xanım, burada bizə bir şey edə bilməzlər. - Qasımlı da öz növbəsində qadına ürək-dirək vermək istədi.

- Bunlar bizdən nə istəyirlər axı? - Elnarə kövrəldi.

Natiq yeməyini tələsik yeyib ayağa qalxdı:

- Sənə dedim ki, qorxmaq lazım deyil. Rəis artıq göstəriş verib. Binanın hər tərəfində polis işçiləri olacaq. Sizə bu xəbəri ona görə dedim ki, həyətə çıxmayasınız, bir də, qapını heç kimə açmayasınız. Qalanı polisin işidir. Dördüncü mərtəbəyə çıxıb qapını sındırmayacaqlar ki?!

- Sən gedirsən? - Elnarə də yerindən durdu.

- Hə! - polis formasında olan Natiq güzgünün qabağına



ekitab.ucoz.org

keçib üst-başını düzəltdi. - Bir yerə baş çəkib oradan işə gedəcəm. Yaxşı yadıma düşdü, bu gecə evə gəlməyəcəm. İdarədə növbətçiyəm.

- Növbətçisən? - Elnarə heyrətləndi.

Natiq bacısına tərəf dönüb təəccüblə:

- Nədir ki? - dedi. - Qapını bağlayıb yatarsınız. Qanbay müəllim də yanınızda olacaq.

Elnarə daha dinmədi. Natiq əlini bacısı oğlunun başına çəkdi. Qonaqla da sağollaşıb çıxmaq istəyəndə Qasımlının səsi onu dayandırdı:

- Natiq, yaxşı olar ki, sən bu günlər çox ehtiyatlı olasan!

Natiq geriyə dönüb gülümsədi:

- Siz mənim üçün narahat olmayın, Qanbay müəllim, özünüzdən muğayat olun. Bir də bacımla bu qarınqulu bacıoğlumu sizə tapşırıram.

Elnarə işvəli bir təbəssümlə:

- Bəs Qanbay müəllimi kimə tapşırırsan? - dedi.

- Onu da sənə! Qonağımıza yaxşı qulluq elə!

- Baş üstə!

Qardaşını yola salıb, qapını bağladı. Cəftəni də keçirib geri qayıtdı. Divardakı saat dördə iyirmi dəqiqə işlədiyini göstərirdi. Balkona çıxıb həyətə boylandı. Artıq ətrafda tək-tək polis işçiləri gözə dəyirdi. Bu, onu bir qədər arxayınlaşdırdı. Otağa keçib həyətdə polislərin olduğunu qonağa da dedi. Amma Qasımlı buna heç bir reaksiya vermədi. Yaman tutqun görünürdü. Elnarə uşağı öz otağına göndərdi.

- Tomik, get, oyuncaqlarınla oyna! - dedi. Tamerlan qonağa təəssüf dolu bir nəzər salıb, dinməz-söyləməz öz otağına getdi. Elnarə isə süfrəni



ekitab.ucoz.org

yığışdırıb, qab-qacağı yumaq üçün mətbəxə apardı.

Bu zaman Qasımlının telefonuna zəng gəldi. Telefonu açıb:

- Eşidirəm, Fyodor Simonoviç! - dedi.

Sonra isə onu bir qədər dinləyib:

- Aydındır! Çox sağ olun! Yox, hələ heç bir şey deyə bilmərəm. - cavabını verdi və telefonu qapadı.

Təcrübəli xəfiyyə artıq təhqiqatın sonuna çatdığını başa düşürdü. Amma bu sonun özündə ən çətin bir maneə ilə üzləşmişdi ki, bu maneəni aşmasa əsl həqiqətin üzünü görməyəcəkdi. Elə bil ki, uzun, qaranlıq, dolama və çətin yollarla irəliləyib ən sonda ağır və möhkəm bir qapıya yetişmişdi. Bu qapını açan kimi işıqlığa çıxıb həqiqəti görəcəkdi. Amma bu qapı qıfıllı idi. Mütləq açarını tapıb açmaq lazım idi bu qapını. Yoxsa gəldiyi qaranlıq yollarla geri qayıtmaqdan başqa bir çarəsi qalmayacaqdı.

Fikirləşmək lazım idi. Bütün ağlagələn və ağlagəlməz variantları nəzərdən keçirib məntiqə tamamilə uyğun gələnin birini götürmək lazım idi. Amma bu tərəfdən də bu ağrıları ona mane olurdu.

Otağa daxil olan Elnarə qonağının əhvalının yaxşı olmadığını hiss etdi.

- Sizə nə olub, Qanbay müəllim?
- Heç... Bir az başım ağrıyır.

Polkovnik bunu dedi və sanki özü öz sözündən heyrətləndi. Sən bir işə bax! Polkovnik Qasımlı öz ağrısını, öz dərdini kiməsə bildirirdi. Belə şey etməmişdi axı o?! Heç vaxt etməmişdi! İndi, beşcə gün bundan qabaq tanış olduğu yad, naməhrəm bir adama başının ağrıdığını bildirirdi. Bu necə oldu axı?



ekitab.ucoz.org

Amma axı ondan belə ürəklə, belə canıyananlıqla, belə şirin dillə halını soruşan da olmamışdı?! Anasından sonra Olqanı tanıyana qədər, Olqanı itirəndən sonra isə bu günə qədər.
Heç kimlə bir insan kimi yaxın münasibət
qurmamışdı, heç kəsə inanmamışdı Qasımlı. Kim soruşacaqdı ki, halını?..

Başa düşdü ki, ondan yaşca xeyli kiçik olan bu gənc qadının səmimiyyəti, istiqanlılığı və hətta sadəlövhlüyü qarşısında məğlub olmağa başlayır.

- Bu saat baş dərmanı gətirim!

- Yox, lazım deyil! - Qasımlı onu saxladı. - Daha son vaxtlar baş ağrısı dərmanı da kömək etmir, nəsə...

- Niyə həkim yanına getmirsiniz, Qanbay müəllim?

- Bura gəlməmişdən bir az əvvəl bir tanış həkim demişdi ki, gəl, özünü yoxlatdır. Amma nəsə...

- Siz qəhvəni çox içirsiniz, bəlkə də baş ağrınız ondandır. Mən eşitmişəm ki, çox içmək ziyandır qəhvəni.

- Ola bilər... - Qasımlı çiynini çəkdi.

- Siqareti də çox çəkirsiniz. Belə olmaz axı?! - Elnarə onu, sanki öz uşağı kimi danlayırdı.

Qasımlı kinayə iiə gülümsədi:

- Çalışaram, tənqidinizdən nəticə çıxarım, Elnarə xanım!

Elnarə bir az utandı:

- Yox, vallah, sizin xatirinizi istədiyim üçün deyirəm. Yaxşı olar ki, siqareti azaldasınız, içəndə meyvə şirəsi içəsiniz...

Bir an duruxub:

- Bu saat sizin üçün albalı şirəsi gətirim, - dedi və


ekitab.ucoz.org

mətbəxə getdi.

Az keçmiş əlində bir qab albalı şirəsi və təmiz fincanla qayıtdı. Fincanı şirə ilə doldurub, qabı da, fincanı da masanın üstünə qoydu.

- Qəhvə içməkdənsə, bundan için, canınıza da xeyri olsun.

Qonağının dinmədiyini görüb masadan aralandı. Yenə məxmər parçadan tikilmiş həmin ev paltarı idi əynində. Yenə saçlarını necə gəldi bağlayıb kürəyinə atmışdı. Yenə şıltaq qız uşaqlarına bənzəyirdi.

Otaqdan çıxanda, istər-istəməz, yenə divardakı saata baxdı. Dördə on beş dəqiqə qalırdı. Ürəyinə yenə bir qorxu, yenə bir narahatlıq doldu. Elə bu əhvalla da mətbəxə keçdi ki, başını bir işlə qarışdırsın.

Qasımlı qarşısındakı dolu fincana baxıb başını buladı. Və elə bu vaxt Tamerlan qapıda göründü. Mətbəxə tərəf oğrun bir nəzər salıb, əyilə-əyilə içəri girdi. Sanki albalı şirəsinin iyini duymuşdu. Gəlib Qasımlının yanında dayandı və mehriban nəzərlərlə
gah ona, gah da dolu fincana baxmağa başladı. Qasımlı yenə də fikirli idi. Sakit və quru səslə:

- İçmək istəyirsən, götür iç! - dedi.

Uşaq bu sözə bəndmiş kimi fincanı əlinə
götürdü və içindəki şirəni qurtuldadaraq axıradək içdi. Ağzının ətrafı qırmızı rəngə boyandığı üçün ətli sifəti indi daha gülməli görünürdü. Fincanı yerinə təzəcə qoymuşdu ki, anası içəri daxil oldu.

- Tomik, sən burada neyləyirsən?

Anasına cavab verməyən uşaq Qasımlıya baxıb göz vurdu. Ancaq Qasımlının ona qəribə və sanki acıqlı


ekitab.ucoz.org

baxdığını görüb dodaqlarını büzdü. Elnarə onun ağız-burnunun bulaşdığını görən kimi məsələni başa düşdü. Arxasına bir şillə çəkib:

- Sən nə həyasız uşaqsan?! - dedi və üzünü yumaq üçün vanna otağına apardı.

Qasımlı ayağa qalxıb balkona çıxdı. Həyətdəki polis işçilərinin sayı bir az da artmışdı. Onlar ikibir, üçbir dayanıb ətrafa diqqətlə göz qoyurdular. Amma polkovnik sanki heç onları görmürdü. Fikri, diqqəti tamamilə başqa yerdə idi. Yenə dodaqları bir-birinə kiplənmiş, nazik qaşları alnının ortasında düyünlənmişdi. Qəflətən geriyə dönüb otağa girdi və ev sahibəsini səslədi:

- Elnarə xanım!

Elnarə qaçaraq gəldi:

- Nədir, Qanbay müəllim?
- Natiqə zəng vurun, görək haradadır!
- Aha, bu saat!

Mobil telefonunu götürüb qardaşına zəng vurdu:

- Natiq, sən hardasan?.. Niyə?.. Kiminlə?.. İndi bu saat yeri idi bunun?.. Yox, biz heç yana çıxmamışıq. Polis işçiləri gəliblər. Həyətdədirlər. Sən Allah, ehtiyatlı ol, Natiq!

Telefonu qapadan kimi ona diqqətlə baxan Qasımlıya izahat verdi:

- Yoldadır. Aya kəndinə gedəndə sizə yolun solunda tək ev göstərdim ha, bir həmyerlimizlə ora gedir. O adam evi satın almaq istəyirmiş...

- Kimdir o həmyerliniz?
- Ramazan... Haqqında sizə danışmışdım.

Qasımlı cəld saatına baxdı. Dördə on dəqiqə



ekitab.ucoz.org

qalırdı...

- Canım, siz nə danışırsınız? - dedi. - Saat dörddə basqın buraya yox, həmin evə olacaq. Natiqi öldürmək üçün plan hazırlayıblar. Bir də zəng vurun, mən danışacam onunla.

Elnarəni titrətmə tutdu. Əlləri əsə-əsə zəng vurub, telefonu Qasımlıya verdi. Polkovnik əlaqənin yaranmasını gözləyib danışmağa başladı:

- Natiq, əzizim, səni tələyə salmaq istəyirlər. Təcili geri qayıt!

Telefonda Natiqin kinayəli səsi eşidildi:

- Siz nə danışırsınız, mən uşaq-zad deyiləm ki?! Yarım saata qayıdacam şəhərə. Yaxşı, sağ olun!

Əlaqə kəsildi. Polkovnik ev sahibəsinin ona dəhşət dolu nəzərlərlə baxdığını görüb onu sakitləşdirməyə çalışdı.

- Özünüzü ələ alın! - dedi. - Sakit olun! Mən bu saat deyərəm, oraya polis dəstəsi göndərərlər.

Öz telefonunu çıxarıb müstəntiq Fominə zəng vurdu. Onu başa saldı ki, intiqamçı gənclərin dəstəsi Seymurun yol kənarındakı evinə basqın edəcək.
Xahiş etdi ki, oraya təcili və imkan daxilində çox polis işçisi göndərilsin. Çünki bu başıpozuq cavanların dəstəsi, deyilənə görə, çox böyük idi.

Sonra balkona çıxdı. Saat dördə beş dəqiqə qalmışdı. Əsəbi halda bir siqaret yandırıb çəkməyə başladı. Həyəcandan titrəyən Elnarə də onun yanına gəldi:

- Polislər vaxtında çata biləcəkmi, Qanbay müəllim?

Onun səsi titrəyirdi. Yalvarıcı baxışlarını Qasım- lının üzünə dikmişdi. Sanki hər şey ondan asılı idi...

Polkovnik:

- Mən də onu düşünürəm. Hətta qorxuram ki, çatsalar da



ekitab.ucoz.org

bu gözü qızmış cavanların qabağını saxlaya bilməsinlər, - dedi.

- Bəs neyləyək?

- Bir dəqiqə dayanın, - Qasımlı telefonu götürüb bu dəfə Əmirxana zəng vurdu və otağa keçib danışmağa başladı:

- Əmirxan, siz haradasınız?.. Necə?! Ora Ayadan çoxmu uzaqdır? Siz Seymurun Ayaya gedən yolun solundakı evini tanıyırsınız?.. Onda, qulaq asın! Natiq bu saat oradadır. Bu dəqiqələrdə səhər sizinlə haqqında danışdığımız həmin böyük dəstə evə basqın edəcək. Özünüzü çatdıra bilməsəniz, Natiqi öldürəcəklər!

Telefonu qapayıb fikirli halda kresloda əyləşdi. Elnarə bir yerdə dayana bilmir, otaqda o baş-bu başa gəzirdi.

- Ax Natiq, ax! Sən necə aldanırsan axı o əclafa?!

Sonra birdən-birə sakitləşib dayandı. Yaxına gəlib kiçik masanın qarşısında dizləri üstə çökdü. Dodağını bərk-bərk dişləyib aciz baxışlarla qonağına baxdı və:

- O xilas ola bilərmi? - deyə soruşdu.

Qasımlı bir qədər susub, nəhayət, təmkinli səslə dilləndi:

- Mən əlimdən gələni etdim. İndi hər şey Əmir- xangilin maşınlarının hansı sürətlə hərəkət edə bilməsindən asılıdır. Elnarə ağlayırdı...

# İyirmi ikinci fəsil

Həmin vaxt Natiqin maşını artıq «İlanlı ev»ə çatmaq üzrə idi. Natiqin yanında oturub dirsəyini açıq pəncərədən çıxarmış Ramazan ara vermədən danışırdı:

- Mən Serafimovun ölümünü bura gələndə eşitdim. Biləndə ki, buna görə Seymuru tutublar, inan ki, başım xarab oldu. Heç Seymur elə iş tutar? Atamın canı üçün,



ekitab.ucoz.org

Natiq, özün yaxşı bilirsən, mən Seymurun firmasından ayrılsam da, Seymurun, ya elə sənin dırnağını yüz Serafimova dəyişmərəm. Necə olmasa, həmyerliyik, neçə illər çörək kəsmişik. İndi oldu da, Elnarə istəmədi məni, ayrıldıq. İndi, deməli, bacımdı o da mənim... Seymurun tutulması
mənə o qədər pis təsir edib ki, daha nə deyim...
Həm də günahsız yerə! Bu işi, məncə, ancaq Sergey edə bilər. Mən, şəxsən, ondan şübhələnirəm. Serafimov onu işdən çıxartmışdı, o da qisasını aidi. Bu müstəntiqin başı xarabdı, ya nədi, bilmirəm niyə anlamır belə sadə şeyi?

- Sən fikirləşən qədər də sadə məsələ deyil bu. - Natiq qayğılı səslə fikrini bildirdi.

- Yox! - Ramazan etiraz etdi, - Atamın canı üçün, indi görəcəksən, axırda məlum olacaq ki, Sergey eləyib bu cinayəti.

Natiq daha dinmədi. Artıq çatmışdılar. Maşını yolun kənarında saxlayıb yerə endilər və qayalığa söykənmiş kiçik evin yaşıllıqla örtülmüş həyətinə girdilər. Həyətin ətrafına alçaq taxta hasar çəkilmişdi. İçərisini başdan-başa hündür ot və alaqlar basmışdı.
Buna görə də evə doğru gedən nazik daş cığır güclə nəzərə çarpırdı.

- Ehtiyatlı ol, ayağının altında ilan qalmasın! - Natiq xəbərdarlıq etdi.

Elə bunu demişdi ki, cığırda yatmış sarı bir ilan xışıltı salaraq sürünüb qalın otluğa girdi. Ehtiyatla addımlayıb düz evin qabağına gəldilər. Cəmi dörd- beş pilləsi olan pilləkənlə qalxıb açıq eyvana çıxdılar. Natiq evin qapısını açdı və boş bir otağa daxil oldular. Çılpaq divarların


ekitab.ucoz.org

darıxdırıcı bir görkəmi var idi. Natiq ətrafına göz gəzdirib, üzünü Ramazana tutdu:

- Özün bilərsən, Ramazan, ancaq mən yenə anlaya bilmədim ki, şəhərin içindəki gül kimi mənzili bununla niyə dəyişmək istəyirsən.

Ramazan Elnarədən ayrılandan sonra Seymurun toyda bağışladığı mənzil ona qalmışdı. İndi, özünün deməyinə görə, o mənzili bu həyət evi ilə dəyişmək istəyirdi.

- Bilirsən, Natiq, - Ramazan nəyə görəsə küçə tərəfə baxan yeganə pəncərədən boylanıb dilləndi, - birincisi sənə dedim ki, istəyirəm həyətim olsun, pomidordan, xiyardan əkib-becərə bilim. İkincisi də, düzünü soruşsan, bir az pula da ehtiyacım var. Seymur özgəsi deyil, hər halda, bu evin üstündə bir az pul da verəcək.

- Niyə belə deyirsən? - Natiq kinayə ilə gülümsədi. - Bura yəni belə pis yerdir? Böyük həyəti var, yolun kənarındadır...

Ramazan bic-bic güldü:

- Yaxşı, Natiq, mənə yox da! Alan olsaydı, indiyədək satardınız. Bir ildən çoxdur, soraqlaşıb müştəri axtarırsınız. İlanlara görə heç kəs yaxın durmur.

- Bəs sən necə yola gedəcəksən bu ilanlarla?

- Mən ilandan qorxmuram, - Ramazan qürrələndi. - Bizim kəndimizdə ilan çox olurdu.

- Nə deyirəm... - Natiq çiynini çəkdi. - İndi ki, sən belə istəyirsən, məncə, Seymur da razılaşar. Lap elə pul da verər üstündə. Əslində, doğrudan da, ciddi bir problemin varsa, pulu elə-belə də verərdi. Təmənnasız... Nə məsələdir, bilmək olar?

- Yox, çox sağ olun! - Ramazan qətiyyətlə əlini yellədi.


ekitab.ucoz.org

- Sən də, Seymur da! Allah onun işini avand eləsin! Bu evləri dəyişib, üstündə mən deyən pulu versə, bəsimdir. Elə o mənzili də Seymur vermişdi
bizə. - Susub ah çəkdi. - Gətirmədi mənimki, neyləyim?..

Natiq yaxşı bilirdi ki, onların ayrılması Ramazanın yox, öz bacısının təkidiylə olub. Ona görə də nifrət edə bilmirdi bu adama. Necə olmasa öz həmyerlisi idi. Seymurla dost olsa da, onu Ramazandan qat-qat üstün tutub bacısıyla ailə qurmasına sevinsə də, hələ Elnarəni tam başa düşə bilmirdi. Doğrudanmı, Elnarə Ramazanı ancaq o xəyanətinə görə, yəni anbarı satıb-sovurub yandırdığına görə rədd elədi? Dilinə gələni saxlamaq istəmədi:

- Gətirmədi deyəndə ki, özün əclaflıq elədin, gərək bunu unutmayasan.

Ramazan yenə ah çəkib başını buladı:

- Olan olub, keçib daha. Bir qələt idi, elədim.
Elə bilirsən peşman deyiləm? Lap it kimi peşmanam!

- Nə isə!.. - Natiq əlini yellədi. - Köhnə söhbətləri qurdalamayaq. Getmək lazımdır. Mən indi idarədə olmalıydım. Seymuru buraxsınlar, həll edərik bu ev məsələsini. Mən də çalışaram, haqq-hesab sənin ürəyincə olsun. Hə, nə durmusan? Baxmaq istəyirdin, baxdın, gördün. Yoxsa hələ fikirləşirsən?

- Yox, nə fikirləşmək?.. Mənim fikrim qətidir. - Ramazan astadan mızıldandı.

- Səni məcbur edib, tələsdirən də yoxdur. Nə qədər istəsən, fikirləşə bilərsən. Hələ bir Seymur çıxsın oradan...

Natiqin sözü ağzında qaldı. Küçə tərəfdə uğultu eşidib hər ikisi pəncərəyə yaxınlaşdı. Yolun o biri kənarında iki avtobus dayanmışdı. Bu avtobuslardan



ekitab.ucoz.org

tökülmüş əllidən çox adam həyət qapısının ağzını doldurmuşdu. Hamısının əlində dəmir, taxta dəyənəklər və daş var idi. Ulama və bağırtı səsləri həyəti başına götürmüşdü.

Natiq o saat işin nə yerdə olduğunu anladı. Bu, həmin o dəstə idi. Pavel Serafimovun və Radik Bos- kanyanın intiqamını almaq istəyən millətçi cavanların dəstəsi...

Qorxu və həyəcandan titrəyən Ramazan pəncərədən boylanıb, həyətə doluşan cavanların arasında qara, uzun saçlı, üzü tüklü adamı görəndə bir az özünə gəldi.

Onda hələ lap uşaq idi... Özündən iki yaş böyük qardaşıyla həyətdə topla oynayırdılar. Qardaşı topu necə atdısa kiçik bir armud ağacının budağı sındı. O, bərk qorxuya düşüb Ramazana dönə-dönə tapşırdı
ki, bunu atasına bildirməsin. Axşamüstü ataları işdən qayıdanda yeni əkdiyi armud ağacının budağını o vəziyyətdə gördü və bunu kimin etdiyini soruşdu. Ramazan yaxınlaşıb budağı qardaşının sındırdığını atasının qulağına pıçıldadı. Atası onun başını sığallayıb qardaşını çağırdı və əlinə bir çubuq alıb onu yaxşıca kötəklədi. Başına çəkilmiş həmin sığal Ramazanın xarakterində də, sonrakı həyatında da öz təsirini göstərdi. Sonralar da başı çox sığallar gördü, çox adamlar kötəkləndi onun ucbatından..

Amma onda atası onun başına, sadəcə, sığal çəkmişdisə, indi Konstantin Surkovun ən yaxın adamı olan Nikolay ona yaxşıca pul vəd etmişdi. Onda atası qardaşını, sadəcə, kötəkləmişdisə, indi heç nədən, heç kəsdən qorxuları olmayan bu adamlar Natiqi öldürəcəkdilər...

Nikolayı bu başıpozuq gənclərin arasında görəndə, doğrudan da, bir az rahatlandı. Deməli, sözünün üstündə


ekitab.ucoz.org

durmuşdu Nikolay. Deməli, onu xilas edəcəkdi bu dəstənin əlindən. Bəlkə də artıq, bu cavanlara deyib onun haqqında. Deyib ki, o bizim adamdır, ona toxunmayın.

Pəncərədən gözünü çəkən Natiq Ramazana baxan kimi hər şeyi başa düşdü. Başa düşdü ki, tələ qurulub ona. Ev dəyişmək-filan hamısı boş söhbət imiş, sən demə! O da dedi axı ki, sənə tələ qurublar. Bakıdan gələn xəfiyyə... Qanbay müəllim...

Dişlərini qıcayıb Ramazanın çənəsinə var gücü ilə bir yumruq vurdu:

-Alçaq!!!

Ramazanın alt dodağı parçalandı. Axan qan çənəsinə doğru süzülməyə başlayanda əlini
çənəsinə aparıb Natiqə nifrətlə baxdı.

- Öl! Canın çıxsın! - deyib, qapını açaraq eyvana atıldı.

Amma elə o anda da üstünə yağdırılan daşların bir neçəsi ona dəydi və yenidən qaçıb otağa girdi. Natiqə zillənmiş baxışlarında indi nifrət yox, dəhşətli bir qorxu duyulurdu.

Pəncərəyə eyni zamanda bir neçə daş atdılar. Şüşələr çilik-çilik olub yerə töküldü. Vəziyyət həddindən artıq təhlükəli idi. Bu təhlükənin ağırlığı artıq Natiqin daşa dönmüş sifətində də aydın duyulurdu. O, qapının cəftəsini vurmaq istəyən Ramazanı nifrətlə kənara itələyib, belindəki tapançasını çıxartdı.

Həyətə doluşub bütün ətrafı bürümüş dəstə əlində tapança eyvana çıxan gənc polis zabitini gö
rəndə qışqırıq səsləri bir az da gücləndi:

- Nə durmusunuz, vurun bu əclafı!
- Öldürün, öldürün!
- Sənin işin bitdi, azəri küçüyü!



ekitab.ucoz.org

- Sənin başını əzəcəyik bu saat!

Natiq göyə dalbadal iki güllə atıb həyəcanlı səslə çığırdı:

-Ağlınızı başınıza yığın, sonra sizin üçün çox pis olacaq!

Sonra, eyvana atılan bir gənci təpiyi ilə vurub aşağı saldı.

- O tapançanı sal aşağı, köpək oğlu, səni onsuz da parçalayacağıq!

Bunu əlində iri bıçaq tutmuş bir oğlan dedi və Natiq onun ləhcəsindən erməni olduğunu başa düşdü. Elə onun ətrafına yığılanların da bir çoxu erməniyə oxşayırdı.

Kiminsə atdığı daş çiyninə dəydi. Sol əli ilə ağrıyan çiynini tutub nə edəcəyini fikirləşdi. Nə etsin? Atəş açıb bir neçəsini vursunmu? Amma bununla uzağı dörd nəfəri sıradan çıxara bilərdi. Sonra daha da azğınlaşmış cavanlar onu parça- parça edəcəkdilər burada.

Belə fikirləşsə də, ona tərəf atılan daş seli gurlaşanda, özündən asılı olmayaraq, tapançasındakı dörd güllənin dördünü də izdihama tərəf boşaltdı. Amma bunun heç bir müsbət nəticəsi olmadı. Deyəsən, təkcə bir nəfəri qolundan yaralaya bilmişdi. Dəstə müdhiş bir səslə ulayıb əllərindəki daşları ona tullayanda qaçıb yenidən özünü otağa saldı.

Ramazan bir küncdə büzüşüb dayanmışdı. Qorxudan çənəsi boşalıb sallanmış, gözləri bərəlmişdi. Natiq telefonunu çıxarıb tələsik polis idarəsinə zəng vurdu. Düşdüyü çıxılmaz vəziyyəti izah edən kimi, ona dedilər ki, bu barədə məlumatları var və artıq polis dəstəsi yola çıxıb.

Natiq bu xəbərdən sonra qismən də olsa sakitləşdi. İndi ancaq birtəhər vaxtı uzadıb bu adamların qarşısını saxlamaq lazım idi... Ancaq necə? Sürətlə ötüşən saniyələr ancaq onun ziyanına işləyirdi. Həyəti başına götürmüş bağırtılar



ekitab.ucoz.org

getdikcə vəhşiləşirdi:

- Yandırın, evi yandırın!

Bir neçə alovlanan məşəli pəncərədən içəri tulladılar. Natiq onları ayağı ilə söndürməyə çalışsa da, bu alınmadı. Ətrafa sıçrayan alovlanmış neft damcıları quru taxta döşəməni alova bürümək üzrə idi...

Natiq artıq başa düşdü ki, gecdir, polis gəlib çata bilməyəcək... Bildi ki, ya burada yanıb kül olacaq, ya da gözlərini qan tutmuş bu adamlar onu parçalayacaqlar. Elnarəni xatırladı. Eşidəndə nə hala düşəcək, yazıq?.. Qarşısında durmuş Ramazanın qorxudan saralmış sifətinə baxıb:

- Niyə belə elədin, Ramazan, mən sənə neyləmişdim? - dedi.

Ramazan dinmədi. Gözünün altına dəymiş bir daş onun sifətini əcaib hala salmışdı.

- Sənə pul lazım idisə, məndən istəyə bilməzdinmi? İndiyədək nə istəmişdin, verməmişdim?

Natiqin gözləri dolmuşdu, ya bəlkə də otağı bürüməkdə olan tüstünün təsirindən yaşarmışdı gözləri...

- Sənə qurban olum, bağışla, Natiq! - Ramazanın, nəhayət, dili açıldı.

Natiq dişlərini bərk-bərk qıcayıb, belindəki qayışa taxılmış iri bıçağı çıxartdı.

- Gəl çıxaq!

- Hara? - Ramazan heyrətləndi.

- Necə hara?! Yoxsa istəyirsən bu erməni dığaları bizi burada siçovul kimi yandırıb ləzzət alsınlar?! Hə?! Çıxaq vuruşaq, heç olmasa öləndə kişi kimi ölək! Millətin adını



ekitab.ucoz.org

rüsvay eləməyək!
Alov dilimləri artıq onları bürümək üzrə idi.

- Nəylə vuruşacağıq? - Ramazan dili topuq vura-vura soruşdu.

- Əlimizlə, dişimizlə! - Natiq bunu deyib bıçağı ona uzatdı. - Al bunu, mən yalın əlimlə vuruşaram. Al dedim!

Ramazan əlləri əsə-əsə bıçağı aldı. Tüstüdən boğulan Natiq qapını açıb eyvana çıxdı. Bu zaman Ramazan onun arxasında gizlənməyə çalışırdı.

Onları görən dəstə yenidən əllərindəki dəmir parçalarını havada yelləyərək bağırışmağa başladı. Natiq kiçik pilləkənin başına gəlib əllərini yanlara açdı və dəhşət ifadə edən bir səslə çığırdı:

- Gəlin, hamınız gəlin üstümə! Sizin hamınızın ananızı, bacınızı...

Dəstənin uğultulu səsi daha da gücləndi. Natiq eyvana çıxan bir gənci yumruqla vurub yıxdı. Həmin an kiminsə atdığı daş başına dəyib dərisini
parçaladı. İkinci daş sinəsindən tutdu. Sonra daha biri atıldı... Sonra daha biri...

Bu vaxt... həyət qapısının qarşısında qəfil basılmış əyləcin çıxardığı kəskin səs eşidildi və hamı istər-istəməz əl saxlayıb küçəyə baxmağa məcbur oldu.

Küçədə iki «Pajero» markalı avtomobil dayanmışdı. Qapıların hamısı birdən açıldı və əllərində avtomat silahlar tutmuş səkkiz gənc maşınlardan yerə atılıb həyətə yüyürdülər. Onlardan biri dərhal əlindəki avtomatı yuxarı qaldırıb atəş açdı. Başlarının üstündən uçuşan güllələrin səsi gözləri qızmış cavanları vahiməyə salıb sakitləşdirdi. Ən əsası isə, onlar gələn dəstənin başındakı şir ürəkli gənci


ekitab.ucoz.org

tanımışdılar. Bu, Əmirxan idi!..

O, əlindəki silahı havada yelləyərək ucadan:

- Kənara çəkilin, yoxsa hamınızı it qıran kimi qıracağıq! - dedi.

Cəsarətlə deyilmiş bu sözlər intiqamçı cavanların çoxunun iradəsini əlindən aldı. Hətta kənara çəkilib ona yol verənlər də oldu. Əmirxan sol əli ilə dəstəni yara-yara pilləkənə yaxınlaşıb yanmaqda olan evin eyvanında dayanmış Natiqə aşağı enməyi işarə etdi.

Natiqin arxasınca pillələri enən Ramazan qorxa- qorxa cavanların arasından keçəndə Nikolayı görüb ona yaxınlaşdı. Baxışları ilə bayaqdan onu izləyən Nikolay birdən, gözlənilmədən əlindəki bıçağı Ramazanın böyrünə soxub burdu və dərhal kənara çəkilib cavanlara qarışdı.

Bu zaman Əmirxan Natiqin qolundan tutub dartaraq onu dəstənin içindən çıxartdı və maşınlara
tərəf apardı. Onun adamları əllərindəki silahları dəstəyə tuşlayaraq arxaya doğru çəkildilər. Hansısa biri cəld Natiqin maşınının sükanı arxasına keçdi və hər üç maşın eyni vaxtda hərəkətə gəlib Aya kəndi istiqamətində yola düşdü.

Özlərini itirmiş gənclər yalnız bundan sonra ayılıb, otluğun içinə yıxılmış Ramazanı tapdaya- tapdaya küçəyə şığıdılar. Gəldikləri avtobuslara doluşub onları şəhərə tərəf sürdülər və bir neçə dəqiqə sonra tüstülənməkdə olan tənha ev xeyli arxada qaldı.

Şəhərdən böyük sürətlə Aya kəndi istiqamətində şütüyən dörd polis maşını qarşıdan gələn iki avtobusla rastlaşanda «İlanlı ev»ə çatmağa cəmi bir neçə kilometr qalmışdı. Polis əməkdaşları bu avtobuslardan şübhələnsələr də onları saxlamağa



ekitab.ucoz.org

cəhd göstərmədilər və öz maşınlarını bir də hadisə baş vermiş həyətin qarşısında saxladılar. Maşından düşüb tüstüyə bürünmüş həyətə girəndə ilk rastlaşdıqları Ramazanın yerə sərilmiş meyiti oldu...

# İyirmi üçüncü fəsil

Bu gecə polkovnik Qasımlının Altayda keçirəcəyi axırıncı gecə olacaqdı. Sabah, günortadan sonra Novosibirskə yola düşməliydi. Oradan gecə reysi ilə Bakıya uçmaq üçün.

Seymurun mənzilində kresloda əyləşmişdi. Şam yeməyini yeyəndən sonra yerli qəzetlərə baxırdı.

Halı günortadakına nisbətən xeyli yaxşı idi. Ağrıları sakitləşmişdi. Əhvalının yaxşılaşmasının bir səbəbi dilli-dilavər ev sahibəsinin ona göstərdiyi səmimi münasibət idisə, bir səbəbi də apardığı təhqiqatın müsbət nəticəyə yetişməsi idi.

Natiq acınacaqlı bir ölümün pəncəsindən xilas olmuşdu. Nə yaxşı ki, nə yaxşı ki, təcrübəli xəfiyyə

iyunun 8-də Seymurun mənzilində baş vermiş müəmmalı cinayətin düyününü tez açdı, vaxtında açdı. Yoxsa bu gənc, igid, mərd polis zabitini, Elnarənin sevimli qardaşını heç cür xilas etmək olmayacaqdı.

Bəli... Qasımlı artıq araşdırdığı qaranlıq cinayətin düyününü açmışdı. Bilirdi ki, cinayətin planı necə qurulub, hadisələr necə cərəyan edib. Başqa cür ola da bilməzdi. Polkovnik öz gəldiyi nəticəyə tamamilə əmin idi. Elə ona görə də müstəntiq Fominlə danışıb onu sabah günorta üçün Seymurun mənzilinə nahara dəvət etmişdi. Xahiş etmişdi ki, prokurorun, Seymurun özünün və iyunun 8-də burada baş tutmamış naharın bütün sağ qalmış iştirakçılarının deyilən vaxtda mənzilə yığılmasını təmin etsin. Hər şey onda



ekitab.ucoz.org

açılacaqdı.

Bəlkə də polkovnik Qasımlının əlində məhkəməni inandıra biləcək təkzibedilməz sübutlar yox idi. Amma inanırdı ki, hadisənin sirrini açmaqla Seymuru şübhədən xilas edə biləcəkdi. Ona da, əslində, elə bu lazım idi. Bakıdan buraya yalnız Seymuru ağır şübhələrin torundan xilas etmək üçün gəlmişdi.

Polkovnik bu saat yaxşı bilirdi ki, Konstantin Surkovun onu aradan götürməkdən böyük arzusu yoxdur. Onu və bir də Yelena adlı o qadını. Əmirxana görə Yelenadan arxayın idi. Bilirdi ki, bu tatar balası qadını istintaq üçün qoruyub saxlaya biləcək. Özünə gəldikdə isə, etibarlı yerdə olduğu üçün heç nədən qorxusu-filanı yox idi.

Elnarə şux yerişlə otağa girib qonağı üçün bir fincan meyvə şirəsi gətirdi. Yaman şən görkəmi var
idi. Bir də ki, niyə də olmasın? Natiq ölümdən qurtulmuşdu. Bir az əvvəl bacısına bir daha zəng vurub bildirmişdi ki, polis idarəsindədir. Xatırlatmışdı ki, bu gecə növbətçi olduğu üçün evə gəlməyəcək. Bir də əziz qonağı ona bildirmişdi ki, Seymuru sabah evə buraxacaqlar. Bunu eşidəndən sonra sevincindən lap az qalırdı ki, uçsun. Yeriyəndə beldən aşağı hissələrini elə yellədirdi ki, yenə də əyninə boş olan şalvar və qısa xalat geyinməyinə baxmayaraq mütənasib bədən quruluşu bütün gözəlliyi ilə özünü büruzə verirdi. Qasımlı yaxşı başa düşürdü ki, gənc ev sahibəsi belə yerişi ilə cazibədar bədənini göstərmək fikrində deyil. Bilirdi ki, sadəcə, yerişi belədir Elnarənin.

- Buyurun için, qarışıq meyvələrin şirəsidir.
- Çox sağ olun!

Elnarə qonağı ilə üzbəüz əyləşib, ayağını ayağının



ekitab.ucoz.org

üstünə aşırdı. Yalvarış dolu baxışlarını məzəli bir şəkildə Qasımlıya dikib:

- Mənim ürəyim maraqdan partlayacaq, Qanbay müəllim, - dedi. - Həmin gün nə baş verib bizim evimizdə? Kim zəhərləyib o kişini?

Qasımlıya elə gəlirdi ki, bu qadınla münasibətdə olduğu bir neçə gün ərzində onun daxilini tamamilə öyrənə bilib. Onun fikrincə, Elnarənin qəlbi xain hisslərdən, riyakarlıqdan, paxıllıqdan, bir sözlə, insanın daxilini heçə döndərəndən sonra üzə çıxıb xarici görkəmini də bir qəpiklik edən pis duyğulardan uzaq idi. Bu qadının xarici görkəmini də çox bəyənmişdi. Qadını gözəl göstərə bilən, cəzbedici edən hər şey var idi onda. Nurlu sima, həyalı işvə, qəşəng əndam, incə yeriş... Bir sözlə, hər şey!
Amma bu qadına qarşı onda yaranmış pak, səmimi və mehriban münasibət daha çox Elnarənin daxili təmizliyi ilə bağlı idi.

Təmiz idi Elnarə... Gördüyünü gördüyü kimi anlayırdı, eşitdiyini eşitdiyi kimi, danışdığını danışdığı kimi. Belələri, Qasımlının fikrincə, çox az idi. Hətta həddindən artıq az idi. Adamların çoxu gördüklərinin görünməyən tərəfini eşələyirdi, eşitdiklərinə inanmayıb içindən pis bir şey axtarırdı, danışdıqlarını ölçüb-biçib, qarşısındakını aldatmaq, çaşdırmaq üçün danışırdı. Lap xəfiyyələr kimi... Polkovnik Qasımlı və onun kimi xəfiyyələr qalmışdı bir kənarda, hamı özünü xəfiyyə hesab edirdi. Hamı özünün biclik, hiyləgərlik, heç kəsə inanmamaq və hamını aldada bilmək xüsusiyyəti ilə fəxr edir, bundan həzz alırdı.

- Məni heç kəs aldada bilməz! - deyirdilər belələri.
- Mən dünyada heç kəsə inanmıram! - deyirdilər.


ekitab.ucoz.org

- Mən hər bir adamı üzünə baxan kimi tanıyıram! - deyirdilər.

- Buna bax, aləmə mən fırıldaq gəlirəm, bu da mənə! - deyirdilər.

Elnarə kimilər haqqında isə:

- Zəmanə adamı deyil! - deyirdilər.
- Avamdır, sadəlövhdür! - deyirdilər.
- Fağırın biridir, heç kəslə işi yoxdur! - deyirdilər.
- Mal balası maldır! - deyirdilər.

Amma Qasımlının əqidəsinə görə, özündən razı olan elələri daha avam, daha kütbeyin, daha bədbəxt idilər. Çünki ətraflarında özlərinə qarşı məhəbbət qazana bilmirdilər. Öz «xəfiyyə» xarakterləri ilə onları tanıyanların nifrətini qazanırdılar. Beş adamın yanında bir qara qəpiklik qiymətləri olmurdu. Üzdə elələrindən qorxsalar da, üzünə gülsələr də arxasınca «Alçağın biridir!» deyirdilər. Nəticədə Elnarə kimiləri belələrindən daha uca, daha güclü görünürdü. Çünki belələri öz səmimilikləri, təmizlikləri, hətta «sadəlövhlükləri» ilə başqalarında özlərinə qarşı hörmət oyatmaq gücünə malik idilər.

Hiyləgərlikdə özlərini xəfiyyə hesab edən çoxbilmişlərin, xain xislətli adamların yüzünü, minini qatlayıb cibinə qoymağı bacaran polkovnik Qasımlı saf qəlbli Elnarənin qarşısında az qala uşaqlaşırdı. Hiss edirdi ki, bu gənc qadın öz təmənnasız mehribanlığı, təmiz qəlbliliyi ilə onun dəmirdən möhkəm xarakterinə təsir edib, dəyişdirmək gücünə malikdir.

Ev sahibəsinə üzrxahlıq ifadə edən təbəssümlə baxıb:

- Gəlin, bu axşam başqa şeylərdən danışaq! - dedi. - Səhər hər şey aydın olacaq.



ekitab.ucoz.org

Bu vaxt Tamerlan otağa daxil olub onların yanına gəldi. Anasının dizini qucaqlayıb:

- Bəs Natiq dayı gəlməyəcək? - deyə soruşdu.

Elnarə əlini onun başına çəkdi:

- Dedim axı, Tomik, dayın bu gecə işdə olacaq.
- Bəs atam haçan gələcək?
- Atan da sabah gələcək.
- Gələcək? - uşaq sevindi. - Velosiped gətirəcək?
- Hə.
- Qanbay dayı da bizdə qalacaq?
- İstəyirsən qalsın? - Elnarə gülümsər baxışlarla qonağa baxıb, oğlundan soruşdu.
- Hə! Həmişə bizdə qalsın.

Elnarə güldü:

- Həmişə necə qalsın? Sabah çıxıb gedəcək Bakıya.
- Yox, qoy getməsin! - Tamerlan narazı halda başını buladı.
- Yaxşı, deyərik, getməz. Sən yatmaq istəyirsən?

Uşaq dinmədi. Elnarə ayağa qalxıb:

- Bunu yatırdıb gəlirəm, - dedi və oğlunun əlindən tutub yataq otağına apardı.

Qasımlı arvadını, qızını xatırlayıb kədərləndi. Ailə həyatı necə də gözəl idi... Ya uşaq olasan belə bir anan olsun, ya valideyn olasan belə bir uşağın olsun. Övladının sevinci ilə sevinəsən, bir problemi varsa onu aradan qaldırmağa çalışasan. Qasımlı isə bütün bu hisslərdən məhrum idi. Tək qalmışdı və bütün həyatını yalnız öz peşəsinə sərf etmişdi. Peşəsi də ki... Cinayətlər haqqında, bu cinayətlərin sirrinin açılması haqqında düşüncələr. Düşüncələr, şübhələr... Şübhələr, düşüncələr...



ekitab.ucoz.org

Amma bu gün, doğma Bakıdan çox-çox uzaqda yerləşən bu şəhərdə keçirəcəyi bu son gecədə, yaxud yatana qədərki bir neçə saatda peşəsini unudub adi bir insan olmaq istəyirdi.

Belə bir arzuya düşməsinə səbəb nə idi görəsən? Heç belə duyğusal olduğu yadına gəlmirdi.
Olmuşdusa da, çox az-az olmuşdu belə hallar. Bəlkə bunun səbəbi Elnarə idi? Hə, əlbəttə, Elnarə idi. Qasımlının fikrincə, onun kimi insan, doğrudan da, çox az idi. Qarşısındakı insana yalnız müsbət emosiyalar verən, onu fərəhləndirən, yaşamağa- yaratmağa sövq edən, qəlbini nurla dolduran insan. Belə adamla, yəni Elnarə kimisi ilə nə qədər istəyirsən danış. Ehtiyat etmədən, çəkinmədən, onun danışığında sətiraltı məna axtarmadan, sözlərinə qulaq verə-verə nə düşündüyünü araşdırmadan. Təki qəlbinə dəymə, incitmə, amma nə danışırsan, danış...

Elnarə uşağı yatırdıb geri qayıtdı. Yenə Qasımlı ilə üzbəüz əyləşib gülə-gülə:

- Bir yaxşı xasiyyəti var ki, yerinə girən kimi yatır, adamı incitmir, - dedi.

- Çox yaxşı uşaqdır. - Qasımlı da bunu dedi və söhbətə birinci başlamaq istədi. - Heç Azərbaycan üçün, kəndiniz üçün darıxırsınız?

- Burada günümüz Seymurla çox xoş keçir. Ətrafımızda yaxşı adamlar da az deyil. Ona görə də bir o qədər darıxmıram. Kənddə də elə yaxın adam qoyub gəlməmişəm. Ata-anam, ikisi də avtomobil qəzasında həlak olmuşdular...
- Allah rəhmət eləsin!

- Allah sizin də ölənlərinizə rəhmət eləsin, - alt dodağını dişləyib bir anlıq susandan sonra davam etdi. - Bir qardaşım


ekitab.ucoz.org

qalıb kənddə. Onun da arvadı heç yola getmirdi mənimlə. Dərsdən gələndən axşama kimi işlədirdi. Dili də ki, zəhər... Ancaq... Bilirsiniz, hərdən nə düşür yadıma? Yazbaşı qar əriyəndən sonra torpaqdan güclü bir ətir gəlirdi burnuma. Baxın, o düşür yadıma hərdən, kövrəlirəm. Burda bir az başqa cürdür torpağın ətri...

- Hə, - Qasımlı təsdiq etdi.

Elnarə söhbəti dəyişmək istədi:

- Hava limanında Moskvadan gələn o polkovnik sizin ailənin başına gələni danışdı. Allah rəhmət eləsin... Bəs sizin atadan, anadan, bacıdan, qardaşdan kiminiz var?

Qasımlı bir anlıq duruxub, sonra danışmağa başladı:

- Heç kimim yoxdur. On iki yaşım olanda evimizdə qaz sobası partladı. Atam da, anam da həlak oldular. Mən həyətdə uşaqlarla oynayırdım onda... Əsgərlikdə Moskvaya düşdüm. Daxili qoşunlarda qulluq edirdim. Hərbi xidməti qurtaran kimi mənə cinayət axtarış bölməsində iş verdilər. O vaxtdan düz on beş il işlədim Moskvada. Olqa adlı bir tatar qızı ilə evləndim... Qalanını bilirsiniz daha...

- Sevirdiniz onu? - Elnarə kədərlə soruşdu.

Qasımlı fikirli halda başını tərpətdi.

- Oy!.. Bu ki, dəhşətdir!

- Sizi də kədərləndirdim... - Qasımlı üzrxahlıq etdi.

- Eybi yoxdur, - qadın gülümsəməyə çalışdı. - Mən bu saat sizin üçün qəhvə gətirim. Görürəm, meyvə şirəsini sevmirsiniz.

Qalxıb mətbəxə getdi. Gec qayıtmağından və gözlərinin nəmliyindən Qasımlı onun mətbəxdə ağladığını başa düşdü.



ekitab.ucoz.org

Hissiyyata qapılıb danışdıqlarına peşman oldu. Mövzunu dəyişmək üçün:

- Uşaq yatıb? - deyə soruşdu.

- Bəli, yatıb, - Elnarə qəhvə fincanını masanın üstünə qoyub yerində əyləşdi. - Çox sakit uşaqdır. Sakitlikdə Seymura oxşayıb. Mən uşaqlıqda belə olmamışam. Çox dəcəl idim...

Bir anlıq dayanıb, yenə bayaqkı söhbətə qayıtdı

-Ata-ananızı xatırlayırsınız, Qanbay müəllim?

Ev sahibəsi sualı elə səmimiyyətlə verirdi ki, qaraqabaq xəfiyyə danışmaya bilmirdi:

- Xatırlayıram, - dedi. - Anam uşaq həkimi idi. Çox mülayim, mehriban bir qadın idi. Atam isə, onun tamam əksinə olaraq, çox ciddi, sərt, qaraqabaq adam idi. Hərbidə işləyirdi. Mayor rütbəsində... Mən onu çox az-az görürdüm. Amma doğrudan da, çox qaraqabaq idi. Bəlkə də inanmazsınız, mən onu tək bircə dəfə gülümsəyən görmüşdüm. Bir dəfə masanın arxasında oturub dərsimi hazırlayırdım.
Atam isə divardan asılmış güzgünün qarşısında dayanıb üzünü qırxırdı. Masanın üstündə qənd yığılmış bir qab var idi. Mən bu qənddən birini götürüb yemək istəyirdim. Amma düşünürdüm ki, atam görsə acıqlanacaq. Neçə dəfə demişdi ki, qənd yemək üçün deyil, çayla içmək üçündür. Dediyim kimi, atamın arxası mənə tərəf idi. Divardakı güzgüyə nəzər saldım. Orada atamın gözləri aydın görünürdü. O, sanki mənə baxırdı. Düşündüm ki, bu onun əksidir, özü deyil. Bir də onu düşündüm ki, mən güzgüdə öz əksimi görmürəmsə, deməli, atam da məni orada görmür. Güzgüyə baxa-baxa əlimi uzadıb bir qənd götürdüm və


ekitab.ucoz.org

həmin anda atamın güzgüdəki əksinin gülümsədiyini gördüm. Sən demə, o məni güzgüdə görürmüş. Bu avamlığımı yadıma salanda indi də xəcalət çəkirəm.

Elnarə gülməkdən uğunub getmişdi. Nəhayət, özünü birtəhər ələ alıb danışmağa başladı:

- Siz yenə yaxşı olmusunuz, Qanbay müəllim, mən lap betər avam olmuşammış. Deməli, anam konfeti məndən gizlədirdi, qoymurdu götürüb yeməyə. Mən də gizlicə gedib konfetdən birini-ikisini götürürdüm, konfeti yeyəndən sonra üz kağızını qəndə büküb qoyurdum yerinə. Guya ki, konfetin azalmağını hiss etməsin anam. Bir dəfə nə olsa yaxşıdır? Evə bir kişi gəlib, anam da konfetdən ovucla götürüb töküb konfet qabına. Qonaq çay içmək üçün əlini uzadıb bundan birini götürdü, açanda gördü ki, balam, bunun içindəki konfet deyil, qənddir. Mən də masanın yanında dayanıb baxıram. Bunu görəndə ürəyim düşdü. Dedim, bu saat burada bir qiyamət qopacaq. Ancaq qonaq qəndi sakitcə
ağzına qoyub başladı çayını içməyə. Bir azdan ağzındakı qənd əriyib qurtardı. Gözucu konfetqabına baxıb, nə düşündüsə, bu dəfə əlini qənd qabına uzatdı və oradan qənd götürdü. Yəqin fikirləşib ki, nə fərqi var, hər iki qabdakı onsuz da qənddir. Bir də əziyyət çəkib kağızını açmaqdansa, elə açıq qənd götürmək daha sərfəlidir... Nə isə!.. Yaxşı ki, anam onda bir şey hiss eləmədi. Sonradan bildi mənim işimi. Bildi, həm də yaxşıca kötəklədi. Amma onu da deyim ki, o qonağı, yaşlı bir kişi idi, ondan sonra həmişə görəndə utandığımdan gözünə görünmürdüm.

Elnarə söhbətini gülə-gülə tamamladı. Ən qəribəsi isə o idi ki, Qasımlı da gülürdü, özü də əməlli-başlı gülürdü.



ekitab.ucoz.org

Sonra birdən-birə ciddiləşib mənalı tərzdə başını buladı:

- Yox, Elnarə xanım, mən doğrudan da, sizin qədər avam olmamışam. Yaxşı yadımdadır, mən uşaq olanda Bakıda konfetin çeşidi indiki kimi çox deyildi. Gəncə fabrikinin buraxdığı «Qaranquş» konfeti vardı. Anam hərdən bu konfetdən bir-iki kiloqram alıb evdə saxlayırdı ki, qonaq gələndə süfrəyə qoysun. Hər dəfə də konfet alanda ikisini-üçünü mənə verib, qalanını bir otaqda gizlədirdi. Onu da deyim ki, bu otaqda mebel də, qeyri əşyalar da o biri otaqdakılardan çox, həm də qarışıq idi. Buna baxmayaraq, gizlicə otağa girib, ətrafa boylanan kimi, düşünüb, konfetin harada ola biləcəyini tapırdım. Yazıq anam konfetin yerini nə qədər dəyişirdi, yenə məndən gizlədə bilmirdi.

Elnarə bu dəfə lap ürəkdən güldü:

- Siz elə uşaqlıqdan xəfiyyə olmusunuz ki, Qanbay müəllim?!

Bunu deyib sonra yenə özü uşaqlıq illərindən gülməli əhvalatlar danışmağa başladı. Qasımlı onu diqqətlə dinləyir, əhvalatların sonunda özünü saxlaya bilməyib gülürdü. Sanki ətrafda hər şeyi unutmuşdu. Bayaqdan heç siqaret çəkmək də yadına düşmürdü. Heç, elə bil, ağrısı-acısı, dərdi-səri də yox idi. Həyatda heç bir pislik, xəbislik, xəyanət, ölüm görməmiş, eşitməmiş bəxtəvər bir uşaq idi, elə bil...

Beləcə, xeyli oturub söhbət etdilər. Nəhayət, Elnarə qonağın təsadüfən, ya nədənsə, saata baxdığını görüb ayağa qalxdı. Saat ikinin yarısı idi. Məzəli halda dodağını dişləyib:

- Öz gic söhbətlərimlə sizi yordum, - dedi. - Yatmaq vaxtınız keçib.

- Nə danışırsınız, Elnarə xanım, mənə çox xoş oldu


ekitab.ucoz.org

sizinlə söhbət etmək.

- Seymurun sabah buraxılacağını eşidəndən elə sevinmişəm ki, ağzım qızışıb, bu qədər danışmışam. Doğrusu, heç inana bilmirəm ki, onsuz keçirəcəyim axırıncı gecədir bu.

Bu sözləri elə kövrək səslə dedi ki, Qasımlı onun deyib-gülüb, söhbət edərək ürəyində gizlətdiyi nisgili duydu. Bir daha anladı ki, bu gənc qadın ərini nə qədər çox sevir, ondan ötrü nə qədər çox darıxır.

- Sabah onu buraxmalıdırlar, - dedi və qətiyyətlə əlavə etdi. - Mütləq buraxmalıdırlar!

Elnarə boynunu burub qonağına məzlum baxışlarla baxdı:

- Qanbay müəllim, kim zəhərləyib o kişini?

Qasımlı gülümsədi:

- Xahiş etdim axı, gəlin bu gecə cinayətdən danışmayaq.

Ev sahibəsi çiynini çəkdi:

- Nə deyirəm, siz necə istəyirsiniz, elə olsun. Amma yata bilməyəcəm səhərə qədər.

- Dünən gecə verdiyim məsləhət yadınızdadır?

- Nə?.. - Elnarə fikrə getdi və tez də yadına düşdü. - Kəpənək tutmaq? Amma xeyri oldu, Qanbay müəllim. Çiçəkli bir düzənlikdə idim. Çox gözəl bir kəpənəyi qovurdum. Gözüm nə vaxt yuxuya gedib, heç xəbərim olmayıb.

- Yenə də həmin kəpənəyi qovun, - polkovnik gülümsədi. - Axır, tutacaqsınız nə vaxtsa.

-Amma tutmaq olmur, Qanbay müəllim. Qəribədir, elə deyilmi? Çəmənliyi də, kəpənəyi də xəyalımda özüm yaratmışdım. Bacardığım qədər



ekitab.ucoz.org

özümü məcbur edib çalışırdım ki, tutum o kəpənəyi. Amma əlimi uzadanda uçub məndən uzaqlaşırdı...

- Nə vaxtsa, tutarsınız, yəqin ki.
- Tutanda nə olacaq?

Elnarə bunu elə sadəlövhcəsinə soruşdu ki, Qa- sımlı təbəssümünü heç cür gizlədə bilmədi. Amma birdən-birə ciddiləşib cavab verdi:

- Tutsanız, sanki əbədi xoşbəxtlik tapacaqsınız. Daha ondan sonra başınıza heç bir bəla, heç bir pis iş gəlməyəcək. Daha əzizlərinizdən heç vaxt ayrı düşməyəcəksiniz. Ətrafınızda yalnız yaxşı adamlar olacaq.

- Oy! - Elnarə sevincini lap uşaq kimi büruzə verdi. - Nə yaxşı!

Sonra qaçıb Qasımlının yatacağı otağa girdi. Onun yatağını bir daha səliqəyə salıb dəhlizə çıxdı.
Elə oradan dişlərini yumaq üçün vanna otağına girmiş qonağını səslədi:

- Sizə bir şey lazımdır?
- Yox! Çox sağ olun! - Qasımlı cavab verdi.
- Onda, gecəniz xeyrə qalsın!
- Sizin də!

Qasımlı əl-üzünü qurulayıb yatacağı otağa girdi. Yerinə uzanıb əllərini başının altına qoyanda bayaqkı söhbətlərini xatırladı. Bu o idimi? Həyatını, hisslərini, duyğularını heç vaxt heç kimlə bölüşməyən qaraqabaq xəfiyyə polkovnik Qasımlı idimi? Qəribədir!.. Heç inanılası deyil!..

Elə bu fikirlə də yuxuya getdi. Yuxuya getməzdən qabaq çəmənlikdə kəpənək-filan qovmaq da ağlına gəlmədi. Çünki bilirdi ki, onsuz da tuta bilməyəcək...

# İyirmi dördüncü fəsil



ekitab.ucoz.org

Səhər yeməyi zamanı Qasımlı Elnarədən xahiş etdi ki, nahara on nəfərlik yemək hazırlasın. Ev sahibəsi məmnuniyyətlə razılaşıb, qonaqlıqda kimlərin olacağı ilə maraqlandı. Polkovnik cavab verdi:

- O hadisə baş verən gün kimlər olmuşdusa, həmin adamlar. Əlbəttə, Pavel Serafimovla Radik Boskanyanı çıxmaq şərtilə. Onların əvəzində isə prokurorla mən iştirak edəcəyik.

- Doğrudan, Seymur da gələcək? - Elnarə sevincək dilləndi.

- Hə... - Qasımlı başını tərpətdi. - Gələcək.

- Deməli, birdəfəlik buraxacaqlar?

- Siz yaxşı bir süfrə hazırlasanız, yəqin ki... - xəfiyyə gülümsədi.

- Nə istəsəniz, edərəm!

- Sizdə yenə də zoğal kompotu qalıb?

- Bir balon saxlamışam. Üçlitrlik balon.

- Süfrəyə ondan da qoyarsınız. Keçən dəfə necə eləmişdinizsə, eləcə. Stəkanlarda. Kompotu stəkanlara süzəndən sonra yerində hər nə qalarsa, xahiş edirəm, onu mənim üçün saxlayarsınız.

Elnarə fərəhlə güldü:

- Baş üstə! Qurbandı sizə! Onsuz da sizi yola salanda, axırıncı süfrədə açacaqdım onu.

- Çox sağ olun! - Qasımlı minnətdarlığını bildirdi. - Fominin apardığı su qrafinindən yenə var?

- Var. İki dənə almışdıq ondan.

- Suyu onda qoyarsınız. Nə bişirəcəksiniz nahara?

- İstəyirəm yenə yarpaq dolması bişirim.

- Lap yaxşı! - Qasımlı dedi. - Ümumiyyətlə, istəyirəm



ekitab.ucoz.org

ki, süfrədə hər şey, imkan daxilində, keçən dəfəki kimi olsun.

- Siz necə istəyirsiniz, elə də olacaq!

Səhər yeməyi bitən kimi Elnarə naharın hazırlığına girişdi. Qasımlı isə kresloda əyləşib Tamerlanı yanına çağırdı. Şahmat taxtasını gətizdirib, ona şahmat dərsi keçməyə başladı.

Bu uşaq, əgər belə demək mümkünsə, dilsiz- ağızsız bir uşaq idi. Qasımlının fikrincə, onun tərbiyəsi heç də düzgün qurulmamışdı. Bacısı- qardaşı olmamağı öz yerində, heç bir dostu-tanışı da yox idi. Uşaq bağçasına getmirdi. Həyətə-bacaya da buraxmırdılar onu. Bütün günü öz otağında oyuncaqları ilə qurdalanırdı. Ata-anasından başqa heç kəslə ünsiyyət saxlamadığı üçün rus dilində bir kəlmə də bilmirdi. O, yəqin ki, böyüyəndən sonra da adamlardan qaçacaq, qaradinməzin, adamayovuşmazın biri olacaqdı. Elə polkovnik Qasımlının özü kimi...

Amma eyni zamanda, zehni iti uşaq idi. Şahmat oyunu barədə Qasımlının ona öyrətdiklərini çox tez götürürdü.

Natiq gəlib çıxdı... Bacısı onu mənzilin qapısı ağzında duz kimi yalayandan və alnındakı yaranı görüb:

- Əlləri qurusun onların! - deyə qarğış edəndən sonra otağa girdilər.

Tamerlan, dərhal, dayısının üstünə qaçdı:

- Dayı, gəl bax, şahmat oynayırıq.

Natiq onu qucağına götürüb üzündən öpdü. Sonra yerə qoyub, dərin bir minnətdarlıq hissilə polkovnikə baxdı:

- Siz dünən məni rüsvayçı bir ölümdən qurtardınız. Sizə ömrüm boyu borclu olacam. Heç ağlıma gətirə bilməzdim



ekitab.ucoz.org

ki, Ramazan bu boyda əclaflıq eləsin mənə qarşı... - bir an duruxub, hirslə dişlərini qıcadı. - Lap yerində öldürdülər alçağı!

- Onu öldürdülər? - Qasımlı sakit səslə soruşub Elnarəyə baxdı.

- Bəli, - Natiq cavab verdi. - Əmirxan məni o adamların arasından güclə dartıb çıxartdı. Həmin vaxt kimsə bıçaqla vurubmuş Ramazanı. Doğrusu, mən onu həmin dəstənin əlində qoyub getmək istəməzdim. Amma... O vaxt nə ağlım özümdə
deyildi, nə də ixtiyarım... Məni maşına necə salıblar, xəbərim də olmayıb heç... Sonra bildim ki, saat dörddə mənim həmin evdə tək olacağımı o dəstəyə əvvəlcədən bildiribləmiş. Məsələ burasındadır ki, saat dörddə oraya gedəcəyimi heç mən özüm də bilmirdim. Deməli, Ramazanın məni aldadıb oraya aparması düşünülmüş bir tələ imiş...

Elnarə tutulub durmuşdu. Onun gözlərinin dərinliyində qardaşının az qala ölümünə səbəb olacaq Ramazana qarşı bir nifrət də oxunurdu, bir ildən çox eyni yastığa baş qoyduğu insanın faciəli ölümünə acımaq da. Baş açmaq olmurdu ki, nə düşünür. Amma hər halda, heç yaxşı deyildi halı. Alt dodağını bərk-bərk dişləyib birdən-birə otaqdan çıxdı.

- Aydındır... - Qasımlı başını astadan tərpətdi.

- Yaxşı, bəs siz necə bildiniz ki, mənə tələ qurulub? - Natiq maraqla soruşdu.

Polkovnik danışmaq istəməsə də onun sualını cavabsız qoymadı:

- Mən artıq bilirdim ki, bəzi adamlar sizi aradan



ekitab.ucoz.org

götürmək istəyirlər...

- Niyə axı?!

- Ona görə ki, siz Eduard Sokolovun ölüm işini qurdalayırdınız.

- Kimdir məni aradan götürmək istəyən?

- Konstantin Surkov...

Natiq qarşısındakı adamın bacarıqlı xəfiyyə olduğuna inanırdı. Bilirdi ki, boş söz danışan da deyil. Amma onun Bakıdan buraya gələndən sonra nə iş gördüyünü, nə düşündüyünü, nə tapdığını anlaya bilməmişdi. Ondan söz qoparmaq üçün:

- Deməli, mən haqlıyammış? - deyə soruşdu. - Deməli, Eduardı qəsdən öldürüblərmiş. Düzdür?

- Siz o ölüm işindən haqlı olaraq şübhələnmisiniz, - xəfiyyə dedi. - Amma cinayətin necə baş verməsi barədə fərziyyənizdə bir az yanlışlıq var.

- Hansı yanlışlıq?

- Nahar vaxtı hər şeyi danışacam. Yəqin ki, incimməzsiniz, Serafimovun zəhərləndiyi gün bu mənzildə olmuş adamları nahara dəvət etmişəm. Prokuror da gələcək və Seymuru da özləri ilə gətirəcəklər. Zənn edirəm ki, prokuroru Seymurun günahsız olduğuna inandıra biləcəm. Belə olarsa, onu elə bu gün azad edəcəklər.

Natiq bu xəbərə çox sevindi. Azacıq fikrə gedəndən sonra əziz qonağa bir daha təşəkkür edib,
bacısına kömək etmək üçün mətbəxə yollandı.

... Əvvəlcə, Sergey Novikovla gənc arvadı gəlib çıxdılar. Nataşa boz rəngli, döşlərinin yarısını açıqda buraxan nazik köynək, həmin rəngdə, olduqca qısa yubka geyinmişdi. Qara rəngli tor parçadan kalqotkası düz və mütənasib



ekitab.ucoz.org

ayaqlarını daha cəlbedici edirdi. Onların gəlişi ilə mənzilə tünd yasəmən ətri yayıldı.

Nataşa Natiqlə görüşəndə bir qədər sıxılsa da, Qasımlıya gülə-gülə əl uzatdı:

- Biz artıq tanışıq, elə deyilmi?
- Elədir. - Qasımlı başını yüngülcə tərpətdi.

Sonra Nataşa Tamerlanı bərk-bərk bağrına basıb, üz-gözündən öpdü. Uşağı sinəsinə elə sıxmışdı ki, uşaq hətta ağrıdan inildədi. Elnarə gülüb onu da, oğlunu da mətbəxə apardı. Kişilər isə balkona çıxdılar.

- Bizi Fomin dəvət etdi buraya, - Sergey dedi. - Amma, doğrusu, səbəbini düz-əməlli başa salmadı mənə.

- Keçən dəfə baş tutmamış qonaqlığı yenidən düzəltmək istəyirik. - polkovnik izahat verdi.

- Çox maraqlıdır!.. - Sergey burnunun altında mızıldandı. O, guya ki, balkondan həyəti seyr edirdi və nədənsə, Natiqə tərəf baxmaq istəmirdi. - Bu dəfə kim zəhərlənəcək?

- Bu dəfə heç kim, - Qasımlı dedi və birdən kinayə ilə soruşdu. - Bu gün, deyəsən, hələ içki içməmisiniz?

Sergey təəccübləndi:

- Süfrədə içki olmayacaq?

- Olacaq, əlbəttə! - Natiq gülümsəyib söhbətə qarışdı.

Bir azdan Fominin arvadı Mariya ilə Serafimovun dul arvadı Alisa gəldilər. Alisa çox qaşqabaqlı idi və hiss olunurdu ki, buraya heç də könüllü gəlməyib. Müstəntiq Fomin onu Seymurun evinə gətirməyi öz arvadına tapşırıbmış. Onlar birbaş mətbəxə - qadınların yanına keçdilər.



ekitab.ucoz.org

Prokurorla Fyodor Fomin düz nahar vaxtında gəlib çıxdılar. Onlar Seymuru da özləri ilə gətirmişdilər. Hələ dəqiq bir şey anlamayan ev sahibi öz mənzilinə tərəddüdlə qədəm qoyub, təəccüblə ətrafına baxdı.

Elnarə uşaq kimi ərinin üstünə atıldı. Evə yad qonaqların gələcəyini bildiyindən hər gün evdə geydiyi paltarını çıxarıb mavi rəngli bahalı parçadan

nazik, uzun ev xalatı geyinmişdi. Onu uşağa oxşadan əvvəlki paltarından fərqli olaraq, bu geyimdə cazibədar bir ev xanımına bənzəyirdi. Sanki birdən-birə dörd-beş yaş böyümüşdü. Xalatın bağını bağladığı üçün, xalatı qabartmış enli və mütənasib arxası belini daha incə göstərirdi. Paltarından şirin tamlı incə bir ətrin qoxusu gəlirdi.

Ərini qucaqlayıb köksünə sığınmış qadın, deyəsən, onlara həsədlə baxan yad adamlardan utandı. Seymurdan ayrılıb göz yaşlarını əlinin dalı ilə siləsilə mətbəxə getdi.

Oğlunu bağrına basandan sonra Bakıdan gəlmiş xəfiyyə ilə çox mehribanlıqla görüşən Seymur ondan nəsə öyrənmək istəsə də bu alınmadı. Amma Qasımlı azacıq sonra Elnarəni də yemək otağına, kişilərin yanına dəvət edib məqsədini izah etdi:

- Biz nahar süfrəsinə əyləşəndə mən sizi maraqlandıran bütün suallara cavab verəcəm. Amma indi xahiş edirəm, o gün buraya yığıldığınız zaman hər şey necə olmuşdusa təkrar edilsin. Yəni əlbəttə, imkan daxilində, - üzünü ev sahibəsinə çevirdi. - Elnarə xanım, siz qadınlar yemək otağına necə girib-çıxmışdınızsa, yenə çalışın ki, elə olsun. Hətta zoğal kompotunu içəri gətirəndə yemək otağının qapısından bizi səsləyin ki, Fyodor Simonoviç də otağa vaxtında daxil olsun. Aydındırmı? Yəni demək istəyirəm ki,



ekitab.ucoz.org

hər şey həmin gün baş verənlərə, heç olmazsa, uyğun gəlsin.

Onunla razılaşdılar. Elnarə qayıdıb mətbəxə getdi. Amma deyəsən, üzdən çox zəhmli görünən prokuror nədənsə narazı idi.

- Cənab polkovnik, - dedi. - Mənim sizin istedadınıza böyük hörmətim var. Xüsusilə də siz su qrafininin ekspertizaya verilməsini təklif edəndən və onun içində sianid qalığı aşkar ediləndən sonra. Ondan sonra, baş vermiş bu cinayət hadisəsi mənim üçün daha böyük maraq kəsb edib. Amma... Əgər cinayəti hələ heç kəs boynuna almayıbsa, bugünkü bu bərpa işinin nə əhəmiyyəti var, onu anlaya bilmirəm.

- Cənab prokuror, - Qasımlı da ona eyni cür müraciət etdi. - Xahiş edirəm, bir az səbirli olun və imkan yaradın işi axıra çatdırım. Bir azdan hər şey sizə məlum olacaq. Mən istəyirəm ki, siz şəxsən burada Pavel Serafimovun rolunu aparasınız, mən isə Radik Boskanyanın. Xahiş edirəm, siz də, Fyodor
Simonoviç də pencəklərinizi burada divanın üstünə qoyun. Sonra biz hamımız balkona çıxacağıq.

Prokuror pencəyini çıxarıb divanın üstünə ataraq, narazı halda donquldandı:

- Doğrusu, Serafimovun yerində olmağı heç istəməzdim. Birdən mənim özümü də zəhərləyərlər burada.

- Heç mən də öldürülüb çayın kənarına atılmaq istəmirəm. - Qasımlı kinayə ilə dilləndi. - Radik Boskanyan kimi... Amma məcburam ki, onun rolunu mən aparım.

Fomin də pencəyini divanın üstünə qoydu və balkona çıxdılar.

- Siz izah edə bilərsinizmi ki, iyunun 8-də burada nə baş


ekitab.ucoz.org

verib? - prokuror hakimanə səslə Qasımlıdan soruşdu.

- Yox, belə olmaz! - xəfiyyə gülümsədi. - O gün bu balkonda söhbət milli xörəklər barəsində olub. Azərbaycanın milli xörəkləri barəsində. Gəlin, yenə elə olsun. Dolmadan danışaq. Ya, istəyirsinizsə, başqa xörəklərdən.

Fomin güldü:

- Amma o gün biz heç nə yeyə bilmədik. Aləm qarışdı bir-birinə.

- Bu dəfə yeyərik! - Qasımlı dedi.

- Və həm də doyunca içərik! - Sergey iştahayla dilləndi.

Seymur söhbətə qoşulmurdu. Elə Natiq də. Hər ikisi narahat idilər, nədənsə. Bir az keçmiş, Qasımlı üzünü Natiqə tutdu:

- Məncə vaxtdır, Natiq, gedib bacınıza deməlisiniz ki, süfrəyə sizin üçün təmiz su qoymağı
unutmasın. Elə deyilmi, Fyodor Simonoviç?

- Elədir! - müstəntiq onun sözünü təsdiq etdi.

- Gedin! - xəfiyyə başı ilə Natiqə işarə etdi. - Bacınıza deyin, suyu həqiqətən də qoysun süfrəyə.

- Siz qrafini ekspertə göndərmişdiniz?

- Xahiş edirəm, sual verməyin, gedin!

Natiq heyrətlə çiynini çəkib yemək otağına girdi. Oradan mətbəxə keçib bacısına su barədə tapşırıq verdi. Yenidən balkona qayıdanda kişilər arağı nə ilə içməyin daha sərfəli olmasından danışırdılar.

Azacıq sonra Qasımlı üzünü prokurora tutdu:

- Cənab prokuror, indi siz məni, yəni guya ki, Radik Boskanyanı siqaret gətirməyə göndərirsiniz. Amma onu da deyim ki, sizin siqaret çəkən olmadığınızı bilirəm.



ekitab.ucoz.org

- Elə təsəvvür edin ki, göndərdim, - prokuror quru səslə dilləndi.

Xəfiyyə otağa keçdi. Yarım dəqiqə sonra əlində bir siqaretlə çıxdı. Siqareti prokurora uzadıb, sonra öz damağına qoydu və yandırıb çəkməyə başladı.

- Sizdən yaxşı rejissor olar! - Sergey Novikov atmaca atdı.

- Heyif ki, aktyorlarım peşəkar deyil. - Qasımlı cavab verdi.

Seymur gah Sergeyə, gah da Fominə şübhəli baxışlarla baxırdı. Nəhayət, dözməyib Qasımlıdan soruşdu:

- Mənim üçün çox maraqlıdır. Yəni bundan bir şey çıxacaqmı?

- Nədən?

- Yəni bu oyundan...

- Bu oyun deyil! - xəfiyyə etiraz etdi. - Həmin gün baş verənləri xatırlayırıq.

- Biz hamımız əzbər bilirik o gün olanları. - Natiq dilləndi.

- Zəhəri stəkana kimin tökdüyünü də bilirsiniz? - polkovnik yüngül kinayə ilə gənc polis zabitinə baxdı.

- Yox... - Natiq duruxdu. - Yəni bu balkonda olanları deyirəm.

Bu vaxt içəri tərəfdən Nataşanın incə və məlahətli səsi eşidildi:

- Biz gəldik!

Qasımlı cəld Fominə sarı döndü:

- Siz burun dəsmalınızı götürməyə gedirsiniz.
Müstəntiq otağa girdi. Onun oradan qayıtması
bir-iki dəqiqə çəkdi. Əlində heç nə yox idi.



ekitab.ucoz.org

- Bəs hanı dəsmal? - Qasımlı soruşdu.

- Burnumu təmizləyib, dəsmalı yenidən pencəyin cibinə qoydum. - Fomin günahkar görkəm aldı. - Axı həmin gün də mən belə eləmişdim?!

- Lap yaxşı! - polkovnik onunla razılaşdı.

- Yenə tut arağı var? - Sergey dili ilə dodaqlarını yalayıb Natiqə baxdı.

- Həmin araq olduğu kimi qalıb. - Natiq dedi. - Heç kəs içməyib.

- Bu çox yaxşı oldu! - Sergey arxayınlaşdı.

- Mən heç tut arağı içməmişəm, - prokuror yanında dayanmış Fominə dedi. - Amma eşitmişəm, çox tünd olur.

- Hə, - müstəntiq həvəslə dilləndi, - Həm də dərmandır. Qasımlı söhbəti kəsib ev sahibinə dedi:

- İndi isə siz keçin, mətbəxdə beş dəqiqə söhbət edib qayıdın.

Seymur dinməz-söyləməz içəri keçdi. Mətbəxə girəndə Alisanın qaşqabaqlı şəkildə bir kənarda oturduğunu gördü. Digər qadınlar isə xörəyi iri boşqablara çəkirdilər. Elnarə ərinə baxıb, günahkar adamlar kimi yazıq-yazıq gülümsədi:

- Nədi, Seymur, bir şey lazımdır?

- Yox, - Seymur başını buladı. - Sənin xörəklərin üçün yaman darıxmışam.

- Arvadın gör yenə nələr hazırlayıb! - Mariya ağzını iştahayla marçıldatdı.

Seymur dərindən ah çəkib Serafimovun dul qalmış arvadına tərəf döndü:

- Alisa Alekseyevna, - dedi, - siz nahaq bizi özünüzə düşmən hesab edirsiniz. İnanın ki, mənim heç nədən xəbərim yoxdur. Mən mərhum Pavel



ekitab.ucoz.org

Matveyeviçə qarşı heç vaxt pis fikirdə olmamışam.

Alisa astadan fısıldayıb üzünü yana çevirdi. Onun əvəzinə Mariya dilləndi:

- Elə mən də, Nataşa da bayaqdan onu deyirik. Deyirik ki, Seymur elə iş tutmaz.

Alisa Mariyaya acıqlı-acıqlı baxdı:

- Onda belə çıxır ki, ya sənin ərin eləyib bunu, ya da Nataşanın əri. Axı zəhrimara dönmüş kompot süfrəyə gedəndən sonra otağa bu üç nəfər girib?!

Nataşa dözməyib söhbətə qarışdı:

- Darıxmayın, hər halda, bu polkovniki Azərbaycandan buraya göndəriblərsə, deməli, nədənsə başı çıxır. Zəhəri o stəkana kimin tökdüyünü mütləq tapacaq.

Alisa kinli nəzərlərlə bir-bir hamının üzünə baxdı:

- Təki elə olsun! Əslində, mən də gözləyirəm ki, ərimin qatilinin kim olduğu dəqiq sübut olunsun. Ondan sonra həmin adamı heç kəs xilas edə bilməyəcək mənim əlimdən!

Onun sifəti nifrətdən əcaib hala düşmüşdü. Seymur əlini pərt olmuş Elnarənin çiyninə qoyub asta səslə dilləndi:

- Bütün ümidim ancaq polkovnik Qasımlıyadır. Kaş ki, tez məlum olaydı bu işi kimin törətdiyi. Onda hər şey öz yoluna düşəcək.

Söz, deyəsən, Alisaya bərk toxundu:

- Hər şey öz yoluna necə düşə bilər axı?! Bəs mənim Pavelimi kim qaytaracaq mənə?

- Sizin dərdinizə şərik oluram. - Seymur mehribanlıqla dilləndi. - Pavel Matveyeviç mənim həmişə hörmət göstərdiyim adamlardan olub. Ancaq yenə təkrar edirəm, onun ölümü sizin üçün olduğu kimi mənim üçün də qaranlıq sirdir.



ekitab.ucoz.org

Susub dayandı. Cansıxıcı sükut bir qədər davam etdi. Mətbəxə daxil olan Tamerlan hamının kədərli sükuta qapıldığını görüb qorxa-qorxa atasına baxdı.

Elnarə ərinə:

- Qanbay müəllim indi yəqin ki, səni gözləyir. - dedi.

Seymur fikirli halda oğlunun başını sığallayıb mətbəxdən çıxdı. Balkona gələndə onu diqqətlə süzən Qasımli:

- Hər şey qaydasındadır? - deyə soruşdu.

- Bəli. - Seymur bunu deyib balkonun məhəccərinə söykəndi.

- Mən yaman acmışam, - Sergey Novikov əlini qarnına sürtdü.

- Yemək hazırdır, bir azdan nahara başlarıq. - Seymur astadan dilləndi.

Fomin Qasımlıya baxdı:

- İndi Sergey siqaret dalınca getməlidir.
- Belə tez?
- Hə, belə olmuşdu.

Qasımlı prokurora mənalı bir nəzər saldı:

- Cənab Serafimov Sergey Sergeyeviçi siqaret gətirməyə göndərir. Əlbəttə, bu bir az qəribə görünür, amma deyilənə görə belə olub.

Sergey Novikov gözünü prokurora dikmişdi. Prokuror birdən onun üstünə çımxırdı:

- Nə gözünüzü döyürsünüz, gedin də!

Pərt olmuş Sergey otağa girib, tez də qayıtdı:

- Sizin cibinizdə siqaret yoxdur...

- Sizin mənim cibimdə nə işiniz vardı?! - prokuror hirsləndi. - Axı burada dedilər ki, mən çəkən deyiləm?!



ekitab.ucoz.org

- Bağışlayın... - Sergey günahkarcasına dilləndi.

Arxasını onlara çevirib, guya ki, həyətə baxan Fomin astadan gülürdü. Prokuror bu dəfə ucadan səsləndi:

- Mən başa düşə bilmirəm, biz burada nə işlə məşğuluq! Hadisəni olduğu kimi canlandırmaq istəyiriksə, bu hamımızın gözü qarşısında olmalıydı. Həm də, mütləq videoçəkiliş aparmaq şərtilə! Amma
biz burada dayanmışıq, kimlərsə içəri tək-tək girib- çıxır. Nə olsun?! Bu bizə nəsə verə bilərmi?

- Çəkiliş var, - Qasımlı sakitcə dedi. - Darıxmayın, bir az da dözün. Mən demirəm ki, bu oyunun mütləq bir xeyri olacaq. Ancaq, zənnimcə, heç sizi o qədər də yormadım. Mən onsuz da hər şeyi bilirəm və indicə sizə danışacam. Həm də, bu oyunun nə kimi nəticə verməsindən asılı olmayaraq.

Prokuror daha bir söz demədən saatına baxıb susdu...

Bu zaman mətbəxdə qadınlar artıq sonuncu hazırlıq işlərini də görüb qurtarmışdılar. Hətta xörək də iri boşqablara çəkilmişdi. Nataşa ağzını Elnarənin qulağına yaxınlaşdırıb pıçıldadı:

- Eliçka, Natiqin alnına nə olub?

Elnarə cəld düşündü ki, bəlkə qardaşının başına gələn əhvalatı bildirmək lazım deyil. Odur ki:

- Bilmirəm... - dedi.

Nataşa onun qızarmağından başa düşdü ki, yalan danışır.

- Necə yəni bilmirəm, heç soruşmamısan?
- Yox.
- Onda sən qardaşını sevmirsən!

- O nə sözdür? - Elnarə təəccübləndi. - Gözlərimi istəsə, çıxarıb verərəm ona!



ekitab.ucoz.org

Nataşa işvə ilə gülüb ağzını onun qulağına bir az da yaxınlaşdırdı:

- Pah, böyük iş görərsən! Amma mən ürəyimi çıxarıb verərəm ona!..

İndi Nataşa qızarmışdı. Elnarə özü də bilmədi ki, bu söz ağzından necə çıxdı:

- Həyasız!

Sonra hər ikisi güldü. Mariya onlara çəp-çəp baxıb:

- Qızlar, bəsdir pıçıldaşdınız! Mənə elə gəlir ki, xörəyi süfrəyə aparmağın vaxtıdır, - dedi.

## İyirmi beşinci fəsil

Kişiləri süfrəyə dəvət etdilər. Balkondakılar yemək otağına daxil olub qadınların dördünü də orada gördülər. Seymur prokuroru başda qoyulmuş stula dəvət etdi. O bunu prokurorun yaşını və bu mənzildə ilk dəfə olmasını nəzərə alaraq, hörmət xatirinə etmişdisə də yerinə düşdü. Çünki həmin gün Serafimovu da beləcə başda əyləşdirmişdi. Qalanlar da masanın arxasında öz yerlərini tutdular.

Qasımlı süfrəyə ani göz gəzdirib birdən heç kəsin ondan gözləmədiyi halda bərkdən güldü:

- Hər şey əladır! Bu dəfə hətta stəkanların ikisinə zəhər tökülüb.

- Nə dediniz?! - prokuror, az qaldı ki, yerindən sıçrasın, - Kimin stəkanına?

Qasımlı qalxıb televizora yaxınlaşdı. Onun üstünə qoyulmuş videokameranı götürüb söndürdü. Sonra kameranı yerinə qoyub öz yerinə keçdi. Hamı ona heyrətlə baxırdı.

- Sizin və mənim! - prokurorun sualına cavab verdi.

Prokuror təlaşla öz qarşısındakı stəkana baxdı. Stəkanda


ekitab.ucoz.org

zoğal kompotu var idi.

- Hə... Rəngi bulanıqdı bunun, - dedi, - o birilərdən seçilir, deyəsən.

- Zəhəri bu stəkanlara kim töküb?! - Sergey gözlərini bərəldib dəhşətlə xəfiyyəyə baxdı.

Qasımlı ciddiləşib süfrə arxasında oturanlara göz gəzdirdi. Anasının qucağında oturmuş Tamerlan da nəzərə alınsa, on bir nəfər idilər. Bir anlıq nəsə düşünüb təmkinlə danışmağa başladı:

- Xörəyi soyutmamaq üçün qısa danışacam. Xahiş edirəm, sözümü kəsmədən qulaq asın. Mən Bakıdan buraya gələndə hadisə haqqında məlumatım yox idi. Şahidləri danışdırmaqla, baş verənlərdən xəbərdar oldum. Deyilənlərlə kifayətlənsəydim, belə çıxırdı ki, bu cinayəti ya Seymur edib, ya Sergey Sergeyeviç, ya da müstəntiq özü...

Amma sonra polis kapitanı Eduard Sokolovun ölümü haqqında eşitdim. Daha doğrusu, bunu elə gəldiyim ilk gecədə polis rəisindən eşitmişdim. Hamı bunu intihar hesab edirmiş. Natiqdən savayı... O öz
fikirlərini mənə də bildirdi və qeyd etdi ki, bu barədə Daxili İşlər Nazirliyinə ərizə göndərib. Eduardın mənzilinin açarı nə onun cibindən, nə də mənzildən tapılmışdı. Bu fakt mənim özümü də düşündürürdü. İstintaq orqanları iddia edirmiş ki, Eduard təkbaşına içib, sonra da intihar edib. Bəs onda mənzilin açarı hara yox olub? Yaxud masanın üstündəki araq stəkanında niyə onun əl izləri tapılmayıb?

- Cənab polkovnik!.. - prokuror onun sözünü kəsməyə cəhd etdi.

- Mən axı xahiş etdim?! - Qasımlı ona məzəmmətlə


ekitab.ucoz.org

baxdı. - Natiq isə deyirdi ki, Eduardın mənzilinə soxulublar və onu balkondan zorla tullayıblar. Qapı çöldən bağlanmayıbmış. Yenə də həmin suallar ortaya çıxır. Açarı niyə özləri ilə aparıblar? Araq stəkanında niyə Eduardın əl izi

yoxdur? O fərziyyədə ki, qarşıya belə suallar çıxır və bu suallara cavab tapılmır, o fərziyyəni həqiqət kimi qəbul etmək olmaz. Hər şeyin bir məntiqi izahı olmalıdır.

Natiq mənə meyitin düşdüyü yeri dəqiq göstərəndə məndə başqa şübhələr də yarandı. Təqribi hesablamama görə beşinci mərtəbədən atılmış adam, yaxud həmin ağırlıqda hər hansı əşya binaya yaxın düşməliydi. Yəni məndə belə bir fikir oyandı ki, Eduardı beşinci mərtəbədən yox, həmin blokun yeddinci, səkkizinci ya doqquzuncu mərtəbələrinin birindən atıblar. Bu fikir, əslində, o biri suallara da cavab verirdi...

- Axı... - Natiq nəsə demək istədi.

Polkovnik əlinin hərəkəti ilə onu susdurdu:

- Bilirəm, nə deyəcəksiniz. Deyəcəksiniz ki, hadisə yerinə ilk gələnlərin ifadəsinə görə təkcə Eduar- dın mənzilindən işıq gəlirmiş, balkonun qapısı açıq olub və sair... Amma bunlar hamısı məqsədli şəkildə quraşdırılmış şeylərdir. Əsas odur ki, mənim bu fərziyyəmdə sizi maraqlandıran həmin sualların hər ikisinə cavab tapılır. Necə? Bu saat izah edəcəm. Eduard başqa mənzildə qonaq olub o gecə. İçəri daxil olaraq onu balkondan atıblar. Amma bundan əvvəl cibindən mənzilin açarını götürüblər. Niyə? Əlbəttə, onun mənzilinə girə bilmək üçün. Orada içdiyi araq şüşəsini götürüb mənzilinə düşüblər. Stəkanını götürməyiblər. Çünki o stəkan Eduardın mətbəxindəki



ekitab.ucoz.org

stəkanlardan fərqli olub. Belə düşünüblər ki, bu şübhə oyada bilər və beləliklə, daha çox şübhə doğuran hərəkətə yol veriblər. Eduardın
mətbəxindən bir təmiz stəkanı əlcəklə götürüb masanın üstünə qoyublar. Hətta deyəsən içinə bir az araq da süzüblər həmin stəkanın. Sonra işıqları yandırıb, balkonun qapısını açaraq cəld mənzildən çıxıblar. Qapını bu zaman, sadəcə, örtməklə bağlayıblar və açarla qıfillamayıblar ki, bu sonradan şübhə yaratmasın. Bax belə!..

Hamı Bakıdan gələn xəfiyyəyə heyrət və diqqətlə qulaq asırdı. Amma prokuror yenə səbirsizlik göstərdi:

- Siz özünüzə o qədər arxayın danışırsınız ki!.. Kimlər öldürüblər Sokolovu?

Polkovnik Qasımlı sanki onun sualını eşitmədi:

- Bəli! - dedi. - Hadisə mən deyən kimi olub! Eduardı öz mənzilindən yox, səkkizinci mərtəbədə tək yaşayan Yelena adlı gənc qadının mənzilindən,
onun öz gözləri qarşısında atıblar. Həmin qadın hazırda mənim əlimdədir və onu elə bu gün gətirib prokurorluğa təslim edəcəklər.

Bir anlıq susdu. Bundan istifadə edən prokuror başını ağır-ağır tərpədib dilləndi:

- Hələ ki, bu danışdıqlarınızla razılaşıram. Qatillərin adını burada çəkmək istəməməyiniz bəlkə daha yaxşıdır. Bu barədə sonra danışarıq. Amma deyin görək, Eduard Sokolovun ölümünün Serafimovun zəhərlənməyinə nə dəxli var?

- Çox böyük dəxli var! - Qasımlı söhbətinə davam etdi. - Serafimovun ən yaxın adamı olan Konstantin Surkov məni guya istirahət məqsədilə meşədəki ərazilərinə aparanda


ekitab.ucoz.org

həmin Yelenanı da evdən götürdü. Gecə bizi oradakı taxta evciklərin
birinə yatmağa göndərdilər. Sonra isə həmin evciyə benzin töküb yandırdılar.

Polkovnik bu sözləri deyəndə hamı, o cümlədən Alisa da heyrətləndi. Amma təkcə Einarənin baxışlarında heyrətdən əlavə məzəmmət də oxunurdu.

- Necə?! Onda siz o evcikdə idiniz? - Fomin ucadan səsləndi. - Polisdən bizə dedilər ki, o evi də üsyançı cavanlar yandırıblar. Amma onu da bildirdilər ki, yanan evciyin içində heç kəs olmayıbmış...

- O evcikdə olsaydım, indi burada olmazdım. - Qasımlı kinayə iiə cavab verdi. - Bir az əvvəl Yelenanı da götürüb oranı tərk etmişdim. Çünki oranın yandırılacağını bilirdim. Nə isə!.. Beləliklə, mən tam şəkildə əmin oldum ki, iyunun 8-də bu süfrə
arxasında Pavel Serafimovun yox, başqa bir adamın zəhərlənməsi nəzərdə tutulubmuş.

- Kimin? - prokuror soruşdu.
- Natiqin!
- Mənim?! - Natiq heyrətləndi.

Elnarənin də, Nataşanın da sanki qorxudan
dilləri batmışdı.

- Bəli, sizin! - Qasımlı üzünü Natiqə tutdu. - Bunun üçün əvvəlcədən ciddi hazırlıq işləri görülüb. Serafimovun və Kostyanın qurduqları plana əsasən hadisədən iki-üç gün qabaq kimsə polisə zəng vuraraq sizin həmin bu Nataşa ilə guya qeyri-etik əlaqənizin olması barədə xəbər verib. Sonra isə burada süfrə hazırlanan vaxt Seymura zəng vurub deyiblər ki, Sergey Novikovdan ehtiyatlı olsun.


ekitab.ucoz.org

- Siz nə danışdığınızı bilirsinizmi?! - Alisa birdən qəzəblə yerindən dikəldi.

- Sakit olun, Alisa Alekseyevna, çox xahiş edirəm! - prokuror onu sakitləşdirdi. - Dinləyək, görək nə deyir cənab polkovnik.

- Alçaqlar, vicdansızlar! - Nataşa dözməyib yerindən çığırdı.

Qasımlı hamının sakitləşməsini gözləyib səbirlə sözünə davam etdi:

- Bu adamlar plan qurublar ki, bu süfrə başında Natiq zəhərlənsin. Çünki onlar narkotik satışı ilə məşğul idilər. Eduard Sokolov onların sirrini bildiyi üçün öldürüldü. Natiq isə Eduardın ölüm sirrini açmağa çalışırdı. Əgər o buna nail olsaydı mafiyanın nə işlə məşğul olması gizli qalmayacaqdı. Onlar elə məni də buna görə aradan götürmək istəyirdilər. Bəli,
onların planına əsasən bu süfrədə Natiq zəhərlənməli, şübhə hədəfi isə Sergey Novikov olmalı idi.

- Məən? - Sergeyin arıq hülqumu qalxıb-endi.

- Ona görə də... - Qasımlı dedi. - Belə bir fikir yaratmaq istəyiblər ki, Sergey Novikov Natiqi arvadını ona qısqandığı üçün zəhərləyib. Elə buna görə əvvəldən polisə və Seymura həmin zənglər olub... Serafimov Radiki içəri siqaret gətirməyə göndərib. Radik içəri girərək özüylə gətirdiyi zəhəri su qrafininə töküb. Sonra ikinci dəfə Serafimov Radiki yox, Sergeyi siqaret dalınca göndərib. Niyə? Ona görə ki, sonradan buradakılar Sergeyin də otağa tək girdiyini istintaqa bildirsin. Hələ onu demədim ki, Seymurun heç Sergeyi buraya dəvət etmək fikri olmayıbmış. Serafimov ondan xahiş edib



ekitab.ucoz.org

ki, Sergeyi də nahara dəvət et, süfrədə mənimlə barışdırarsan. Guya yenidən Novikovla işləmək istəyirmiş.

-Alçaq! Gorbagor! - Nataşa, yəqin ki, Serafimovu nəzərdə tuturdu.

- Kəs səsini, qəhbə! - Alisa çığırıb əlini stola vurdu. - Guya bilmirik ərin ola-ola Natiqlə nə oyunlardan çıxdığını?!

Nataşa qalxıb ağlayaraq mətbəxə qaçdı.

-Alisa Alekseyevna!.. - Fomin məzəmmətlə Serafimovun dul qadınına baxdı.

- Bəsdir! - Alisa ucadan çığırıb ayağa qalxdı. Bu bakılı araqarışdıran hamınızın başınızı xarab edəcək! Siz Pavelin ruhunu təhqir edirsiniz! Mən daha burada qala bilmərəm!

Bunu deyib qeyzlə otaqdan çıxdı. Azacıq sonra mənzilin dəmir qapısının bərkdən çırpılması hamını diksindirdi. Qapının cəftəsini vurmaq üçün gedən Elnarə geri qayıdanda ağlamaqdan gözləri qızarmış Nataşanı da özü ilə gətirdi. Bir müddət hamı sakitcə oturub heç nə danışmadı. Sonra sükutu birinci Sergey pozdu:

- Bura Seymurun mənzili olmasaydı mən o qadının cavabını yaxşıca verərdim. Nataşanı təhqir etdiyi üçün.

- Sağ ol! - Seymur kinayə ilə dilləndi.

Natiq də, Nataşa da başlarını aşağı dikmişdilər.

- Yaxşı, axı Serafimov qrafindəki sudan yox, kompotdan zəhərlənib! - prokuror ağır-ağır dillənib xəfiyyəyə baxdı.

- Düzdür! - Qasımlı ev sahibəsinə üz tutdu. - Elnarə xanım, xahiş edirəm, videokameranı televizora qoşun! Yeri gəlmişkən, onu sizdən icazəsiz işlətdiyim üçün üzr istəyirəm.

Elnarə:



ekitab.ucoz.org

- O nə sözdür? Yaxşı eləmisiniz! - deyib ayağa qalxdı. Kameranı televizora qoşub hər ikisini işə saldı.

Ekranda kişilərin balkona çıxmazdan əvvəlki görüntüləri idi. Qasımlı ev sahibəsinə:

- Xahiş edirəm, bir az qabağa ötürün, - dedi. - Burada maraqlı bir şey yoxdur.

Elnarə onun xahişinə əməl etdi. Polkovnik:

- Bəsdir, saxlayın! - deyəndə müvafiq düyməni basıb yerinə keçdi.

İndi ekranda adamsız yemək otağına baxırdılar. Yalnız boş qab-qacaq yığılmış iri masa aydınca görünürdü.

- Biz burada nəyi görəcəyik axı? - Mariya hövsələsizlik etdi.

- Dayan, Mariya! - Fomin diqqətini toplayıb televizora tərəf əyildi.

Natiq ekranda göründü. O, yemək otağından keçib mətbəxə gedirdi. Sonra geri qayıtdı. Yenə sakitlik... Sonra Qasımlı içəri daxil oldu.

- Təsəvvür edin ki, bu mən deyiləm, - xəfiyyə dilləndi. - Radik Boskanyandır.

Ekrandakı Qasımlı masaya yaxınlaşıb, guya əlində tutduğu nəyisə su qrafininə tökdü. Sonra isə pencəklər atılmış divana tərəf getdi. Öz cibindən bir siqaret götürüb balkona çıxdı. Yenə sakitlik... Bir
azdan qapıda Elnarə ilə Nataşa göründülər. Onlar əllərində dolu podnos tutmuşdular.
Nataşa:
- Biz gəldik! - deyə ucadan səsləndi.
Fomin otağa girdi. Elnarənin masaya düzdüyü
stəkanlara baxıb:



ekitab.ucoz.org

- Yenə həmin kompotdandır? - deyə soruşdu.

- Bəli, - Elnarə cavab verdi. - Zoğal kompotudur.

- Bu dəfə, yəqin ki, içə biləcəyik.

- Yəqin ki! - Elnarə dedi və işini qurtarıb Nataşa ilə mətbəxə qayıtdı.

Fomin divana atılmış pencəyinin cibindən burun dəsmalını çıxartdı. Sonra onu yenidən cibinə qoyub balkona çıxdı.

- Niyə burnunuzu silmədiniz? - Qasımlı zarafatla soruşdu.

- Mən nə biləydim ki, siz hər şeyi lentə çəkirsiniz. - Fomin başını buladı.

Ekranda yenə adamsız otaq görünürdü. Sonra Seymur balkondan otağa girib mətbəxə keçdi. Yenə sakit, adamsız otaq...

Və birdən... Tamerlan ehtiyatla otağa daxil oldu. Oğrun baxışlarla ətrafına boylanıb masaya cumdu. Qapıya ən yaxın olan, yəni masanın baş tərəfindəki stulun üstünə dırmanıb zoğal kompotunu içməyə başladı. Stəkanın yarısından bir qədər az içib, yaxındakı o biri stəkanı götürdü. Yan-yörəsinə baxıb ondan da əvvəlki qədər içdi. Bu zaman qorxu içində ətrafa boylanan bərəlmiş gözləri və kompotu acgözlüklə içməsi onu çox əcaib və gülməli göstərirdi. Sonra su qrafinini əlinə götürüb yarımçıq etdiyi stəkanlara içdiyi kompot qədər su tökdü. Daha sonra isə qrafini öz yerinə qoyub stuldan düşdü və qaçaraq otaqdan çıxdı...

Masa arxasındakılar heyrətlərindən donub qalmışdılar. Hətta Tamerlan özü də!.. Onun ağzı heyrətindən açıq qalmışdı. Elə Qasımlı da çox maraqla baxırdı bu səhnəyə.



ekitab.ucoz.org

Uşaq ekrandan yox olan kimi ucadan dilləndi:

- Mən artıq dünəndən bilirdim ki, bu belə olub. Sizə də bunu göstərmək istəyirdim. Nə yaxşı ki, alındı! Amma keçən dəfə bunu edərkən yaxalanmayan uşaq bu dəfə cəsarətlənib birinin əvəzinə iki stəkana əl apardı.

Elnarə böyük bir təəccüblə Tamerlana baxırdı. Tamerlan da ona... Ancaq heç biri söz tapmırdı de
məyə. Sonra uşaq hamının qəribə baxışlarını öz üzərində hiss edib birdən-birə ağzını geniş açaraq ağlamağa başladı.

- Sən əclafsan, Tomik! - nəhayət, anasının ilk sözü bu oldu.

- Əclafdan da betərdir! - Seymur Elnarənin verdiyi qiyməti bir az da artırdı.

- Siz nə danışırsınız? - Qasımlı etirazını bildirdi. - O öz dayısını açıq-aşkar ölümdən xilas edib.

- Doğrudan a! - Mariya ucadan səsləndi.

Elnarə də, elə bil, baş verənlərin mahiyyətini indi
başa düşdü. Oğlunun başını sığallayıb, onu sakitləşdirməyə çalışdı:

-Ağlama, Tomik, sən ağıllı oğlansan!

- Hə! - Seymur da bunu təsdiq etdi. - Sən çox ağıllı oğlansan!

Uşaq, nəhayət, səsini kəsdi. Amma daha heç kəsin üzünə baxa bilmirdi. Heç daha başqaları da onun üzünə baxa bilmirdilər, çünki sifətini anasının qoynunda gizlətmişdi.

- Çox qəribədir! - Sergey Novikov dilləndi.

- Doğrudan qəribədir! - prokuror dedi. - Bu sizin ağlınıza haradan gəldi, cənab polkovnik?

Qasımlı məmnun halda gülümsədi:

- Bilirsiniz, əslində stəkanın hansısa birinə zəhər



ekitab.ucoz.org

tökmək heç ağlabatan iş deyildi. Axı zəhəri tökən adam necə arxayın ola bilərdi ki, həmin stəkan ölməyi nəzərdə tutulmuş adama qismət olacaq? Təhqiqat zamanı mənə aydın oldu ki, burada öldürülməsi nəzərdə tutulmuş adam Serafimov yox,
Natiq olub. Düşündüm ki, Natiqi zəhərləmək istəyiblərsə, ən ağlabatan hərəkət zəhəri su qrafininə tökməkdir. Çünki artıq balkonda olanlar da bilirdi ki, suyu ancaq Natiq içəcək. Başqaları dadlı kompotu qoyub arağın üstündən su içməyəcəkdi. Bu, ancaq Natiqin adətidir. Sonra mənim xahişimlə Fomin qrafini ekspertə apardı və gümanım təsdiq olundu. Onu da deyim ki, mən əvvəldən o qrafinə baxmışdım və onun dibindəki güclə nəzərə çarpan çöküntü yadımda qalmışdı.

Bəs zəhər qrafindən kompot tökülmüş stəkana necə keçə bilərdi? Baxın, əsas çətin məsələ bu idi. Boynuma alıram ki, dünən bunun üzərində çox düşündüm... Mən bura gələndən hər süfrədə bu uşağın meyvə şirəsinə necə həvəs göstərdiyini görürdüm. Onu da eşitmişdim ki, hadisə baş verən
gün mətbəxdə zoğal kompotu içmiş uşaq yenə istəmiş, anası verməyəndə ağlamışdı.

Dünən isə... Nəzərə almaq lazımdır ki, Tamerlan dünən dayısını ikinci dəfə ölümdən qurtardı. Saat dördə on beş dəqiqə qalmışdı. Mən bilirdim ki, Natiqi öldürmək istəyirlər. Amma bunu dəqiq bilmirdim. Zəhərin su qrafinindən stəkana necə tökülə bilməsi barədə düşünürdüm. Elnarə xanım mənim üçün meyvə şirəsi gətirib stəkanda masanın üstünə qoymuşdu. Uşaq yanıma gəldi. Elə birinci təklif olunan kimi stəkanı götürüb başına çəkdi.


ekitab.ucoz.org

Baxın, onda birdən-birə mənə hər şey aydın oldu. Lap dəqiq bildim ki, bütün oyunlar Natiqin başındadır. Tələsik onun harada olduğu ilə maraqlandıq və son anda onu xilas edə bildik...

Bu gün, doğrusu, qorxurdum ki, planım baş tutmasın. Yəni Tamerlan keçən dəfə etdiyi hərəkəti etməsin. Ona görə, hər ehtimala qarşı, Elnarə xanıma dedim ki, kompotu stəkanlara süzəndən sonra qalanını mənə saxlasın. Yəni bunu ona görə dedim ki, uşağa az pay düşsün.

- Ay səni, Tomik! - Natiq əlini uzadıb bacısı oğlunun yanağını çimdiklədi. - Demək mən sağ qaldığım üçün sənə borcluyam.

- Bəli! - Qasımlı dedi. - Serafimov yerində oturan kimi kompotun dadına baxmasaydı, məclis başlayan kimi siz arağın üstündən su içəcəkdiniz.

- Yaxşı... - prokuror ağır-ağır dilləndi. - Bunlar hələ Radikin cinayətini sübut etmir ax!!? Zəhəri qrafinə başqası da tökə bilərdi. Bir də, Radikin öldürülməsi... Bəs bu barədə fikriniz nədir?

- Mən burada kiminsə cinayətini sübut etmək yox, Seymuru şübhələrdən azad etmək istəyirəm. - Qasımlı dedi. - Qalanı artıq sizin işinizdir. Mənə elə gəlir ki, Fyodor Simonoviç hər şeyi Kostyaya sübut edəcək. Yelena adlı qadın onun artıq bir cinayətinə şahiddir. Qaldı, Radik Boskanyanın öldürülməsi, elə bu özü də aydındır. Onu Kostya öldürtdürüb. Ola bilsin, Kostya Radikə inanmayıb və onu Serafimovu zəhərlədiyi üçün öldürüb, ola bilsin ki, inanıb, sadəcə, sirrin çıxmaması üçün aradan götürüb.

Bir daha deyirəm ki, həmin qonaqlıqda Natiqi zəhərləmək planı əvvəlcədən hazırlanıb. Onlar zəhəri bəlkə



ekitab.ucoz.org

də Natiqin yemək boşqabına tökəcəkdilər, ya bəlkə məclisin gedişində araq içdiyi stəkana tökəcəkdilər. Amma balkonda Natiq deyəndə ki, Elnarəyə deyim, mənim üçün su qoymağı unutmasın, bax onda Serafimovla Radik işarə ilə bir-birlərini başa salıblar ki, zəhəri heç nəyə yox, mütləq su qrafininə tökmək lazımdır...

- Aydındır! - prokuror bərkdən səsləndi. - Bu barədə bir daha dərindən düşünərik. İndi yeməyə başlaya bilərikmi?

- Buyurun, başlayın! - Qasımlı lap ev sahibi kimi ürəklə dedi.

Birinci badəni Bakıdan gəlmiş xəfiyyənin sağlığına qaldırdılar. Sonra məclis getdikcə şənlənməyə başladı. Masa arxasında oturanlardan təkcə Tamerlan hələ də pərt idi. Heç eyni açılmırdı. O, məsələnin nə yerdə olduğunu qətiyyən anlamasa da, buradakılar ekranda onun oğurluğunu görmüşdü və o da bundan əməlli-başlı xəcalət çəkirdi...

## İyirmi altıncı fəsil

Axşamüstü iri şam və ağcaqayın meşələri ilə əhatə olunmuş asfalt yolla Novosibirsk şəhəri istiqamətində üç maşın çox böyük sürətlə şütüyürdü. Onlar artıq beş saatdan çox idi ki, yolda idilər. Novosibirskə çatmağa az qalırdı.

Ötüb keçdikləri maşınların sərnişinlərinə elə gəlirdi ki, bu üç maşın daha sürətlə getməkdə bir- birləri ilə yarışa çıxıblar. Amma əslində, belə deyildi. Yola çıxandan bu maşınlar arasındakı məsafə heç dəyişməmişdi. İki «Pajero» markalı avtomobilin biri qabaqda, o biri isə arxada idi və onlar, deyəsən, bu sıranı pozmaq fikrində deyildilər.

Ortada gedən «BMW» markalı maşının sükanı arxasında Seymur Muradov idi. İki həftəlik həbsdən sonra azadlığın



ekitab.ucoz.org

nə qədər şirin, nə qədər gözəl olduğunu dərindən dərinə duyan bu gənc iş adamı saatda yüz əlli kilometr sürətlə şütüyən maşında özünü çox yaxşı hiss edir, ürəyi fərəhdən, az qala, atlanıb sinəsindən çıxmaq istəyirdi.

O, yenidən öz gənc, sevimli arvadına qovuşduğu üçün özünü xoşbəxtlərin xoşbəxti hesab edirdi. Amma sevimli Elnarəsi ilə daha dərindən qovuşmaq, yataqda, təklikdə qovuşmaq, ayrı- ayrılıqda onun bal dadı verən dodaqlarına, üzünə, çənəsinə, boyun-boğazına, ətirli sinəsinə, incə belinə, odlu-alovlu əndamına, ayaqlarına, barmaqlarına, bir sözlə, hər yerinə, hər bir əzasına qovuşmaq, bu əziz, sevimli, doğma məxluqu bütün
qəlbi ilə hərtərəfli duymaq üçün çox tələsirdi. Tələsirdi və vaxtın, zamanın altındakı bu maşın kimi sürətlə getməsini arzulayırdı. Günorta öz mənzilinə girib Elnarə ilə görüşəndən ağlı üstündə deyildi elə bil. Nahar qurtarıb məclis dağılandan sonra imkan tapıb, nəyə görəsə yataq otağına girən Elnarənin ardınca getdi. Onu qəflətən qucaqlayıb yatağa yıxdı və dəli kimi öpməyə başladı. Ağlını, huşunu, doğrudan da, itirmişdi sanki və xalatın düymələrini açıb arvadını soyundurmağa başladı. Xalatın altında kiçik, ağ rəngli alt paltarından başqa geyim yox idi. Elnarə bu geyimin dizlərindən aşağı keçməyinə imkan vermədi və ərinin əlindən birtəhər qurtulub, üst-başını tələm-tələsik düzəldərək:

-Bir səbrin olsun, Qanbay müəllimdən ayıbdır axı?! - deyib qapıya qaçdı. Amma yaxşı ki,
qonaqların heç biri duymadı onların bu hərəkətini. Yoxsa yaman pərt olardı Seymur.

Canından artıq sevdiyi arvadı, oğlu və onu xilas etmək


ekitab.ucoz.org

üçün Bakıdan gələn xəfiyyə qonağı arxada əyləşmişdilər. Tamerlan yatmışdı. Adəti idi, maşında bir az uzaq yol gedən kimi yuxu basırdı onu. Əyninə qara, yumşaq parçadan şalvar və yaxası güllü nazik pencək geyinmiş Elnarə yol boyu xeyli danışmasına baxmayaraq, bir azdan ayrılacağı əziz qonaqla yenə də söhbət etmək üçün söz axtarırdı.

Polkovnik Qasımlı isə maşının pəncərəsindən sürətlə qaçışan meşələri seyr edir, çalışırdı ki, başqa heç bir şey haqqında düşünməsin. Amma, Sibirin bu uzaq şəhərində apardığı təhqiqat və onun nəticəsi barədə istər-istəməz fikirləşməli olurdu...

Nahar qurtaran kimi prokurorla Sergey Novikov çıxıb getdilər. Sergey tut arağından o qədər çox içmişdi ki, ayaq üstə güclə dayanırdı. Fominlə arvadı və bir də Nataşa Qasımlını yola salmaq üçün qaldılar. Qasımlı Əmirxana zəng vurub xahiş etdi ki, ev dustağı etdiyi Yelenanı gətirib prokurorluğa təhvil versin. Sonra nə oldu?.. Hə, sonra qonaqlar yemək otağında, həmin masanın ətrafında oturub çay içirdilər. Elnarə ora-bura qaçıb uzaq yola çıxmağa tədarük görürdü.

Qasımlı balkona keçib bir siqaret yandırdı. Yenə də iyunun 8-də baş vermiş həmin hadisə barədə düşünürdü. Tamerlan iri bir almanı gəmirə-gəmirə yanına gəldi. Ona baxıb pərt halda gülümsədi. Nəyə görəsə, qarşıdakı beşmərtəbəli binaya bir qədər həsrətlə baxdı. Sonra başını qaldırıb:

- Sən yenə bizdə qalacaqsan? - deyə soruşdu.
- Yox, indi gedəcəm. - Qasımlı cavab verdi.
- Haraya?
- Bakıya.


ekitab.ucoz.org

- Niyə gedirsən?

- Mənim evim oradadır axı... Həm də atan gəldi daha.

Uşaq başını tərpətdi.

- Atanı çox istəyirsən? - Qasımlı mehribanlıqla soruşdu.

Yenə başını tərpətdi. Sonra barmağını qarşıdakı binaya uzadıb:

- Mən ondan istəyirdim... - dedi.

Qasımlı çevrilib beşmərtəbəli binaya baxdı:

- Nədən?

Uşaq barmağını birdə uzatdı:

- O velosipeddən...

Qasımlı birdə baxdı. Üçüncü mərtəbədəki balkonların birində bir kiçik velosiped var idi. Və birdən... Diqqətli nəzərləri başqa bir blokun dördüncü mərtəbəsindəki mənzilin içindən ona tuşlanmış snaypərə sataşdı. Snayperin onu nişan aldığına heç bir şübhə yox idi. Cəld Tamerlanın əlindən tutub otağa keçdi...

Mənzildəkilərin heç birinə bu barədə bir söz demədi. Amma çıxana yaxın müstəntiq Fomini kənara çəkib həmin mənzilin koordinatlarını ona bildirdi.

Çıxanda Fomin Seymura dedi ki, maşını blokun düz qapısının ağzına çəksin. Seymur bunun mənasını anlaya bilməsə də onun dediyini elədi. Flamısı pilləkənlərlə aşağı düşmüşdü. Fomin elə blokun içindəcə Qasımlı ilə vidalaşanda Mariya:

- Gəlin, hələ bir həyətə çıxaq, Fedya! - dedi.

Fomin arvadının sözünü qulaqardına vurub

Qasımlı ilə bir daha görüşdü:

- Sizi nə vaxtsa, yenə görməyimə şad olaram, Qanbay Fərhadoviç! Siz məni çox ağır bir yükdən xilas etdiniz.



ekitab.ucoz.org

Seymur kimi dostumu istintaq edib, hər dəfə də polislə kameraya göndərmək kimi ağır yükdən... Sizə bunun üçün çox minnətdaram.
Sonra Mariya görüşdü onunla, sonra Nataşa...

Natiq onu bərk-bərk qucaqlayandan sonra günahkar adamlar kimi boynunu burdu:

- Qanbay müəllim, Seymur heç cür icazə vermir sizinlə Novosibirskə qədər getməyimə. Deyir, özümüz yola salacağıq...
Qasımlı Seymura tərəf döndü:

- Qoy, təkcə Natiq yola salsın məni. Siz zəhmət çəkməyin.

Seymur, sanki pərt oldu:

- Siz nə danışırsınız, Qanbay müəllim, heç elə şey olar? İmkanım olsa, Bakıya qədər apararam sizi.

Qasımlı daha etiraz etmədi. Blokun qapısından çıxıb maşına əyləşdi. Bir az aralıda iki «Pajero» markalı maşın da dayanmışdı. Dərhal yola düşdülər...

Qasımlı bilirdi Seymur nəyə görə qoymadı Natiqi onlarla gəlməyə. Gecə Novosibirskdən qayıdanda meşədə dayanacaqdılar. Uşaq da ki onsuz da yatır maşında... Nə isə!... Polkovnikin sərt dodaqlarından ani bir təbəssüm keçdi.

Nahar təzəcə qurtarmışdı. Dəhlizdən keçən Qa- sımlı ev sahibəsinin yataq otağından çıxdığını gördü.
Elnarə özünü tox tutub qonağın yanından sovuşdu. Amma onun saçlarının səliqəsinin bir qədər pozulması, yanaqlarının qızarması, xalatının azacıq qırışması Qasımlının diqqətindən yayınmadı. Hətta dəhlizin o biri başında Elnarə ilə üzləşən Nataşanın bic-bic gülüb atdığı


ekitab.ucoz.org

atmacanı da eşitdi:

- Həyasız!

Qasımlı düşündü ki, görəsən, əgər Seymuru məhkəməyə verib, uzun müddətə azadlıqdan məhrum etsəydilər, Elnarənin halı necə olardı? O qədər belə şeylər olurdu ki... O qədər günahsız adamlar yatırdı ki, həbsxanalarda... Görəsən, yarıaçılmış ağ qızılgül qönçəsi kimi saf və zərif olan Elnarə pis yola düşə bilərdimi onda? Bu barədə çox da baş sındırmadan qərara gəldi ki, bəli, düşə bilərdi...

Təmizdən də təmiz qəlbli, rastlaşdığı bütün insanlara inanan bu gənc qadının qarşısına şeytan xislətli adamlar çıxardısa, onu aldadıb başına hər oyun aça bilərdilər. Öz ərini bu qədər dərin məhəbbətlə sevməsinə baxmayaraq...

Elə şeytan xislətli adamlarla çox rastlaşmışdı Qasımlı. Bilirdi ki, Elnarə kimi zərif insanları elələrindən qorumaq lazımdır. Mütləq qorumaq lazımdır!

Amma bu zərif, səmimi, qəlbiaçıq qadıncığaz elə öz zərifliyi, öz səmimiliyi, öz qəlbiaçıqlığı ilə bu bir neçə gündə polkovnik Qasımlı kimi sərt, qaraqabaq, heç kəsə inanmaq istəməyən bir adamı, az da olsa, dəyişdirə bilmişdi...

- Elə az qaldınız ki, Qanbay müəllim, - Elnarənin səsi onu fikirdən ayırdı. - Sizə yaxşı qulluq
da edə bilmədik. Nə yaxşı olar, gələn yay yenə bizə qonaq gələsiniz.

- Hə, çox şad olarıq! - Seymur arvadının arzusuna qoşuldu. - Sizi yaxşı yerlərə apararıq. Doyunca istirahət edərsiniz.

- Mən elə, onsuz da, yaxşıca istirahət elədim. - Qasımlı dedi. - Sizə o ki var zəhmət verdim. Evinizdə qaldım.



ekitab.ucoz.org

- O nə sözdür, biz neylədik ki? - Elnarə təəccübləndi. - Siz bizdən ötrü zəhmət çəkib Bakıdan buraya gəlmisiniz. Sizin bu yaxşılığınızı heç vaxt unutmayacağıq.

Qasımlı anasına söykənib yatmış Tamerlanın başını sığalladı:

- Mən də çox şad oldum sizinlə tanışlığıma. Hətta bu balacanı da çox sevdim. Sizi həmişə
xatırlayacam.

Məşhur xəfiyyədən bu sözləri eşidən Elnarə çox məmnun oldu və utandığından bir azacıq qızardı.

Bir azdan gəlib hava limanına çatdılar.
Maşından düşəndə Seymur sağdakı oturacağın üstünə qoyduğu kiçik çamadanı Qasımlıya göstərib tərəddüdlə dilləndi:

- Qanbay müəllim, burada bir az pul var... Ədalət vasitəsilə Bakıdan mənə çatdırmışdılar ki, müstəqil xəfiyyəsiniz və sizin burada çəkdiyiniz zəhmətin haqqını ödəməliyəm. Ancaq inanın, sizin yaxşılığınızın yanında bu tamamilə heç bir şeydir...

Polkovnik ciddiləşdi:

- Düzdür, mən müstəqil xəfiyyəyəm. Gördüyüm işlərin bir çoxundan qonorar da alıram. Amma...
Sizdən bir qəpik də götürməyəcəm. Hətta nədənsə bir az pis oldum, doğrusu. Heç gözləmirdim sizdən.

- Mən bunu səmimi ürəklə verirəm. - Seymur dedi. - Xahiş edirəm, götürün.

-Yox!

- Niyə axı?

- Götürsəm, bilirəm ki, itirdiyim qazandığımdan çox olacaq. - Qasımlı qətiyyətlə cavab verdi. - Xahiş edirəm, bu



ekitab.ucoz.org

söhbəti qurtaraq!

- Elnarə də dedi ki, götürməyəcək... - Seymur peşman səslə dilləndi.

- Gərək Elnarə xanıma əvvəldən qulaq asaydınız. Bundan sonra da çalışın ki, onu eşidin, onun qədrini bilin. O sizi, doğrudan da, çox sevir.

Bayaqdan danışmayan Elnarə əlinə götürdüyü sellofan torbanı sıxıla-sıxıla Qasımlıya uzatdı:

- Bunları, yəqin ki, qaytarmazsınız, Qanbay müəllim...

- Nədir ki bu?

Torbadakıları bir-bir çıxarıb göstərdi:

- Bu şüşədəkinə «Altay balzamı» deyirlər.

Ancaq burada olur. Tünd içkidir, amma min bir dərdin dərmanı hesab edirlər bunu... Bu qabdakı baldır. Düzdür, Azərbaycandakı balın yerini verməz. Rəngi ağdır. Ağsaqayın balıdır. Deyir, kasıbın olanından... Bu bankadakı da yarpaq dolmasıdır. Gördüm, süfrədə heç yaxşı yeməyə imkanınız olmadı...

Qasımlı onun qəlbini sındırmaq istəmədi:

- Bunları çantama qoyaram. Çox sağ olun! Elnarənin sevinci o saat üz-gözündə hiss
olundu.

- Amma sizdən bir xahişim var... - polkovnik dedi.

- Nə xahiş?

- Geri qayıdan kimi Tamerlan üçün bir velosiped alın. Həm də buraxın, həyət-bacaya düşüb uşaqlarla oynasın.

Seymur təəccübləndi. Elnarə isə gülə-gülə:

- Mütləq alarıq, Qanbay müəllim, arxayın olun!
- dedi. - Elə buradan alıb apararıq.

- Təşəkkür edirəm! - Qasımlı gülümsədi.



ekitab.ucoz.org

Elnarə uşağı da oyadıb maşından düşürdü.
Əmirxangillə vidalaşıb birlikdə hava limanının binasına girdilər. Polis polkovniki Boris Nikitin onları burada gözləyirdi. Moskvadan Qasımlını yola salmaq üçün uçub gəlibmiş. O, artıq baş verənlərdən xəbərdar idi. Keçmiş rəisini qucaqlayıb:

- Həmişə sizinlə fəxr etmişəm, - dedi. - Bu gün də fəxr edirəm. Fəxr edirəm ki, sizinlə bir yerdə işləmişəm.

- Yaxşı, görək, çox şişirtmə! - Qasımlı onu zarafatyana məzəmmət etdi və saatına baxıb dilləndi. - Neyləyək? Təyyarənin uçmağına hələ bir saat qalıb.

- Gəlin, kafeyə keçək! - Boris təklif etdi.

Kafeyə girib yüngül yeməklər sifariş verdilər.
Süfrəyə albalı şirəsi gələndə ona iştahayla baxan Tamerlanın baxışlarını Boris o saat tutdu və barmağını silkələyib:

- Ay yaramaz! - dedi. - O boyda şəhərin istintaq orqanlarını iki həftə çaşbaş salmısan.

Gülüşdülər. Sonra polkovnik Qasımlının şərəfinə badə qaldırıb onun barəsində xoş sözlər dedilər. Bu
zaman Qasımlının telefonu səsləndi və o ekrana baxanda zəngin müstəntiq Fomindən gəldiyini gördü.

Fomin bildirdi ki, Konstantin Surkov bir qrup adamı ilə həbs edilib. Sonra onu da qeyd etdi ki, yerli qəzetlərdə və televiziyada təcili məlumatlar verilib.
Bu məlumatlarda Serafimov və Radik Boskanyanın ölümlərinin səbəbi göstərilərək izahat verilib. Müstəntiq ümid edirdi ki, beləliklə hər şey yoluna düşəcək, yəni intiqamçı cavanların azərilərə qarşı təxribatları dayanacaq. Sözünün sonunda Fomin Qasımlıya bir daha təşəkkürünü


ekitab.ucoz.org

bildirdi və bir daha buralara yolu düşərsə, onun qonağı olmağını xahiş etdi.

Qasımlı müstəntiqə razılığını bildirib telefonu cibinə qoydu. Masa arxasındakıların ona maraqla baxdıqlarını görüb:

- Konstantin Surkov həbs edilib, - dedi və saatına baxıb ayağa qalxdı. - Təyyarənin uçmağına yarım saat qalıb. Mən getməliyəm.

O birilər də qalxdılar və birlikdə gömrük sahəsinə tərəf getdilər. Qasımlının baqaja verilməli yükü yox idi. Çantasını isə özüylə götürəcəkdi.

Ayrılıq zamanı gələndə əvvəlcə Seymurla görüşdü. Seymur ona bir daha dərin minnətdarlığını bildirdi.

Sonra Qasımlı Tamerlanı özü bərabərində yuxarı qaldırıb üzündən öpdü:

- Salamat qal, balaca kişi! Amma bir də heç vaxt oğurluq eləmə. Bu iş heç də həmişə xeyirli olmur.

Uşağı yerə qoyub Elnarəyə əl uzadanda onun yanaqları boyu süzülən göz yaşlarını gördü. Qadın birdən-birə onu qucaqlayıb üzündən öpdü və kövrək səslə:

- Sizi unutmayacağıq! - dedi.

Qasımlı çox möhkəm adam idi. Amma Elnarənin bu münasibətinin onu da kövrəldəcəyindən qorxub qadından tez aralandı.

Borislə vidalaşanda ona bir az pul verib xahiş etdi ki, Moskvaya qayıdan kimi bir dəstə gül alıb qəbiristanlığa getsin və gülləri onun adından Olqanın məzarına qoysun.

Sonra gömrük sahəsinin girişində sənədlərini təqdim edib içəri daxil oldu. Artıq Novosibirsk-Bakı reysilə uçan təyyarəyə minik başlanmışdı.



ekitab.ucoz.org

# EPİLOQ

Oktyabr ayının əvvəlləri idi. Bakıda boğucu istilər hələ təzə-təzə səngiməyə başlayırdı. Hərdən əsən sərin şimal küləyinin hesabına adamlar bir qədər rahat nəfəs ala bilirdilər.

Amma polkovnik Qasımlının ağrıları son günlər bir az da şiddətlənmişdi. Xüsusilə də yuxusuzluqdan və baş ağrılarından daha çox əziyyət çəkirdi. Bu yaxınlarda tanınmış tibb mərkəzinin baş həkimi yenə də ona zəng vurub mərkəzə gəlməyini, özünü müayinə etdirməyini xahiş etmişdi. Lakin Qasımlının indiyədək öz ayağı ilə həkimə getdiyi heç yadına gəlmirdi. Bir neçə dəfə Moskvada, bir dəfə də Bakıda aldığı güllə yarasından xəstəxanaya düşmüşdü. Onda da, təbii ki, onu xəstəxanaya başqaları aparmışdılar...

İradəsi çox möhkəm idi onun. Qarşısına qoyduğu məqsədə çatmaq üçün çətinlikdən-filandan qorxan deyildi. Amma bu həkim məsələsində, sağlamlığının qeydinə qalmaq məsələsində düşüncə tərzi bir az başqa cür idi. Düşünürdü ki, ya qocalıb əldən düşəndən sonra öl, ya bir az erkən, nə fərq eləyir ki?..

Bu gün yatağından bir az gec qalxmış, səhər yeməyini hazırlayıb yeyəndən sonra mənzilində tək- tənha oturmuşdu. Dodağını bərk-bərk sıxıb ağrılarını unutmağa çalışdı və deyəsən, buna bir az nail ola bildi. Ayağa qalxıb, özü üçün qəhvə hazırladı.

Fincanı masanın üstünə qoyub dərhal bir siqaret yandırdı. Bu zaman gözü şkafın açıq rəfindəki “Altay balzamı”na sataşdı. “Min bir dərdin dərmanı”na... Kinayə ilə gülümsədi.



ekitab.ucoz.org

Altaydan qayıtdığı üç aydan çox idi. Bu dərmandan tək bir dəfə kiçik stəkanın yarısından töküb içmişdi. Pis içki deyildi. Tamı da, rəngi də konyakı xatırladırdı. Sonra, nəsə marağı olmadı qalanını içməyə. Şkafa necə qoymuşdusa, eləcə qaldı.

Elnarəni xatırladı. Bu balzamı ona Novosibirskin hava limanında Elnarə vermişdi. Ondan başqa bir az bal, bir banka da yarpaq dolması vermişdi. Balı elə gəldiyinin səhəri günü qabı ilə birlikdə qonşusu Nemətə verdi. Səfərdən qayıtdığı üçün ona baş çəkməyə gəlmişdi. Yarpaq dolmasından isə bir-ikisini yeyəndən sonra qalanını tullamalı oldu. Yəqin
qazanın dibindən götürüldüyünə görə lap şor çıxmışdı...

Altaydan qayıtdığı üç aydan çox müddət ərzində oraları çox az-az xatırlamışdı Qasımlı. Əslində, buna heç vaxtı-imkanı da olmamışdı. Gələndən sonra bir müddət yarımçıq qalmış elmi əsərin üzərində işlədi. Sonra ondan sirli bir cinayətin açılması üçün kömək istədilər. Böyük bir ailədə cavan gəlin sirli şəkildə öldürülmüşdü. Polkovnik Qasımlı qatilin tapılmasına bir aya yaxın vaxt sərf etməli oldu. Nəhayət, tapdı ki, gəlini ailənin içində öz ərinin bacısı öldürüb...

Təhqiqat sona yetdi, üstəlik əsərini də yazıb bitirdi və həyatında yenə dərin bir boşluğun olduğunu dərk etməyə başladı. Apardığı bu son təhqiqat zamanı elə murdar xislətli adamlarla üz-üzə gəlmişdi ki, bu tanışlıqlar həyat haqqında, yaşamaq
haqqında az-çox müsbət fikirlərinin kökünə balta vurmuşdu, sanki.

İndi öz müalicəsi barədə heç yerli-dibli düşünmürdü.


ekitab.ucoz.org

Guya bir az artıq yaşasaydı, nə fərq edəcəkdi? Nəyin xatirinə, kimin üçün yaşayacaqdı? Onsuz da onun heç kimi yox idi. Elə bir adamı yox idi ki, onun yaşamağına sevinsin, ölümünə ağlasın.

Qəhvədən yenə bir qurtum içib bu gün nə iş görəcəyi barədə düşündü. Amma bir şey gəlmədi ağlına. Çəkib qurtardığı siqareti külqabıya basıb söndürdü. Qəhvənin qalanını da içib balkona çıxdı. Orada qoyulmuş stulda təzəcə oturmuşdu ki, yenidən ayağa qalxıb içəri girməyə məcbur oldu. Mobil telefonu zəng çalırdı.

Ekrandakı nömrə Rusiya nömrəsi idi. Təəccübləndi. Bəlkə Borisdir? Amma yox, onun nömrəsi deyildi bu. Həm də ki, onun adı var idi yaddaşda. Telefonu açıb qulağına aparanda Elnarənin tanış səsini eşitdi:

-Alo, Qanbay müəllim?

Gənc qadının səsində qeyri-adi bir sevinc var idi. Qasımlı dərhal düşündü ki, görəsən, nədir bu sevincə səbəb?..

- Bəli, mənəm, Elnarə xanım.
- Necəsiniz?
- Çox sağ olun, yaxşıyam...

- Sizin üçün o qədər darıxmışıq ki!.. Hər gün sizdən danışırıq.

- Çox sağ olun! - Qasımlı təşəkkürünü bildirdi. - Sizdə vəziyyət necədir?

- Hamı yaxşıdır! Hamının sizə salamı var. Seymurun da, Natiqin də... Natiq evləndi. Keçən həftə toyu oldu...

Bəlkə qadının səsindəki qeyri-adi sevinc həyəcanı


ekitab.ucoz.org

bununla bağlı imiş?.. Amma polkovnikə elə gəldi ki, Natiqin toyu bacısı üçün nə qədər sevindirici olsa da, Elnarənin uzaqdan-uzağa duyulan xoşbəxtliyinə səbəb bu deyildi. Bir də ki, toy bir həftə bundan əvvəl olubmuş.

- Təbrik edirəm! - dedi.

- Özü də bilirsiniz kiminlə evləndi? Nataşa ilə.

- Lap yaxşı! Bir daha təbrik edirəm!

- Bilirsiniz, Qanbay müəllim, - Elnarə sanki hansısa günahı üçün üzr istəyirdi. - Nataşa sizin düşündüyünüz qədər də pis qız deyil... O...

- Mən ona heç vaxt pis deməmişəm. - Qasımlı qadının sözünü kəsdi. - Bir də ki, sevənlər heç vaxt pis oia bilməzlər. Mən onun Natiqi sevdiyini ilk baxışdan duymuşdum.

- Hə, evləndilər. - Elnarə davam etdi. - Ərindən bir ay əvvəl boşanmışdı. Mariya da sizi tez-tez xatırlayır. Müstəntiqin arvadı.

- Sağ olsun...

- Tomik də yaxşıdır. Hər gün həyətdə velosiped sürür.

- Lap yaxşı...

- Qanbay müəllim, Seymur yanımdadır. O da sizinlə danışmaq istəyir.

Sonra telefonda Seymurun səsi eşidildi:

- Salam, Qanbay müəllim!

- Salam, Seymur, salam!

- Doğrusu, Elnarə sizə tez-tez zəng vurmağımızı istəyirdi. Mən deyirdim ki, iş adamısınız, sizi narahat etməyək. Amma bu gün dedi ki, mütləq Qanbay müəllimə zəng vuracam. Səbəbini indi özü deyər. Mən istəyirəm, siz buradan gedəndən sonra olan



ekitab.ucoz.org

hadisələrdən danışım. Ən birincisi, məni birdəfəlik buraxdılar. Bunun üçün sizə ömrümün axırınadək minnətdaram. Sonra, elə o gündən azərilərə qarşı düşmənçilik qurtarıb getdi. Narkomaniya satışı ilə bağlı neçə adamı həbs etdilər. Hələ qonşu şəhərlərdən də tutulan oldu. Polis rəisimizi işdən çıxartdılar. Hə... Bir də, yadımdan çıxacaqdı az qala, Natiqi bölmə rəisi qoydular. Eduard Sokolovun yerinə... Çox sağ olun bir daha, Qanbay müəllim! Elnarə burada imkan vermir mənə danışmağa. Telefonu ona verirəm.

- Alo? - yenə Elnarənin səsi gəldi.
- Eşidirəm.
- Qanbay müəllim, heç bilirsiniz niyə belə sevinirəm?
- Niyə? Çox maraqlıdır...
- Mən o kəpənəyi tutdum!
- Hansı kəpənəyi?
- Siz mənə deməmişdiniz? Bax, onu! O gündən hər gecə yatmazdan əvvəl xəyalımda tutmağa çalışırdım onu. Axır ki, bu gecə tutdum!

Bu kəpənək barədə dediklərinin hamısı Qasımlının yadına düşdü.

- Çox şadam! Mən də buna çox sevindim! - dedi.
- Mənsə sevindiyimdən lap uçuram, Qanbay müəllim, yəni doğrudanmı mən həmişəlik xoşbəxt olacam?!
- Əlbəttə! - Qasımlı qətiyyətlə dedi. - Əgər tutmusansa, deməli, xoşbəxt olacaqsan!
- Bəs necə?! Tutmuşam! Çox gözəl bir kəpənək idi. Ondan sonra elə rahat yatmışam ki...
- Çox yaxşı! Çox sevindim! - Qasımlı təkrar etdi.


ekitab.ucoz.org

- Siz də çox sağ olun! Sizə çox-çox minnətdaram. Sizi heç vaxt unutmayacağıq. İcazə versəniz, hərdən zəng vuraram sizə.

- İstədiyiniz vaxt zəng vura bilərsiniz.
- Onda sağ olun, hələlik!
- Sağ olun!..

Kresloda əyləşib əlində tutduğu telefona bir xeyli sakit-sakit baxdı. Sonra birdən-birə gülümsədi.

«Yaşamağa dəyərmiş! - deyə düşündü, - Doğrudan da dəyərmiş yaşamağa!»

Ayağa qalxıb balkona çıxdı. Bir müddət buradan görünən mənzərəni seyr edib bir siqaret yandırdı. Sonra nə düşündüsə, onu balkondan tullayıb otağa qayıtdı. Telefonu götürüb tibb mərkəzinin baş həkiminə zəng vurdu:

- Salam, doktor, əgər mümkünsə, yanınıza gəlmək istəyirəm.

- Axır ki, qərara gəldiniz? - baş həkim güldü. - Buyurun, gəlin! Sizdə, əslində, elə bir qorxulu problem yoxdur. Müalicəyə tez başlasaq, sapsağlam olacaqsınız. Buyurun, gəlin, gözləyirəm!

Paltarını dəyişib mənzildən çıxdı. Həyətə düşüb, gümrah addımlarla avtobus dayanacağına tərəf addımladı.

Həmin anda isə, Bakıdan çox-çox uzaqda yerləşən bir şəhərdə, ən azı bir ailədə, ən çətin
günlərində imdadlarına yetişmiş bir adamdan - Bakıdan gələn xəfiyyədən danışırdılar...

SON

Aprel-may, 2008. Bakı.
İyul, 2008. Şamaxı



ekitab.ucoz.org